ISSN: 2664-4975

# GEOSTRATEGİYA

2022
№2 (68)

BAKI-2022

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Александр Пухкал (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırılі (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Müslüm Nəzərov (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***“GEOSTRATEGİYA”*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında
Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında dissertasiyaların
***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

ISSN: 2664-4975

# GEOSTRATEGY

2022
№2 (68)

BAKU-2022

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Muslum Nazarov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***"GEOSTRATEGY"*** journal is included in the list of periodicals recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan to publish the main results of the dissertations of the Republic of Azerbaijan on ***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.*** The international socio-political, scientific-theoretical journal is published six times a year.

# Siyasi elmlər

UOT 327; 339.9

**VÜSALƏ ŞƏRİFOVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı*

*e-mail: vusala.asif@gmail.com*

## QLOBALLAŞMA VƏ MƏDƏNİ İNTEQRASİYA ŞƏRAİTİNDƏ AZƏRBAYCANIN MİLLİ MƏDƏNİ İRSİNİN MÜHAFİZƏSİ. QEYRİ-MADDİ MƏDƏNİ İRSİN QORUNMASI PROBLEMLƏRİ

Qloballaşma ölkələr arasındakı siyasi-iqtisadi, sosial-mədəni əlaqələrin inkişafı, fərqli cəmiyyətlərin və mədəniyyətlərin, inanc və görüşlərin tanınması, millətlərarası əlaqələrin genişlənməsi kimi fərqli görünən, lakin bir-biri ilə bağlı məsələləri birləşdirən bir anlayışdır. Başqa sözlə, qloballaşma ölkələrin sahib olduqları maddi və mənəvi dəyərlərin çərçivəsində əmələ gəlmiş münasibətlərin, milli hüdudları aşaraq dünya səviyyəsində yayılması və fərqliliklərin bütövlük adı altında birləşməsidir. Həyatımızın elə bir sferası yoxdur ki, qloballaşmanın təsirinə məruz qalmasın. Mədəniyyətin qloballaşması isə dünya mədəni dəyərlərinin sintezini və yeni formada təşəkkülünü ehtiva edir. Qloballaşma zamanı baş verən mədəniyyətlərin mübadiləsi prosesində onların bir-birinə daha da yaxınlaşması və nəticədə bir sıra milli identiklik və milli özünəməxsusluq amilləri yoxa çıxır [9, səh. 26]. Beləliklə, qloballaşma neqativ və pozitiv tərəflərə malikdir. Qloballaşmanın neqativ tərəfi mədəni özünəməxsusluğun qismən və ya tam itirilməsi təhlükəsi ilə bağlıdır. Qloballaşmanın pozitiv tərəfi isə xalqların dünya sisteminə inteqrasiya olunması prosesinin sürətləndirilməsi, başqa xalqlarla mədəni əlaqələrin genişləndirilməsi və insanların miqrasiyası ilə bağlıdır. Qloballaşma zamanı milli mədəniyyətlərin digər mədəniyyətlərin daxilində qismən və ya tam əriməməsi, milli irsin mühafizə edilməsi üçün mübarizə aparmaq ən ümdə məsələlərdən biridir.

Müasir dövrdə qloballaşma və inteqrasiya fonunda hər bir xalqın milli özünəməxsusluğunu şərtləndirən ən vacib amil kimi mədəni irsin tədqiqi və mühafizəsi dünyanı düşündürən aktual mədəni problemə çevrilmişdir. Azərbaycan da ümumdünya mədəniyyətinin qloballaşması meyillərindən kənarda qalmamaq şərtilə milli mədəniyyətin özünəməxsusluğunun qorunmasını Milli Təhlükəsizlik Konsepsiyasının (2007, 23 may) vacib tərkib hissəsi sayır və dövlət siyasətinin əsas strateji hədəflərindən biri hesab edir. Sözügedən konsepsiya uzunmüddətli, davamlı fəaliyyət tələb edən bir strategiyadır. Konsepsiyanın 2-ci bölməsi Azərbaycanın milli maraqlarına həsr edilmişdir. Sənəddən məlum olur ki, Azərbaycanın milli maraqlarının əsas istiqamətlərindən biri də böyük bir coğrafiyanı əhatə edən dünya azərbaycanlılarının bölüşdüyü dəyərlərə əsaslanan milli özünəməxsusluğun möhkəmləndirilməsidir. [11] Bu mühüm sənəd Azərbaycan xalqının mədəni irsinin öyrənilməsi və mühafizəsi istiqamətindəki problemləri və hədəfləri müəyyən etməklə mədəni irsin mühafizəsi və tədqiqi üçün hüquqi təminatlar yaradır.

İstənilən dövlətin suverenliyi və tam müstəqilliyi iqtisadi-sosial sahələrlə yanaşı, onun milli mədəniyyətinin də hər vasitə ilə inkişaf etdirilməsini, bu mədəniyyətin özünəməxsusluğunun qorunub saxlanmasını, xalq ənənələrinin, mərasim və adətlərin, maddi mədəni irsin qorunması və təbliğini, eyni zamanda xarici ölkələrlə mədəni əməkdaşlığı genişləndirməklə bədii və qarşılıqlı yaradıcılıq əlaqələrinin möhkəmləndirilməsini tələb edir.

1991-ci il oktyabrın 18-də "Müstəqillik haqqında" Konstitusiya aktının qəbul edilməsi ilə XX əsr Azərbaycan tarixinin yeni mərhələsi başladı. Azərbaycan Respublikası müstəqilliyini əldə etdiyi ilk günlərdən etibarən beynəlxalq miqyasda sülhsevərliyini, dostluq münasibətlərinə hazır olduğunu, başqa xalqların, dövlətlərin mədəniyyətinə və incəsənətinə, dilinə, dininə hörmət və rəğbətini nümayiş etdirməyə başladı. Bu gün uğurla davam etdirilən siyasətin nəticəsidir ki, Azərbaycan Respublikası dünyanın bir çox ölkələri ilə mədəni əlaqələr qurur, bu əlaqələr millətlərarası ünsiyyət mədəniyyətinə, xalqların bir-birinə yaxınlaşmasına, onların arasında inam və etimadın möhkəmlənməsinə xidmət edir. Bu əməkdaşlıqda ölkənin maddi və mənəvi irsinin qorunub saxlanılması, inkişaf etdirilməsi və təbliği məsələləri əsas yer tutur. Bu problemlər Azərbaycan Respublikasının mədəniyyət siyasətinin əsasını təşkil edir. Maddi və mənəvi sərvətlərin istehsalı, qorunması və inkişaf etdirilməsi, eyni zamanda gələcək nəsillərə ötürülməsi üçün şəraitin yaradılması mədəniyyət

siyasətinin əsasında dayanan vəzifələrdəndir. Hələ 2001-ci ilin sonlarında Mədəniyyət və Turizm Nazirliyi tərəfindən yaxın beş ili əhatə edən "Azərbaycan mədəniyyətinin Dövlət İnkişaf Proqramı" işlənib hazırlananda Azərbaycanın dövlət mədəniyyət siyasətinin strateji məqsədləri və əsas prioritetləri sırasında mədəni və tarixi irsin mühafizəsi problemi xüsusi vurğulanmışdır. [12] Bu baxımdan "2006–2016-cı illər üçün Mədəniyyət sahəsində Dövlət İnkişaf Konsepsiyası" da fundamental bir sənəd kimi qiymətləndirilməlidir. Bu konsepsiya Azərbaycan mədəniyyətində yeni bir mərhələnin başladığını göstərir və bu yeniləşmənin miqyasını və istiqamətlərini müəyyən edir. [10, səh. 6]

Azərbaycanlılar öz tarixi irsi ilə çox fəxr edir və heç şübhəsiz, onların buna haqqı var. Bu irs bütün ölkə üzrə Qobustandakı mezolit dövrünün qayaüstü rəsmlərindən, atəşpərəstlərin Bakı yaxınlığındakı "Atəşgah" məbədindən, Şirvanşahlar Sarayı və bütövlükdə İçəri Şəhərdən (orta əsrlər Bakısı), Kiş kəndindəki alban kilsəsindən, Şəki qalası və Xan sarayından, birinci neft yüksəlişi zamanı Bakıda tikilən gözəl binalardan tutmuş tarixi irsin digər çoxsaylı gözəl və diqqətəlayiq şəhər nümunələrinə, qala və məscidlərə, kilsə, məbəd və milli tikililərə qədər polietnik və çoxmədəniyyətli keçmişin bütün daşıyıcılarını əhatə edir. Bura əsrlərdən bəri qorunub saxlanılan qeyri-maddi irs nümunələrini də əlavə etmək olar.

"Mədəni irs" anlayışı çoxəhatəli və geniş bir məfhumdur. Avropa Şurasının dünyanın mədəni siyasəti ilə bağlı prioritetlərində mədəni irsi "cəmiyyətin canlı bir hissəsi kimi qorumaq" tövsiyə olunur. Mədəni irs - keçmiş nəsillərdən qalan və gələcək nəsillərin xeyrinə ötürülən, ümumbəşəri dəyərlərə və müəyyən meyarlara malik olan tarixi nümunələrdir. Hətta bu anlayışın geniş məzmunu nəzərə alınaraq, YUNESKO xətti ilə onun "maddi-mədəni irs" və "qeyri-maddi mədəni irs" kimi başa düşülməsi qəbul edilmişdir.

Dünyanın bir çox ölkələrində, bir qayda olaraq, mədəni irsin qorunması, saxlanması və onun fundamental inkişafı dövlət siyasətinin tərkib hissəsi kimi onun maliyyə vəsaitləri hesabına həyata keçirilir. Buna baxmayaraq, mədəniyyətlə bağlı əlavə fəaliyyət sahələrinə özəl sektorun cəlb olunması da həvəsləndirilə bilər. Buraya müxtəlif təlim proqramları, bədii gecələrin, incəsənət tədbirlərinin və mədəniyyət mərkəzlərinə ekskursiyaların təşkil olunması, nəqliyyat, informasiya texnologiyası və nəşriyyat, eləcə də pərakəndə satış sahələri aiddir.

Azərbaycan Respublikasının Konstitusiyası milli tarixi, maddi və mənəvi irsin qorunmasını həm dövlətin (m.16.II), həm də hər kəsin (m.40.II) vəzifəsi olaraq müəyyən edir. Bu vəzifə hər kəsin mədəniyyət sahəsində hüquqlarının məzmununa aid mühüm ünsür hesab edilir. Qeyd ediləndən irəli gələn mühafizə öhdəliyinə görə, mülkiyyətçi və ya istifadəçi mədəni irs obyektini normal vəziyyətdə saxlamağa borcludur. Bu öhdəlik mədəni irs obyektinə aiddir və onun hüquqi sahibinin dəyişməsi halında yeni hüquqi sahibə keçir.

Azərbaycanda mədəni irsin qorunma tarixi 1921-ci ildə Azərbaycan İnqilab Komitəsinin Şuşa və Şəki şəhərlərindəki xan saraylarının bərpa edilməsi haqqında qəbul etdiyi qərarla başlayır. Xalq Komissarlığı Şurasının 1924-cü il 4 mart tarixli qərarı ilə isə Azərbaycanın milli mədəniyyət abidələri dövlət sərvəti elan edilmiş və bu da onların uçota alınması və qorunmasını təmin etmişdir. [5, səh.89]

1991-ci ildə müstəqilliyin bərpasından sonra 1997–2001-ci illərdə Azərbaycan xalqının mədəni və təbii irsinin mühafizəsi, qorunub saxlanması, bu irs əşyalarının oğurlanması və qaçaqmalçılıq yolu ilə daşınmasına qarşı mübarizənin gücləndirilməsi sahəsində geniş Proqram qəbul edilmiş və "2006–2016-cı illər üçün mədəniyyət sahəsində Dövlət İnkişaf Konsepsiyası" işlənib hazırlanmışdır. Konsepsiyanın əsas qayəsi daxili və xarici dövlət mədəniyyət siyasətinin təminat mexanizmlərini dünya standartları səviyyəsinə çatdırmaq yolunda mədəni irsin qorunması, yaradıcılığın dəstəklənməsi və mədəni sənayelərin dirçəldilməsi kimi prioritet istiqamətləri müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirməklə qədim Azərbaycan mədəniyyətinin və incəsənətinin qorunub saxlanılmasına, gələcək inkişafına və dünya mədəniyyətinə uğurlu inteqrasiyasına nail olmaqdır. Bu sənədlər çərçivəsində respublikada əsas beynəlxalq konvensiyalar ratifikasiya edilmiş, bir sıra qanunlar qəbul olunmuş [6, səh.5], dövlət mədəniyyət siyasətinin strateji məqsədlərinə nail olunmasına yönəldilmiş əsas prioritetlər kimi bunlar irəli sürülmüşdür: mədəni və tarixi irsin mühafizəsi; yaradıcılığın dəstəklənməsi; mədəni sahənin hüquqi, elmi, informativ inkişafı; kadr hazırlığı və gənc istedadların dəstəklənməsi; milli kinematoqrafiyanın dirçəlişi və inkişafı; mədəniyyət turizmi infrastrukturunun yaradılması və inkişafı; kitab nəşrinin inkişafı.

Mədəni irsin qorunması istiqamətində həyata keçirilməli olan inzibati xarakterli tədbirlərdən biri, mədəni irs obyektlərinin dövlət siyahısına alınmasıdır. Azərbaycan Respublikasında digər dövlətlərdə olduğu kimi mədəni irsin mühafizəsi dövlət reyestr sisteminin yaradılması ilə təmin edilir. Dövlət reyestr sistemi- mədəni irs obyektlərinin siyahıya alınması olmaqla bu obyektlərin kəmiyyət və keyfiyyət göstəricilərindən ibarət məlumat toplusudur. Azərbaycan Respublikası ərazisində yerləşən daşınmaz tarix-mədəniyyət abidələrinin ilk siyahısı Azərbaycan SSR Nazirlər Sovetinin 1968-ci il 2 aprel tarixli qərarı ilə təsdiq edilmişdir. 1981, 1988 və 2001-ci illərdə siyahılar dövrün imkan və tələblərinə uyğun olaraq yenilənərək təsdiqlənmişdir. Nazirlər Kabinetinin qərarı ilə daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə, son bölgüsü 2001-ci ildə təsdiq edilmişdir. Hazırda ölkə ərazisində 6308 abidə dövlət qeydiyyatına olunmuşdur. Həmçinin fiziki və hüquqi şəxslərin, arxeoloqların müraciəti əsasında 1500-dən çox abidə yeni aşkar olunmuş abidə kimi siyahıya alınmışdır. "Daşınar əmlakın rəsmi reyestrləri, onların tərtib edilməsi və aparılması Qaydaları"-nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli Fərmanının icrası ilə əlaqədar muzeylərdə daşınar tarix və mədəniyyət abidələrinin reyestri "Azərbaycan Respublikası Muzey Sərvətlərinin və Muzey Kolleksiyasının Uçotu və Mühafizəsinə Dair Təlimat"ın tələblərinə uyğun olaraq yazılı və elektron şəkildə aparılır. 2012-ci il Qanununa görə (m.26.1), dövlət reyestri sistemi dedikdə, bu sahədə reyestrlər, kataloqlar, uçot sistemləri, mədəniyyət əmlakının siyahıları və məlumat topluları nəzərdə tutulur. Dövlət Siyahısı və Mühafizə Siyahısı mədəniyyət sahəsində dövlət reyestri sisteminə daxildir. [8, səh.143]

Dövlət Siyahısına həm daşınmaz, həm də daşınar mədəni sərvətlər daxil edilə bilər. Mədəni irsin qorunması haqqında Qaydaya və Mühafizə Siyahısı haqqında Qaydaya müvafiq olaraq, daşınmaz mədəni irs abidələrinin Dövlət Siyahısına və Mühafizə Siyahısına daxil edilməsi Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən həyata keçirilir. Daşınar mədəni sərvətlərə gəldikdə isə, birbaşa göstəriş olmasa da, bu növ sərvətlərin Dövlət Siyahısına daxil edilməsi Mədəniyyət Nazirliyinin təqdimatı əsasında Nazirlər kabineti tərəfindən, onların Mühafizə Siyahısına daxil edilməsi isə müvafiq olaraq Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilir. Qeyri-maddi mədəni irs nümunələrinin mühafizə siyahısı ayrıca müəyyən edilir və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilir. Azərbaycanın qeyri-maddi mədəni irs nümunələrinin dövlət reyestri Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 28 aprel 2010-cu il tarixli 218 saylı əmri ilə təsdiq edilmişdir. Həmin əmrə əsasən, bu siyahıya 25.08.2011, 28.03.2012, 18.10.2012, 15.05.2013, 03.02.2014, 27.01.2015 tarixli əlavələr də nəzərə alınmaqla 77 qeyri-maddi irs nümunəsi (bayram, mərasim, ayin, mədəni məkanlar, folklor, sənətkarlıq, milli musiqi alətlərini hazırlama və ifaçılıq sənəti) daxil edilmişdir. [8, səh.146]

2012-ci il Qanununun "Mədəni sərvətlərin mühafizəsi" adlanan 39-cu maddəsində mühafizə məqsədilə mədəni sərvətlərə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada qabaqlayıcı, konservasiya, bərpa və xüsusi mühafizə dərəcələrinin tətbiq edilməsi qeyd olunur. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanda mədəni irs nümunələrinin, mədəni sərvətlərin qorunması, mühafizəsi dövlətin mədəniyyət siyasətinin başlıca istiqamətidir və bu məsələlər müvafiq qanunlar, dövlət proqramlarına uyğun olaraq tənzimlənir.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci ildə müvafiq fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanaraq, 27 dekabr 2013-cü il tarixli Sərəncamı ilə "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" qəbul edilmişdir. Dövlət Proqramının müvəffəqiyyətlə həyata keçirilməsi məqsədilə Mədəniyyət və Turizm Nazirliyi yanında Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 2014-cü il tarixli fərmanı ilə Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti yaradılmışdır. Hazırda xidmətin beş regional idarəsi fəaliyyət göstərir.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonrakı mərhələdə ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan mədəniyyəti yeni inkişaf mərhələsinə qədəm qoymuş və bu dövrdə sovet hakimiyyəti illərində müəyyən siyasi-ideoloji səbəblərdən diqqətdən kənarda qalan məsələlərə xüsusi diqqət yetirilmişdir. Məhz həmin dövrdə milli irsin qorunub saxlanması və inkişafı ilə yanaşı, dünyaya tanıdılması sahəsində çox böyük işlər görülmüşdür. Ulu öndər Heydər Əliyevin rəhbərliyi dövründə

(1993-2003) respublika ərazisində yerləşən tarix və mədəniyyət abidələri yenidən təftiş edilərək, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli, 132 nömrəli qərarı ilə dövlət mühafizəsinə götürülən mədəni irs nümunələrinin yeni siyahısı təsdiqlənmiş, bərpaya ehtiyacı olan bir çox abidələr (N.Gəncəvi məqbərəsi, Filarmoniya binası, Möminə Xatun türbəsi, H.Cavidin məqbərəsi, Şəki xan Sarayı, Bibi Heybət məscidi və s.) təmir-bərpa olunmuş, xüsusi əhəmiyyət kəsb edən tarixi ərazilər qoruq (Çıraqqala Tarixi Qoruğu, Şabran şəhəri Tarix-Mədəniyyət Qoruğu) elan edilmiş və Heydər Əliyevin hələ Azərbaycana birinci rəhbərliyi dönəmində 1977-ci ildə tarix-memarlıq qoruğuna çevrilmiş İçərişəhər 2000-ci ildə YUNESKO-nun “Dünya İrs Siyahısı”na daxil edilmişdir.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 70-80-ci illərdə, xüsusən sonrakı dövrdə mədəni və ədəbi irsə, təsviri sənətə, teatra qayğı xeyli dərəcədə artmışdı. Hələ sovetlər dönəmində tariximizin qədimliyinin, zənginliyinin mühüm göstəricisi olan tarixi abidə və eksponatların qorunub saxlanılması, gələcək nəsillərə ötürülməsi məqsədilə Azərbaycanın bütün bölgələrində tarix-diyarşünaslıq muzeylərinin yaradılması haqqında sərəncam imzalanmış, Azərbaycan folklorunun daha dərindən araşdırılması, aşıq sənətinin inkişafı, milli mərasimlərin təbliği istiqamətində ciddi tədbirlər həyata keçirilmişdir. Vaxtilə qadağalara məruz qalan, yasaq olunan milli və dini bayramlar, adət və mərasimlər xalqa qaytarılmışdır. Mədəni irsin parlaq nümunələrini yaradanlardan Aşıq Ələsgərin 150 illiyinin (1972), Aşıq Alının 180 illiyinin (1981) keçirilməsi, onların əsərlərinin çap olunub xalqa çatdırılması Heydər Əliyevin aşıq sənətinə, folklor irsimizə olan qayğısının misilsiz təzahürü idi. Azərbaycana rəhbərlik etdiyi dövrdə “Kitabi-Dədə Qorqud” eposunun, Füzuli, Nəsimi kimi korifey sənətkarların dünya miqyasında yubileylərinin keçirilməsi, Molla Pənah Vaqifin, Hüseyn Cavidin məqbərələrinin inşa edilməsi, İmadəddin Nəsiminin, Nəriman Nərimanovun, Cəfər Cabbarlının heykəllərinin ucaldılması, şəhidlərin xatirə kompleksinin və digər monumental sənət əsərlərinin yaradılması, ədəbiyyat və mədəniyyət xadimlərinin ev-muzeylərinin açılması, “Gülüstan” sarayı, Opera studiyası, Xoreoqrafiya məktəbi kimi memarlıq abidələrinin tikintisi əlamətdar hadisələr idi. [3, səh. 30]

Qeyri-maddi mədəni irsin daşıyıcısı kimi dil əsas faktorlardan biri sayılır. Elə Heydər Əliyevin fəaliyyətində milli dil siyasəti həmişə həlledici mövqe, aparıcı yer tutmuşdur. “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyun tarixli fərmanı, 30 sentyabr 2002-ci il tarixli “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanunu və bu qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2 yanvar 2003-cü il tarixli fərmanından irəli gələn vəzifələrdə Heydər Əliyevin mənəvi dəyərlərimizə münasibəti açıq ifadə edilmişdir. Azərbaycan dilinin dövlət dili kimi rəsmiləşdirilməsi və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər çox yaxşı bilirdi ki, hər bir xalqın milli-mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.

Minilliklər boyu yaradılaraq, tarixən milli mənəviyyatın və mədəniyyətin inkişaf özəyini təşkil edən Azərbaycanın qədim, rəngarəng qeyri-maddi mədəni irsi hazırda xalqımızın fəxr mənbəyi və dünya mədəniyyətinə mühüm töhfəsidir. Artıq illərdir ki, dünyanın qabaqcıl ölkələrinin mədəniyyət siyasəti sahəsindəki təcrübələri nəzərə alınmaqla, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən Azərbaycanın qeyri-maddi mədəni irsinin dəstəklənməsi və beynəlxalq aləmdə tanıdılması istiqamətində əsaslı və hərtərəfli islahatlar aparılır.

Azərbaycan xalqının milli özünəməxsusluğunun ən vacib komponenti onun mədəni irsi, o cümlədən, qeyri-maddi mədəni irsin mayasını təşkil edən folklorudur. Bu mənada Azərbaycan xalqının folklor nümunələrinin hüquqi qorunması problemi Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasının əsas hədəflərindən biri hesab olunur. Bundan başqa, Azərbaycanın milli qanunvericilik sisteminə daxil olan “Folklor nümunələrinin hüquqi qorunması haqqında” qanun (16 may 2003-cü il) milli səviyyədə qeyri-maddi mədəni irsin qorunmasına hüquqi təminatlar yaradır. Ancaq son illər YUNESKO-nun qeyri-maddi mədəni irsin qorunması ilə bağlı ardıcıl müzakirələr aparması və bir sıra sənədlər qəbul etməsi milli qanunvericiliyin təkmilləşdirilməsi zərurətini yaradır. Sözügedən təkmilləşdirilmə prosesini şərtləndirən əsas amillərdən biri də folklorşünaslığın elmi-nəzəri problemləri ilə bağlıdır.

“Folklor” dedikdə nə başa düşülür? Sovet ədəbiyyatşünaslığında “folklor” dedikdə, əksər hallarda yalnız şifahi xalq ədəbiyyatı nümunələri başa düşülüb. Ancaq YUNESKO-nun tövsiyələrində folklor (qeyri-maddi mədəni irs) dedikdə, şifahi xalq

ədəbiyyatını da özündə ehtiva edən daha geniş və əhatəli incəsənət nümunələri nəzərdə tutulur. YUNESKO-nun 2003-cü ildə qəbul etdiyi "Qeyri-maddi mədəni irsin qorunması haqqında" beynəlxalq konvensiyanın 2-ci bəndi məhz təsviri sənətlərə həsr edilmişdir. Göründüyü kimi, folklor nümunələrinə verilmiş anlayışlardakı uyğunsuzluqlar Azərbaycan folklorşünaslığının yeni elmi-nəzəri konsepsiyasının hazırlanması problemini aktuallaşdırır. Hazırda ali məktəblərdə tədris olunan bir çox şifahi xalq ədəbiyyatı və ədəbiyyat nəzəriyyəsi dərsliklərində folklor nümunələri dedikdə, yalnız şifahi xalq ədəbiyyatı başa düşülür.

"Folklor nümunələrinin hüquqi qorunması haqqında" qanunun 1.0.1-ci maddəsində Azərbaycan folkloru nümunələrinin anlayışı verilib: "Azərbaycan folkloru nümunələri - Azərbaycan xalqı, onun ayrı-ayrı fərdlər tərəfindən yaradılan və qorunub saxlanılan, Azərbaycan xalqının ənənəvi-bədii dəyərlərini, dünyagörüşünü, ümid və arzularını, bədii irsin xarakterik xüsusiyyətlərini özündə əks etdirən, şifahi şəkildə yaradılan söz sənəti nümunələrini, xalq musiqisi, oyunları və rəqsləri, xalq sənətkarlığı və tətbiqi sənət nümunələri (maddi formada olanlar və olmayanlar), eləcə də digər xalq yaradıcılıq nümunələri". [13] Adıçəkilən qanunun folklor nümunələrinə verdiyi anlayışın təkmilləşməyə ehtiyacı olması faktı açıq-aydın görünməkdədir. Bundan başqa, sözügedən milli qanunvericilikdə YUNESKO tövsiyələrində adıçəkilən bir sıra anlayışlar ümumiyyətlə, qeyd edilməmişdir. YUNESKO-nun 2003-cü ildə qəbul etdiyi Konvensiyada "epos söyləyənlərin sənəti" bəşəriyyətin ümumi insanlıq irsinin şah əsərlərindən biri elan olunmuşdur. Ancaq sözügedən milli qanunvericilikdə "epos söyləyənlərin sənəti" anlayışı verilməmişdir. Bu tipli nümunələrin sayını artırmaq olar.

2001-ci ildə YUNESKO özünün "Qeyri-maddi mədəni irs siyahısı"nı təqdim etmişdir. Buraya hazırda 200-ə yaxın qeyri-maddi irs nümunəsi daxildir. Siyahıya Azərbaycan mədəniyyətinin inciləri də daxildir. 2003-cü il noyabrın 7-də Azərbaycan muğamı YUNESKO-da "Bəşəriyyətin Qeyri-maddi irsinin şah əsəri" elan olunmuş, 2008-ci ildə isə Azərbaycan muğam ifaçılıq sənəti YUNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Bu, qədim muğam sənətinin qorunması, eyni zamanda beynəlxalq aləmdə nüfuzunun artmasına səbəb olmuşdur. Bu istiqamətdə atılan addımlarla bağlı siyahını davam etdirə bilərik: Novruz bayramı (2009), Azərbaycan xalçası (2010), tar ifaçılıq sənəti (2012), Azərbaycan kəlağayısı (2014), Lahıc misgərlik sənəti (2015), lavaş çörəkbişirmə ənənəsi (2016-cı ildə İran, Qazaxıstan, Qırğızıstan və Türkiyə ilə birgə), dolma milli yeməyi (2017), kamança simli musiqi alətinin hazırlanması və ifaçılığı sənəti (2017) YUNESKO-nun Azərbaycanın milli dəyərləri kimi tanıdığı nümunələrdir və təşkilatın Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına salınmışdır. 2018-ci ildə qəbul edilmiş qərarla isə "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" YUNESKO-nun Təcili Qorunma Siyahısına, "Dədə Qorqud/Korkyt Ata/Dede Korkut irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" Azərbaycan, Türkiyə və Qazaxıstanın birgə səyləri ilə çoxmillətli nominasiya kimi Bəşəriyyətin Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

2010-cu ildən başlayaraq Azərbaycanın qeyri-maddi mədəni irsinin qorunması məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən təsdiq olunmuş "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramı üzrə layihə həyata keçirilmişdir. 2010-cu il üçün Gəncə şəhəri "Azərbaycanın Əfsanələr Paytaxtı", Şəki şəhəri "Azərbaycanın Sənətkarlıq Paytaxtı" və Qazax şəhəri "Azərbaycanın Folklor Paytaxtı" elan edilmişdir. Təsdiq edilmiş illik tədbirlər planına əsasən, "paytaxt" seçilmiş şəhərlərdə il ərzində nominasiyaya uyğun olaraq təntənəli mərasimlər, respublika və beynəlxalq səviyyəli elmi-praktik konfranslar, "dəyirmi masalar", konsertlər, müsabiqələr, festivallar, sərgilər və sair tədbirlər keçirilmişdir. Növbəti illərdə isə layihə üzrə digər şəhərlər "paytaxt" seçilmişdir. 2010 və 2014-cü illərdə Bakıda keçirilən I və II Beynəlxalq Aşıq Festivalları Azərbaycan xalqının qeyri-maddi mədəni irsinin ayrılmaz hissəsi olan aşıq sənətinin qorunması məqsədilə təşkil edilmiş, tədbirdə Türkiyə, İran, Gürcüstan, Qazaxıstan və s. ölkələrdən ifaçılar iştirak etmişdir.

2010-cu ildən başlayaraq "Qeyri-maddi mədəni irs subyektlərinin portfolio bankı"nın və "Azərbaycan qeyri-maddi mədəni irsinin infrasturktur vahidlərinin Dövlət Kadastrı"nın yaradılması, "Şəhər mədəniyyət mərkəzlərinin yaradılması" layihəsi, "Muğam-tur, Aşıq-tur, Xalça-tur və Novruz-tur beynəlxalq mədəni turizm marşrutları"nın təşkil edilməsi və digər konseptual proqram və layihələr üzərində işlər davam etdirilmişdir. Məhz 2010-cu ildə Azərbaycanın qeyri-maddi mədəni irs abi-

dələrinin siyahısı hazırlanmış, bu siyahı əsasında diyarşünaslıq, folklor və sənətkarlıq üzrə qeyri-maddi mədəni irs abidələrinin qorunub saxlanılması, gələcək nəsillərə çatdırılması məqsədilə "Azərbaycan qeyri-maddi mədəni irs abidələrinin Dövlət Reyestri"nin tərtib edilməsi istiqamətində işlərə start verilmişdir. Bu iş 3 mərhələdə aparılmışdır. I mərhələdə qeyri-maddi mədəni irs nümunələrinin siyahısı hazırlanmış, II mərhələdə bütün nümunələr pasportlaşdırılmış, III mərhələdə isə nümunələrin YUNESKO standartlarına uyğun faylları hazırlanmışdır. 2018-ci il oktyabrın 3-də isə Muzey Mərkəzində Mədəniyyət Nazirliyi tərəfindən hazırlanmış "Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri" portalının (www.intangible.az) təqdimat mərasimi keçirilmişdir. [4] "Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri"nin yaradılması Azərbaycan hökumətinin YUNESKO-nun "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyasından irəli gələn müddəaların həyata keçirilməsi istiqamətində gördüyü işlərin nəticəsidir. Dövlət Reyestrinin elektron portalı Azərbaycanın qeyri-maddi mədəni irs nümunələri, onların daşıyıcıları və təşkilatlar haqqında məlumatı, həmçinin mədəniyyət sahəsində qəbul olunmuş milli və beynəlxalq sənədləri, qeyri-maddi irs sahəsindəki ən son yenilikləri, YUNESKO siyahısındakı Azərbaycan mədəni irs nümunələri haqqında məlumatları özündə ehtiva edir. Bundan əlavə, portalda Azərbaycanın şəhər və rayonları, həmin bölgələrə məxsus qeyri-maddi irs nümunələri haqqında məlumatlar da öz əksini tapmışdır.

Azərbaycan xalqının qeyri-maddi mədəni irsinin ayrılmaz hissəsi olan milli atüstü oyunların bərpası məqsədilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən Respublika Atçılıq Turizm Mərkəzində hər ilin dekabr ayında Prezident Kuboku uğrunda çövkən milli oyunu və may ayında Azərbaycanın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş Milli Atüstü Oyunlar Festivalı keçirilir. 2006-cı ildə yalnız çövkən milli oyunu üzrə yarışlar keçirilirdisə, 2015-ci ildə artıq sürpapaq, baharbənd, yaylıq, gec sınağı və digər qədim milli atüstü oyunlar üzrə də yarışlar təşkil edilmişdir. [7, səh.100]

2014-cü ilin sentyabrında Azərbaycan xalqının incəsənət sahəsində tarixi ənənələrinin gələcək nəsillərə ötürülməsi, nəsillərin bədii təcrübəsi əsasında əldə olunmuş nailiyyətlərin davamlı surətdə və yaradıcılıqla inkişaf etdirilməsi, müasir təsviri və dekorativ-tətbiqi sənətin inkişafı, sərbəst yaradıcılıq fəaliyyətinə yeni başlayan rəssamların, sənətşünasların, ekspertlərin, tətbiqi sənət ustalarının sərbəst bədii yaradıcılıq axtarışlarının dəstəklənməsi, onların beynəlxalq aləmə inteqrasiyası, istedadlı gənclərin aşkarlanması və cəmiyyətə təqdim olunması məqsədilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Gənc rəssamlarla İş Konsepsiyası" hazırlanmış və Nazirliyin müvafiq əmri ilə təsdiq edilmişdir. [1, 2014, səh. 18]

2015-ci ildə Azərbaycanın qeyri-maddi mədəni irs sahəsinin qorunması, dəstəklənməsi, əhalinin asudə vaxtının mədəni təşkili üçün, o cümlədən onun infrastrukturunu təşkil edən klub müəssisələrinin fəaliyyətinin yenidən qurulması məqsədilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən "Şəhər (Rayon) Mədəniyyət Mərkəzlərinin yaradılması" layihəsi hazırlanmışdır. Bununla əlaqədar həyata keçirilən islahatlar Şəki və Lənkəran şəhər, habelə Abşeron, Balakən, Gədəbəy, Göygöl, Xaçmaz, İsmayıllı, Qazax, Qəbələ, Masallı, Şamaxı rayonlarının klub müəssisələrinin fəaliyyətinə öz müsbət töhfəsini vermişdir. [1, 2015, səh.29] 2017- ci ildə "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyasının (2014), YUNESKO-nun "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyasının müvafiq müddəalarının təmin olunması, Azərbaycan aşıq yaradıcılığının dəstəklənməsi, qorunması və inkişafı məqsədilə "Azərbaycan aşıq sənətinin 2018-2021-ci illər üzrə inkişafına dair Fəaliyyət Planı" hazırlanaraq təsdiq olunmuşdur. [1, 2017, səh. 16]

2018-ci ildə Mədəniyyət Nazirliyinin müəyyən edilmiş İş Planına müvafiq olaraq, xalq yaradıcılığı və mədəni marşrutlar sahələrində mövcud vəziyyət öyrənilmiş və təhlil edilmişdir. Təhlillər nəticəsində xalq yaradıcılığı və mədəni marşrutların inkişafının təmin edilməsi, bu sahədə müasir, innovativ yeniliklərin tətbiqi, potensialın üzə çıxarılması və perspektivlərin hesablanması məqsədilə uzunmüddətli (strateji) əhəmiyyətə malik və sistemləşdirilmiş "Xalq yaradıcılığının 2019-2023-cü illər üzrə inkişafına dair Strateji Fəaliyyət Planı", "Xalq yaradıcılığı üzrə sahəvi inkişaf modeli" və "Mədəni Marşrutların İnkişafı və Marketinqin 2018-ci ilin II yarısı 2019-cu il üzrə Fəaliyyət Planı" hazırlanmışdır. "Xalq yaradıcılığının 2019-2023-cü illər üzrə inkişafına dair Strateji Fəaliyyət Planı" özündə "Xalq Sənətkarlığı-

nın 2019-2023-cü illər üzrə inkişafına dair Tədbirlər Planı", "Xalq teatrlarının 2019-2023-cü illər üzrə İnkişafına dair Tədbirlər Planı", "Azərbaycan aşıq sənətinin 2019-2023-cü illər üzrə inkişafına dair Tədbirlər Planı", "Milli folklor və adət-ənənələrin 2019-2023-cü illər üzrə inkişafı və qorunmasına dair Tədbirlər Planı", "Milli geyimlər ənənəsinin 2019-2023-cü illər üzrə inkişafına dair Tədbirlər Planı"nı ehtiva edir. [1, 2018, səh.23]

Ötən illər ərzində "İrs günləri" (2013), "Ədəbiyyat paytaxtı" və "Milli mətbəx paytaxtı" (2015), "Bölgələrdən paytaxta" (2016-2017) layihələri də mədəni irsin qorunması məqsədi ilə həyata keçirilmişdir. Hətta bəzi bölgələr beynəlxalq təşkilatlar formatında "Mədəniyyət paytaxtı" adını qazanmışdır. 2013-cü ildə Qəbələnin "MDB-nin mədəniyyət paytaxtı", 2016-cı ildə Şəkinin "Türk dünyasının mədəniyyət paytaxtı" seçilməsi regionlarımızın mədəni irsinin tanıdılmasına əlavə imkanlar açmışdır. 2017-ci ildə Şəki şəhəri, 2019-cu ildə isə Bakı YUNESKO-nun "Yaradıcı şəhərlər şəbəkəsi"nə daxil edilmişdir. [2]

2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalı keçirilmişdir. Regionlararsı mübadilədə mühüm rol oynayan festival Azərbaycanın regionlarını əhatə etməklə zəngin tarixə və dövlətçilik ənənələrinə malik xalqımızın qeyri-maddi mədəni irsinin qorunmasına, regionların mədəni potensialının nümayiş etdirilməsinə, bu sahədə əlaqələrin genişləndirilməsinə şərait yaratmış, şəhər və rayonların bir-birinin mədəni zənginliyi, sənətkarlıq irsi və incəsənəti ilə tanış olmağa imkan yaratmışdır. Ölkədə qeyri-maddi mədəni irsə, xüsusən də bölgələrdə mədəni inkişafa diqqət və qayğı nəticəsində bir sıra regional layihələr geniş miqyas qazanaraq beynəlxalq tədbirlərə çevrilmişdir. Masallıda folklor (2012-2014), Qəbələdə mürəbbə (2013-2015), Şəkidə şirniyyat, Balakəndə xurma, Zaqatalada fındıq, qoz, şabalıd festivalları, 2006-cı ildən Göyçayda keçirilən Nar, Şəkidə keçirilən İpək bayramları, 2010-2014-cü illərdə Qubada təşkil olunan Alma bayramı buna nümunədir. Milli mətbəxlə bağlı digər festivallarda (dolma, plov) da müxtəlif ölkələr təmsil olunmuşdur. 2019-cu ildə Gədəbəydə qeyd olunan Milli Yaylaq Festivalı da qeyri-maddi mədəni irsin qorunması məqsədilə təşkil olunmuşdur.

Tarixən Azərbaycan xalqı maddi və qeyri-maddi mədəni irsin saxtalaşdırılma və özgəninkiləşdirilmə təhlükələri ilə qarşılaşmışdır. Bu hal xüsusilə qeyri-maddi mədəni irsin başqa xalqlar tərəfindən mənimsənilməsi şəklində həyata keçirilmişdir. Mədəni irsimizə qarşı yönəlmiş təhdidləri aşağıdakı kimi qruplaşdırmaq olar: şifahi xalq ədəbiyyatımızın populyar nümunələrinin, o cümlədən, dastanlar, nağıllar və s. mənimsənilməsi; xalq musiqisi xəzinəsinə daxil olan xalq mahnılarımızın mənimsənilməsi; milli musiqi alətlərimizin, o cümlədən, balaban, kamança, saz və s. mənimsənilməsi; Azərbaycan mətbəxinə daxil olan xörək növlərinin mənimsənilməsi; Azərbaycan xalçalarının mənimsənilməsi. Yuxarıda qeyd olunan kateqoriyaya daxil olan mədəniyyət nümunələri, o cümlədən, "Koroğlu" və "Aşıq Qərib" dastanları ermənilər tərəfindən mənimsənilərək özününküləşdirilməyə cəhd edilir. Azərbaycan xalçaları "İran xalçaları" adı altında beynəlxalq sərgilərdə nümayiş etdirilir. Bundan başqa, Azərbaycanın məşhur xalq mahnısı "Sarı gəlin" beynəlxalq festivallarda erməni xalq mahnısı kimi təqdim edilir. Eyni vəziyyət Azərbaycan mətbəxinə məxsus olan xörəklər və musiqi alətlərinə də aiddir. Ermənilər tərəfindən Azərbaycan mədəniyyət nümunələrinin mənimsənilməsi artıq ənənə halını almışdır. Bu kimi halların qarşısının alınması istiqamətində dövlət səviyyəsində xeyli iş görülsə də, həyata keçirilməsi vacib olan bəzi məqamları da qeyd etmək yerinə düşər: Folklor nümunələrinin hüquqi qorunmasına dair qanunvericiliyin təkmilləşdirilməsi; folklor studiyasının yaradılması və milli adət-ənənə ilə bağlı sənədli filmlərin çəkilişi; folklor nümunələrinin müasir informasiya texnologiyalarına uyğun qorunması ilə bağlı texniki vasitələrin tətbiqi; Azərbaycan Milli Folklor Arxivinin və Muzeyinin yaradılması.

**Açar sözlər:** *mədəni irs, mühafizə, konvensiya, qeyri-maddi məddəni irs, layihə.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin illik hesabatları (2014, 2015, 2017, 2018-ci illər).*

*http://mct.gov.az/medias/media/other/284/hesabat-2014.pdf*

*http://mct.gov.az/medias/media/other/367/hesabat-2015.pdf*

*http://mct.gov.az/medias/media/other/623/hesabat-2017.pdf*

*http://mct.gov.az/medias/media/other/624/hesa-*

*bat-2018.pdf*

*2. "Azərbaycan" qəzeti, 2019, 8 noyabr*

*3. Əfəndiyev T. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. Bakı, 2011, 270 s.*

*4. "Xalq qəzeti", 2018, 3 oktyabr*

*5. Məmmədəliyeva S., Axundova N. Azərbaycanda mədəniyyət siyasəti. Bakı, 2003, 232 s.*

*6. Mədəni irsin qorunmasına dair normativ hüquqi aktlar toplusu. Buraxılışa məsul Röya Tağıyeva. Bakı, 2001, 278 s.*

*7. Mədəniyyət və Turizm Nazirliyi (10 illik fəaliyyət)*
*http://mct.gov.az/az/nazirlik-2006-2016 pdf*

*8. Süleymanlı S. Mədəni irsin qorunmasının beynəlxalq-hüquqi tənzimlənməsi problemləri və Azərbaycan Respublikasının qanunvericiliyi. Bakı, 2018, 296 s.*

*9. Tağıyev Ə. Milli kimlik və multikultural proseslər. Bakı, 2017, 203 s.*

*10. 2006-2016-cı illər üçün mədəniyyət sahəsində Dövlət İnkişaf Konsepsiyası, "Mədəni-maarif", 2006, № 11, s. 5-9*

*11. http://www.e-qanun.az/framework/13373*

*12. https://www.azerbaijans.com/content_1028_az.html*

*13. http://www.e-qanun.az/framework/2195*

*14. Бек У. Что такое глобализация. Москва, 2001, 304 с.*

*15. Культура и культурные шедевры Азербайджана - универсальное послание будущим поколениям. Баку, 2009,796 с.*

**Защита национального культурного наследия Азербайджана в условиях глобализации и культурной интеграции. Проблемы охраны нематериального культурного наследия**

**РЕЗЮМЕ**

Обладание культурным наследием является неотъемлемым правом каждого народа. Быстро развивающиеся и распространяющиеся в наше время информационно-коммуникационные технологии и широко распространенные глобальные факторы влияют на политическую, экономическую жизнь стран, а также на социальные, культурные и гуманитарные нормы и ценности. При этом особое значение приобретает сохранение национального культурного наследия. Сохранение и развитие древнего и богатого культурного наследия Азербайджана является одной из главных задач культурной политики независимой республики. В статье рассматривается работа, проделанная в этом направлении, выделяется вопрос охраны культурно-исторического наследия как приоритетная тема международного сообщества. Кроме того, рассказывается о проектах реализуемых Азербайджаном по защите нематериального культурного наследия.

**Ключевые слова:** *культурное наследие, охрана, конвенция, нематериальное культурное наследие, проект*

**Protection of Azerbaijan's national cultural heritage in the context of globalization and cultural integration. Problems of protection of intangible cultural heritage**

**SUMMARY**

Having a cultural heritage is an inalienable right of every nation. The rapidly developing and spreading information and communication technologies in modern times and the widespread global factors affect the political, economic life of countries, as well as social, cultural and humanitarian norms and values. In this case, the preservation of national cultural heritage is of particular importance. Preservation and development of the ancient and rich cultural heritage of Azerbaijan is one of the main tasks of the cultural policy of the independent republic. The article discusses the work done in this direction, highlights the issue of protection of cultural and historical heritage as a priority topic of the international community. In addition, they talk about the projects implemented by Azerbaijan to protect the intangible cultural heritage.

**Key words:** *cultural heritage, protection, convention, intangible cultural heritage, project.*

UOT 327; 339.9

# ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ВЫБОРОВ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

**ТАДЖИРА АБДУЛЛАЕВА**
*Докторант кафедры Политология факультета Международных отношений и экономики Бакинского Государственного Университета*

*E-mail:tacire.mehreliyeva@mail.ru*

Обеспечение политических прав граждан на современном этапе развития человечества самая важная и сложная проблема в мире. Крах стабильных устоев миропорядка, норм и правил во взаимоотношениях государства и личности, неэффективность имеющихся механизмов защиты прав человека спровоцировали сегодня огромное количество нарушений прав человека не только политических… В такой обстановке в процессе выработки новых действенных механизмов, способов и средств защиты прав, гарантированных Конституцией и другими нормативными актами, выборы, на наш взгляд, теряют свою былую силу и влияние, однако необходимость в них не потеряла своей актуальности. И события, наблюдаемые в международной политической жизни государств, волна всевозможных «цветных» революций и серьезных конфликтов, и военные операции, доказывают научный интерес к теме выборов и аргументированную обоснованность написания исследовательских работ. Предметом этих работ являются сам избирательный процесс, совокупность процедур, их взаимосвязь с партийными структурами в стране, их влияние на политические режимы и формирование устоев гражданского общества.

За многие века политическая история человечества создала несколько избирательных систем, которые в разные этапы определяли управленческую составляющую государства и обеспечивали относительную демократию гражданского общества. Формирование законодательных органов, стадий законодательного процесса, принятие законов затрагивает процесс выборов, что и оправдывает наличие различных проблем и недочётов системы. Сущность выборов, их значение является объектом исследования, а посему вопросы и проблемы их эффективности вполне логично вызывают и вопросы их нецелесообразности и необходимости одновременно.

Процесс избирательной системы содержит в себе совокупность определённых этапов, которые также вызывают немало вопросов, требующих обоснованных ответов. К ним относятся и организация предвыборных кампаний, проблемы финансирования и другие.

Проблемами избирательного процесса занимались и продолжают его изучать ученые-политологи. Одним из них является известный французский политолог Морис Дюверже, разработавший научную концепцию взаимосвязи партийных и избирательных систем. По его мнению, содержание этой взаимосвязи проявляется в действии трех сформулированных им законов, о которых будет упомянуто в данной статье.

Следует отметить, что каждые новые выборы требуют времени подготовительной работы, прогнозов, изучения общественного мнения, что и также объясняет к ним научный интерес.

На основе изученного на сегодня объема научного материала, именно институту наблюдения отведена главная роль в избирательном процессе, и в статье предпринята попытка короткого комплексного изучения и анализа данного вопроса.

Теоретическая основа любого исследования представляет собой труды, в которых в свое время разрабатывались те или иные темы, создающие теоретический базис. К таковым относятся выборы и избирательная система. Избирательный процесс включает в себя несколько стадий, каждая из которых была и остается объектом исследования. Теоретические подходы также представляют научный интерес. Но прежде, чем изучать избирательный процесс и его стадии, изначально попытаемся комплексно и в полном объеме определить и сформулировать сущность выборов в современных условиях. Что представляют собой выборы? В классическом изъяснении выборы дают возможность гражданам реализовать свое политическое право выбора, что, в

свою очередь, является средством для участия в политическом развитии страны и характеризует политический режим в конкретном государстве. Показатели выборов демонстрируют картину демократического состояния в обществе и работу демократических институтов в стране. Следует признать, что в современном мире выборы, если даже и проводятся в соответствии со всеми требованиями, все же они, увы, не могут в полном объеме реализовать поставленную перед ними задачу. Сегодня практически в любой стране, даже в самой демократичной с точки зрения мировых стандартов, выборы сопровождаются нарушениями, исследование причин которых и становится объектом научных исследований.

Процесс выборов так или иначе представляет собой некий механизм, функционирующий на определенных принципах. И на наш взгляд, проблема не в отсутствии этих принципов, а в их реализации. Один из принципиальных вопросов это институциональность, и связь избирательных систем с другими политическими институтами, а главное их влияние и воздействие на политическую систему страны.

К данной проблеме обращается ни один исследователь. Выборы и их реализация представляют большую актуальность, а посему следует назвать некоторых исследователей.

Упомянутый выше Морис Дюверже является автором научной концепции взаимосвязи партийных и избирательных систем. Его концепция сформулирована в трех законах.

«Первый закон. Мажоритарная избирательная система с голосованием в один тур с неизбежностью приводит к формированию и утверждению в той или иной стране партийной системы, состоящей из двух соперничающих партий. В основе действия этого закона лежат две причины. Первая заключается в том, что в данной ситуации третья партия и все последующие оказываются слабо представленными в парламенте. Создается эффект «недопредставительности». Вторая причина имеет психологический характер: избиратель, как правило, предпочитает голосовать за того кандидата, который имеет больший шанс победить на выборах.

Второй закон. Становление в той или иной стране мажоритарной избирательной системы с голосованием в два тура свидетельствует о том, что в ней утвердилась партийная система, включающая несколько партий. При этом данные партии занимают достаточно гибкие позиции, стремясь к компромиссу. В основе действия закона лежит тот факт, что данная избирательная система создает возможность участия в первом туре выборов для всех партий. Это и ведет к многопартийности.

Третий закон. Пропорциональная партийная система способствует становлению многопартийной системы. При этом партии отличаются жесткой внутренней структурой и независимой по отношению друг к другу позицией. Данная система способствует широко развитой многопартийности. Это очевидно. Каждая партия при такой системе получает реальную возможность иметь своих членов в парламенте, не вступая в союзы, блоки и не прибегая к компромиссам» [6].

Выводы М.Дюверже нашли отклик в работе М.Шугарта и Р.Таагаперы. Они пришли к выводу о том, что система большинства с малой величиной округа усиливает тенденцию к преобладанию сильных политических партий за счет слабых.

Далее логика была продолжена Дж.Сартори и Г.Коксом, которые занимались исследованием влияния типов избирательных систем на характер партийных систем и уровень партийной фрагментации. Дж.Сартори, в частности, исследуя эффекты избирательных систем, поднимает вопрос о характере связи между типом выборов и числом партий.

Аренд Лейпхарт пересмотрел гипотезу М.Дюверже и заметил, что на число партий оказывает влияние специфика политического контекста и уровень пропорционального представительства. Влияние типа избирательной системы на уровень политической конкуренции было представлено в первом томе сборника работ, посвященных проблеме представительства под редакцией Аренда Лейпхарта и Бернарда Грофмана.

Вилльям Райкер поднимает вопрос о рациональности природы мотиваций лидеров политических партий и избирателей.

Работы В.Д.Круглашовой (Вельч) изучают теоретические подходы к исследованию выборов. Большое внимание уделяется этапу наблюдения за выборами.

Труды И.Б.Борисова изучают процедуру международного наблюдения и направлены на системное осмысление современной проблематики правового регулирования и практики международного наблюдения за выборами.

Выборы являются компонентом современного политического процесса в органы власти. Они во многом определяют особенности формы правления, специфику политической системы, структуру политических партий и полноту представительства интересов граждан. Выборы являются важной составляющей, формирующей политическую природу конкретного государства, и отражают связь политических формирований с гражданами. Осуществление выборов опирается на слаженные веками формы и институты их проведения. Институционализм часто рассматривают как решение одной из важнейших проблем применения метода анализа (как правило, экономического) к изучению политики. Эта проблема связана с трудностями достижения равновесия в мире, который состоит из рациональных индивидуалистов. Правила, определяемые институтами, ограничивают возможности максимизации индивидуального поведения и позволяют принимать стабильные и предсказуемые решения. Конечно, для решения общественной проблемы, тем более с ее политической поддержкой, наличие институтов с чётким механизмом необходимо. Но политика не опирается на нормативные акты, она является по сути силой, позволяющей создаваться и быть этим законам. В связи с чем можно с уверенностью отметить, что сущность принципа институционализма и заключается, на наш взгляд, в том, чтобы выборы представлялись как необходимая процессуальная процедура, характеризующая демократичность и цивильность страны, здоровая конкуренция политических взглядов, а не побоище борющихся за власть личностей, попирающих общепринятые правила и нормативные акты во имя своих целей и амбиций. Ибо избирательный процесс, поскольку он, как принято, отражает демократичность государства, показатель цивилизованного общества и соответствующих моральных устоев.

20-21 февраля 2020 года состоялся визит главы Азербайджана в Италию для обсуждения вопросов расширения сотрудничества. Необходимо отметить особую роль Италии в реализации проекта строительства Трансадриатического газопровода (TAP) и поддержку этого государства энергетического проекта. Трансадриатический газопровод является последним сегментом проекта «Южный газовый коридор», по которому азербайджанский газ будет поставляться в Европу. Запланирована сдача Трансадриатического газопровода в эксплуатацию, который соединит Грецию, Албанию и Адриатическое море на юге Италии. Во время государственного визита президента Азербайджана в Италию помимо энергетического вопроса была затронута тема расширения товарооборота между двумя странами, а также вопрос заключения нового соглашения между Азербайджаном и ЕС, на парафирование которого в Евросоюзе рассчитывают до лета 2020 года, когда состоится саммит «Восточного партнерства».

Помимо указанных выше событий Азербайджанская Республика участвует и в других мероприятиях, темой которых является международная безопасность в мире. Это встречи в рамках членства в региональных и международных организациях, международные конференции, проекты. Азербайджан также является страной, входящей в блок государств, борющихся с международным терроризмом. Является стороной международных конвенций в сфере борьбы с международной преступностью и защитой прав человека. Азербайджан представлен в Европейском Суде по правам человека.

Небольшое исследование проблемы обеспечения территориальной целостности Азербайджана в контексте проблемы образования системы международных отношений, важным будет констатировать, что стабильность системы безопасности государственных территорий решает стратегические задачи нашей страны. А именно: развитие утверждение транспортных проектов регионального и международного значения (восстановление Великого Шелкового пути, транспортировка нефти и газоресурсов, «Контракт века», строительство железных и автомобильных дорог, соединяющих необходимые пункты сообщения, и обеспечивающих грузовые и пассажирные перевозки, международные транспортные коридоры «Восток-Запад», «Север-Юг», развитие экономических, торговых, транспортных и логистических связей между Европой, Черноморским, Кавказским, Каспийским и Центрально-Азиатским регионами, развитие мультимодального коридора, проложенного по кратчайшему сухопутному пути между Кита-

ем и Европейским Союзом). К таким проектам относится железная дорога Баку-Тбилиси-Карс, сданная в эксплуатацию 30 октября 2017 года как дополнительная поддержка проекту «Шелковый путь» (TRASECA), реализованному в последнем десятилетии XX века при финансовой поддержки Европейского Союза и благодаря особым усилиям Азербайджана, Турции и Грузии, соединившая Трансевропейско-азиатские железнодорожные сети, и тем самым завершилось восстановление древнего Шелкового пути по стальным магистралям. Завершилось строительство новой дороги протяженностью 8,3 километра железнодорожной линии Астара (Азербайджан)-Астара (Иран) до моста через реку Астарачай, моста через реку Астарачай и дороги протяженностью 1,4 километра на территории Ирана. С иранской стороной проводятся переговоры в связи со строительством участка Казвин-Решт (175 км) данного коридора. Строительство и сдача в эксплуатацию до этого при лидерстве нашей страны железной дороги Баку-Тбилиси-Карс и Бакинского международного морского торгового порта, создание на этом пространстве свободной экономической зоны превратили Азербайджан в центр транспортного узла, соединяющего, с одной стороны, Центральную Азию с Западом (Турция и Европейский Союз), а с другой - Южную Азию (Иран и Индия) с Севером.

Как видно из указанного, Азербайджанская Республика вносит свой немалый вклад в образование системы международной безопасности как на региональном, так и на международном уровне.

Азербайджанская Республика является государством, земли которого были оккупированы. Последствия этого захвата серьезным образом препятствуют созданию системы безопасности как в регионе, так и в мире. В связи с этим участие нашего государства в деле образования системы международной безопасности является приоритетным направлением его внешней политики.

Азербайджанская Республика за короткое время восстановила и соединила практически всевозможные транспортные сообщения, соединяющие Европу и Азию, которые имеют большое значение как в регионе, так и за его пределами. После освобождения наших земель осенью 2020 года политика развития инфраструктуры освобожденных районов, восстановление транспортных коммуникаций является приоритетной задачей как внутренней, так и внешней политики нашей страны, что положительно отразиться на процессе создания как региональной, так и международной системы безопасности.

**Ключевые слова:** *международные отношения, проблема безопасности, политическая, экономическая стабильность, защита, государство, Азербайджанская Республика, территория, система международной безопасности, декларация, Устав ООН*

## СПИСОК ЛИТЕРАТУРЫ

*1. Декларация о принципах международного права, касающихся дружественных отношений и сотрудничества между государствами в соответствии с Уставом Организации Объединенных Наций от 24 октября 1970 года// www.un.org/ru/documents*

*2. Заключительный акт совещания по безопасности и сотрудничеству в Европе. 1 августа 1975 года//doc20vek.ru/node*

*3. Ибрагимов А.М. Международные гарантии обеспечения норм права международной безопасности//Право и политика, 2009, №8, с.1687-1695.*

*4. Ковалев А.А. Анализ вариантов формирования системы международной безопасности в эпоху цивилизованного противостояния//Национальные интересы: приоритеты безопасности, 2017, Т.13, №12, с.2349-2362.*

*5. Куковский А.А., Петров А.В., Рослов П.Д. Актуальные вопросы обеспечения безопасности в современном мире//Вестник ЮУрГУ. Серия Право, 2016, №2, с.47-52*

*6. Кучерявый М.М. Проблемы международной безопасности в контексте современной политической науки//Управленческое консультирование, 2013, №11, с.24.*

*7. Колобов О.А., Хохлищева О.О. Система международной безопасности ООН и ее политико-правовое обеспечение//Нижегородский Государственный Университет им.Н.И.Лобачевского, 2016, №6, с.125-129.*

*8. Калачев Д.Н. Современная система международной безопасности: основные параметры//*

*Московский Государственный машиностроительный Университет. Вестник МГМУ. Серия: История и политические науки, 2015, №3, с.243-250*

*9. Эмиров П.М. Приоритеты национальной безопасности Российской Федерации на Северном Кавказе. М.: Логос, 2011, 51 s.*

*10. https://az.sputniknews.ru/economy/20180614/415794515/azerbaijan-canso-summit.html*

**Nərgiz Məmməd-zadə**

**Azərbaycanın ərazi bütövlüyü beynəlxalq təhlükəsizlik sisteminin yaranması konstekstində**

**XÜLASƏ**

Beynəlxalq təhlükəsizlik və onun təmin edilməsi mexanizmləri bu gün beynəlxalq münasibətlərin bütün iştirakçıları üçün ən aktual mövzudur. Bu problemin həllində dövlətlərin marağı beynəlxalq hüquq normaları və beynəlxalq əməkdaşlıq ənənələri əsasında milli maraqların qorunmasından ibarətdir. Beynəlxalq münasibətlərin siyasi və iqtisadi cəhətdən qeyri-sabit inkişafı illərində bir sıra problemlər məcmusu yaranmışdır. Bu problemlər keyfiyyətcə yeni kollektiv və beynəlxalq təhlükəsizlik sisteminin formalaşmasında yeni vasitə və metodların formalaşması və müasir təhdidlərdən iştirakçıların müdafiəsinə və dəqiq mexanizmin yaranmasına yönəlmişdir. Bu problemlərin və onların səbəblərinin üzə çıxarılması və müəyyən edilməsi müasir dövlətlərin xarici siyasətində əsas vəzifədir. Bunun üçün beynəlxalq münasibətlərdə ölkənin vəziyyətini, mövqelərini, müasir problemlərin həllində iştirakını və ən əsas təhdidləri aradan qaldırma qüvvəsinə malik olan qaydaların qəbul edilməsi və təsdiqlənməsi vacibdir. Müasir şəraitdə beynəlxalq münasibətlərin təhdidləri siyahısında dövlətlərin coğrafi əraziləri predmeti olan iştirakçılar arasında saysız münaqişələrdir. Bu isə, öz növbəsində, beynəlxalq təhlükəsizlik sisteminin yaranmasına ciddi mane olan ən əsas məsələdir.

**Açar sözlər:** *beynəlxalq münasibətlər, təhlükəsizlik problemi, siyasi, iqtisadi sabitlik, müdafiə, dövlət, Azərbaycan Respublikası, ərazi, beynəlxalq təhlükəsizlik sistemi, bəyannamə, BMT Nizamnaməsi.*

**Nargiz Mammad-zada**

**Terrıtorıal ıntegrıty of Azerbaıjan ın the context of formatıon of the ınternatıonal securıty system**

**SUMMARY**

International security and the mechanisms for ensuring it are today the most pressing topic for all participants in international relations. The interest of states in solving this problem lies in the protection of national interests based on the norms of international law and the traditions of international cooperation. Over the past politically and economically unstable years of development of international relations, a set of problems has developed that contribute to the definition and selection of new means and methods in the formation of a qualitatively new system of collective and international security, and the creation of a clear mechanism for protecting participants from modern threats. The identification and definition of these problems and their causes is a paramount task in the foreign policy of modern states. To do this, it is necessary to take into account the position of the country in international relations, its position, participation in solving modern problems in order to find ways out of them, and, most importantly, the establishment of existing rules that can prevent threats. At the present stage, the list of threats to international relations includes a large number of conflicts between participants, the subject of which is the geographical territories of states. In addition, this, in turn, in our opinion, is an important, even the main, obstacle to the creation of an international security system.

**Key words:** *international relations, security problem, political, economic stability, protection, state, Republic of Azerbaijan, territory, international security system, declaration, UN Charter.*

UOT 327; 339.9

# MÜASİR DÖVRDƏ AZƏRBAYCAN RESPUBLİKASI VƏ ALMANİYA FEDERATİV RESPUBLİKASI ARASINDA ENERJİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞIN ÜMUMİ XARAKTERİSTİKASI

**AYNUR ALLAHVERDİYEVA**
*Bakı Dövlət Universitetinin magistri*

*E-mail: allahverdiyevaaynur629@gmail.com*

Azərbaycanın Avropada etibarlı tərəfdaş kimi münasibətlərini ildən-ilə inkişaf etdirdiyi ölkələrdən biri də Almaniya Federativ Respublikasıdır. Rəsmi Bakı Avroatlantik məkana inteqrasiya və Avropa Birliyi ilə sıx əməkdaşlıq prosesində Almaniyanın dəstəyinə xüsusi önəm verir. Almaniya Federativ Respublikası dünya iqtisadiyyatında və siyasətində mühüm rol oynayan ölkə olmaqla Azərbaycanla bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinə tərəfdardır. Qeyd etmək lazımdır ki, alman şirkətləri Azərbaycanda əsasən bərpa olunan enerji, ekoloji texnologiyalar, neft, təbii qaz və tikinti sektorlarında fəaliyyət göstərirlər. 1994-cü ilin əvvəlində Almaniya Azərbaycanın energetikası, xüsusən də neft sektoru ilə maraqlanmağa və bu sahədə fəal rol oynamağa başladı. 1994-cü il sentyabrın 20-də Azərbaycanın enerji sektorunda, Britaniya və Amerika investisiyaları başda olmaqla həyata keçirilən "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Almaniya sərmayəçiləri bu istiqamətdə işlərin daha intensiv getməsi üçün geniş fəaliyyətə başladılar. Belə ki, bir müddət sonra iki ölkə arasında münasibətlərdə tarixi hadisə baş verdi. 1996-cı il iyulun 1-4-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev AFR-ə rəsmi səfər etdi. Bu, Azərbaycan Prezidentinin AFR-ə ilk rəsmi səfəri idi [5]. Səfərin zəngin proqramı tərtib edilmişdi. Danışıqların yekununda ikitərəfli münasibətlərə dair bir sıra sənədlər imzalandı. İyulun 2-də Azərbaycan Respublikası və AFR arasında Sovet Sosialist Respublikaları İttifaqı ilə AFR arasında bağlanmış müqavilələrin qüvvədə qalması haqqında protokol imzalandı. Səfərin faydası özünü çox da gözlətmədi. İlk növbədə iqtisadi və texniki sahələrdə əməkdaşlıq genişləndirildi. Bundan sonra Simens şirkətinin prezidenti Haynrix Fon Piererin başçılıq etdiyi nümayəndə heyətinin 1996-cı il iyulun 22-də Bakıya səfəri zamanı elektrik stansiyalarının tikintisinə dair sənədlər imzalandı. Almaniyada nəşr olunan "Frankfurter Rundschau" qəzetinin redaktoru Ştefan Kox Azərbaycan-Gürcüstan xətti ilə neft daşıyan Bakı-Supsa xəttinin açılış mərasimində iştirak etmiş və qəzetin 10 may 1999-cu il tarixli nömrəsində "Neft həyatdır. Bakıdan Qara dənizə yeni neft xətti açılmışdır"adlı məqalə yayınlamışdır. Paralel olaraq Almaniyanın Federal iqtisadiyyat naziri Günter Reksrodtun bu regionla ilk tanışlığı həmin dövrə təsadüf etmişdi. Alman şirkətləri regionda daha çox British Petroleum, Chevron və Agip kimi beynəlxalq ingilis və Amerika şirkətlərinin fəal olduğunu və gecikdiklərini anladılar. Bundan başqa "Der Spiegel" qəzeti "Pulun səsi", "Qafqazda ən böyük müharibə", "Alman müəssisələrinin Xəzər neft sənayesində passiv iştirakı" sərlövhəli məqalələrində də almanların Azərbaycanın energetika sektorunda passiv olduğunu xüsusi olaraq qeyd etmişdir. Lakin Azərbaycan Almaniya ilə həmişə iqtisadi əlaqələrin inkişafında maraqlı olmuşdur. Ümummilli lider Heydər Əliyev Almaniyanı Azərbaycan iqtisadiyyatında aktiv rol oynamağa dəvət etmiş və onlara rahat iş şəraiti yaradacağına söz vermişdi. AFR-nın keçmiş xarici işlər naziri Klaus Kenkel 1995-ci ildə Bakıda Almaniya Kirxasında (Kilsəsində) insanlarla görüşmüş, Azərbaycanın neft sənayesi ilə yaxından tanış olmuşdur [9].

1996-cı il iyunun 15-də ümummilli lider H.Əliyev Bakıda Almaniya səfiri Mixael Şmunkla görüşündə almanların Azərbaycanda fəal olmamasından təəssüfləndiyini bildirdi və 1996-cı il iyulun 1-4-də Almaniyaya rəsmi səfəri zamanı Almaniya İqtisadiyyat Nazirliyinin Şərq Komitəsinin sədri Otto Volf fon Amerongene bildirmişdi ki, Almaniyanın 1996-cı ilə qədər Azərbaycanın energetika sektorunda heç bir fəaliyyətlə məşğul olmamasının səbəbi, almanların bunda maraqlı olmaması deyil, əksinə, digər sektorlara, xüsusilə infrastruktur, telekommunikasiya, su təchizatı, elektrik stansiyalarının tikintisi, kimya sektoru, neft emalı zavodları və xətlərin tikintisi kimi qeyri-neft sahələrinə daha maraq göstərməsi idi. Ümumiyyətlə, alman iş adamlarını daha çox neft sektorunda avadanlıq və xidmət sahəsi olan qeyri-neft sektoru maraqlandırırdı. Bunlara sübut kimi söyləmək olar ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra alman investisiyaları ilk olaraq qeyri-neft sektoruna yatırılmağa başladı. Məsələn, Bakı hava limanının 3,3 kilometr uzunluğunda olan təyyarə xətti Almaniyanın "Wirtgen" və "Siemens" şirkətləri tərəfindən tikilmiş və 1995-ci ildə keçmiş iqtisadi əməkdaşlıq naziri Karl Dieter Şprangerin

Bakıya səfəri zamanı istifadəyə verilmişdir.

1997-ci il yanvarın 13-də alman iş adamlarının Azərbaycan iqtisadiyyatına, xüsusilə enerji sektoruna cəlb edilməsi, onlara rahat iş şəraitinin yaradılması çağırışlarından sonra ilk dəfə Almaniyanın "Deminex-Wintershall" şirkəti ilə müqavilə imzalanmışdır. Müqaviləyə əsasən, bu şirkət Xəzər dənizinin Azərbaycan sektorunda, əsasən Lənkəran və Talış perspektiv tikinti layihələrində 30% paya malik olmalı idi [9]. Daha sonra 1995-1997-ci illərdə Almaniyanın Azərbaycanda fəaliyyətə başlayan "Grünwald" şirkəti "Azəralmneft" Almaniya-Azərbaycan Birgə Müəssisəsi çərçivəsində Ramanadakı 7-ci neft yatağının torpaq hasilatı işində fəaliyyətə başladı. Sonrakı illərdə alman iş adamları neftlə bağlı digər sahələrə də böyük sərmayələr yatıraraq Azərbaycana birbaşa investisiya yatıran ən böyük investorlardan birinə çevrildilər. Azərbaycan nefti Gürcüstanın Batumi və Poti limanlarına, Türkiyənin Ceyhan və İtaliyanın Wordan Trieste limanlarına çatır, daha sonra Almaniyanın neft emalı zavodlarına nəql olunurdu. Almaniyanın Eupec Rohrleitungsservice GmbH şirkəti Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi çərçivəsində dəyəri 120 milyon dollar olan korroziyaya davamlı və yüksək keyfiyyətli boru kəmərləri istehsal edirdi. Bu kəmərlər "Azəri", "Çıraq" və "Günəşli" neft yataqlarından Səngəçala qədər 60 km-lik ərazidə çəkilib. Eyni zamanda, Almaniyanın "Oil and Gas ProServis GmbH" şirkəti ilə Azərbaycanın SOCAR şirkəti arasında 2005-ci il fevralın 1-də imzalanmış müqaviləyə əsasən, Azərbaycanın neft-qaz layihələri çərçivəsində inşa edilən boru kəmərlərinə texniki qulluq edilməsi alman şirkətlərinə həvalə olunmuşdur. Müqaviləyə əsasən, Siemens Turbomachinery International Holding 25%, Target Petrolium Azerbaijan 45% və SOCAR şirkəti isə 29,9% pay bölgüsü müəyyən olunmuşdur. Bakı-Supsa neft xəttinin Səngəçal terminalı da Almaniyanın "Gabeg" şirkəti tərəfindən inşa edilmişdir.

Qeyd olunmalıdır ki, Azərbaycanda enerji sektorunun hərtərəfli genişlənməsi və iqtisadiyyatını şaxələndirmək səyləri istər-istəməz alman investisiyalarını bu işə cəlb etmiş və 1993-2011-ci illər arasında Almaniya Azərbaycanın sənayesinə ümumilikdə 202,2 milyon dollar sərmayə qoymuşdur. 2008-ci ilin yanvarında Almaniyanın o vaxtkı federal iqtisadiyyat və texnologiyalar naziri Mixael Qlos Baden-Vürtemberqdə SOCAR-ın nümayəndəliyinin açılması barədə Azərbaycan Prezidenti İ.Əliyevə müraciət ünvanlamış, daha sonra isə Frankfurtda SOCAR-ın rəsmi olaraq nümayəndəliyi açılmışdır. Almaniyanın "RWE" şirkəti Azərbaycanın təbii qazının Avropaya ixracı ilə bağlı Nabukko layihəsini dəstəkləsə də, 2013-cü ildə layihədən imtina etmişdir [3, s:34]. Daha sonra Almaniyanın ən böyük enerji şirkətlərindən biri olan "EON" şirkəti TAP layihəsi ilə maraqlandı. Bu şirkətin "Şahdəniz" Konsorsiumu ilə 2013-cü il sentyabrın 19-da imzaladığı müqaviləyə əsasən, 2019-cu ildən başlayaraq 25 il müddətində 40 milyard $m^3$ həcmində Azərbaycanın təbii qazını əldə etməyə imkan yaradılmışdır. O, həm də Aİ çərçivəsində Almaniyanın Transxəzər qaz kəməri layihəsinin əsas təbliğatçılarından biridir. Bu istiqamətdə Aİ-nin almaniyalı enerji komissarı Günter Öttinger dövründə (2011-2013-cü illər arasında) xüsusi diplomatik fəaliyyət həyata keçirilmişdir.

AFR-nın iqtisadi əməkdaşlıq etdiyi əsas çərçivələrdən biri Aİ nəzdində həyata keçirilən INOGATE layihəsidir. Azərbaycan Respublikası 22 iyul 1999-cu ildə imzalanmış çərçivə sazişi ilə INOGATE layihəsinin üzvü olmuşdur [1, s:468]. Bu üzvlük kifayət qədər zəruri idi, çünki Aİ Xəzər dənizinin enerji məhsullarının əsas istehlakçılarından biridir. Aİ qlobal enerji resurslarının cəmi 2%-nə sahib olsa da, 24%-nin istehlakçısıdır. Buna görə də Aİ öz resurslarını asanlıqla istifadə edə bildiyi üçün xarici mənbələrdən enerji məhsullarının idxalı məsələsini təmin etməli idi. 2020-ci ildən sonra Avropada təbii qaza olan tələbatın 30%, Almaniyada isə 20% artacağı gözlənilirdi. 2030-cu ildə Avropanın təbii qaz ehtiyacının 60%-nin Rusiyadan təmin ediləcəyi proqnozlaşdırılırdı. Rusiyadan asılılığın azaldılması məqsədilə Azərbaycanın enerji ehtiyatlarının istehsalı və ixracında Aİ ilə əməkdaşlıq mühüm əhəmiyyət kəsb edirdi. Bu baxımdan, Bakı-Tbilisi-Qars və Bakı-Tbilisi-Ərzurum təbii qaz layihələri, o cümlədən TANAP (Trans Anadolu Boru Kəməri) və TAP (Trans Adriatik Boru Kəməri) təbii qaz layihələri enerji təhlükəsizliyi üçün zəruri şərt idi. Azərbaycanın xarici enerji siyasətində enerji və təbii ehtiyatların emalı mühüm yer tuturdu. Bu layihələr çərçivəsində Azərbaycanın hasil etdiyi enerji ehtiyatları bir çox Avropa ölkələrinə, eləcə də Almaniyaya nəql edilirdi. Nəqliyyat və enerji təhlükəsizliyində mühüm rol oynaması Azərbaycanın xarici siyasətinə də müsbət təsir göstərən amillərdən biridir. 2011-ci ildə Azərbaycan ilə Aİ arasında Cənub Təbii Qaz Dəhlizinin yaradılmasına dair bəyannamə imzalanmışdır. Bu saziş təkcə Azərbaycan qazının Avropa bazarında satış üçün deyil, həm də Avropanın enerji təhlükəsizliyi üçün yeni imkanlar yaradırdı.

2007-ci ilin fevralında Prezident İlham Əliyevin Almaniya Federativ Respublikasına rəsmi səfəri ikitərəfli əməkdaşlığın yeni mərhələyə daxil olduğunu təsdiqləməklə bir sıra mühüm nəticələrlə yadda qalmışdır. Əldə edilən nəticələr deməyə əsas verir ki, qloballaşan dünyanın mühüm güc və siyasət mərkəzlərindən biri kimi çıxış edən Almaniya əlverişli coğrafi mövqeyinə, zəngin təbii resurslarına və demokratik inkişaf səviyyəsinə görə Cənubi Qafqazın lider dövlətinə çevrilmiş Azərbaycanla əməkdaşlığın daha da dərinləşməsinə, respublikamızın Avrostrukturlara daha dinamik inteqrasiyasına ciddi maraq göstərir [10]. Rəsmi Berlin Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərini reallaşdıran Azərbaycanın bütövlükdə Avropanın enerji təhlükəsizliyindəki mühüm rolunu yüksək qiymətləndirir. Prezident İlham Əliyev Almaniyaya işgüzar səfəri çərçivəsində Münxen Təhlükəsizlik Konfransının "Təbii sərvətlərin təhlükəsizliyi və dəyişən qlobal güc" mövzusunda müzakirələrdə iştirak etmişdir. Qeyd edək ki, Münxen Təhlükəsizlik Konfransı son onilliklər ərzində dünyanın əsas təhlükəsizlik siyasəti tədbirinə çevrilmişdir. Hər il dünyanın aparıcı siyasi xadimlərinin iştirak etdiyi bu konfransda intensiv olaraq indiki və gələcək təhlükəsizlik problemləri müzakirə olunur. Prezident İlham Əliyev konfransda çıxışı zamanı bildirmişdi: "Enerji şaxələndirilməsi sahəsində görülən işlər bu gün sonrakı inkişaf üçün yaxşı imkanlar yaradır. 2007-ci ildən əvvəl Azərbaycan qaz idxal edirdi. Lakin bizim işlənilməsinə başladığımız böyük qaz yataqlarımız vardır. Hazırda isə Azərbaycan nəinki öz daxili tələbatını təmin edir, o cümlədən qazı müxtəlif istiqamətlərdə ixrac edir. Ölkəmizdə qaz hasilatının həcmi artır. Umid edirik ki, bu il qaz hasilatının həcmi 30 milyard kubmetrə yaxın olacaqdır. Daxili tələbatın həcmi isə hasil olunacaq həcmin təxminən üçdə birinə bərabərdir.Almaniya isə gələcəkdə ölkəsinin enerjiyə artan daxili tələbatını nəzərə alaraq Azərbaycandan idxal edəcəyi neft və təbii qaz hesabına alternativ enerji mənbəyi qazanmaq niyyətindədir. Bundan başqa, respublikamızın Avropa İttifaqı ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi mühüm geosiyasi əhəmiyyət kəsb edən proses olaraq Almaniya üçün də vacib önəm daşıyır. Məhz buna görə də bir çox Qərb mediasında Angela Merkelin 2018-ci ildə Cənubi Qafqaza, xüsusilə də Azərbaycana səfərinin arxasında əsas məqsədin Almaniyanın Avropanın enerji mənbələrinin diversifikasiyası olduğu haqlı olaraq iddia edilmişdi.

Merkelin Azərbaycan və Gürcüstana səfərləri ilə Almaniyanın "Şimal axını-2" qaz kəməri variantlarını ciddi şəkildə araşdırdığı görünür [8]. Bu addımı Almaniyanın xarici işlər naziri Heiko Maasın ABŞ ilə nüvə sazişini canlı saxlamağa kömək edə biləcək bir ödəniş sistemi yaratmaq üçün Avropaya etdiyi son çağırışla birlikdə şərh etmək məqsədəuyğun olardı. Bu hadisələr Almaniyanın Cənubi Qafqazda milli maraqları və Aİ-nin maraqlarını nəzərə alaraq uzaqgörən siyasət yürütməyə çalışdığına işarə kimi qiymətləndirilə bilər. Əslində, Rusiya, İran, Azərbaycan, Qazaxıstan və Türkmənistan arasında Xəzərin necə bölünməsi ilə bağlı son sərhəd sazişi mühüm hadisədir. Bu saziş gələcəkdə türkmən qazını Azərbaycan və Türkiyə üzərindən Avropaya çatdıra bilər. Bir sözlə, Merkelin Cənubi Qafqaz ölkələrinə, xüsusən də Azərbaycan və Gürcüstana son səfərləri geosiyasi baxımdan mühüm regiona strateji səfər kimi qələmə verilməyə layiq görünür. Almaniyanın İqtisadiyyat və Energetika Nazirliyinin dövlət katibi Tomas Bareiss bildirib ki, Xəzər qazının dəhliz vasitəsilə Avropaya göndərilməsi Azərbaycanın mühüm töhfəsidir. "Tarixdə ilk dəfə olaraq [Cənub Qaz Dəhlizi] Aİ ölkələrinə Xəzər regionundan qaza birbaşa çıxışı təmin edəcək", - deyə Bareiss Emerging Europe-un hesabatında bildirib. "Bu, həm də o deməkdir ki, Azərbaycanın Avropa üçün qaz tədarükçüsü və tranzit ölkə kimi rolu artacaq. Beləliklə, Azərbaycan yeni bazara çıxmaqla bundan faydalanacaq".28 ölkədən və ümumi əhalisi 512 milyon nəfərdən ibarət Avropa İttifaqı, daxili resursların çatışmazlığını nəzərə alsaq, enerji ixracatçıları üçün ən böyük və ən məhsuldar bazarlardan biri hesab olunur. Rusiya onilliklər ərzində qitənin təbii qaz bazarında dominantlıq edir, lakin bu illər ərzində Rusiyanın iştirakı ilə baş verən bir sıra geosiyasi hadisələr Avropa liderlərini başqa bazarlara – Xəzər regionuna da baxmağa vadar edib. Enerji daşıyıcılarına tələbatın artması fonunda Azərbaycan Almaniyanın enerji təchizatının şaxələndirilməsi səylərində mühüm rol oynamağa davam edir. Azərbaycanın "yaşıl energetika" və hidrogen əsaslı energetika sahəsindəki strategiyası texnologiyalar təklif edən Almaniya şirkətləri üçün cəlbedici olacaq.

Qeyd olunmalıdır ki, hal-hazıra qədər Azərbaycan Avropanın enerji təhlükəsizliyi məsələlərinin həllinə öz töhfəsini verməkdədir. Zəngin neft-qaz ehtiyatlarına malik olan respublikamız yaxın gələcəkdə Avropa Birliyi ölkələri ilə daha sıx əməkdaşlıq etmək niyyətini ortalığa qoymuşdur. Bu gün Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında mövcud olan münasibətlərin

səviyyəsi onu deməyə əsas verir ki, Azərbaycan Avropa İttifaqına və digər avrostrukturlara inteqrasiya prosesində rəsmi Berlinin hərtərəfli dəstəyinə ümid edə bilər. Almaniya isə öz növbəsində, Cənubi Qafqazın aparıcı ölkəsi sayılan Azərbaycanla əməkdaşlığı dərinləşdirmək üçün səylərini daha da artırmaq niyyətindədir. Bu da şübhəsiz ki, iki dövlət arasında münasibətlərin bütün spektrlərinin inkişafına xüsusi təkan verəcəkdir.

**Açar sözlər:** *Azərbaycan Respublikası, Almaniya Federativ Respublikası, Avropa İttifaqı, dünya siyasəti, enerji sektoru, iqtisadi əlaqələr, inteqrasiya, diversifikasiya, təhlükəsizlik, əməkdaşlıq.*

## ƏDƏBİYYAT SİYAHISI

1. Heydər Mirzə "Azərbaycan-Almaniya münasibəti", Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri , Bakı-2017, 468 s.
2. Abdullayev Ç. “Almaniya-Azərbaycan əlaqələri” – “Azərbaycan Milli Ensiklopediyası”, 2000.- 153 s.
3. Zeynalova S. “Азербайджано-Германские Отношения в Контексте Интеграции Азербайджана в Европейское Общество”, Mütərcim-Bakı-2008, 34 s.
4. Həsənov Əli. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı-2005, 752 s.
5. www.mfa.gov.az
6. https://525.az/?name=xeber&news_id=58570
7. https://lib.aliyevheritage.org/az/687645.html
8. https://president.az/articles/20230
9. http://unec.edu.az/application/uploads/2018/11/AZERBAYCAN-ALMANYA-L-K-LER-VE-AZERBAYCAN-BASININA-YANSIMASI-1991-1993.pdf
10. http://www.anl.az/down/meqale/azerbaycan/2010/fevral/107739.htm

**Айнур АЛЛАХВЕРДИЕВА**
**Магистр, Бакинский Государственный Университет**

### Общая характеристика энергетического сотрудничества между Азербайджанской Республикой и Федеративной Республикой Германия на современном этапе

### РЕЗЮМЕ

В статье анализируется текущее состояние и перспективы сотрудничества в энергетической сфере с Азербайджаном, основным экономическим партнером Федеративной Республики Германия (ФРГ) в регионе Южного Кавказа. Также был подчеркнут вклад Азербайджана в решение проблем энергетической безопасности Европы и намерение Германии активизировать усилия по углублению сотрудничества с Азербайджаном, ведущей страной Южного Кавказа. В то же время уровень отношений между Азербайджаном и Германией дает основание полагать, что Азербайджан может рассчитывать на полную поддержку официального Берлина в процессе интеграции в Европейский Союз и другие европейские структуры.

**Ключевые слова:** *Азербайджанская Республика, Федеральная Республика Германии, Европейский Союз, мировая политика, энергетический сектор, экономические отношения, интеграция, диверсификация, безопасность, сотрудничество.*

**Aynur ALLAHVERDIYEVA**
**Master, Baku State University**

### General characteristics of energy cooperation between the Republic of Azerbaijan and the Federal Republic of Germany in modern times

### SUMMARY

The article analyzes the current situation and prospects for cooperation in the energy sector with Azerbaijan, the main economic partner of the Federal Republic of Germany (FRG) in the South Caucasus region. The contribution of Azerbaijan to the solution of Europe's energy security issues and Germany's intention to increase efforts to deepen cooperation with Azerbaijan, the leading country in the South Caucasus, were also highlighted. At the same time, the level of relations between Azerbaijan and Germany gives reason to believe that Azerbaijan can count on the full support of official Berlin in the process of integration into the European Union and other European structures.

**Keywords:** *Republic of Azerbaijan, Federal Republic of Germany, European Union, world politics, energy sector, economic relations, integration, diversification, security, cooperation.*

UOT 327; 339.9

# MİQRASİYAYA DAİR BEYNƏLXALQ HÜQUQ NORMALARININ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

**RASİM RZAXANOV**
*BDU-nun Beynəlxalq münasibətlər kafedrası, dissertant*

*E-mail: rasimrzaxanov@mail.ru*

Hər kəsin istənilən ölkəni, o cümlədən öz ölkəsini tərk etmək və qayıtmaq hüququ insan hüquqlarının əsas sənədi olan BMT-nin 10 dekabr 1948-ci il tarixli İnsan Hüquqları haqqında Ümumdünya Bəyannaməsində təsbit edilmişdir [1, s.40]. Beləliklə, əhalinin miqrasiyasının özü insan haqlarından biri kimi qəbul edilir. Nəzərə alsaq ki, dünya əhalisinin hər yeddi nəfərindən biri miqrant, hər dörd nəfərdən biri isə beynəlxalq miqrantdır, iqtisadi inkişafda miqrantların rolunu nəzərə almağa dəyər. ABŞ, Böyük Britaniya, Almaniya Federativ Respublikası, Kanada və Avstraliya Birliyi kimi ölkələrdə miqrantların sayı və ölkənin iqtisadi və siyasi həyatında iştirak səviyyəsi əhəmiyyətlidir [2, s.30].

Bir çox Avropa ölkələri, xüsusilə Almaniya II Dünya Müharibəsindən sonra iqtisadi inkişafa nail olmaq və əmək qabiliyyətli insanların ehtiyacını ödəmək üçün bir çox keçmiş müstəmləkələrin və üçüncü dünya ölkələrinin sakinlərinin üzünə qapılarını açmış, qanunlarında bu problemlərin həlli istiqamətində addımlar atmışdır. Daha sonra, 1960-1970-ci illərdə Aralıq dənizi ölkələrindən müvəqqəti miqrantların "qonaq işçi" statusu ilə qəbulu davam edirdi. Lakin 1970-ci illərin ortalarında bu müvəqqəti status anlayışının yalnız kağız üzərində qaldığı müşahidə edilirdi. 1973-cü il "Neft Böhranı" və ondan sonrakı iqtisadi tənəzzül də Avropanın miqrasiya siyasətində dönüş nöqtəsi oldu. Bu iqtisadi böhran nəticəsində Avropa ölkələri işsizlik problemi ilə üzləşib və bu ölkələr öz vətəndaşlarının belə məşğulluq problemini həll edə bilmirlər. Belə olan halda Avropa ölkələri xaricdən gələn miqrasiya dalğasını dayandırmaq qərarına gəliblər. Lakin bu, birdən-birə mümkün olmadı, çünki miqrantların gəldikləri ölkələrdə həyat şəraitini çətinləşdirən amillər, eləcə də Avropadakı əlverişli həyat şəraiti miqrasiya proseslərinin qarşısıalınmaz bir tora çevrilməsinə səbəb oldu. Burada qeyd olunan miqrasiya dalğası müasir dövrdə xeyli azalsa da, yerini dünyanın müxtəlif yerlərindən sığınacaq axtaran şəxslərə və qaçqınlara buraxıb. Sonrakı dövrdə Avropa ölkələrinin miqrasiya proseslərinin qarşısının alınması istiqamətində səyləri uğursuzluqla üzləşdi. Avropa Birliyi daha bir neçə miqrasiya dalğasını qəbul etməli oldu.

1980-ci illərdə İtaliya, İspaniya, Yunanıstan, Portuqaliya kimi ölkələr əvvəllər əmək qabiliyyətli əhalini ixrac edən ölkələr mövqeyində olsalar da, 80-ci illərdən etibarən onlar da miqrantları qəbul edən ölkələrə çevrildilər [3, s.101]. Miqrasiya dalğalarından biri də "Soyuq müharibə"nin başa çatması və Qərbi Avropa dövlətlərinin şərqdən gələn köç dalğası ilə üz-üzə qalması hesab olunur. Bu dövrdə Bosniya müharibəsi və dünyanın digər bölgələrində də yaşanan müharibələrin nəticələrindən təsirlənən insanlar Avropaya axın edərək qaçqın statusu üçün müraciət etməyə başladılar [4, s.76].

Təəssüf ki, dövlətin demokratik dəyərlərə, insan hüquq və azadlıqlarına hörməti həmişə ideal miqrasiya üçün əsas olmur. Belə ki, dünyaya demokratiya dərsi keçən ABŞ-da XX əsrin 20-ci illərində miqrasiya sahəsində tətbiq edilən kvotalaşma Avropadan gələnlərə şamil edilməyərək, ancaq irqi fərqlərə görə müəyyən edilmişdir. Yalnız 1952-ci ildə qəbul olunan "İmmiqrasiya və vətəndaşlıq barədə Makkaren-Uolter Aktı" kimi tanınan sənəd ilə irqi məhdudiyyətlər qismən aradan qaldırıldı [5, s.117].

Müasir dövrdə, xüsusən də, son 20 ildə müşayiət olunan ən mühüm miqrasiya problemlərindən biri də qanuni yollarla Avropaya gedə bilməyənlərin bunu qeyri-qanuni vasitələrlə həyata keçirərək yaratdığı problemdir. Bununla yanaşı, qaçqın probleminin yaranmasının əsas səbəblərindən olan dünyanın müxtəlif regionlarında mövcud narahatlığın daha da artması, miqrantların da son illərdə yüksək sürətlə artmasına təkan vermişdir [6, s.185].

Avropa İttifaqında əsas vəzifə yeni miqrasiya axınlarının qarşısının alınması və ölkəyə gələn qaçqınların inteqrasiyasına çalışmaqdır və bu məsələ hazırda dünya ictimaiyyətinin gündəmindədir. XX əsrin sonlarından Avropa İttifaqı vətəndaşı olmayanların inteqrasiyası və ya təcrid edilməsi istiqamətində Avropa ölkələrində həyata keçirilən üç model nəzərə çarpmaqdadır [6, s.244-250]:

• Assimilyasiya modeli. Bu modelin ən bariz nümunəsi Fransada görülməkdədir. Belə ki, bu ölkəyə gələn miqrantların dil, mədəniyyət və sosial xarakter baxımından yaşadığı topluma uyğunlaşmalı olduğu düşüncəsi hakimdir və bunu təmin etmək istiqamətində siyasət aparılır. Bu siyasətin təməlində isə ölkəyə

gəlməsinə icazə verilən miqrantlara vətəndaşlıq verilməsi və onların bu yolla assimilyasiyasının həyata keçirilməsi dayanır.

• Təcrid siyasəti. Bu modeldə hökumətlər və yerli xalq miqrantları öz xalqlarının bir üzvü olaraq qəbul etmirlər. Həmçinin, burada miqrantların iqtisadi, sosial, mədəni və siyasi hüquqlara sahib olması da məhdudlaşdırılmışdır. Bu modelin ən bariz nümunəsi isə Almaniyadır.

• Multikultural model. Böyük Britaniyada bu model miqrantlara dil, mədəni və sosial fərqliliklərini itirmədən yerli əhali ilə bərabər iqtisadi, sosial və siyasi hüquqların verilməsini nəzərdə tutur.

Bu modellər həm ölkələrin miqrantlara istiqamətlənən siyasətinin müəyyən edilməsində, həm də ölkələrin Avropa İttifaqı üzvü olmayan miqrantlara vətəndaşlıq verilməsi qanunlarının məzmununun müəyyən edilməsində mühüm rol oynamaqdadır. Ancaq Avropa İttifaqının ortaq siyasət tətbiq etmə məqsədinin güclənməsi, ölkələrdəki siyasi hakimiyyətlərin təsiri və qloballaşmanın genişlənməsi ilə yuxarıda sadalanan konkret modellərdən uzaqlaşma, yavaş-yavaş ortaq bir nöqtədə anlaşma istiqamətində irəliləmə baş tutur. Buna misal olaraq, XX əsrin sonlarında Almaniyada Sosial Demokrat – Yaşıllar koalisiyasının vətəndaşlıq qanununda etdiyi dəyişikliklə, xüsusilə, miqrantların Almaniyada doğulan uşaqlarına vətəndaşlıq hüququnun verilməsi və vətəndaşlığa keçid üçün tələb olunan şərtlərin qismən azaldılması Almaniyanın təcrid modelindən uzaqlaşıb, assimilyasiya modelinə yaxınlaşmasının bir göstəricisi kimi qəbul edilə bilər. Eyni formada Fransada da miqrantlara və onların uşaqlarına verilən vətəndaşlıq hüquqlarının və digər sosial hüquqların məhdudlaşdırılması, Fransanın assimilyasiya modelindən təcrid modelinə doğru istiqamət götürməsi kimi qəbul edilə bilər. Eləcə də, multikultural modelin bariz daşıyıcısı olan Böyük Britaniyanın qanunlarında edilən dəyişikliklərdən sonra miqrantlara qarşı tətbiq olunan siyasətin məhdudlaşdırma istiqaməti aldığı, təcrid siyasətinə keçid etdiyi müşahidə olunur. Bu tip ölkələrin Avropa İttifaqı siyasəti çərçivəsində məhdudlaşdırıcı hüquqlara doğru ortaq bir istiqamətə getdiyi müşahidə olunur [7, s.12-50].

Avropa İttifaqı ölkələrinin miqrasiya mövzusunda əməkdaşlığa məcbur edilməsinin səbəblərindən biri də bəzi üzv dövlətlərin işçi ehtiyaclarını ödəmək və ucuz işçi qüvvəsi idxal etmək üçün iqtisadi səbəblərdən miqrantları qəbul etməyə davam etməsi və bu vəziyyətin Birlik ölkələri arasında rəqabət mühitinə zərər vurması idi [6, s.185].

Avropa ölkələrinin insanların sərbəst hərəkətini təmin etmək üçün atdıqları ən mühüm addımlardan biri Böyük Britaniya, Danimarka və İrlandiya istisna olmaqla, 12 Avropa İttifaqına üzv dövlətin imzaladığı və 1995-ci ildə qüvvəyə minən Şengen sazişidir. Bu müqavilə ilə Avropa ölkələri sərhədlərini və nəzarətlərini götürərək sərbəst hərəkət edə bildiyi halda, həm də xarici sərhədlərin ortaq və daha müvəffəqiyyətli bir şəkildə qorunmasını təmin etməyə, bununla da mühacir axınının qarşısını almağa çalışırdılar.

Daha sonra qəbul olunan Dublin Şərti də Aİ üzvü ölkələrdən sığınacaq almaq üçün müraciət edənlərə qarşı tətbiq olunacaq prinsipləri müəyyənləşdirir və sistemləşdirirdi. Maastrix müqaviləsi ilə əsası qoyulan bu prosesə qədər olan müddətdə miqrasiya məsələləri Avropa daxilində millətüstü səviyyədə deyil, millətlərarası əməkdaşlıq səviyyəsində həll olunurdu [8, s.95]. Maastrix müqaviləsi imzalanana qədər Avropanın miqrasiya siyasəti milli səviyyədə ölkələrarası əməkdaşlıq əsasında yerinə yetirilmişdir. Avropa İttifaqının başçılığı ilə ölkələrdə tətbiq olunan bu məhdudlaşdırıcı siyasətinin Birlik üzvü olmayanların təcrid edilməsi, üzvlərinin isə sərbəst hərəkətinin təmin edilməsi məqsədi daşıması onun “Avropa qalası siyasəti” adını almasına səbəb olmuşdu [8, s.109].

1993-cü ildə qüvvəyə minən Maastrix müqaviləsində “ortaq maraqlar” olaraq qiymətləndirilməsinə baxmayaraq miqrasiya, sığınacaq verilməsi, viza kimi məsələlər İttifaqın qurumları tərəfindən deyil, hökumətlərarası bir perspektivlə ələ alınacaq şəkildə “ədliyyə və daxili işlər” məsələlərini əhatə edən üçüncü sütun çərçivəsinə salındı. Yalnız 1997-ci ildə qəbul edilmiş Amsterdam müqaviləsi mühüm bir addım olaraq miqrasiya, sığınacaq verilməsi, sərhədlərə nəzarət edilməsi kimi problemlərin həlli məsələlərini ümumittifaq siyasətinin yer aldığı birinci sütuna aid etdi. Ancaq bu məsələlərdə yenə də Avropa Parlamentinin təsiri zəif qalmış, qərarların səs çoxluğu ilə alınacağı Şurada hökumətlərarası anlaşma prinsipi saxlanılmışdı. Eyni zamanda, digər birinci sütun məsələlərindən fərqli olaraq, sadəcə Avropa Komissiyası deyil, üzv ölkələr də miqrasiya məsələləri ilə bağlı qərar layihəsi təqdim etmə hüququnu özündə saxlayacaqdı [9, s.121].

“Avropa İttifaqının fəaliyyəti haqqında” Maastrix müqaviləsinin 78-ci maddəsi dövlətlərin 1951-ci il Cenevrə Konvensiyasından irəli gələn öhdəliklərinə hörmətlə yanaşacaq Ümum Avropa Sığınacaq Sisteminin yaradılmasını nəzərdə tutur [10, s.12]. Birlik səviyyəsində və ayrıca üzv ölkələrdə həyata keçirilən qaçqınların vəziyyəti ilə bağlı siyasət 1951-ci ildə

qəbul edilmiş "Qaçqınların statusu haqqında" Cenevrə konvensiyasının bu ölkələrə tətbiqi müxtəlif kateqoriyalı "Qaçqın statusları"nın yaranmasına səbəb olmuşdur [10, s.9]:

Birinci kateqoriya Cenevrə Konvensiyasında qeyd olunduğu kimi, qaçqın statusu almış və siyasi hüquqlar istisna olmaqla, sığınacaq ölkələrinin vətəndaşları ilə eyni hüquqlardan istifadə edən miqrantlara aiddir.

İkinci kateqoriyaya "de fakto qaçqın" və ya "insani status" və ya Böyük Britaniyada deyildiyi kimi, "ölkədə müstəsna olaraq qalma hüququ verilən qaçqınlar" aid edilə bilər. Son illərdə sığınacaq axtaran şəxslərin sayında həddən artıq artımın yaşanması qarşısında ölkələr iqtisadi, siyasi və sosial səbəblərdən qaçqın qəbul etmək istəməsələr də, insani səbəblərdən bu insanların ölkələrində qalmasına razılıq verdilər. Ancaq bu insanlara digər qaçqınlara verilən iqtisadi və sosial hüquqlar verilməməkdədir. Avropada mövcud qaçqın kateqoriyalarından üçüncüsünün yaranmasının əsas səbəbi Yuqoslaviyanın dağılmasıdır. Çünki xüsusən bu prosesdə meydana gələn müharibələrdən sonra Avropanın yükünün artacağı düşüncəsi Avropa ölkələrini bu yeni kateqoriyanı yaratmağa məcbur etdi. Bu yeni kateqoriya "Müvəqqəti müdafiə (temporary protection)" adlana bilər. Avropa dövlətləri bu statusla qəbul etdiyi miqrantların müharibələr bitdikdən sonra öz dövlətlərinə qayıdacağına ümid etdiyindən və BMT-nin Qaçqınlarla İş üzrə Ali Komissarlığının təzyiqi ilə bu yeni kateqoriyanın yaradılmasına məcbur olmuşdu.

Xüsusilə Britaniya və həmçinin digər Avropa ölkələrində qaçqınların sayının artması siyasi gündəmə yeni bir miqrant-qaçqın qruplaşmasını gətirdi: Saxta sığınacaq axtaranlar ( Bogus asylum seekers) – Həqiqi sığınacaq axtaranlar (Gencin asylum seekers). Birinci qrupa aid olan sığınacaq axtaran şəxslərin əslində iqtisadi məqsədlərlə miqrasiya etdikləri, lakin iqtisadi miqrasiyaya bu ölkələr tərəfindən icazə verilmədiyi üçün təqibə məruz qaldıqlarını iddia edərək qaçqın statusundan yararlanmaq cəhdləri etdiklərinə inanılmaqdadır və bu insanlara qaçqın statusunun verilməməsi barədə ictimai fikir mövcuddur. İkinci qrupa aid olan sığınacaq axtaran şəxslərin isə həqiqətən öz ölkələrində təqiblərə məruz qalmasına inanılır və onlara qaçqın statusunun verilməsinin vacibliyi qəbul olunur.

Müasir dövrdə yaşanan problemlər Avropanın ortaq miqrasiya siyasətinə də təsirsiz ötüşmədi. Ərəb Baharı hadisələrindən sonra miqrantların Avropaya axını Şengen sazişinə dəyişikliklər məsələsini gündəmə gətirdi. Şengen zonası sadəcə daxili sərhədləri aradan qaldırıb, xarici sərhədlərə nəzarətdə koordinasiya qurmağa yox, həm də ortaq viza siyasəti, polis və ədliyyə əməkdaşlığı, qanunsuz miqrantların geri göndərilməsi və Şengen İnformasiya Sistemi kimi ortaq informasiya bazasının yaradılmasına əsaslanır. Şengen müqaviləsi 1985-ci ildə Almaniya, Fransa, Belçika, Niderland, Lüksemburq arasında imzalanmış, ilk dəfə 1995-ci ildə bu ölkələr və əlavə olaraq İtaliya, Portuqaliya, Yunanıstan, İspaniya arasında sərhədlər qaldırılmış, 1997-ci ildə Avstriya, 2000-ci ildə Danimarka, İsveç, Finlandiya və Birliyə üzv olmayan İslandiya və Norveç anlaşmaya daxil olmuş və aralarındakı sərhədləri qaldırmışdır [11, s.665-682].

Miqrasiya prosesində təhlükəsizliyin təmin edilməsi burada diqqət yetirilməli məsələlərdən biridir. Beləliklə, Şengen zonası İttifaq daxilində daxili sərhədləri ləğv edərkən, qeyri-qanuni miqrasiya və mütəşəkkil cinayətkarlığın qarşısının alınmasında Birlik sərhədləri üzərində nəzarətin gücləndirilməsi daha da vacib oldu. Sərhəd nəzarətinin gücləndirilməsi Aİ daxilində bir azadlıq, təhlükəsizlik və ədalət sahəsinin yaradılması prosesinin mühüm əhəmiyyətli bir hissəsidir. Beləliklə, Şengen hüququ və sərhədlərin idarə edilməsi ilə əlaqəli hökmlər azadlıq, təhlükəsizlik və ədalət sahəsi yaratma siyasətinin ən spesifik hissəsi kimi qarşımıza çıxır [11, s.667].

Bu arada hüquqi bir status dəyişikliyi edilərək 1999-cu ildə Şengen anlaşması "İttifaq haqqında" müqavilənin tərkib hissəsi halına gətirilmiş, beləliklə, müqavilə Avropa hüquq sisteminin tərkibinə daxil edilmiş və müqavilə tərəfləri olan ölkələrin tək-tək və ya qrup halında müqavilənin şərtlərini pozmalarının və ya dəyişdirmələrinin qarşısı alınmışdır. Hətta sərhəd nəzarətində həyata keçiriləcək bütün qanunlara Avropa Komissiyasının təsdiqi məcburiyyəti gətirilmişdir.

1999-cu ildə Finlandiyanın Tampere şəhərində keçirilən toplantıda birliyin sığınacaq və miqrasiya ilə bağlı birgə fəaliyyət planı yaratması qərara alınıb. Plana görə, bunlar əsas hədəflər idi [11, s.672]:

İnsani məqsədlər ilə iqtisadi narahatlıq arasında balansı qura biləcək ətraflı perspektivə sahib olmaq; üçüncü bir ölkə vətəndaşlarına yaşadıqları ölkənin vətəndaşları ilə bərabər hüquqlar verilməsini təmin edəcək ədalətli bir sistemin inkişafı; miqrantların gəldikləri ölkələrə yardım edə biləcək ortaqlıqlar qurmaq; Cenevrə və digər beynəlxalq konvensiyalara bağlı qalaraq ortaq bir miqrasiya siyasətinin yaradılamsı.

Tampere zirvəsində ortaq siyasətin ilkin olaraq iki mərhələdə həyata keçirilməsi nəzərdə tutulurdu: Minimal standartların yaradılması və əsas sahələrdə qanunların harmonizasiyası [12, s.261].

2007-ci ildə daha doqquz ölkə Şengen sazişinə qoşularaq sərhədlərini ləğv etdi. 2009-cu ildə hava limanı sərhədlərinin ləğvi ilə İsveçrə və 2011-ci ilin dekabrında Lixtenşteyn sərbəst hərəkət sisteminə qoşuldu.

"Ərəb baharı" nəticəsində qaçqın probleminin kəskinləşməsi Avropada Şengen zonası anlayışının da sorğulanmasına səbəb oldu. Belə ki, Şimali Afrikadan gələn qaçqın axınını digər ölkələrlə də bölüşmək istəyən İtaliyanın bu mövzu ətrafında Fransa ilə yaşadığı problemlər, Danimarkanın qeyri-qanuni miqrasiya və digər cinayət hallarını əngəlləmək üçün Almaniya ilə olan sərhəddində daimi nəzarətə başlama qərarı Şengen zonasına daxil olan 23 ölkənin ortaq viza məsələsini müzakirə etməsinə səbəb oldu. İtaliya və Fransa Şimali Afrikada olan narahatlıq səbəbindən Avopaya istiqamət alan miqrant axınının qarşısını almaq üçün Şengen anlaşmasına qismən düzəliş edilməsi və bəzi şərtlər daxilində sərhəd nəzarəti həyata keçirilməsinə icazə verilməsini tələb etməyə başladı. Vəziyyətlə əlaqədar Avropa Komissiyası isə bu sərhəd nəzarətlərinin ən çoxu 5 gün müddətində həyata keçirilə bilməsinin mümkünlüyü ilə bağlı təklif vermiş və bu 5 günlük müddətin digər üzv ölkələrin də razılığı ilə uzadılmasının mümkünlüyünü qeyd etmişdi. Nəticədə Almaniya, Fransa və İspaniya kimi ölkələr Komissiyanın sadəcə Şengen zonasının vəziyyətini təhlükə altında qoyan istisna hallarda məsələyə müdaxilə etməsini, digər hallarda isə qərar qəbulunun üzv ölkələrin öhdəsinə verilməsini təklif edir. Digər dövlətlər tərəfindən də təklifin qəbul olunması ilə "qanunsuz miqrasiya" hallarında da qərar qəbulu üzv dövlətlərin öhdəsinə buraxılmışdır. Ancaq bu hal etirazların da səslənməsinə səbəb olur. Belə ki, Avropa Parlamenti fövqəladə hallarda dövlətlərin sərhəd nəzarət rejimini həyata keçirə bilməsinin qəbulu ilə Avropa İttifaqı vətəndaşları olan şəxslərin də hərəkətinin məhdudlaşdırıla biləcəyindən ehtiyat edir.

Mövcud miqrasiya problemi Avropa Birliyinin miqrasiya siyasətinin tərkib hissəsi kimi qəbul edilən Dublin sazişində də problemlər yaratdı. Müqaviləyə əsasən, Birlikdən olan sığınacaq axtaran şəxsə sığınacaq üçün müraciət etdiyi ilk Üzv Dövlət tərəfindən sığınacaq verilməlidir.

Bir şəxsin bir neçə üzv ölkədən sığınacaq istəməsinin qarşısını almağı hədəfləyən saziş, eyni zamanda həmin şəxsin müntəzəm olaraq bir ölkədən digərinə səyahət etməsinin qarşısını almaq məqsədi daşıyır.

Müqaviləyə görə, sığınacaq axtaran şəxsin İttifaqa daxil olduğu ölkədə sığınma hüququ vardır və bu sığınacaq tələbinin rədd olunması zamanı şəxs məhkəməyə müraciət edə bilər. İrlandiyanın paytaxtı Dublində 1990-cı ildə imzalanan müqavilə 1997-ci ildən qüvvəyə mindi. Əvvəlcə, 12 Avropa ölkəsi - Belçika, Danimarka, Fransa, Almaniya, Yunanıstan, İrlandiya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, İspaniya və Britaniya tərəfindən imzalanan müqaviləyə həmin ildə Avstriya və İsveç, 1998-ci ildə də Finlandiya imza atdı. Avropa Komissiyası 2008-ci ildə müqavilənin genişləndirilməsini təklif edib. Yenilənmiş müqaviləyə 2013-cü ildə Danimarkadan başqa bütün Avropa İttifaqı dövlətləri qoşuldu. Burada nəzərdə tutulurdu ki, bir İttifaq ölkəsindən sığınacaq üçün müraciət edən şəxs qanunsuz yollarla başqa bir üzv ölkənin ərazisinə keçərsə, əvvəlki ölkəyə geri qaytarılmalıdır.

Son illərdə Avropaya mühacir axınının yaratdığı problemlər bu razılaşmadan da yan keçmədi. Bu səbəbdən İtaliya, Yunanıstan kimi miqrasiya problemini həll edə bilməyən ölkələrdən çoxlu qaçqın Avropaya daxil olur. Bundan əlavə, Dublin sazişinin icrasını çətinləşdirən amillərdən biri də Macarıstanın qəbul etdiyi qərar idi. Belə ki, 23 iyun 2015-ci ildə ölkə narazı qalan çoxlu sayda qaçqının sığınacaq ərizəsini qəbul etməmək qərarına gəlib. Bu qərar bir çox qaçqının digər Avropa ölkələrinə qaçmağa və orada qalmağa çalışmasına səbəb oldu.

Miqrantların axınının qarşısını almaq üçün Serbiya ilə sərhəddinə bir tel divar inşa edəcəyini bildirən Macarıstan hökuməti, həmçinin Dublin müqaviləsini də təxirə saldı. Dublin müqaviləsini təxirə salan bir digər üzv dövlət - Almaniya isə Macarıstandan fərqli bir yol izləyərək, suriyalı qaçqınların məsələsinə baxılacağını dilə gətirdi. Almaniya və Finlandiya kimi ölkələr qaçqınları sığınacaq müraciətlərinə tab gətirə bilməyəcək vəziyyətdə olan Yunanıstan kimi ölkələrə göndərməyi də dayandırmışdı. Çexiya isə sentyabrın 2-də Dublin müqaviləsinə qarşı çıxaraq müraciətlərin ölkədə dəyərləndiriləcəyini bildirdi [13].

Avropanın ucuz işçi qüvvəsinə ehtiyacı çoxlarının Avropanın böyük şəhərlərinə axışmasına səbəb olub. Almaniyada miqrantlar Berlin, Köln, Frankfurt, Münhen, Ştutqart, Dortmund kimi şəhərlərdə, Niderlandda Amsterdam, Rotterdam və Utrextdə, Fransada isə Alp dağlarının ətəklərində məskunlaşmışlar. Böyük Britaniyada isə miqrantlar əsasən London, Mançester, Qərbi Yorkşayr, Qərbi Midland kimi ərazilərdə yaşayırlar. Bu ərazilərin hər biri adıçəkilən ölkələrin ən mühüm inkişaf mərkəzləri hesab olunur [14, s.14].

1970-ci illərdə iqtisadi tənəzzüllə əlaqədar işçi axını yavaşladı və 1980-ci illərdən etibarən müsəlmanlar sığınacaq axtaran və qaçqınlar vasitəsilə Livan, İran, İraq və Əfqanıstan kimi ölkələrdən Şimali Avropa-

ya köç etməyə başladılar. 1990-cı illərdə miqrasiya əsasən parçalanmış Yuqoslaviya və Somali kimi müsəlman Afrika ölkələrindən Avropaya miqrantlar tərəfindən yönəldildi [15, s.23].

Beynəlxalq Amnistiya Təşkilatının 2010-cu ildə üzə çıxan məruzəsində verilənlərə görə, Avropanın hər hansı bir bölgəsində və ya Şimali Avropa ölkələrində yaşayan müsəlmanların nisbəti ümumi əhalinin 10%-dən daha azını təşkil edir. Müsəlmanların cəmi sayı Belçikada əhalinin 6%, Fransada 7.5%, Hollandiyada 5.5%, İspaniyada 2.3%, İsveçrədə 5.7%, Almaniyada 5%, Britaniyada 4.6%-ni təşkil edir. Bu ölkələrdən bəziləri müsəlman əhaliyə öz vətəndaşlıq statusunu vermişdir. Fransada yaşayan 2 milyondan çox müsəlman vətəndaşlıq hüququna sahibdir, Belçikada isə müsəlman əhalinin 55%-i bu hüquqa malikdir. Bununla yanaşı, İsveçrədə isə çox kiçik azlıq olan müsəlmanların cəmi 1%-i bu ölkənin vətəndaşı adını ala bilib. Avropanın müsəlman nüfuzu əvvəlki illərə nisbətən daha aşağı sürətlə, lakin davamlı şəkildə artmaqdadır. 2030-cu ilə olan proqnozlarda Fransa, Belçika və İsveçdə yaşayan müsəlmanların ölkənin cəmi nüfuzunun 10%-ni, İsveçrə, Hollandiya və Britaniyada 8%-ni, Almaniyada 7%-ni, İspaniyada 4%-ni təşkil edəcəyi təxmin edilir [16, s.11].

2007-ci ilin əvvəlində Almaniyanın "Berliner Zeitung" qəzeti Angela Merkeli başörtülü göstərdiyi karikaturada "belə davam edərsə, Almaniyada 50 il sonra xristianlar azlıqda qalacaq" ideyasını irəli sürmüşdü. Qəzet son 1 il ərzində 4 min almanın islamı qəbul etməsinə diqqət çəkərək, tezliklə Almaniyanın bir islam ölkəsinə çevrilə biləcəyini qeyd edirdi. Bu göstəriciyə həmçinin kütləvi miqrasiya və miqrantlar arasındakı uşaq doğumunu əlavə edərək 50 il sonra Almaniyanın nüfuzunun 100 milyonu keçəcəyini bildirən qəzet, müsəlman və xristian nüfuzunun haradasa bərabərləşəcəyini irəli sürürdü [17, s.747-770].

2009-cu ilin sonunda karikatura böhranının təsiri olmadan İsveçrədə minarələrlə bağlı referendum keçirildi. Referendumun nəticələrinə görə, isveçrəlilərin 57,5%-i yeni minarələrin tikintisinin əleyhinə səs verib.

Daha sonra, 2010-cu ildə Fransada ictimai yerlərdə hicab və ya örtük taxmağı qadağan edən qanun qüvvəyə minib. Qanunu pozanlar hətta 150 avro dəyərində pul cəriməsi olunurdu. Qanun Fransada qüvvəyə mindikdən sonra Avropanın digər ölkələrindəki sərt partiyalar öz ölkələrində də oxşar qanunun qəbul edilməsinə çalışdılar. Məsələn, İtaliyada sağçı Şimal Liqası hicabın qadağan edilməsi ilə bağlı qanun layihəsini parlamentə təqdim edib [18, s.14].

PEGİDA irqçilik, ksenofobiya və islamofobiyanı birləşdirən hərəkat olaraq son dövrlərin ən görkəmli təşkilatına çevrilib. İlkin olaraq Almaniyada meydana çıxan və sonra da digər Avropa ölkələrində yayılan PEGİDA (Patriotische Europaer gegen die İslamisierung des Abendlandes/ Qərbin İslamlaşmasına Qarşı Vətənsevər Avropalılar) hərəkatı 20 noyabr 2014-cü il tarixindən etibarən dünya mediasının gündəmindədir. İslamofobiyanı özünün əsas məsələsinə çevirən PEGİDA Avropada artıq geniş yayılmış anti-islamçı hərəkatı bir az da gücləndirmişdir. PEGİDA quruluşunun yaranmağı İŞİD-in Kobaniyə hücumundan sonra Almaniyanın Drezden şəhərində iki qrupun toqquşması ilə oldu. Bu vəziyyətdən narahat olan və Orta və Yaxın Şərqdəki münaqişələrin təsirinin Almaniya torpaqlarına gəlib çatmağına etiraz edən 300 nəfərlik bir qrupun Drezden küçələrində etiraz aksiyası keçirməsi PEGİDA-nın həyata keçirdiyi ilk nümayiş oldu. Bu nümayişlərin ardından PEGİDA hər bazar ertəsi toplaşmağa başladı. Bu nümayişlərdə iştirakın göstəriciləri noyabr ayından etibarən hər keçən gün daha da yüksəlib, 2015-ci ilin yanvarından 25 min nəfərə çatmışdır, göstəricilər artmaqda davam edir [19, s.275-289]. Hərəkat nümayəndələri İslama qarşı olmadıqlarını desələr də, hərəkatın bəyanatları İslama və müsəlmanlara qarşı nifrətlə dolu olduğu görünür. PEGİDA öz ətrafına əsasən Qərbin islamlaşmasından qorxan insanları toplaya bildi. Suriyadan Almaniyaya gedən qaçqınlar PEGİDA-dan narahatdırlar. Təşkilat tez-tez deyir ki, qaçqınlara sərf edilməli olan pullar ölkədəki iqtisadi cəhətdən çətin vəziyyətdə olan almanlara xərclənməlidir.

## Nəticə

Hazırda miqrasiyaya dair bir sıra normaların işlənib hazırlanması istiqamətində Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) fəaliyyəti xüsusi önəm kəsb edir. Qeyd etmək lazımdır ki, təşkilatın etdiyi yardım nəticəsində miqrasiya sahəsində operativ şəkildə yaranan təhdidlərin aradan qaldırılması işində müvafiq və hərtərəfli köməyin göstərilməsi, miqrasiya məsələlərinin mənimsənilməsinin qabaqcıl şəkildə təşkili, miqrasiya prosesləri vasitəsilə sosial-iqtisadi inkişaf üçün lazımi şəraitin yaradılması, həmçinin miqrantların ləyaqət və rifahının təmin edilməsi istiqamətində beynəlxalq cəmiyyətdəki tərəfdaşları ilə birlikdə müvafiq fəaliyyətlər həyata keçirilir. Bütövlükdə təşkilat miqrantlara və cəmiyyətlərə fayda verən miqrasiya prosesinin humanist və nizamlı şəkildə təşkili prinsipinə aid müvafiq öhdəliklərinə sadiqdir.

**Açar sözlər:** *miqrasiya axınları, iqtisadi güc mərkəzləri, ortaq maraqlar, Avropa hüquq sistemi, Şengen zonası.*

**ƏDƏBİYYAT SİYAHISI**

*1. Məmmədquliyev M.Ə. Miqrasiya bələdçisi. B.: BMqT. 2004, 117 s.*

*2. Hein de Hass. Migration and Development: A Theoretical Perspective. London, Oxford University, 2008, 57 p.*

*3. Yılmaz F.A. Avrupa Birliği'nde Irkçılık ve Yabancı Düşmanlığı ile mücadele// Yüksek Lisans Tezi, Ankara, 2008, 247 s.*

*4. Rob S.C., Peter A.A. Developments in European Social Policy Convergence and Diversity. Bristol: The Policy Press,1998, 318 p.*

*5. Abdullayev F.N. Müasir Azərbaycan dövlətinin miqrasiya siyasəti və beynəlxalq əməkdaşlıq. B.: Elm və Təhsil. 2009, 328 s.*

*6. Stephen C.H., Haas H.T. and Mark J.M. The Age of Migration: International Population Movements in the Modern World, London: Macmillan, 2003, 420 p.*

*7. Levy C.N. Asylum Seekers, Refugees and The Future of Citizenship in The European Union. A. Bloch and C. Levy, Refugees, Citizenship and Social Policy in Europe, London: Macmillan, 1999, 242 p.*

*8. Miles R.W. Migration and European Integration: The Dynamics of Inclusion and Exclusion, London: Pinter Publisher, 1995, 209 p.*

*9. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. B.: Bakı Universiteti nəşriyyatı. 2007, 484 s.*

*10. BMqT-nın Azərbaycan Respublikasındakı Nümayəndəliyi. Sığınacaq, sərhəd və immiqrasiya məsələlərinə dair Avropa qanunvericiliyi üzrə vəsait. Bakı, 2014, 195 s.*

*11. Mitsilegas V.A. The Implementation of the EU Acquis on Illegal Immigration by the Candidate Countries of Central and Eastern Europe: Challenges and Contradictions// Journal of Ethnic and Migration Studies, Vol.28, №4, 2002*

*12. IOM. World Migration Report 2003: Managing Migration Challenges and Responses for People on the Move. Geneva, 2003, 400 p.*

*13. https://tudresden.de/ressourcen/dateien/aktuelles/news/Downloads/praespeg?lang=en*

*14. Eurostat. Migrants in Europe: A statistical portrait of the first and second generation, Luxembourg: Publications Office of European Union, 2011, 148 p.*

*15. EUMC. Muslims in the European Union: Discrimination and Islamophobia// European Monitoring Centre on Racism and Xenophobia, 2006, 115 p.*

*16. Amnesty International report. Choice and Prejudice: Discrimination against Muslims in Europe. London, 2012, 119 p.*

*17. Tuba E.V., Kemal A.H. İslamofobi ve Avrupada birlikde yaşama tecrübesi üzerine// Uludağ Universitesi İlahiyyat Fakultesi Dergisi, sayı 2, cilt 17, 2008.*

*18. İnanç Z.S., Çetin S.K. Avrupa'nın Kendine Dönen Silahı: Dışlayıcılık ve Ayrımcılık// SDE Analiz, Aralık 2011.*

*19. Mustafa N.A. Avrupada Yükselen Irkçılık: PEGİDA örneği// Akademik bakış, cilt 8, sayı 16, 2015*

**SUMMARY**

The European Convention on Human Rights and the legislation of the European Union provide a framework for the protection of the rights of foreigners, which is increasingly important in regulating migration through international law. EU legislation on asylum, borders and migration is developing rapidly. At the same time, it should be noted that the International Organization for Migration (IOM), established in 1951, as a leading intergovernmental organization in the field of migration, operates in close cooperation with government agencies, international and non-governmental organizations in more than 100 countries.

**Key words:** *migration flows, economic power centers, common interests, European Legal System, Schengen area.*

**РЕЗЮМЕ**

Европейская конвенция о правах человека и законодательство Европейского союза обеспечивают все более важную основу для защиты прав иностранцев в регулировании миграции с помощью международного права. Законодательство ЕС об убежище, границах и миграции быстро развивается. При этом следует отметить, что Международная организация по миграции (МОМ), созданная в 1951 году, как ведущая межправительственная организация в сфере миграции, действует в тесном сотрудничестве с государственными органами, международными и неправительственными организациями в более чем 100 стран.

**Ключевые слова:** *миграционные потоки, центры экономической силы, общие интересы, Европейская правовая система, Шенгенская зона.*

UOT 32

# ENERJİ TƏHLÜKƏSİZLİYİ BEYNƏLXALQ TƏHLÜKƏSİZLİYİN TƏRKİB HİSSƏSİ KİMİ

*https://orcid.org/0000-0003-2521-9589*

**LAMİYƏ AXUNDOVA**
*Gəncə Dövlət Universiteti,*
*Sosial fənlər kafedrasının dissertantı*

*E-mail: axundova_gdu@yahoo.com;*

**Giriş.** XX əsr enerjidə daş kömürdən neftə keçid dövrü olmuş və bu keçid bir sıra böhran və müharibələrlə yadda qalmışdır. Belə ki, həmin dövrdə neft resurslarının ələ keçirilməsi və nəzarət edilməsi dünyanın aparıcı dövlətlərinin əsas məqsədinə çevrilmiş, bu isə öz növbəsində dünya miqyasında hərbi-siyasi və iqtisadi mübarizəni kəskinləşdirmişdir.

Enerji təhlükəsizliyi beynəlxalq və milli təhlükəsizliyin mühüm tərkib hissəsi olaraq, XX əsrdən etibarən aktuallığını artırmış və müasir dövrdə də aktuallığını qoruyur.

Enerji təhlükəsizliyinin qlobal miqyasda qəbul edilən vahid tərifi yoxdur. Buna baxmayaraq, məsələyə sistemli və əhatəli tərif vermək məqsədi daşıyan çox sayda təkliflər irəli sürülmüşdür. Bu təkliflər nəticəsində enerji təhlükəsizliyinə dair müxtəlif təriflər ortaya çıxmışdır. Enerji təhlükəsizliyi dedikdə:

- Enerjinin müntəzəm olaraq, təhlükəsiz, ekoloji təmiz və müxtəlif mənbələrdən, ölkələrdən lazımi miqdarda və münasib qiymətlərlə əldə edilməsi və səmərəli şəkildə istehlak edilməsi;
- Lazımi həcmdəki enerji resurslarının, münasib qiymət və istiqrarlı mənbədən, faktiki olaraq təhdid altında olmayan tədarük yolları vasitəsilə (boru xətti, dəniz yolları, quru daşımaçılığı və.) əldə edilməsi və ədalətli bölgüsüdür;
- Dünyadakı enerjinin səmərəli və qənaətlə istehlak edilməsidir;
- İqtisadiyyatın tələb etdiyi enerji ehtiyacının müntəzəm olaraq təmin edilməsi başa düşülür [2, səh. 2].

Yuxarıda qeyd edilən təriflərə əlavə olaraq, 2000-ci illərin əvvəllərindən başlayaraq, enerji təhlükəsizliyi anlayışına iqlim dəyişikliyi də əlavə edilmişdir [5, səh. 175].

Dünya Enerji Şurası tərəfindən 1992-ci ildə təklif edilən tərif müxtəlif təklifləri özündə cəmləşdirir. Bu tərifə görə, enerji təhlükəsizliyi, "bir ölkənin vətəndaşlarına dövlət tərəfindən davamlı və təhlükəsiz yanacaq ilə enerji xidmətinin təşkil edilməsinin təminat altına alınması"dır.

Enerji təhlükəsizliyinə dair təklif edilən təriflərdə diqqətçəkən cəhətlərdən biri, bu təriflərin bəzilərində məsələnin enerji tərəfinin, digərlərində isə təhlükəsizlik tərəfinin önə çıxarılmasıdır. Təhlükəsizliyi əsas diqqət mərkəzinə gətirilən təriflərdə fiziki təhlükəsizlik nəzərdə tutulur. Neft, qaz, daş kömür kimi fosil mənşəli enerji resurslarının axtarışı, çıxarılması, tədarük edilməsi, daşınması kimi mərhələlərdə ortaya çıxa biləcək bütün təhlükəsizlik məsələləri burada nəzərdə tutulur. Terrorçuluq, düşmən dövlətlərin enerji təhlükəsizliyinə yönələn fəaliyyətləri də bu konteksdə qiymətləndirilir. Buna Azərbaycandan misal verə bilərik. 2020-ci ildə Ermənistanın BTC, BTE kimi neft-qaz kəmərlərinə hədəf alan fəaliyyətləri Azərbaycanın və digər maraqlı dövlətlərin enerji təhlükəsizliyinə yönələn bariz təhlükə kimi qiymətləndirilə bilər.

Məsələnin enerji tərəfini əsas alan təriflərdə isə, adından da göründüyü kimi, enerjinin iqtisadi əhəmiyyəti diqqət mərkəzinə yerləşdirilir. Bu zaman enerji təhlükəsizliyi dedikdə, məsələnin üç tərəfi nəzərdə tutulur: birincisi, enerji istehlakı təhlükəsizliyi, ikincisi, enerji istehsalı təhlükəsizliyi, üçüncüsü isə enerjinin tədarükünün (daşınmasının) təhlükəsizliyi.

Məqalədə, əvvəlcə ümumi olaraq enerji və enerji mənbələrinə nəzər yetiriləcək, daha sonra isə enerji təhlükəsizliyi geniş şəkildə tədqiq ediləcək.

**Müasir dövrdə enerji təhlükəsizliyinin məzmunu və mahiyyəti.** Enerjinin bəşər tarixindəki yeri Sənaye inqilabından sonra yeni səviyyəyə çıxmış, buxar maşınlarının icad edilməsi ilə, enerji daha əvvəl heç olmadığı qədər insanoğlunun gündəlik həyatının ən önəmli komponentinə çevrilmişdir. Enerji və texnologiya arasında əlaqənin ortaya çıxması və inkişaf etməsi də həmin dövrdə başlamışdır. Belə ki, texnologiyanın inkişaf etməsi enerjiyə olan tələbatı, enerjiyə olan tələbin artması isə texnologiyanın inkişafını sürətləndirmişdir.

XX əsrdə isə industrial mənada proqnozlaşdırılandan daha sürətli tərəqqi yaşanmışdır. Bu əsrə

qədər maşınlar əsas nəqliyyat vasitəsi kimi istifadə edilirdi, çünki hava nəqliyyat vasitələri hələ istifada edilmirdi. Mənzillərin isidilməsində daş kömür və odundan istifadə edilirdi. Sənaye müəssisələri də daha çox qərbin inkişaf etmiş dövlətlərində yerləşirdi. XX əsr ilə həm enerji resurslarının şaxələnməsi, buna bağlı olaraq enerjinin texnologiyaya tətbiqi, eyni zamanda enerjinin istifadə coğrafiyası genişləndi.

Müasir dövrdə isə elə bir sahə yoxdur ki, orada enerjiyə ehtiyac hiss edilməsin. Sənaye sahələri, kənd təsərrüfatı, nəqliyyat, kommunikasiya, mənzillərin isidilməsi kimi insan həyatının bütün sahələrində enerji istifadəsi özünə dərin kök salmışdır. Enerji təkcə bəşəriyyətin məişət həyatını asanlaşdırmadı, ən əsası onun hərtərəfli inkişafının dinamikasını təşkil etdi. Enerji bəşəriyyətin tarixində, insanların, ölkələrin və beynəlxalq sistemin fəaliyyətində mühüm rol oynayır. Bu isə, enerji tələb-təklif balansında tez-tez pozulmalara, həmçinin dövlətlərarası münasibətlərdə müxtəlif problemlərə səbəb olmaqdadır. Belə ki, 1996-cı ildə Nobel mükafatçısı, elm adamı Riçrd Smeli “Bu gün, bəşəriyyətin qarşısında duran ən böyük problem enerjidir” deyərək yuxarıdakı fikri dəstəkləmişdir.

Enerji resurslarının müxtəlif meyarlar əsasında qruplaşdırılması enerjinin həm istehsal, həm istehlak, həm daşınması və həm də ekoloji baxımdan mühüm əhəmiyyət kəsb edir. Məsələn, enerji resursları birinci və ikinci enerji resursları olmaqla iki qrupa ayrılır. Birinci enerji resursları, təbiətdə mövcud olduqları formada, hər hansı dəyişikliyə və dönüşümə məruz qalmadan istifadə edilən enerji ehtiyatlarıdır. Bu enerji resursları həm yenilənə bilən, həm də yenilənməyən enerji mənbələrindən əldə edilir. Bu resurslar arasında günəş enerjisi, neft, qaz, daş kömür, külək enerjisi, istilik-nüvə enerjisi, bioenerji və s. yer alır. Birinci enerji resursları bir çevrilmə prosesindən keçirilərək ikinci enerji formasına salınır. Kömür, neft, qaz ya da külək enerjisi kimi birinci mənbələrdən əldə edilən elektrik enerjisi, ikinci enerji formasına tipik misaldır, eyni zamanda benzin, sintetik yanacaqlar da ikinci enerji formaları arasında yer alır.

2013-cü ildəki BP göstəricilərinə görə, dünyada ən çox istehlak edilən enerji resursunu 33%-lə neft təşkil edir. Nefti 30%-lə daş kömür və 24%-lə qaz təşkil edir. İstilik-nüvə enerjisi, bioenerji, hidroelektrik və yenilənə bilən enerjinin ümumi enerji istehlakı içindəki payı isə cəmi 13% təşkil edir [13]. 2040-cı illərdə isə neft istehlakı həcmində ciddi geriləmə olmayacağı, ancaq qaz və atom enerji resurslarından istifadə həcmində artım olacağı proqnozlaşdırılır [12]. Göründüyü kimi, enerji tələbinin böyük hissəsini qarşılayan fosil mənşəli yanacaqlar, sənaye cəmiyyətinin şah damarı olaraq qəbul edilir. Ancaq son illərdə ətraf mühitin ekoloji cəhətdən çirklənməsi, enerji resurslarının coğrafi bölgüsündə yaranan disbalans və qiymətlərin qeyri-sabitliyi, alternativ enerji resurslarına olan marağı artırmışdır. Bu çərçivədə günəş, istilik-nüvə, hidroelektrik və külək enerjisi kimi birinci dərəcəli enerji resurslarına diqqət artmışdır. Adı keçən enerji mənbələrinin fosil yanacaq növləri ilə müqayisədə demək olar ki, eyni mayadəyərə başa gəlməsi də onlara olan marağın artmasına böyük təsir edir. Buna baxmayaraq, neftin və qazın beynəlxalq münasibətlər sistemindəki rolu hələ uzun müddət əhəmiyyətini qoruyacaqdır. Bu səbəblə, tədqiqat işində xüsusilə neft və qaz resurslarının tədqiqinə əsas yer verilmişdir.

Hidrokarbonlar içində yer alan təbii qaz son dövrlərdə istehlak həcmi sürətlə artan enerji resurslarının başında gəlir. Müasir dövrdə, dünyada isbatlanmış təbii qaz resurslarının böyük bir hissəsi Rusiyadadır. Onu İran, Qətər, ABŞ, Səudiyyə Ərəbistanı, Türkmənistan kimi ölkələr izləyir [8]. Ancaq qazın bir enerji resursu kimi istehlakının getdikcə genişlənməsinə baxmayaraq neftin əsas enerji mənbəyi olmasının önünə keçə bilməmişdir. Bu gün dünya miqyasında istifadə edilən enerji resursları içində qazın istehlak həcmi 25% səviyyəsindədir. Ancaq 2030-cu illərdə bu göstəricinin daha da artacağı proqnozlaşdırılır.

**Cədvəl 1: Dünya yanacaq ehtiyacının qarşılanmasında istifadə edilən resurslar**

| Resurs növləri | 1990 | 2010 | 2015 | 2020 | 2030 | 2035 |
|---|---|---|---|---|---|---|
| Daş kömür | 2231 | 3474 | 3945 | 4082 | 4180 | 4218 |
| Neft | 3230 | 4113 | 4352 | 4457 | 4578 | 4656 |
| Qaz | 1668 | 2740 | 2993 | 3266 | 3820 | 4106 |
| Atom enerjisi | 526 | 719 | 751 | 898 | 1073 | 1138 |
| Hidroenerji | 184 | 295 | 340 | 388 | 458 | 488 |
| Bioyanacaq | 903 | 1277 | 1408 | 1532 | 1755 | 1881 |
| Digər | 36 | 112 | 200 | 299 | 554 | 710 |
| Cəmi | 8779 | 12730 | 13989 | 14922 | 16417 | 17197 |

**Mənbə:** *Institute For Energy. Fossil Fuels Still King In EIA`s Annual Energy Outlook 2013.*

Qeyd edildiyi kimi, xam neft dünya enerji təhlükəsizliyi baxımından ən əhəmiyyətli enerji mənbəyini təşkil edir. Xam neftdən təkcə yanacaq olaraq istifadə edilmir, eyni zamanda müxtəlif mərhələlərdən keçirilərək müasir dövrdə həyatın hər sahəsində istifadə edilən bir sıra ara maddə ilə müxtəlif məhsulların əsas xam maddəsini təşkil edir.

Xam neft, qlobal miqyaslı enerji tələbinin ən əsas vasitəsi olaraq qəbul edilir. Alternativ enerji mənbələrinin enerji istehlakındakı payını artırmaq üçün aparılan bütün fəaliyyətlərə baxmayaraq, neft hələ də öz yerini qoruyur və möhkəmləndirir. ABŞ-ın Enerji İnformasiya İdarəsi (The U.S. Energy Information Administration - EIA) tərəfindən dünya miqyasında neft istehlakının 2013-cü ildə gündəlik orta hesabla 90,44 milyon barel, 2014-cü ildə 91,56, 2015-ci ildə isə 92,96 milyon barel olduğu qeyd edilmişdir [12].

2012-ci ildə dünyada ən çox neft istehsal edən ölkələr Səudiyyə Ərəbistanı, ABŞ, Rusiya, Venezuela, Çin, İran, İraq, Kanada, Nigerya, Meksika, Kuveyt, BƏƏ və Braziliya olmuşdur [9]. Bu ölkələri Norveç, Qətər, Anqola, Liviya, Qazaxıstan kimi ölkələr təqib etmişdir.

Digər tərəfdən, 2013-cü ilə aid göstəricilərə görə, Çin, ABŞ, Yaponiya, Braziliya, Kanada, Almaniya, Hindistan, Cənubi Koreya, Rusiya, Meksika, Səudiyyə Ərəbistanı və Fransa ən çox neft idxal edən ölkələrdir [15]. Bu statistik məlumatlar nəzərə alınaraq, dövlətlərin neft istehlakına təsir edən faktorların başında iqtisadi inkişaf səviyyələri, sənayeləri və əhali sayının gəldiyini qeyd edə bilərik.

**Azərbaycanın enerji təhlükəsizliyinə töfhələri.** Azərbaycanda neft sənayesinin formalaşması 1860-cı illərə təsadüf edir. Sovet İttifaqı dövründə isə ölkənin neft sənayesi inkişafının ən yüksək səviyyəsinə çatmışdır. 1872-ci ildən başlayaraq Çar Rusiyası Bakıdakı neft sənayesini özəlləşdirmiş və ölkədə güclü yatırımların və xarici sərmayənin həcmində böyük artım qeydə alınmışdır. Belə ki, 1872-ci ildə norveçli iş adamları olan Nobel qardaşlar öz adlarını daşıyan şirkətləri ilə Azərbaycanda neft sektorunda fəaliyyətə başlamışlar. Statistik göstəricilərə görə, Azərbaycanda 1873-cü ildə 12, 1899-cu ildə 61, 1905-ci ildə 158, 1913-cü ildə 182 neft şirkəti fəaliyyət göstərirdi. 1872-ci ildə Rusiyada emal edilən 27 min barel neftin 26 mini Azərbaycanda istehsal edilirdi [6, səh. 24-28].

XX əsrin əvvəllərində Azərbaycan neft sənayesinin inkişaf sürətinə və istehsal həcminə görə dünya bazarında ilk yerdə qərarlaşırdı. 1901-ci ildə dünyada istehsal edilən neftin yarıdan çoxu, Rusiyada istehlak edilən neftin 95 %-i Azərbaycandan ixrac edilmişdir. 1905-1907-ci illər arasında yaşanan Rus-Yapon müharibəsi və proletariatın artan baykotları neft sənayesinə olduqca pis təsir etmişdir [1, səh. 19-24].

Müstəqilliyin əldə edilməsindən sonra Azərbaycanın dünya enerji təhlükəsizliyinə verdiyi töhfə yenidən artmağa başlamışdır. Azərbaycanın enerji strategiyasının dinamikası və əsas prinsipləri 20 sentyabr 1994-cü ildə imzalanan “Əsrin müqaviləsi” adlı sənəddə öz əksini tapmışdır. Bu müqavilə Azərbaycan neftinin dünya bazarına çıxarılması yönündə atılan ən önəmli addım olmuşdur. 1993-cü ildə Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra Azərbaycanın neft-qaz sektorunun inkişafında dönüş yaranmış, neft və qaz yataqlarının istismarının müasir dövrün tələblərinə cavab verən səviyyədə yenidən qurulması üçün 4 fevral 1994-cü il tarixdə sərəncam imzalanmışdır [10]. Müqavilə “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarından neftin çıxarılması və paylaşılmasını əhatə edir. Əsrin müqaviləsinə səkkiz ölkədən (Azərbaycan, ABŞ, Rusiya, Türkiyə, Norveç, Yaponiya, Böyük Britaniya, Səudiyyə Ərəbistanı) 13 şirkət (Amoco, BP, McDermott, UNOCAL, ARDNŞ, Lukoil, Statoil, Exxon, Türkiyə Petrolları, Pennzoil, ITOCHU, Ramco, Delta) qoşulmuşdur [14]. Böyük Britaniyanın BP şirkətinin 2019-cu ilə dair hesabatına görə, Azərbaycanda təsdiq olunmuş neft ehtiyatları 7 milyard barel təşkil edir. Hesabata əsasən, 2019-cu ilin sonuna dünyada təsdiq olunmuş neft ehtiyatları 244,6 mlrd. ton və ya 1 733,9 mlrd. barel təşkil edib (Azərbaycanın payı – 0,4 %) [7].

"APA-Economics"in BP-nin illik icmalına istinadən verdiyi məlumata görə, 2019-cu ilin sonuna Azərbaycanın təsdiq olunmuş neft ehtiyatları 1 mlrd. ton (7 mlrd. barel) təşkil edib ki, bu da 2018-ci ilin göstəricisinə bərabərdir..

Azərbaycanın beynəlxalq və milli enerji siyasəti və enerji təhlükəsizliyi ilə bağlı məsələlər 2003-cü ildən etibarən bir sıra dövlət sənədində də yer almışdır. Bu sənədlərin başında Azərbaycan Respublikasının Konstitusiyası, 2005-2015-ci illərdə yanacaq-enerji sektorunun inkişafına dair dövlət

Proqramı, 2007-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası, həmçinin iqtisadiyyatın inkişafına dair yol xəritələri gəlir [4, səh. 110].

Azərbaycan təkcə xam nefti ilə deyil, həmçinin təbii qazı ilə də dünya enerji təhlükəsizliyi baxımından önəmli bir ölkədir. BP şirkətinin icmalında 2019-cu ilin sonuna Azərbaycanda təsdiqlənmiş qaz ehtiyatları 2,8 trilyon kubmetr həcmində qiymətləndirilir. İcmala əsasən, 2018-ci ilin sonuna olan vəziyyətə görə, Azərbaycanın qaz ehtiyatları 2,1 trilyon kubmetr həcmində qiymətləndirilib. Beləliklə, həmin il ərzində qaz ehtiyatları 0,7 trilyon kubmetr və ya 33,3% artıb [7]. Ancaq bu rəqəmlər də gələcəkdə dəyişə bilər və 5 ilə 7 trilyon kubmetrə çata bilər. Enerji mütəxəssislərinə görə, Azərbaycan bir neçə il ərzində illik təbii qaz istehsalını 40-50 milyard $m^3$ arasında bir rəqəmə çatsıra biləcək [3, səh. 23-24].

Nəticə. Müasir dövrdə dünyada baş verən proseslər dünya enerji təhlükəsizliyinə təsirsiz ötüşmür. İstər siyasi, istər hərbi, istərsə də səhiyyə sahəsində baş verən bütün proseslər beynəlxaq səviyyədə enerji tələbatına, enerji qiymətlərinə böyük təsir göstərir. Bu isə öz növbəsində ölkələrin iqtisadi sferasında bir sıra ciddi fəsadlara hətta böhranlara səbəb olur. Bütün bunlar onu deməyə əsas verir ki, dünyanın enerjiyə olan tələbatının ödənilməsi enerji resurslarının istismar edilməsi qədər, digər faktorlardan da asılıdır. Bu asılılıq sektorun təhlükəsizliyinin təmin edilməsinin əvvəlki onilliklərdə olduğundan daha çox diqqət tələb edir. Eyni zamanda dünya dövlətlərinin inkişafının enerjidən birbaşa asılı olması, enerji təhlükəsizliyinin yaxın gələcəkdə təmin edilməsi məsələsində istər ixracatçı dövlətlər, istərsə də idxalatçı dövlətlərin əməkdaşlığının vacibliyini əsaslandırır.

**Açar sözlər:** *enerji təhlükəsizliyi, enerji geopolitikası, enerji istehsalı.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan Tarixi (1900-1920-ci illər). Azərbaycan Milli Elmlər Akademiyası. Bakı, Elm Nəşriyyatı, 2008.*

*2. Gençtürk, T. Enerji Güvenliği Nedir? Ulusal ve Uluslararası Boyutta Enerjı Güvenliği Sorunu. Ankara: Başkent Universiteti Strateji Tədqiqatlar Mərkəzi. 2012.*

*3. Hasanov A. Hazar-Karadeniz Havzalarıyla Güney Kafkasya'nın Jeoekonomik Karakteristiği ve Azerbaycan'ın Yeni Petrol Politikası, İstanbul: Ötüken Yayınları, 2016.*

*4. Həsənov Ə. Azerbaycan Respublikasının Millî İnkişaf və Təhlükəsizlik Siyasəti. Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlet İdarəçilik Akademiyası, Bakı, 2011.*

*5. Özer, S. Avrupa Birliği, Rusya ve ABD`nin Avrupa Güvenliğine Farklı Yaklaşımlarının Transatlantik İttifakına Etkileri, Akdeniz Universiteti İİBF Jurnalı, № 15, 2008, s.170-195.*

*6. Şirinli Q.B. Azərbaycanın Enerji Təhlükəsizliyi və onun təminatı. Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, 2015.*

*7. BP Azərbaycanın neft ehtiyatlarını yenidən qiymətləndirib, 17 iyun 2020, https://apa.az/az/senaye-ve-energetika/BP-Azrbaycanin-neft-ehtiyat-larini-yenidn-qiymtlndirib-592185*

*8. EIA. US Energy Information Administration, http://www.eia.gov/countries/cab.cfm?fips=ir*

*9. EIA. US Energy Information Administration, Today In Energy, http://www.eia.gov/todayinenergy/detail.cfm?id=10231*

*10. Əsrin müqaviləsi Yüksəliş Yolunun Uğurlu Temeli. Azerbaycan Respublikası Prezidentinin İşler İdaresinin Prezident Kitabxanası, ss. 56, https://files.preslib.az/site/10il/gl1.pdf*

*11. IEA, International Energy Agency (2016b). Key World Energy Statistics, Erişim Adresi http://www.iea.org/publications/freepublications/publica-tion/KeyWorld2016.pdf*

*12. Institute For Energy. Fossil Fuels Still King In EIA's Annual Energy Outlook 2013, http://instituteforenergyresearch.org/analysis/fossil-fuels-still-king-in-eias-annual-energy-outlook-2013/*

*13. Mearns, E. Global Energy Trends. BP Statistical Review 2014, http://euanmearns.com/global-energy-trends-bp-statistical-review-2014*

*14. Neft sektoru, http://www.president.az/azerbaijan/contract*

*15. US Energy Information Administration, Countries Consumption, http://www.eia.gov/countries/index.cfm?view=consumption*

**Lamiya Akhundova**
**Ph.D student of the Department of Social Sciences**

**International Energy Security as an Important Component of International Security**

**SUMMARY**

Since the twentieth century, energy security has become an important part of international and national security. In modern times, both in terms of production and consumption, as well as in terms of import and export, and the safety of energy transportation, are the main components of energy security.

One of the highlights of the proposed definitions of energy security is that in some of these definitions the energy side of the issue is highlighted, while in others it is the security side. Definitions that focus on safety include physical security. As the name suggests, the economic importance of energy is the focus of energy-oriented approaches. In this case, energy security means three sides of the issue: first, the security of energy consumption, second, the security of energy production, and third, the security of energy transportation.

This article examines the issue of energy security in the light of the processes taking place in the world in recent years. In particular, the conflicts in the Near East over the past decade, as well as the impact of the coronavirus pandemic on global energy security in 2020, which has affected the world's developing countries, have been extensively analyzed. For this purpose, reports and statistics of a number of international organizations were used.

**Key words:** *energy security, energy geopolitics, energy production.*

**Ламия Ахундова**
**Аспирант кафедры Общественных Наук**
**Гянджинский Государственный Университет**

**Международная Энергетическая Безопасность Как Важный Компонент Международной Безопасности**

**РЕЗЮМЕ**

Начиная с двадцатого века энергетическая безопасность стала важной частью международной и национальной безопасности. В наше время как с точки зрения производства и потребления, так и с точки зрения импорта и экспорта, а также безопасности транспортировки энергоносителей являются основными компонентами энергетической безопасности.

Одним из основных моментов предлагаемых определений энергетической безопасности является то, что в некоторых из этих определений подчеркивается энергетическая сторона вопроса, в то время как в других-это сторона безопасности. Определения, которые фокусируются на безопасности, включают физическую безопасность. Как следует из названия, экономическая важность энергии находится в центре внимания подходов, ориентированных на энергию. В данном случае энергетическая безопасность означает три стороны вопроса: во-первых, безопасность потребления энергии, во-вторых, безопасность производства энергии и, в-третьих, безопасность транспортировки энергии.

В данной статье рассматривается вопрос энергетической безопасности в свете процессов, происходящих в мире в последние годы. В частности, были подробно проанализированы конфликты на Ближнем Востоке за последнее десятилетие, а также влияние пандемии коронавируса на глобальную энергетическую безопасность в 2020 году, которая затронула развивающиеся страны мира. Для этой цели использовались отчеты и статистические данные ряда международных организаций.

**Ключевые слова:** *энергетическая безопасность, энергетическая геополитика, производство энергии.*

UOT 327; 339.9

# MÜNAQİŞƏLƏRƏ DAİR RASİONALİST (İNGİLİS MƏKTƏBİ) YANAŞMA

**AYTƏN QURBANOVA**
*AMEA Hüquq və İnsan Haqları İnstitutunun dissertantı*
*E-mail: ayten.qurbanovaa@gmail.com*

## Giriş

Beynəlxalq münasibətlərin rasionalist izahı əsasən dünya nizamı ilə bağlıdır. Hedley Bullun açıqlamasına əsasən, beynəlxalq sistem "dünya birliyinin" ilkin və başlıca hədəflərinə istiqamətlənmiş fəaliyyət modelidir. Belə ki, Bullun yanaşmasına əsasən, müəyyən maraqları və ortaq dəyərləri olan bir qrup dövlətlər qarşılıqlı münasibətlərdə ümumi qaydalara əsaslanaraq institusional qurumlar çərçivəsində məsuliyyəti paylaşdığı zaman dövlətlər birliyi və ya beynəlxalq birlik formalaşır. Digər tərəfdən, beynəlxalq münasibətlər sistemində inkişafı və ya proseslərin tənzimlənməsində etik dəyərlərin rolunu çox aşağı qiymətləndirən realistlərdən fərqli olaraq, rasionalistlər mövcud sistemin tənzimləyici qaydalarının və təsir mexanizmlərinin adətən ümumi dəyərlərin üzv dövlətlər tərəfindən doğru şəkildə qəbul edilməsi ilə paralel şəkildə mümkün ola biləcəyini vurğulayırlar. Beləliklə də, rasionalistlərə görə beynəlxalq sistemin nizamlılığı yalnız hakimiyyətin doğru şəkildə idarə olunması ilə deyil, həm də dövlətlər birliyinin böyüməsi ilə əldə edilə bilər.

## Müharibə konsepsiyasına rasionalist baxış

Bullun fikrincə, nizam axtarışında olan dövlətlər beynəlxalq səviyyədə qəbul edilən norma və prinsiplərin yaranmasına səbəb olurlar. Beynəlxalq hüquqda da öz əksini tapmış bu norma və prinsiplərin əlaqələndirici və idarəetmə funksiyaları vasitəsilə dövlətlərin ehtiyacları, qismən də olsa, qarşılanır. Eyni zamanda, bu norma və prinsiplər dövlətlərin hüquq, vəzifə və səlahiyyətlərini aydınlaşdırmaqla anarxik xarakterə sahib olan beynəlxalq sistem daxilində həm dövlət, həm də kollektiv maraqları təmin etmiş olur. Paralel olaraq dövlətlərin beynəlxalq hüququn norma və prinsiplərinə bağlılığı onlara əməl olunmasına dair inamı artırır. Bu da, öz növbəsində, beynəlxalq münasibətləri daha çox proqnozlaşdırıla bilən etməklə müharibələrin qarşısını almağa imkan verir.

Realizmdə olduğu kimi rasionalizmdə də beynəlxalq münasibətlərin təhlili zamanı Bullun yanaşmalarına istinad edərək dövlətlərin və ya müstəqil siyasi birliklərin mövcudluğu qəbul edilir. Bu yanaşmada suverenlik və ərazi bütövlüyü çərçivəsində qiymətləndirilən dövlət qarşılıqlı müstəsna yurisdiksiya sahəsi daxilində dövlət orqanlarının təsis olunmasını tanıyır. Beynəlxalq ictimaiyyət də, öz növbəsində, dövlətin suverenliyini və ərazi bütövlüyünü tanıyaraq və təsdiq edərək onu qorumuş olur. Bu ortaq dəyərlərə və maraqlara əsaslanaraq tarixi təcrübədə özünü təsdiq etmiş beynəlxalq tanınma hesab olunur.

Bullun yanaşmasına əsasən, müharibə beynəlxalq birliyin ayrıca institutu olmaqla yanaşı, bu birlik tərəfindən "beynəlxalq hüququ tətbiq etmək və ya qüvvələr balansını qorumaq" kimi məqsədlərə nail olmaq üçün istifadə edilən dövlətlərarası təcrübədir [2: s. 188; 11: s. 307].

Kenned Vatkinin də ifadə etdiyi kimi, "silahlı münaqişələrə ənənəvi yanaşma dar çərçivədə de-yure müharibə konsepsiyasını daha aydın ifadə etmiş olur. Belə ki, İkinci Dünya müharibəsindən etibarən beynəlxalq silahlı münaqişələr dövlətlərarası mübarizəni açıqlamaq üçün istifadə olunur və onun istifadəsi getdikcə daha çox məhdudlaşan de-yure müharibə konsepsiyasını özündə əks etdirir" [9: s.3].

Ümumiyyətlə, müharibəyə dair rasionalist yanaşmada iki əsas fikir diqqəti cəlb edir. Birincisi, bu yanaşmaya əsasən, hər zorakılıq aktı müharibə hesab oluna bilməz. Yəni, yalnız suveren dövlətlərin apardığı müharibələr (dövlətlərarası hərbi qarşıdurmalar) beynəlxalq birlik tərəfindən legitim hesab olunur. İkincisi, müharibələr beynəlxalq birlik tərəfindən qadağan olunmaq əvəzinə məhdud və idarəolunan çərçivədə nəzarətdə saxlanılır. Bull dövlətlərarası münasibətləri tənzimləyən razılaşmaları müharibələri məhdudlaşdıran əsas amil kimi qiymətləndirir. Belə ki, bu razılaşmalar yalnız və yalnız dövlətlərin müharibə aparmaq hüququna sahib olması kimi bir sıra prinsipləri rəsmiləşdirmiş olur. Həmçinin müharibələrin baş verməsinin ən son həddi və "dövlətlərin qanuni əsasda müharibə apara biləcəyi şərait və səbəblər" bu çərçivədə

məhdudlaşırılır [2: s. 188]. Nəticə etibarilə, hökumət başçıları arasında qarşılıqlı tanıma əsasında yaradılmış diplomatik əlaqələr, imzalanmış müqavilələr, beynəlxalq hüquq normaları və digər bütün institutlar dövlətlərarası əlaqə və münasibətləri təmin edir və müharibələri nəzarətdə saxlamağa imkan verir.

**Rasionalizm və etnik münaqişələr**

Əvvəllər anarxik beynəlxalq sistem daxilində dövlətlərin təbii davranışlarının bir hissəsi hesab olunan bir çox təhdidlər (müdaxilələr, qoşulma, ayrılma və ya öz müqəddəratını təyin etmə) öz təsdiqini tapmadıqda qeyri-qanuni hesab olunurdu. Barri Buzanın fikrincə isə bu yanaşma müharibələrin təkrar baş verməsinə nəzarət etmək üçün qüvvələr balansını beynəlxalq sistemin yeganə qeyri-ixtiyari mexanizmi halına gətirir. Ona görə də rasionalist yanaşma bir çox istiqamətdə qeyri-dövlət aktorları nəzərə almadığı üçün beynəlxalq münasibətlərin və müharibənin dəyişkən xarakterini tam izah edə bilmir.

Eyni zamanda, Nikolas Vilerin yanaşmasına əsasən, etnik qarşıdurma şəraitində insan hüquqları ilə dövlət suverenliyi arasındakı qarışıq əlaqə nizam və ədalət arasında mövcud olan qarşıdurmanı da ortaya çıxartmış oldu [14: s.11]. Həmçinin humanitar müdaxilələr ilə bağlı rasionalist yanaşmalar da özündə etnik münaqişələrin öyrənilməsi üçün bəzi maraqlı fikirləri əks etdirir. Belə ki, Viler humanitar müdaxilələrə iki rasionalist yanaşmanın olduğunu bildirir:

1. Plüralist
2. Həmrəy

Onun sözlərinə görə, ümumiyyətlə, ədalət anlayışı haqqında fərqli yanaşmalara sahib olan dövlətlər arasında beynəlxalq nizamın təmin edilməsinə xüsusi diqqət yetirən alimlər plüralist mövqeyə sahibdirlər [2: s.9]. Ədalətə olan inancını dərinləşdirərək beynəlxalq cəmiyyətin legitimliyini gücləndirməyə çalışan alimlərin isə həmrəy olduqları müəyyən edilmişdir [14: s.11]. Bu yanaşmalar nizam və ədalət anlayışlarının dövlətlərarası münasibətlərdə hüququn aliliyinin möhkəmləndirilməsinə təsirini fərqli mövqedən qiymətləndirirlər.

Bu nöqteyi-nəzərdən yanaşdıqda bu iki fərqli yanaşma etnik qarşıdurmaları araşdırmaq üçün də faydalı ola bilər. Belə ki, plüralist yanaşmada "dövlətlər və fərdlər beynəlxalq hüquqi müstəvidə hüquq və vəzifələrin əsas daşıyıcıları hesab olunurlar. Ona görə də minimum tələblərə cavab verməyən dövlətlər birliyinin inkişaf edə biləcəyinə də şübhə ilə yanaşırlar". Terri Nardinin iddiasına görə, "belə birlik çərçivəsində dövlətlərin ümumi rifahı üzvlərinin bəzilərinin, hətta bəzən əksəriyyətinin kollektiv şəkildə həyata keçirmək istədikləri məqsədlərə nail olmaqla deyil, ədalət, sülh, təhlükəsizlik və birgə yaşayış qaydalarının uğurlu şəkildə tətbiq olunduğu yeni modelin yaradılması təcrübəsi ilə təmin oluna bilər" [8: s. 6].

Həmçinin, plüralist yanaşmada dövlətin bütövlüyü və suverenliyi beynəlxalq münasibətlərdə nizamın və qanunun aliliyinin qorunması üçün ilkin və vacib şərt kimi başa düşülür. Bu da öz növbəsində beynəlxalq müdaxilənin qarşısını alır. Nəticə etibarilə, etnik qarşıdurmalar daxili münaqişə olaraq qəbul edildiyi üçün onlara laqeyd yanaşılır.

Həmrəylik mövqeyindən isə insan hüquqlarının müdafiəsi beynəlxalq sistem daxilində nizamın və legitimliyin qorunması üçün vacibdir. Maykl Valzerin sözləri ilə ifadə etsək: "Dövlətin hüququ onun üzvlərinin razılığına əsaslanır. Ancaq bu, xüsusi növ razılıqdır. Belə ki, dövlətin hüquqları ayrı-ayrı kişilərin və ya qadınların suverenlik üçün edə biləcəyi hər hansı güzəştlər yolu ilə əldə edilə bilməz. Əslində isə nə baş verir?! Bu, uzun illərdir davam edən fərqli təcrübələrin və əməkdaşlığın yaratdığı ortaq sistemdir. Belə ki, bu sistem daxilində əksər dövlətlər müəyyən ölçüdə öz vətəndaşlarının təhlükəsizliyini qorumaq üçün müdafiə xarakterli müharibələr edirlər və biz də bu müharibələrin ədalətli olduğunu güman edirik" [12: s.53-54].

Beləliklə, etnik münaqişələr zamanı insan hüquqlarının pozulması beynəlxalq cəmiyyətin narahatlığına səbəb olur. Bu nöqteyi-nəzərdən, insan hüquqları məsələsinə beynəlxalq humanitar hüquq çərçivəsində yanaşılır. Vatkin isə iddia edir ki, qeyri-dövlət aktorların iştirakı silahlı münaqişələrin xarakterini dəyişərək beynəlxalq və lokal olmaqla iki qrupa böldüyü üçün onun hüquqi qiymətləndirilməsini şübhə altında qoyur. Beynəlxalq xarakter daşımayan silahlı qarşıdurmanın sərhədlərini müəyyənləşdirmək isə heç vaxt asan olmayıb.

Ümumiyyətlə, beynəlxalq humanitar hüquq daxili qarşıdurmalar və gərginliklər zamanı məhdud təsir imkanlarına sahib olduğu üçün bu qanunun tətbiqi ilə insan hüquqlarının müdafiəsi haqqında qanunun tələbləri arasındakı fərqləndirici xətt bir çox hallarda

aydın şəkildə ifadə olunmur. Bu nöqteyi-nəzərdən hökumətlər öz vətəndaşlarına qarşı davranışlarına görə beynəlxalq səviyyədə məsuliyyət daşıyırlar. Eyni zamanda, beynəlxalq birlik yalnız dövlətlərin öz vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün mənəvi məsuliyyət daşıdığı sistem kimi deyil, həmçinin hər yerdə insan hüquqlarına qəyyumluğu qəbul edən bir cəmiyyət olaraq humanitar müdaxiləyə haqq qazandırmış olur [14: s. 12].

Beynəlxalq birliyin bu konsepsiyası beynəlxalq hüquq çərçivəsində fərdlərin hüquq və vəzifələrinin olduğunu qəbul edir, amma ayrı-ayrı şəxslərin hüquqlarının yalnız dövlətlər tərəfindən təmin edilə biləcəyini də xüsusilə vurğulayır. Həmçinin insan hüquqlarının təmin olunması məsələsinin beynəlxalq sistem daxilində nizamın və legitimliyin qorunması üçün vacib olduğu və bunun da öz növbəsində humanitar müdaxiləyə haqq qazandırdığı açıq şəkildə ifadə olunur. Beləliklə də, insan haqlarının dövlət tərəfindən pozulması humanitar müdaxilə üçün əsas olaraq qəbul edilir.

Digər tərəfdən, rasionalistlərin müharibəyə dövlət mərkəzli yanaşması etnik qarşıdurmaları izah etmək üçün yetərsizdir. Belə ki, Buzanın fikrincə, mövcud normativ bazada etnik qarşıdurmanın müharibə kimi təfsir edilməsi və nəticə etibarilə beynəlxalq birlik tərəfindən qeyri-dövlət aktorlara müharibə etmək hüququnun tanınması üçün ortaq razılıq əldə edilməlidir [7: s. 334]. Belə razılığa nail olunması isə kifayət qədər çətin görünür, çünki dövlətlər beynəlxalq sistem daxilində mövcud ərazi sərhədlərinin qorunmasını sabitlik və təhlükəsizlik üçün əsas şərt olaraq qəbul edirlər. Halbuki rasionalistlər beynəlxalq sistem çərçivəsində qəbul edilən nizam və ədalət anlayışlarına işarə edərək bu yanaşmanın etnik qarşıdurmaların səbəblərini anlamağa kömək edə biləcəyini iddia edirlər. Onlara görə, bu yanaşma etnik qarşıdurmanı iki istiqamətdən araşdıra bilər. Plüralist nöqteyi-nəzərdən etnik qarşıdurmaya daxili münaqişə kimi baxılır. Bu vəziyyətdə dövlət beynəlxalq müdaxilənin qarşısını alarkən münaqişəni də öz daxili imkanları çərçivəsində həll etmək səlahiyyəti əldə etmiş olur. Həmrəylik nöqteyi-nəzərindən isə insan hüquqlarının pozulması beynəlxalq birliyi narahat edir və bu məsələ ümumi nizamın qorunması baxımından əhəmiyyətli hesab olunur. Nəticədə beynəlxalq birlik müdaxilə edərək humanitar fəlakəti dayandırmaq üçün məsuliyyət daşıyır.

## Nəticə

Rasionalistlərin yuxarıda qeyd olunan bütün əsaslandırmalarına baxmayaraq, bu yanaşmalar əks-arqumentlərlə kifayət qədər tənqid olunmaqla müzakirələrə səbəb olmuşdur. Tənqidçilər iki çatışmazlığı xüsusilə vurğulayırlar. Birincisi, bu yanaşmada müharibə dövlətlər arasında birbaşa zorakılıq aktı kimi qəbul edilir. Yəni, bu yanaşmanın hər iki perspektivində (plüralist və həmrəylik) müharibəyə dövlət mərkəzli yanaşma etnik qarşıdurmaların əsas mahiyyətini və səbəblərini başa düşməyimizə maneə olaraq ifadə edilir. Çünki etnik münaqişələr zamanı rəqib daxildən dövlətə etiraz edərək sub-dövlət səviyyəsindən zorakı bir aktor olaraq meydana çıxır. Amma qeyri-dövlət aktorlar tərəf olaraq tanınmadığı üçün onların öz müqəddəratını təyinetmə tələbləri də təbii olaraq dövlətlərlə yanaşı beynəlxalq birlik tərəfindən də qanunsuz hesab olunur.

Bundan əlavə, beynəlxalq birlik bu yeni aktorların tanınmasını və öz müqəddəratını təyinetmə iddialarını rədd edir. Deməli, beynəlxalq sistem daxilində yalnız dövlətlər müharibə etmək hüququndan istifadə edə bilərlər. Bulla görə, qeyri-dövlət aktorlara bu cür hüququn verilməsi dövlətin suverenliyinə və beləliklə də, dünya nizamına hədə təşkil etmiş olar. Livandakı etnik toqquşmalara toxunan Bull deyir ki, "qanunun tətbiqi vasitəsi kimi" və ya qeyri-dövlət aktorların iddia etdiyi kimi "ədalətli dəyişiklik naminə" müharibə aparılması dövlətlər tərəfindən rədd edilir və "bu yalnız ehtiyac olduğu halda icazə verilən sərhədlər daxilində mümkün ola bilər" [2: s. 198].

Buna görə də dövlətlər birliyində ədalətin zəruriliyi nizamın qorunması üçün əsas şərt kimi vurğulanır və ümumi mülahizələrdə həmrəylik naminə dövlət suverenliyinin qorunması fikri üstünlük təşkil edir. Ceyms Mayal isə iddia edir ki, "dünya birliyi qanunun aliliyi prinsipini müdafiə etməklə dövlətin fəaliyyətini təkmilləşdirməkdən daha çox onun maraqlarına xidmət edir. Belə olan halda, beynəlxalq sistemin konstitusion quruluşunun əsaslı şəkildə yenilənməsi mütləqdir" [15: s.327].

Onu da qeyd edək ki, BMT Nizamnaməsində etnik münaqişələr beynəlxalq nizama təhdid kimi qəbul edilmir. Nizamnamədə dövlət daxili münaqişələrin həlli üçün müstəsna hüquqlara sahib olan aktor olaraq qəbul edilir. Stiven Tiyerninin də iddia etdiyi kimi, beynəlxalq sistemdə dövlət "fər-

din mənəvi muxtariyyətini təmin etmək üçün etibarlı institut" olaraq təsəvvür edilir [11: s.943]. Bu məsələdə BMT başda olmaqla bir çox beynəlxalq və regional institusional qurumlar da dövlətlərin müstəsna hüququnu tanıyır. Məsələn, Nizamnamədə BMT-nin bütün zəruri tədbirləri görməsinə, o cümlədən etnik münaqişəyə nəzarət etmək və onun həllinə nail olmaq üçün güc tətbiq etməsinə imkan verən aydın müddəa yoxdur. Mayalın qeyd etdiyi kimi: "Beynəlxalq birliyin bir ictimai parçalanmanın öhdəsindən gələ bilməməsinin əsas səbəbi, onun hər şeydən əvvəl dövlətlərin və xalqların birliyi olmasıdır. Başqa sözlə, dövlət hakimiyyəti dağıldıqda xarici dövlətlərin kimlərlə və hansı hüquqi və ya institusional əsaslarla işləməsi məlum deyil" [6: s. 179].

Buna görə də rasionalist yanaşmalarda etnik qarşıdurma "tərəflərin öz maraqları əsasında ədalətə olan kəskin və xudbin inamı ilə güzəştə getmədiyi vətəndaş müharibəsi" kimi başa düşülür. Realist yanaşma kimi rasionalist yanaşmalar da dövlət mərkəzli əsaslandırmaya üstünlük verərək müharibə haqqında öz açıqlamasını bu istiqamətdə verir. Amma bu etnik qarşıdurmanı tam izah etmək üçün kifayət etmir.

İkincisi, rasionalizm dövlətlərarası münasibətlərdə inkişafın mümkünlüyü ilə bağlı realizmdən daha yenilikçi mövqeyə sahib olsa da, müasir beynəlxalq münasibətlərdə zorakılıq formalarına dair mühafizəkar yanaşmalarını qoruyub saxlayır. Bunun əsas səbəbi isə mövcud normativ hüquqi bazanın qarşıdurma, vətəndaş müharibəsi və ya dövlətin dağılması kimi müstəsna halları izah edə bilməyən dar dövlət suverenliyi konsepsiyasına sahib olması ilə izah oluna bilər. Bu konsepsiya özlüyündə etnik münaqişə anlayışımızı da məhdudlaşdırır. Ona görə də rasionalistlər dünya nizamına işarə edərək dövlətlərin etnik qarşıdurmaların tərifi ilə bağlı ortaq bir konsensusa gəlməsinin labüdlüyünü vurğulayırlar. Lakin bu konsensus nəticələrə deyil, dövlətlər birliyi tərəfindən dünya nizamının davamlılığının təmin olunması və müdafiəsi üçün müəyyən edilmiş qaydalar, normalar və təsisatlara əsaslanmalıdır. Əks halda, mövcud konsepsiya əsasında etnik münaqişələrin həllinə dair ortaq yol xəritəsinin müəyyənləşdirilməsi və beynəlxalq təhlükəsizliyin təmin olunması ehtimalı reallığı əks etdirmir.

**Açar sözlər:** *rasionalizm, müharibə, dövlət, beynəlxalq birlik, təhlükəsizlik, qanunun aliliyi, etnik münaqişə.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Berman Nathaniel, "Sovereignty in Abeyance, Self-Determination and International Law." Wisconsin International Law Journal 7 (1), 1986, pp. 390-443*

*2. Bull Hedley, "An Anarchical Society. A Study of Order in World Politics", London: Macmillan Press, 1977, 335 pp*

*3. Buzan Barry, "People, States and Fear: An Agenda for International Security Studies in the Post-Cold War Era", 2nd Edition. Hertfordshire: Harvester Wheatsheaf, 1991, 318 pp*

*4. Buzan. Barry, Ole Wæver and Jaap de Wilde, "Security a New Framework for Analysis", London: Lynne Reinner Publishers, 1998, 239 pp.*

*5. Buzan Barry, "From International System to International Society: Structural Realism and Regime Theory Meet the English School", The MIT Press, International Organization: Vol. 47 (3), 1993, pp. 327-352.*

*6. Evans Graham and Jeffrey Newnham, The Penguin Dictionary of International Relations, London: Penguin Books, 1998, 623 pp*

*7. Guzzini Stefano and Dietrich Jung, "Contemporary Security Analysis and Copenhagen Peace Research", London: Routledge, 2004, 272 pp*

*8. Mann Michael, "The Dark Side of Democracy: Explaining Ethnic Cleansing", Cambridge: Cambridge University Press, 2004, 280 pp*

*9. Nardin Terry, "Law, Morality, and the Relations of States", Princeton: Princeton University Press, 1983, 350 pp*

*10. Suganami Hidemi, "Explaining War: Some Critical Observations", International Relations: Vol. 16 (3), 2002, pp. 307-326.*

*11. Tierney Stephen, "The Search for a New Normativity: Thomas Franck, Post-modern Neo-tribalism and the Law of Self-determination", European Journal of International Law 13(4), pp. 941-960*

*12. Walzer Michael, "Just and Unjust Wars: A Moral Argument with Historical Illustrations", Second Edition. New York: Basic Books, 1992, 361 pp*

*13. Wendt Alexander, "Social Theory of Interna-*

*tional Politics", Cambridge: Cambridge University Press, 1999, 429 pp.*

*14. Werner W. G., "Self-Determination and Civil War", Journal of Conflict and Security Law 6 (2), 2001, pp. 171-190.*

*15. Wheeler Nicholas, "Saving Strangers: Humanitarian Intervention in International Society", Oxford: Oxford University Press, 2001, 348 pp*

## RATIONALIST (ENGLISH SCHOOL) APPROACH TO CONFLICT

### SUMMARY

Rationalist interpretation of international relations is mainly connected with the world order. According to Hedley Bull, international system is a model of action aimed at the primary and ultimate goals of the "world community". Unlike realists who underestimate the role of ethical values in the development or regulation of processes in the system of international relations, rationalists emphasize that the rules and mechanisms of influence of the existing system are usually possible in parallel with the correct adoption of common values by member states. Thus, according to rationalists, the orderliness of the international system can be achieved not only through the proper management of power, but also through the growth of the union of states.

**Key words:** *rationalism, war, state, international community, security, the rule of law, ethnic conflict.*

## РАЦИОНАЛИСТИЧЕСКИЙ (АНГЛИЙСКАЯ ШКОЛА) ПОДХОД К КОНФЛИКТУ

### РЕЗЮМЕ

Рационалистическая интерпретация международных отношений в основном связана с мироустройством. Международная система, с точки зрения Хедли Булла, представляет собой модель действий, направленных на достижение основных и конечных целей «мирового сообщества». В отличие от реалистов, недооценивающих роль этических ценностей в развитии или регулировании процессов в системе международных отношений, рационалисты подчеркивают, что правила и механизмы воздействия существующей системы обычно возможны параллельно с правильным принятием общих ценности государствами-членами. Таким образом, по мнению рационалистов, упорядоченность международной системы может быть достигнута не только посредством правильного управления властью, но и путем роста союза государств.

**Ключевые слова:** *рационализм, война, государство, международное сообщество, безопасность, верховенство закона, этнический конфликт.*

# Tarix

**UOT 94(479.24)**

**SEVDA ŞƏRİFOVA**
*Bakı Dövlət Universitetinin*
*"Qafqaz xalqları tarixi" kafedrasının*
*doktorantı*

*E-mail: sevdasharifova@mail.ru*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ SSRİ-nin SÜQUTU ƏRƏFƏSİNDƏ AZƏRBAYCANIN NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TARİXİ PROSESLƏR

### Giriş

Siyasi tarixşünaslıqda və politologiyada siyasi şəxsiyyətlərin prosesləri zamanında və doğru şəkildə qiymətləndirməsi onların başlıca liderlik göstəricilərindən biri hesab edilir. Bu baxımdan, Azərbaycan tarixinin ən taleyüklü dönəmlərindən biri sayılan XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında cərəyan edən proseslərlə bağlı mövqeyinin elmi metodlarla tədqiqi vətən tarixşünaslığının qarşısında dayanan aktual məsələlərdəndir. Yalnız məsələnin elmi kontekstdə öyrənilməsi obyektiv gerçəkliyin müəyyən edilməsinə, bu isə, öz növbəsində, müasir dövr Azərbaycan tarixi, eyni zamanda Qafqaz xalqlarının tarixi ilə bağlı məsələlərin doğru şəkildə təhlilinə imkan verə bilər.

Məlum olduğu kimi, XX əsrin 80-ci illərində Ermənistan SSR-in Azərbaycan SSR-in tərkibinə daxil olan Dağlıq Qarabağ Muxtar Vilayətini özünə birləşdirmək uğrunda apardığı təcavüzkar siyasət tədricən genişlənməyə başladı. Tezliklə aydın oldu ki, hədəf təkcə muxtar vilayətin ərazisi deyildir, Ermənistanın və erməni terror-siyasi təşkilatlarının hədəfi daha böyükdür. Sovet dövründə daha çox ictimai fikirdə və akademik çevrələrdə polemika mövzusuna çevrilən xəyali "Böyük Ermənistan" ideyası siyasətçilərin dili ilə daha geniş kütlənin arasında təbliğ olunurdu. Bu zərərli, heç bir tarixi və hüquqi əsası olmayan ideyanın reallaşdırılması üçün həmin dövrdə ilkin olaraq üç hədəf var idi: Qarabağ, Naxçıvan və Cavaxeti. Doğrudur, Naxçıvan Muxtar Respublikası ilə müqayisədə o zamankı DQMV və Gürcüstanın Samtsxe-Cavaxeti regionunun tərkibinə daxil olan Cavaxeti bölgəsi daha real hədəflər hesab edilirdi. Bir çox tədqiqatçıların fikrincə, ermənilər Dağlıq Qarabağ məsələsini gündəmə gətirməsəydilər, Gürcüstandakı erməni bölgəsinin (Cavaxetinin – S.Ş.) Ermənistana birləşdirilməsini tələb edəcəkdilər [1]. İddia edilən və işğal ediləcək ərazilərin sıralamasına yanaşmanın necə olmasından asılı olmayaraq bu, Ermənistanın və ermənilərin Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanla bağlı işğal planlarının olması faktını dəyişdirmir.

### I. Ermənistan SSR-in hərbi təcavüzü imperiyanın cəzalandırma mexanizmi kimi

Proseslər əvvəlcə Qarabağın dağlıq hissəsində başlasa da Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü zaman keçdikcə xaraktercə daha da kəskinləşir, ərazi miqyası baxımından isə genişlənirdi. Bir çox erməni hərbi və siyasi dairələri hesab edirdilər ki, Azərbaycanla quru ərazi bağlantısı məhz Ermənistan ərazisi vasitəsi ilə gerçəkləşdirilən Naxçıvan Muxtar Respublikasını blokadaya salınmaqla iqtisadi və sosial baxımdan sarsıtmaq və müəyyən hücumlarla ələ keçirmək olar. Artıq 1989-cu ilin dekabr ayının 14-də Şərurun Sədərək, Günnüt və Havuş kəndləri ermənilər tərəfindən güclü atəşə tutulmuşdu [2]. Faktiki olaraq o zaman İttifaq rəhbərliyi hadisələrin qarşısının alınması üçün heç bir addım atmadı. Azərbaycan SSR-in kommunist rəhbərliyi isə bu məsələdə xeyli dərəcədə cəsarətsiz mövqe tuturdu. Səsləndirilən bəyanatlar və rəsmi açıqlamalar sadəcə olaraq formal xarakter daşıyırdı. İmperiya mərkəzinin ermənipərəst siyasəti, yerli kommunist hakimiyyətinin isə milli maraqları Sovet imperiyasının mənafeyinə qurban verməsi əhalinin narazılığına səbəb olurdu. 1989-cu ilin sonundan başlayaraq Azərbaycanda xalq hərəkatı geniş vüsət aldı. Bu zaman Naxçıvandakı xalq hərəkatı Ermənistan SSR-in hərbi təcavüzünə qarşı müqavimət hərəkatı olmaqla yanaşı, imperiya buxovlarından xilas olmaq üçün geniş vüsət alan Azərbaycan xalqının milli-azadlıq hərəkatının tərkib hissəsi kimi xarakterizə olunmalıdır. Əslində Sovet İttifaqının bir məqsədi də Ermənistan SSR ərazisindən Naxçıvan Muxtar Respublikasına hücum edən qruplardan Naxçıvana qarşı cəza dəstəsi kimi istifadə etməkdən, əhali arasında yüksəlməkdə olan milli oyanışı boğmaqdan ibarət idi. Heç də təsadüfi deyildir ki, Cənubi Azərbaycandakı soydaşlarla həmrəylik ifadə etmək üçün SSRİ-İran sərhədi ilk dəfə məhz Naxçıvan MSSR istiqamətində 1989-cu ilin 31 dekabrında sökülmüşdü [3]. Doğma diyardan uzaqlarda olduğu bir dövrdə belə Heydər Əliyev xalqla birlik nümayiş etdirərək bu hərəkatı vətənpərvər gənclərin hərəkatı

kimi qiymətləndirirdi. Heç də təsadüfi deyildir ki, sonralar 1989-cu ildən başlayan «Sərhəd hərəkatı»na qiymət vermək məqsədi ilə 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasında xüsusi məsələ - Dünya azərbaycanlılarının milli həmrəylik və birlik günü haqqında məsələ müzakirə edilmişdi [4].

Təbii ki, Ermənistan SSR istiqamətindən Naxçıvanın müxtəlif yaşayış məntəqələrinə hücumların tarixi ilə sərhədlərin sökülməsi hərəkatının tarixi arasındakı fərqi nəzərə alanda faktiki olaraq Ermənistandan hücumlara gerçəkdən də cəzalandırma mexanizmi kimi imperiya mərkəzindən icazə verildiyi aydın olur. Məsələ ondadır ki, sərhədin sökülməsi dekabrın 31-də həyata keçirilsə də, sərhəd hərəkatı Naxçıvanda daha əvvəldən, dekabr ayının ilk günlərindən başlamışdı.

AMEA-nın müxbir üzvü Z.Şahverdiyev 1989-cu ilin dekabr ayının 1-dən etibarən Naxçıvanda sərhəd hərəkatının başladığını, dekabrın 5-də bütün sərhəd boyu toplaşan insanların məşəllər yandırdığını, sərhədlərin açılması tələbini irəli sürdüyünü yazmışdır [5]. Akademik İ.Hacıyev isə məsələ ilə bağlı başqa bir fakta toxunur. O qeyd edir ki, dekabrın 12-də keçirilən sərhəd aksiyasından sonra qəti qərarlaşdırılmışdı ki, Cənubi Azərbaycanla əlaqələrin yaradılması məqsədi ilə sərhəd məftilləri sökülsün [6]. Beləliklə aparılan təhlillər göstərir ki, Ermənistandan Azərbaycanın Naxçıvan Muxtar Respublikasına hücum burada sərhəd hərəkatının, milli oyanışın gücləndiyi şəraitdə baş vermiş, milli həmrəylik çağırışlarını boğmaq üçün imperiya erməni cəza dəstələrindən muxtar respublikaya qarşı istifadə etməyə çalışmışdı. SSRİ rəhbərliyi yüksəlməkdə olan milli oyanış hərəkatını dünya ictimaiyyətinə "bir qrup cinayətkar ünsürün cinayət əməli" kimi təqdim etməyə çalışırdı.

## II. Naxçıvanda 1990-cı ilin yanvar hadisələri və Heydər Əliyevin münasibəti

İmperiya mərkəzi belə bir şəraitdə Azərbaycan rəhbərliyinə təzyiqləri gücləndirirdi. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi o zaman mərkəzə sədaqətini sübut etmək üçün bəzi addımlar atdı. 1990-cı il yanvar ayının 2-də "Naxçıvan MSSR-də dövlət sərhəddində kütləvi nizamsızlıq haqqında" qərar qəbul edildi [7]. Vilayət Partiya Komitəsinin növbədənkənar plenumunda Heydər İsayev birinci katib vəzifəsindən azad edildi. Onun yerinə Naxçıvan MSSR Nazirlər Sovetinin sədri Afiyəddin Cəlilov seçildi [8]. Lakin yeni rəhbərlik ümummilli məsələlərdə Sovet imperializminin mövqeyindən deyil, milli mövqedən çıxış etdi. Beynəlxalq səviyyədə tanınmış imperiya sərhədlərinin sökülməsi isə artıq bütün diqqətləri xeyli dərəcədə Naxçıvana yönəltmiş oldu. 1990-cı ilin əvvəllərində Naxçıvana erməni təcavüzü daha da gücləndi. Yanvarın 18-19-u tarixlərində Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Kərki kəndi SSRİ Müdafiə Nazirliyi 7-ci ordusunun köməyilə ermənilər tərəfindən işğal olundu [9]. 1990-cı ilin yanvar ayının 19-da "Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında" Naxçıvan MSSR Ali Sovetinin qərarı ilə Naxçıvan MSSR SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan etdi. Muxtar respublikada meydana çıxan ictimai-siyasi şəraitlə bağlı qərarda yazılırdı ki, SSRİ Konstitusiyasının 81-ci maddəsinə əsasən Azərbaycan SSR, o cümlədən onun tərkib hissəsi olan Naxçıvan MSSR-in suverenliyi və ərazi bütövlüyü müdafiə edilmədiyindən, muxtariyyətin və ölkənin qanunvericilik orqanlarının ittifaq orqanlarına müraciətləri nəticəsiz qaldığından, Ermənistan SSR-in hərbi təcavüzü ilə əlaqədar muxtar respublikanın ərazi bütövlüyü pozulduğundan, vətəndaşların həyatı təhlükə qarşısında qaldığından, Qars müqaviləsinin şərtləri pozulduğundan, muxtar respublika SSRİ-ni tərk edərək özünü müstəqil respublika elan edir [10]. Sənəddə muxtariyyətin ərazi bütövlüyünü qorumaq və kütləvi insan qırğınını önləmək üçün Türkiyə Cümhuriyyətinə, kömək məqsədilə isə BMT və İran İslam Respublikasına müraciət nəzərdə tutulurdu. Qərar qəbul edilən zaman Naxçıvan MSSR Ali Sovetinin sədri olmuş Səkinə Əliyeva sonralar xatirələrində Heydər Əliyevin bu hadisəyə münasibəti ilə bağlı yazmışdı: "H.Əliyev 1991-ci ildə Naxçıvana gələndə mən də onun görüşünə getdim və bu məsələdən söhbət düşəndə dedi ki, Səkinə xanım, çox düz iş görmüsünüz. Bax, bu mənim üçün ən böyük mükafat və qayğı idi" [11].

Faktiki olaraq Naxçıvan MSSR-də, Qarabağın dağlıq hissəsi və ətraf rayonlarda əhalinin təhlükəsizliyini təmin etmək üçün heç bir addım atmayan Azərbaycan SSR-in kommunist rəhbərliyi isə bu qərarı qeyri-qanuni elan etməyə cəhd göstərdi. 1990-cı il yanvar ayının 27-də Azərbaycan SSR Ali Soveti "Naxçıvan MSSR-də ictimai-siyasi vəziyyət haqqında" Naxçıvan MSSR Ali Sovetinin 1990-cı il 19 yanvar tarixli qərarının Azərbaycan SSR Konstitusiyasına uyğun olmaması barəsində" fərman verdi.

Ermənistanla sərhədboyu ərazilərdə isə vəziyyət gərgin olaraq qalırdı. Naxçıvan Muxtar Respublikasının əhalisi Sovet ordusu və erməni birləşmələrinin hücumlarına qarşı ciddi müqavimət göstərdi. 1990-cı ilin 27 martında Şahbuz rayonunun Şada kəndinə

ermənilərin silahlı basqını zamanı 6 nəfər yaralandı. 28 martda Sədərəyin erməni dəstələri tərəfindən atəşə tutulması nəticəsində bir nəfər həlak oldu, 3 nəfər yaralandı [12]. Martın 29-da Babək rayonunun Gərməçataq kəndində bir nəfər ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirildi.

Beləliklə, Naxçıvanda vəziyyət gərginləşirdi. Azərbaycan SSR-in rəhbərliyi nə ümumilikdə ölkə miqyasında, nə də Naxçıvanda vəziyyəti normallaşdırmaq iqtidarında deyildi.

### III. Heydər Əliyevin Naxçıvana qayıdışı və böhrandan xilas yollarına dair baxışları

SSRİ-nin süqutu ilə bağlı proseslərin getdikcə daha dönməz xarakter aldığı, Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında vəziyyətin kifayət qədər gərgin olduğu dövrdə Heydər Əliyev əvvəlcə 1990-cı il iyulun 20-də Moskvadan Bakıya, iyulun 22-də isə Bakıdan Naxçıvana gəldi [13]. Bu ərəfədə Naxçıvan Muxtar Respublikasında mövcud şəraitin tarixi xronoloji ivent analizi ilə yanaşı, məzmun təhlilinin (kontent analizinin) aparılması tarixi gerçəkliyi daha aydın şəkildə üzə çıxarmağa imkan verə bilər. Mövcud şəraitin təhlili Heydər Əliyevin Naxçıvana gəldiyi ərəfədə aşağıdakı problemlərin mövcudluğunu diqqətə almağı diqtə edir:

1) SSRİ-nin süqutu prosesinin sürətlənməsi fonunda mövcud idarəçilik mexanizmlərinin işinin pozulması;

2) Milli-azadlıq hərəkatını təşkilatlandırmağa çalışan qüvvələrin hərəkatdan milli dövlət idarəçiliyinə keçidlə bağlı aydın təsəvvürlərinin olmaması;

3) Ölkə miqyasında gərginləşən siyasi, iqtisadi və sosial vəziyyətin Naxçıvan Muxtar Respublikasında coğrafi və təbii şərtlər səbəbindən daha ağır olması;

4) Mövcud idarəçiliyin Naxçıvanla bağlı Ermənistanın təcavüzkar siyasətini lazımınca qiymətləndirə bilməməsi;

5) Ermənistanın, erməni terror-siyasi təşkilatlarının tarixin ayrı-ayrı dövrlərində olduğu kimi, yenə də qarışıqlıqlardan məharətlə yararlanmaq və yeni əraziləri ələ keçirmək cəhdlərinin mövcudluğu;

6) SSRİ rəhbərliyinin erməni təcavüzünü və işğalını milli hərəkatın yüksəldiyi Azərbaycana və Naxçıvan Muxtar Respublikasına qarşı cəza mexanizmi kimi istifadəsini effektiv hesab etməsi.

Başqa sözlə ifadə etsək, qarşıda bu məsələlərin həlli dururdu. Heydər Əliyev yaxşı bilirdi ki, ermənilər üçün Qarabağ qədər Naxçıvanın ələ keçirilməsi də ön məqsədlər sırasındadır, Azərbaycanın mövcud rəhbərliyi isə sadəcə olaraq mərkəzin əmrlərini sözsüz yerinə yetirən bir alətə çevrilib. Heydər Əliyevin Bakıdan Naxçıvana gəldiyi gün şəhərin mərkəzi meydanında 80 min nəfərlik izdihamlı mitinqin keçirilməsi [14], muxtar respublikanın o zamankı mövcud rəhbərliyinin, müxtəlif kütləvi informasiya vasitələrinin, ziyalıların proseslərin gələcək inkişafını qiymətləndirmək üçün hələlik heç bir vəzifə daşımayan Heydər Əliyevə üz tutması əhəmiyyətli məqamlar idi. Heydər Əliyevin yuxarıda sadalanan problemlər, proseslərlə bağlı aydın baxışı var idi və o, məsələləri dəqiq şəkildə qiymətləndirirdi. Məsələn, "Naşa delo" qəzetinə 1990-cı ilin yayında verdiyi müsahibələrindən birində Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı demişdi: "Ermənistan və Azərbaycan arasında artıq baş vermişlərin qarşısını vaxtında almaq olardı. Hadisələrin faciəvi, açıq deyək, xalqlararası tarixdə görünməmiş xarakterdə olmasında erməni millətçiləri, onları vaxtında yerində oturda bilməyən Azərbaycanın keçmiş rəhbərliyi, ölkənin siyasi rəhbərliyi və hamıdan əvvəl Qorbaçov günahkardır" [15].

Yaxud, sözügedən müsahibəsinin digər bir yerində Azərbaycanın gələcəyi ilə bağlı proseslərin tənzimlənməsindən bəhs edərkən Heydər Əliyevin baxışları yenə də kifayət qədər aydın və milli idi. O, deyirdi: "Azərbaycanın qarşısında çox mürəkkəb vəzifə durur, nəyin bahasına olursa, olsun öz müstəqilliyini möhkəmləndirmək, özü də təkcə Dağlıq Qarabağda deyil, bütün ölkə ərazisində. ...Azərbaycanın öz müstəqilliyinə can atması artıq dönməz bir prosesdir, bu, xalq kütlələrinin istəyidir – onu dayandırmaq mümkün deyildir" [16].

### IV. Ölkə və muxtariyyət parlamentində siyasi təşəbbüslər

Bütün qeyd olunan məqamlar, 1990-cı ilin avqustunda o zamankı iqtidarın bütün cəhdlərinə baxmayaraq Heydər Əliyevin namizədliyinin ölkənin qanunverici orqanına keçirilən seçkilərdə irəli sürülməsinə və sentyabr ayının 30-da onun həm Azərbaycan SSR Ali Sovetinin, həm də Naxçıvan MSSR Ali Sovetinin deputatı seçilməsinə gətirib çıxardı. Seçkilərin birinci turunda fərdi pensiyaçı Heydər Əlirza oğlu Əliyev 340 nömrəli Nehrəm seçki dairəsindən Azərbaycan SSR Ali Sovetinə, 2 nömrəli M.F.Axundov seçki dairəsindən isə Naxçıvan MSSR Ali Sovetinə xalq deputatı seçildi [17].

Noyabrın 17-də öz işinə başlayan Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyası "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyiş-

dirilməsi haqqında" [18], "Naxçıvan Muxtar Respublikası ali dövlət hakimiyyəti orqanı haqqında" [19], "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" tarixi qərarları qəbul etdi [20]. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişdirilərək Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikası elan olundu.

Ən mühüm məsələlərdən biri Naxçıvan Muxtar Respublikasına qarşı Ermənistanın təcavüzünün qarşısının alınması idi. Əgər Azərbaycana quru ərazi ilə bitişik olan və faktiki olaraq Ermənistanla o zaman ortaq sərhədə malik olmayan o zamankı Dağlıq Qarabağ Muxtar Vilayəti ilə Naxçıvanın yerləşdiyi coğrafi mövqeyi müqayisə etsək, bunun nə qədər çətin bir məsələ olduğunu aydın şəkildə başa düşmək olar:

1. O zamanı DQMV-nin Ermənistanla birbaşa sərhədi olmadığı halda, Naxçıvan Muxtar Respublikasının bu ölkə ilə sərhədi 240 kilometrdən artıq idi.

2. Keçmiş DQMV hər tərəfdən Azərbaycanın digər rayonları ilə həmsərhəd olduğu halda, Naxçıvan Muxtar Respublikasının belə bir sərhədi yox idi.

3. DQMV ətrafında baş verən proseslərin qarşısının alınması üçün respublika rəhbərliyi müəyyən əməli tədbirlər həyata keçirməyə çalışsa da, Naxçıvana münasibətdə yanaşma nisbətən fərqli idi.

Erməni təcavüzünün qarşısını almaq üçün Heydər Əliyevin birbaşa təşəbbüsü ilə bir sıra addımlar atıldı. Müdafiənin beynəlxalq hüquqi əsasını təmin etmək üçün 1921-ci ildə imzalanmış Qars müqaviləsi aktuallaşdırıldı və Türkiyə Cümhuriyyətinin prosesə cəlb edilməsi istiqamətində işlərə başlanıldı [21]. 1991-ci il yanvar ayının 11-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Moskva və Qars müqavilələrinin iştirakçısı olan dövlətlərə bəyanat verdi. Bəyanatda qeyd edilirdi ki, muxtar respublikanın müqavilələrlə təsbit olunan ərazisinə qarşı Ermənistanın təcavüzünə iştirakçı dövlətlər münasibət bildirməldirlər. Bu məqam prosesə təkcə Türkiyənin deyil, Rusiya Federasiyasının da cəlbi demək idi və əslində tərəflərə beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini xatırladırdı. Belə vəziyyətdə Ermənistan beynəlxalq hüququn təməl prinsiplərinə uyğun olmayan addım atdı. 1991-ci ilin fevralında birtərəfli şəkildə Qars müqaviləsinin tanınmaması barədə qərar qəbul etdi [22]. Həmin ilin mart-aprel aylarında Ermənistanın atdığı addımlar nəticəsində Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikası ilə quru əlaqəsi tamamilə kəsildi. Muxtar Respublikanı Azərbaycanın digər şəhər və rayonları ilə birləşdirən dəmiryolu xətti bağlandı. Azərbaycan Dövlət Dəmir Yolunun Naxçıvan hissəsinin balansında olan Bartaz, Nüvədi, Astazur, Mehri, Qorçivan stansiyalarından qatarların keçməsi qeyri-mümkün oldu. Belə bir şəraitdə Heydər Əliyevin hələ Azərbaycan SSR-ə rəhbərlik etdiyi, SSRİ-nin idarəedici elitasına daxil olduğu dövrdə qurduğu əlaqələr, qazandığı nüfuz Naxçıvanın xilas edilməsi ilə bağlı bir çox addımların atılmasında əhəmiyyətli rol oynadı. Türkiyə Cümhuriyyətindən kömək alınması məqsədi ilə bir sıra addımlar atıldı. İrandan müəyyən məhsulların gətirilməsini təmin etmək üçün aprel ayının 16-da Azərbaycan-İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikası hissəsində Nehrəm kəndi ərazisində sadələşdirilmiş keçidi təmin edən körpünün açılışı oldu.

**Nəticə**

Aparılan təhlillər göstərir ki, Heydər Əliyevin hələlik Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri olmadığı bir dövrdə problemlərin aradan qaldırılması, Naxçıvanın Ermənsitanın təcavüzündən qorunması istiqamətində atdığı addımlar xalqın ona olan inamını möhkəmləndirir, həm iqtidarın, həm milli azadlıq hərəkatında rol almağa çalışan təşkilatların onunla müəyyən məsələlərdə hesablaşmaq məcburiyyətində qalmasına səbəb olurdu. Heydər Əliyevin dünyanın iki fövqəldövlətindən birinə rəhbərlik etdiyi dövrdə beynəlxalq aləmdə qazandığı nüfuz ona problemlərin aradan qaldırılması üçün daha irimiqyaslı addımların atılması imkanını verirdi. Belə bir şəraitdə 1991-ci ilin sentyabr ayının 3-də Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildi. Bu hadisə təkcə Naxçıvan Muxtar Respublikasının deyil, ümumilikdə Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik olan tarixi hadisə idi [23].

**ƏDƏBİYYAT SİYAHISI**


*1. Cabbarlı, H. Ermənistan-Gürcüstan münasibətlərində Cavaxeti və Abxaziya dəmiryolu problemləri // Səs qəzeti, -2015, 08 yanvar. № 3, s. 11.; Qasımlı, M. və b. Gürcüstanda erməni təşkilatlarının fəaliyyəti /M.Qasımlı, V.Ömərov, N.Məmmədova, S.Həbibbəyli, K.Salayev. –Bakı: RS poliqraf, -2020. -608 s., səh. 333.*

*2. Naxçıvan tarixən müstəqillik və dövlətçilik uğrunda mübarizənin ön cərgəsində yer almışdır // Şərq qapısı, -2016, 19 yanvar. № 11 (21.421),-s. 2.*

*3. Axundova, E. Heydər Əliyev. Şəxsiyyət və zaman. Ömrün Naxçıvan aşırımları / E.Axundova. – Bakı: CBS, -2013. 736 s., səh.36.*

*4. Hüseynova, İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu. / İ.Hüseynova. – Bakı: “Təhsil”- 2004, -472 səh., -s.62.*

*5. Şahverdiyev, Z.Ə. XX əsrin axırlarında Naxçıvanda tarixi hadisələrin xronoloji təhlili // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərlər jurnalı, -2016. -№ 5(79). –s. 3-8, -s.4.*

*6. Hacıyev, İ.M. Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında / İ.M.Hacıyev. –Bakı: Elm və təhsil, -2016. -360 s., s.28.*

*7. Hacıyev, İ.M. Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında / İ.M.Hacıyev. –Bakı: Elm və təhsil, -2016. -360 s., s.31.*

*8. Məmmədov, M. Siyasətdə Naxçıvan dərsləri / M.Məmmədov. –Bakı: Araz, -2009. -416 s., s.9.*

*9. Hacıyev, İ.M və b. Böyük güclərin Azərbaycanla bağlı geosiyasi maraqlarında Naxçıvanın yeri /İ.M. Hacıyev, E.A.Şıxəliyev, E.Y.Cəfərli, M.S.Şabanov. –Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, -2017. – 300 s., s.116.*

*10. Fəridə, L. Azadlıq çarçısı/ L.Fəridə. –Bakı: Adiloğlu, -2003. -144 s., s.61-94.*

*11. 1990-cı il 20 yanvar hadisələri haqqında bəzi xatirələrim: [Elektron resurs] / AQRA Elmin İnkişafına Dəstək İB-nin saytı, -2014, 18 Yanvar. URL: https://www.aqra.az/az/1990-ci-il-20-yanvar-hadisələri-haqqinda-bəzi-xatirələrim/*

*12. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasınm ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər) /İ.M.Hacıyev. –Naxçıvan: "Əcəmi" NPB. -2011. -272 s., s.28.*

*13. Cabbarov, Ə. Heydər Əliyev və Naxçıvan tarixi məsələləri / Ə.Cabbarov. –Naxçıvan: Əcəmi, -2015. -232 s., s.66.*

*14. Cabbarov, Ə. Heydər Əliyev və Naxçıvan tarixi məsələləri / Ə.Cabbarov. –Naxçıvan: Əcəmi, -2015. -232 s., s.67.*

*15. Если мы были не достойные, то почему тот, кого мы избрали, достоин руководит страной? // Наша дело, -1990, №4 (7); Qayıdış (1990-1993). –Bakı: Azərbaycan nəşriyyatı, -2008, -840 s., - s.68.*

*16. Qayıdış (1990-1993). –Bakı: Azərbaycan nəşriyyatı, -2008, -840 s., - s.71.*

*17. Kəlbizadə, E.H. XX əsrin son onilliyində Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əlaqələrin inkişafı tarixindən // Tarix və onun problemləri, -2012. №2, -s. 331-336, s.331*

*18. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı: [Elektron resurs] / Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanasının rəsmi internet səhifəsi. -2022. URL: https://nakhchivan.preslib.az/az_b5-16.html*

*19. Hüseynova, İ.M. Müstəqilliyimizin təminatçısı / İ.M.Hüseynova. -Bakı: Təhsil, -2003, -504 s., s.20.*

*20. Qayıdış (1990-1993). –Bakı: Azərbaycan nəşriyyatı, -2008, -840 s., - s.131.*

*21. Kəlbizadə E.H., Baxşıyeva Y.Ü., Əzimov Ə.D. Ermənistan İran İslam Respublikasının Qafqaz siyasətində. – Bakı: "MTM Innovation" MMC, 2019. – 360 s., s.271.*

*22. Türkiyə-Ermənistan protokolları: Uduzan kim, udan kim? -Bakı: SAM, -2010, 44 s., s.22.*

*23. Hacıyev, İ. Ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyası sayəsində Azərbaycan böyük təhlükələri dəf etməyi bacardı // Xalq qəzeti, -2021, 3 sentyabr. № 186. –s. 3.*

**XÜLASƏ**

Ölkələrin tarixi həm də şəxsiyyətlərin, onların ictimai-siyasi proseslərə yanaşmasının, baş verən taleyüklü hadisələrlə bağlı nümayiş etdirdikləri mövqeyin tarixidir. Siyasi tarixşünaslıqda və politologiyada tarixi şəxsiyyətlərin prosesləri zamanında və doğru şəkildə qiymətləndirməsi onların başlıca liderlik göstəricilərindən biri hesab edilir. Bu baxımdan Azərbaycan tarixinin ən taleyüklü dönəmlərindən biri sayılan XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində ümummilli lider Heydər Əliyevin cərəyan edən proseslərlə bağlı mövqeyinin elmi metodlarla tədqiqi vətən tarixşünaslığının qarşısında dayanan aktual məsələlərdəndir. Yalnız məsələnin elmi kontekstdə öyrənilməsi obyektiv gerçəkliyin müəyyən edilməsinə, bu isə, öz növbəsində, müasir dövrdə Qafqazla bağlı məsələlərin doğru şəkildə təhlilinə imkan verə bilər.

Məqalədə qarşıya qoyulan başlıca məqsəd Sovet İttifaqının süqutu ərəfəsində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında cərəyan edən hadisə və proseslərə sonradan muxtar respublikaya və bütün ölkəyə rəhbərlik edəcək şəxsin münasibətinin dövrün mənbələri, ilkin qaynaqlar və tarixşünaslıq əsərləri kontekstində qiymətləndirilməsidir. Bu, həm də XX əsrin 90-cı illərində Naxçıvan Muxtar Respublikasının Qafqazın "barıt çəlləyi" olan Ermənistanın hərbi təcavüzündən qorunması prosesi ilə bağlı aydın təsəvvürün formalaşmasına xidmət edə bilər. Qarşıya qoyulan məqsədə çatmaq üçün ümumi və xüsusi tarixi tədqiqat metodlarından istifadə edilmiş, hadisələrin tarixi xronoloji konteksti ivent analiz, mahiyyəti isə kontent analiz metodu əsasında təhlil edilmişdir.

UOT 94(479.24)

# AZƏRBAYCANDA KOSMİK SƏNAYENİN YARANMASI VƏ İNKİŞAFI

**ARZU XƏLİLZADƏ**
*Bakı Dövlət Universitetinin dosenti,*
*tarix üzrə fəlsəfə doktoru*

*E-mail: Azerbaijan@rambler.ru*

Azərbaycanda qeyri-neft sektorunun inkişafı və bu istiqamətdə prioritetlərin müəyyənləşdirilməsi dövlətin qarşısına qoyduğu əsas vəzifələrdən biridir. Qeyri-neft sektoru sahəsində dinamik inkişaf edən və Azərbaycanın informasiya təhlükəsizliyində mühüm rol oynayan əsas istiqamətlərdən biri kosmik sənayenin inkişaf etdirilməsi və modernləşdirilməsidir. Azərbaycanda kosmik sənayenin yaranması və inkişafı dünyada kosmik fəaliyyətin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması ilə əlaqədardır.

Sovet hakimiyyəti illərində Azərbaycanda kosmik sənayenin inkişafı ilə əlaqədar müəyyən praktiki addımlar atılmışdır. Ümummilli lider Heydər Əliyev SSRİ dövründə hakimiyyətdə olduğu illərdə Azərbaycan milli kosmik sənayesinin, elmi və maddi-texniki bazanın yaradılması və inkişafı istiqamətində mühüm işlər həyata keçirmişdir [18]. Heydər Əliyevin təşəbbüsü ilə 1973-cü ilin oktyabrında Bakıda keçirilən Beynəlxalq Astronavtika Federasiyasının 24-cü konqresi kosmonavtika sahəsində beynəlxalq elmi-texniki əməkdaşlığın genişləndirilməsi, perspektiv tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsi məsələlərinin müzakirəsi baxımından əhəmiyyətli idi [9]. Konqres 1973-cü il oktyabrın 7-dən 13-dək Bakıda “Kosmik tədqiqatlar – elm və texnikaya nüfuz” devizi altında keçirilmişdir. Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Luici Napolitano 1973-cü il oktyabrın 20-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevə ünvanladığı təşəkkür məktubunda bu konqresin digərləri ilə müqayisədə rekord sayda iştirakçı cəlb etdiyini bildirirdi [9].

Konqresin Azərbaycanın kosmonavtika sənayesinin inkişafında mühüm rolu oldu. Belə ki, 1974-cü ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev Azərbaycan Elmlər Akademiyasının tərkibində kosmik texnika vasitələrindən istifadə etməklə təbii ehtiyatların tədqiqi üzrə Cənub-Şərq Mərkəzi – “KASPİ” Elmi Mərkəzinin yaradılması haqqında tarixi qərar verdi. Bu elmi mərkəzin əsasında 1981-ci il sentyabrın 29-da Kosmik Tədqiqatlar Elmi-İstehsalat Birliyi (KTEİB) yaradıldı [9]. Belə bir təşkilatın Azərbaycanda fəaliyyətə başlaması kosmik texnika və texnologiyalardan istifadəsində yeni imkanlar yaratdı, Yer səthinin müasir üsullarla tədqiqi istiqamətində mühüm nailiyyətlər qazanıldı [17].

1992-ci il fevralın 21-də Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə kosmik fəzanın öyrənilməsi sahəsində dövlət siyasətini həyata keçirmək, milli aerokosmik proqramları hazırlamaq və yerinə yetirmək, beynəlxalq kosmik layihələrə dair işləri əlaqələndirmək və idarə etmək, bu sahədə olan elm və istehsal potensialından dövlətin iqtisadiyyatının və təhlükəsizliyinin xeyrinə səmərəli istifadə etmək məqsədilə Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyinin əsasında Azərbaycan Milli Aerokosmik Agentliyi (MAKA) yaradıldı [3]. MAKA 2003-cü ilə qədər Azərbaycan Respublikasının Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinin tabeliyində öz fəaliyyətini davam etdirmiş və yenidən Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyinə verilmiş, 2006-cı ilə qədər həmin strukturun tərkibində fəaliyyət göstərmişdir [17]. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 sentyabr tarixli Fərmanı ilə AMAKA (sonradan MAKA) Azərbaycan Republikasının Müdafiə Sənayesi Nazirliyinin tabeliyinə verilmişdir [15].

XX əsrin 60-70-ci illərində orbitə çıxarılan peyklər əsasən rabitə və teleradio yayımı üçün istifadə olunurdusa, 80-ci illərdə yeni VSAT (kiçikölçülü peyk terminalı) texnologiyasının yaranması lokal, şəhərlərarası və beynəlxalq rabitənin daha geniş ərazilərdə inkişafına böyük təkan vermişdir. XX əsrin 90-cı illərinin sonlarından etibarən isə peyk sistemlərinin tətbiqi dünyada daha keyfiyyətli və etibarlı rabitə sistemlərinin yaranmasına və rəqəmli teleradio yayım sistemlərinin və şəbəkələrinin qurulmasına imkan yaratmışdır. 2000-ci ildən peyk resurslarına olan tələbat bu sahədə yeni texnologiyaların tətbiqini daha da sürətləndirmişdir [6]. Azərbaycan dünyada baş verən bu proseslərdən kənarda qalmamış, sənayenin bu sahəsinin inkişafı üzrə praktik addımlar atılmışdır.

Azərbaycan müasir kosmik sənayesinin inkişafı Prezident İlham Əliyevin hakimiyyəti illərində əhəmiyyətli dərəcədə inkişaf etdi. Bu sahənin inkişaf etdirilməsi istiqamətində strateji xətt müəyyənləşdirildi. Azərbaycanda optik müşahidə peykinin istismara verilməsi əsas məqsəd kimi qarşıya qoyulmuşdu. Bu məsələ Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 17 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı"nda, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında və digər konseptual sənədlərdə öz əksini tapmışdır [7].

2009-cu ildə qəbul edilən Dövlət Proqramı kosmik fəaliyyət sahəsində dövlət, elm və uyğun biznes qurumlarının koordinasiyasının yaradılması və gücləndirilməsinə, beynəlxalq təcrübənin öyrənilməsinə, beynəlxalq qurumlarla əlaqələrin qurulmasına, infrastrukturun yaradılmasına start verməli idi[14].

Kosmik sənayenin inkişafı sahəsində mühüm addımlardan biri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2010-cu il 3 may tarixli Sərəncamı ilə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin (Azərkosmos ASC) təsis edilməsi idi [8]. Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsində əsas məqsəd telekommunikasiya peykinin orbitə çıxarılması, idarə edilməsi və istismarı işlərinin həyata keçirilməsi idi [12]. Cəmiyyət qlobal informasiya məkanına inteqrasiyanın genişləndirilməsi, milli və informasiya təhlükəsizliyinin təmin olunması, kosmik sənayenin və kosmik fəaliyyətin nailiyyətlərinin ölkədə tətbiq edilməsi, kosmik elm və texnikanın, peyk xidmətlərinin, informasiya texnologiyalarının inkişafı məqsədi ilə elmi araşdırmaların təşviq edilməsi və dəstəklənməsi, peyklər və peyk sistemləri vasitəsilə peyk rabitəsi, telekommunikasiya xidmətləri, yüksəksürətli peyk internet xidməti, radio və televiziya yayımı, habelə məsafədən qəbuletmə, Yer müşahidə, şəkil çəkmə üzrə xidmətlərin və digər növ peyk xidmətlərinin təşkil edilməsi, göstərilməsi və s. istiqamətlərdə fəaliyyət göstərəcəkdi [11].

Azərbaycanda peyk layihələrinin həyata keçirilməsinin əsas məqsədləri Azərbaycanın milli təhlükəsizliyinin təmin olunmasına, sosial-iqtisadi inkişafa, elmi tədqiqatların aparılmasına dəstək verilməsi və beynəlxalq kosmik təşəbbüslərdə iştirak edərək ölkənin dünyada imicinin yüksəldilməsi olmuşdur [1]. Azərbaycanda kosmik sənayenin yaradılması iqtisadi cəhətdən böyük səmərə verirdi. İlk növbədə, Azərbaycanın öz rabitə sisteminin təkmilləşdirilməsi, sonrakı mərhələdə isə yerin təbii ehtiyatlarının öyrənilməsi sahəsində kosmik məlumatlardan istifadə, operativ məlumatların əldə edilməsində səmərəli ola bilərdi. Çünki əvvəllər bu istiqamətdə məlumatları Azərbaycan çox çətinliklə başqa ölkələrdən əldə edirdi. Ancaq Azərbaycanın öz peykinə malik olması onun daxili məsələlərinin həllinə şərait yaradardı [16].

Dövlət başçısı İlham Əliyevin hakimiyyəti illərində Azərbaycan kosmos klubunun üzvünə çevrildi. 2013-cü il fevralın 8-də Azərbaycanın müstəqillik tarixinin ən önəmli hadisələrindən biri baş verdi. Azərbaycan kosmik fəzaya ilk peykini buraxdı. Azərbaycan Respublikasının ilk telekommunikasiya peyki – "Azərspace-1"uğurla orbitə buraxıldı. ABŞ-ın "Orbital Sciences" şirkətinin istehsal etdiyi "Azerspace-1" peyki "Ariane-5" kosmik daşıyıcısı ilə orbitə çıxarıldı. Peykin ümumi çəkisi 3250 kq təşkil edir və onun istifadə müddəti 15 ildir [13]. "Azerspace-1"in ümumi dəyəri 233 milyon dollar idi. "Azərkosmos" ASC bu peykin istismarından 420 milyon dollar təmiz gəlir əldə etməyi nəzərdə tuturdu [2].

Azerspace-1/Africasat-1a peykinin həm Azərbaycan, həm də bütövlükdə Qafqaz üçün mühüm əhəmiyyəti var idi. İlk növbədə bu peykin verəcəyi bir neçə qiqabitlik İnternet alternativ kimi fors-major situasiyalarda faydalı ola bilər, Azərbaycanın informasiya-kommunikasiya texnologiyaları sektorunda texniki tərəqqiyə səbəb ola bilərdi. Eyni zamanda ilk telekommunikasiya peykinin orbitə buraxılmasının, Azərbaycanın beynəlxalq nüfuzunun artması baxımından da əhəmiyyəti böyük idi [10]. Beləliklə, "Azərspace-1"in 2013-cü ildə orbitə çıxarılması ilə Azərbaycan "kosmik klub"a üzv olmaqla yanaşı, xarici dövlətlərin peyklərindən asılılıq aradan qaldırılmış və "Azerspace-1" informasiya təhlükəsizliyinin vacib komponentinə çevrilmişdir.

Azərbaycanda kosmik sənayenin yaradılmasının və süni peykin orbitə buraxılmasının böyük əhəmiyyəti var idi.

Azərspace – 1 peykinin orbitə buraxılması bir sıra üstünlüklər vəd edirdi. İqtisadiyyatın şaxələndirilməsi və yeni sənaye sahələrinin inkişafı, infor-

masiya mübadiləsinin xarici ölkələrdən asılılığının aradan qaldırılması və informasiya təhlükəsizliyinin təmin edilməsi, yeni iqtisadi sahələr üzrə mövcud insan ehtiyatları və intellektual potensialın inkişaf etdirilməsi, elmtutumlu yeni layihələrin həyata keçirilməsi, innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, Azərbaycanın İKT üzrə regional mərkəzə çevrilməsi, telekommunikasiya infrastrukturun inkişaf etdirilməsi, teleradio yayım və rabitə xidmətlərinin göstərilməsi, hökumət və korporativ müştərilərin tələblərinə cavab verən yüksək etibarlı rabitə platformaları, ölkənin ucqar ərazilərinin internetə qoşulmasının, elektron hökumət, təhsil, səhiyyə və digər xidmətlərin həyata keçirilməsinin təmin edilməsi, informasiya blokadası riskindən qorunmaq və Azərbaycanın informasiya mövqelərinin möhkəmlənməsi, telekommunikasiya peyki xidmətlərinə görə xarici ölkələrə ödənilən maliyyə axınının Azərbaycan iqtisadiyyatına yönəldilməsi və peyk tutumlarının xaricə satılması ümumi üstünlüklər vəd edirdi [5].

İnformasiya və kommunikasiya texnologiyalarının geniş tətbiqi ölkənin hərtərəfli inkişafına xidmət etməklə yanaşı, informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması baxımından da xüsusi əhəmiyyət kəsb edirdi. Azərbaycan Respublikasının Avropa və Asiya arasında əlverişli geoiqtisadi, coğrafı, eləcə də, informasiya magistrallarının kəsişdiyi məkanda yerləşməsi informasiya mübadiləsində xarici dövlətlərdən asılılığının aradan qaldırılmasını təmin edirdi.

Azərbaycanın ikinci peyki aşağı orbitli (640 kilometr hündürlüyü olan orbit) “Azersky” (“Spot 7”) peykidir. Bu peyk kosmik sənaye sahəsində Azərbaycan və Fransa strateji əməkdaşlığı çərçivəsində buraxılmış və 2014-cü il dekabrın 2-də “Bakutel-2014” sərgisi çərçivəsində “Azərkosmos” ASC və Fransanın “Airbus Defence and Space” şirkəti arasında imzalanmış saziş əsasında Azərbaycanın idarəetməsinə verilmişdir. “Azersky” müdafiə və təhlükəsizlik, fövqəladə halların çevik aşkar olunması, təbii ehtiyatların tədqiqi, dənizin müşahidəsi, dəniz naviqasiyası, ətraf mühitin qorunması, şəhərsalmanın planlaşdırılması, xəritəçəkmə, kənd təsərrüfatı və turizm sahələri üzrə geniş əlavələr spektrinə malikdir. “Azersky” peyki Azərbaycana 150 milyon avroya başa gəlmişdir [2].

Süni peyklərin orbitə buraxılmasının müxtəlif sahələrin inkişafı ilə bağlı mühüm əhəmiyyəti var idi. İlk növbədə, Azərbaycan televiziya kanallarının fasiləsiz peyk yayımı Azərbaycan həqiqətlərinin dünyaya maneəsiz çatdırılmasını təmin edir. Nəticədə, Azərbaycanın “Azersky” peyki sayəsində daha əvvəl çıxışı olmadığı ərazilərin, eləcə də dünyanın istənilən nöqtəsinin yüksək ayırdetməli peyk təsvirlərinə birbaşa çıxış imkanı var. Bununla da kosmosda Azərbaycana məxsus peyklər vasitəsilə ölkəmizin bütün ərazisi nəzarət altında saxlanılır, əldə edilən məlumatlar aidiyyəti dövlət qurumları və müvafiq beynəlxalq təşkilatlara təqdim edilir. Buna uyğun olaraq, 2019-cu ildə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə birgə “Azərbaycanın Ermənistanın işğalı altında olan ərazilərində qeyri-qanuni fəaliyyətlər: Peykdən çəkilmiş şəkillər, sübutlar” adlı hesabat hazırlanaraq dünya ictimaiyyətinə təqdim olunmuşdur [7].

Kosmik sənayenin inkişafı istiqamətində elmi tədqiqatların aparılması da prioritet təşkil edir. Elmi tədqiqatların aparılmasına dəstək vermək və kadr potensialını inkişaf etdirmək əsas vəzifələrdən biridir. Bu istiqamətdə mühüm addımlar atılmışdır. Belə ki, artıq “Azərkosmos”da kosmik sahədə elmi-təcrübi tədqiqatların aparılması, kosmik sənayenin ölkədə inkişafının dəstəklənməsi və səmərəli kommersiya həllərinin yaradılması məqsədilə Tədqiqat və İnkişaf Mərkəzi yaradılmışdır. Bu mərkəzdə peyklərin idarə edilməsi sahəsində müxtəlif proqram təminatları, kiçik peyklərin ilkin dizaynı və orbitlərinin stabilliyinin analizi, müxtəlif süni intellekt həlləri və digər istiqamətlərdə tədqiqatlar aparılır [9].

2018-ci il sentyabrın 26-da Azərbaycanın sayca üçüncü və telekommunikasiya sahəsində xidmətlər göstərən ikinci peyki olan “Azerspace-2” Fransız Qvianasında yerləşən kosmodromdan – Qviana Kosmik Mərkəzindən uğurla orbitə buraxıldı. Peykin kosmik fəzaya göndərilməsi Fransanın “Arianespace” şirkətinə məxsus “Ariane 5” daşıyıcı raketi ilə həyata keçirildi. Peykin dəyəri 190 milyon dollara yaxındır. Onun fəaliyyət müddəti təxminən 20 il təşkil edəcək və ölkə iqtisadiyyatına 400 milyon dollar gəlir gətirəcəkdi. İqtisadi aspekti ilə yanaşı, “Azerspace-2”nin orbitdə fəaliyyətinin ölkənin informasiya təhlükəsizliyi və müstəqilliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyəti vardı. Bundan sonra “Azerspace-2”nin xidmət dairəsi genişlənəcək və bir sıra Avropa ölkələrini, həmçinin Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrikanı əhatə edəcəkdi. Yeni peyk “Azərkosmos”un xidmət

spektrinin və fəaliyyət coğrafiyasının genişləndirilməsi ilə yanaşı, həm də birinci telekommunikasiya peyki – “Azerspace-1” peykinin orbitdəki ehtiyatı olacaqdı. Bu da öz növbəsində, “Azərkosmos”a ehtiyat peykin olmaması səbəbindən iştirak edə bilmədiyi irihəcmli beynəlxalq tenderlərdə iştirak etmək imkanı yaradacaqdı [2].

2018-ci ilin sentyabrında Prezident İlham Əliyev “Azerspace-2” peykinin orbitə buraxılması münasibətilə çıxış edərkən qeyd etmişdi ki, ölkə üçün peyklərə sahib olmağın bir sıra əsas üstünlükləri vardır. Azərbaycan telekanallarının proqramlarını dünyanın digər ölkələrində yayımlamaq imkanı, Azərbaycanın və dünyanın istənilən yerində hadisələrin izlənməsi, kosmik sənayedə beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi, hərbi potensialın gücləndirilməsi bu üstünlüklərdən hesab olunur [4].

Azərbaycanın kosmik dövlətə çevrilməsi ölkənin nüfuzunun artırılması və iqtisadi baxımdan əhəmiyyətli idi. Eyni zamanda aerokosmik məkanda yerləşdirilən cihazlar və komplekslər tədqiq olunan obyektlər haqqında genişmiqyaslı və yeni məlumatların əldə edilməsinə əlverişli imkanlar yaradır. Aerokosmik laboratoriyada Yerin, dünya okeanlarının təbii ehtiyatlarının, planetlərin və digər mühüm obyektlərin öyrənilməsi üçün böyük imkanlar mövcuddur.

Beləliklə, Azərbaycanda kosmik sənayenin yaradılması və inkişafı istiqamətində nəzəri-hüquqi baza formalaşdırılmış, bu istiqamətdə əhəmiyyətli praktiki fəaliyyət həyata keçirilmişdir. Azərbaycanın dünya kosmik klubun üzvünə çevrilməsi ilə ölkənin beynəlxalq reputasiyası artmış, milli informasiya təhlükəsizliyi təmin edilmişdir.

### ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan dünyanın azsaylı kosmik ölkələrindəndir // https://xalqqazeti.com/ az/news/76685*

*2. Azərbaycan dünya kosmik klubunun tamhüquqlu üzvüdür // https://azertag.az/ xeber/Azerbaycan_dunya_kosmik_klubunun_tamhuquqlu_uzvudur-1237971 İstinad tarixi: 25.01.2019.*

*3. Azərbaycan Milli Aerokosmik Agentliyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // http://www.e-qanun.az/ framework/6873. İstinad tarixi: 08.01.2022.*

*4. Azərbaycan peykləri yatırılmış sərmayəni doğruldur – ANALİTİKA // https://report.az/analitika/ azerbaycan-peykleri-yatirilmis-sermayeni-dogrul-dur-analitika/ İstinad tarixi: 01.05.2021.*

*5. Azərbaycan Respublikası və Beynəlxalq Telekommunikasiya İttifaqı. Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyinin rəsmi saytı // https://un.mfa.gov.az/az/content/42/azerbaycan-respublikasi-ve-beynelxalq-telekommunikasiya-ittifaqi. İstinad tarixi: 01.03.22.*

*6. Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı, 17 avqust 2009 // http://www.e-qanun.az/framework/18269 İstinad tarixi: 09.01.22.*

*7. Azərbaycan Respublikasında peyk vasitəsilə Yerin məsafədən müşahidəsi xidmətlərinin inkişafına dair 2019–2022-ci illər üçün Dövlət Proqramı // http://www.e-qanun.az/framework/40724*

*8. “Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)” publik hüquqi şəxs. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəsmi saytı. // https://mincom.gov.az/az/view/ organization/29/ İstinad tarixi: 09.01.2022.*

*9. Azərbaycanın kosmik proqramı: Zəngin ənənələr və müasir çağırışlar // https://azertag.az/ xeber/Azerbaycanin_kosmik_proqrami_Zengin_eneneler_ve_muasir_chagirislar-135443. İstinad tarixi: 13.11.2019.*

*10. Azərbaycanın peyki barədə suallar // https://www.bbc.com/azeri/ azerbaijan/ 2013/02/130208_q_a_azeri_satelite*

*11. “Azərkosmos” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi, 23 dekabr 2010 // http://www.e-http:// www.e-http://www.e-qanun.az/framework/21072 qanun.az/framework/21072 qanun.az/framework/21072*

*12. “Azərkosmos” açıq səhmdar cəmiyyətinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 3 may 2010 // https://ict.az/ az/content/176 - AMEA İnformasiya Texnologiyaları İnstitutunun rəsmi saytı. İstinad tarixi 09.01.2022.*

*13. Azerspace // https://az.wikipedia.org/wiki/ Azerspace*

*14. Görəsən öz milli peykini orbitə çıxaran Azərbaycan bundan nə qazanacaq ? // https://xeberler. az/new/details/goresen-oz-milli-peykini-orbite-cixaran-azerbaycan-bundan-ne-qazanacaq--2353.htm İstinad tarixi: 02-05-2009*

*15. Haqqımızda. Azərbaycan Milli Aerokosmik Agentliyinin rəsmi saytı // https://nasa.az/*

*16. İlk telekommunikasiya peykinin orbitə buraxılması Azərbaycanın inkişafının zirvəsidir //*

*https://yeniazerbaycan.com/Iqtisadiyyat_e11208_az.html. İstinad tarixi: 13.02.2013*
*17. Tariximiz. Azərbaycan Milli Aerokosmik Agentliyin rəsmi saytı. // https://nasa.az/*
*18. Virtual 71-ci Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində İlham Əliyevin videomüraciəti təqdim olunub // https://president.az/az/articles/view/ 42834*

**XÜLASƏ**

Azərbaycanda kosmik sənayesinin yaranması və inkişafı Məqalədə Azərbaycanda kosmik sənayenin yaranması və inkişafı, bu sahənin əhəmiyyəti və Azərbaycanın informasiya təhlükəsizliyinin təmin olunmasında onun rolu məsələləri tədqiq edilmişdir. Kosmik sənayenin yaradılması və inkişafı ilə bağlı qəbul edilən qərarlar, sərəncamlar təhlil edilmiş, bu istiqamətdə yaradılan strukturların fəaliyyət mexanizmləri, funksiya və məqsədləri öz əksini tapmışdır. Eyni zamanda məqalədə Azərbaycan süni peyklərinin orbitə buraxılması, bununla Azərbaycanın kosmik klubun üzvünə çevrilməsi məsələləri araşdırılmış, süni peyklərə malik olmağın üstünlükləri göstərilmişdir.

**Açar sözlər:** *Kosmik sənaye, süni peyk, informasiya təhlükəsizliyi, dövlət proqramı, qeyri-neft sektoru, inkişaf.*

**Арзу Халилзаде**
**Доцент Бакинского государственного университета, доктор философии по истории**

**Создание и развитие космической индустрии в Азербайджане**
**РЕЗЮМЕ**

В статье рассмотрены вопросы создания и развития космической промышленности в Азербайджане, значение этой сферы и ее роль в обеспечении информационной безопасности Азербайджана. Проанализированы принятые решения, распоряжения о создании и развитии космической промышленности, отражены механизмы деятельности, функции и цели структур, созданных в этом направлении. В то же время в статье рассмотрены вопросы запуска на орбиту искусственных спутников Азербайджана, превращения Азербайджана в члена космического клуба, указаны преимущества наличия искусственных спутников.

**Ключевые слова:** *Космическая промышленность, искусственный спутник, информационная безопасность, государственная программа, ненефтяной сектор, развитие.*

**Arzu Khalilzade**
**Associate Professor of Baku State University, Doctor of Philosophy in History**

**Establishment and development of space industry in Azerbaijan**
**SUMMARY**

The article examines the emergence and development of the space industry in Azerbaijan, the importance of this field and its role in ensuring information security in Azerbaijan. Decisions and orders on the creation and development of the space industry were analyzed, mechanisms, functions and goals of the structures created in this direction were reflected. At the same time, the article investigated the launch of Azerbaijan's artificial satellites into orbit, thereby turning Azerbaijan into a member of the space club, and outlined the advantages of having artificial satellites.

**Key words:** *Space industry, artificial satellite, information security, state program, non-oil sector, development.*

UOT 94(479.24)

# AZƏRBAYCAN SSR-DƏ SOVET HAKİMİYYƏTİNİN DİN SAHƏSİNDƏ APARDIĞI SİYASƏT VƏ ONUN MAHİYYƏTİ (1920-1930-CU İLLƏR)

**SEVDA İSMAYILOVA**
*Bakı Dövlət Universiteti.*
*Tarix üzrə fəldəfə doktoru, dosent*

*E-mail: sevdaismayilova@rambler.ru*

**Giriş**

1920-ci il aprelin 28-də Azərbaycan XI Qızıl Ordu tərəfindən işğal edildi. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi Azərbaycan Müvəqqəti İnqilab Komitəsini Azərbaycanın yeni ali siyasi hakimiyyət orqanı elan etdi. Azərbaycan Müvəqqəti İnqilab Komitəsi aprelin 28-də Bakı şəhəri və bütün Azərbaycan əhalisinə müraciətində Qızıl Orduya qarşı silahlı müqavimət göstəriləcəyi təqdirdə terrora əl atılacağını bildirirdi [13, 11-13]. 1920-1930-cu illərdə Azərbaycan SSR-də kollektivləşdirmə və mədəni quruculuq tədbirləri dinə qarşı mübarizə ilə yanaşı həyata keçirilirdi. Sovet hakimiyyəti tərəfindən sosialist cəmiyyətinin qurucusu elan olunmuş yeni sovet insanında formalaşdırılan kommunist ideologiyası dinin məhv edilməsi və Allahın inkarı üzərində qurulmuşdu. Azərbaycanlıların milli və dini xüsusiyyətləri nəzərə alınmadan dekretlər qəbul edilirdi. Sovet hakimiyyəti Azərbaycan xalqını öz mənəvi köklərindən uzaqlaşdırmaq, onun birliyini sarsıtmaq üçün elə ilk günlərdən din xadimlərini cəmiyyətin tərəqqisinə mane olan təbəqə, gerilik, cəhalət yayan, əksinqilabçı, xalq düşməni adlandıraraq onları nüfuzdan salmağa, məhv etməyə, müsəlmanların toplaşdığı məscidləri isə dağıtmağa və ya onları klub, kitabxanaya çevirməyə başladı. Milli adət -ənənə və məişətimizə, islam dini ayinlərinin keçirilməsinə qarşı da təbliğat işi gücləndirildi. İslam VII əsrin əvvəlində Qərbi Ərəbistanda Hicazda meydana gəlib.İslamın nəzəriyyəsi “ Qurani –Kərim”də izah olunub. Müsəlmanlar Quranı Allah kəlamı, ilahi vəhy hesab edirlər. İslamın əsas ehkamı – tək həqiqi ilahini – Allahı tanımaqdır. Müsəlmanlar hər gün namaz qılmalı, oruc tutmalı və ömürlərində bir dəfə həccə getməlidirlər. Bundan başqa müsəlman zəkat verməli və sədəqə paylamalıdır. [2 ,131-132] “ Qurani Kərim”də deyilir:” [Ey Müsəlmanlar] . İçərinizdə [insanları] yaxşılığa, çağıran,xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar [bu camaat], həqiqətən, nicat tapmış şəxslərdir”. [9, surə 3, ayə 104, 54]. Sovet dövlətinin ideoloqları SSRi-də yaşayan bütün xalqları bir bayraq altına yığdıqları kimi, onları “ sovet xalqı” adı altında dinsiz bir cəmiyyət kimi formalaşdırmağa da səy göstərdilər.Ancaq istədiklərini edə bilmədilər. N.Nərimanov Moskvada RKP MK-ya məruzəsində Şərqlə əlaqə yaratmağı, Azərbaycanı sovetləşdirərkən Rusiyada edilmiş səhvlərə yol verməməyi, yerli şəraitlə hesablaşmağı tövsiyə edirdi [11, 418]. Sovet hakimiyyətinin elan etdiyi vicdan və din azadlığı kağız üzərində qaldı. O, Azərbaycan Xalq Cümhuriyyətinin dini işlər sahəsində gördüyü bütün tədbirləri ləğv etdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Cənubi Qafqaz şiə və sünni Ruhani idarələri 1 sentyabr 1918-ci tarixində “Məşixət” adlanan vahid bir idarədə birləşdirilmişdi [7, 117] . Sovet hakimiyyətinin dinə qarşı apardığı siyasətində ilk tədbiri “Məşixət” idarəsini ləğv etmək oldu. 1924-cü il yanvarın 8-də AK (b) P Siyasi Bürosunun iclasında “Din əleyhinə təbliğatın aparılmasına dair” məsələ müzakirə edildi və “Din əleyhinə komissiya” yaradıldı. 1924-cü ildə yaradılmış “Allahsızlar cəmiyyəti”nin qarşısında duran vəzifə fəhlə və kəndliləri mübariz ateizm bayrağı altında birləşdirmək, zəhmətkeşləri dini xurafatdan uzaqlaşdırmaq, onlarda materialist dünyagörüşü formalaşdırmaq və s. idi. Cəmiyyətin ən fəal üzvləri komsomolçular və gənc muzdurlar idi. [12]. Cəmiyyətin kənd yerlərində şöbələri yaradıldı. Cəmiyyətdə mühazirələr keçirilir, kurslar təşkil edilirdi. 1926-cı ildə “Allahsızlar cəmiyyəti” nin Bakı bürosu yanında Azərbaycan dilində üç aylıq axşam kursları-dinə qarşı mübarizə kursları açıldı.

Sovet hakimiyyətinin Azərbaycanda din xadimlərinə qarşı mübarizəsi. Sovetləşmənin ilk günlərindən müsəlman ruhaniliyinin sosial-iqtisadi və silki hüquqları sarsıdıldı. Azərbaycan din xadimlərini, mollaları siyasi cəhətdən gözdən salmaq üçün təqib etmək, yerli kommunistlərin siyasi sayıqlığını yoxlamaq üçün Dövlət Siyasi İdarəsi tərəfindən “möcüzələr” uydurulurdu. Məsələn, Təzəpir məscidi möcüzəsi (1924), “Bitdili möcüzəsi” (1930). Mətbuatda ruhanilər əleyhinə hücum davam edirdi: “… mollalar kommunistlərə qarşı vahid cəbhədə birləşmək üçün əvvəlki təriqət ayrı-seçkiliyini sünni, şiə, şafii, üsuli, əzəmi və s. bir tərəfə qoyublar. Onların hamısı indi bir-biri ilə qardaşlaşıblar [14, 71-74]. Rusiya Federasiyası Federal təhlükəsizlik xidməti arxiv göstəricilərinə görə 1937-1938-ci illərdə siyasi əsaslar üzrə SSRİ-də 1.575.259 nəfər həbs edilmiş, onların böyük bir qismi isə güllələnmişdi. [17, 659]

1937-ci ildə Moskvanın komandası ilə Azərbaycan-

da qolçomaq, əksinqilabçı, milliyyətçi adı ilə kütləvi həbslər başlandı. Həbs edilənlərin sayı o qədər çox idi ki, adi məhkəmə yolu ilə onların mühakiməsini çatdırmaq olmurdu. Bununla bağlı 1937-ci ilin iyulundan yerlərdə "üçlüklər" yaradıldı. XDİK, prokurorluq və partiya təşkilatlarından ibarət bir tərkib. Belə üçlük 1937-ci il 10 iyulda Azərbaycanda da Y.Sumbatov, T.Quliyev, D.Axundzadədən ibarət bir tərkibdə yaradılmışdı [15, 71-72]. 1930-cu illərdə repressiyaya məruz qalmış din xadimləri də az deyildi. Onlardan biri, adı "fəal antisovet ünsürlərin cəmiyyətdən kənar edilib ləğv olunası şəxslərin siyahısı"na salınmış keçmiş Zaqafqaziya qazısı, 83 yaşlı Mir Məmmədkərim Mir Cəfər oğlu idi. O, dinin gizli yayılması ilə məşğul olmaqda, çadranın götrürülməsi əleyhinə təbliğatda günahlandırılmış, axtarış zamanı isə evindən "39 ədəd müxtəlif antisovet Quran" müsadirə edilmişdi. Fövqəladə üçlüyün" təşkil etdiyi şahidlərin ifadəsinə görə, o, əhali arasında dini təbliğatla məşğul olmuş, mövcud quruluşa qarşı əksinqilabi təbliğat aparmış, kəndliləri seçkilərdə iştirak etməməyə çağırmış, qadınların ictimai-siyasi həyatda iştirak etmələrinin əleyhinə olmuşdur. İstintaq işini Azərbaycan XDİK Maştağa rayon şöbəsinin əməliyyat müvəkkili köməkçisi Yaroşkeviç aparmış, ittihamnaməni XDİK-in Qala-Maştağa rayon şöbəsinin rəisi Avanesov təsdiq etmişdi. Az. SSR XDİK Fövqəladə Üçlüyünün 1938-ci il mayın 2-də keçirilən iclasının qərarı ilə Mir Məmmədkərim Mir Cəfər oğlu güllələnmişdi [3, 274-278]. Şərur rayonunun Yaycı kəndindən olan molla Məhəmməd Hacı Əhməd oğlu və molla Ələkbər Cabbar oğlu da antisovet təbliğatı aparmaqda və panislamizmdə ittiham olunaraq Dövlət Siyasi İdarəsi üçlüyünün 5 mart 1931-ci ildə çıxardığı qərara əsasən güllələnmişdilər [8, 44-45]. Ordubad rayonu mollalarından olan Heydərov Molla Məhəmməd Heydər oğlu və Heydərov Heydər Molla Məhəmməd oğlu, ata və oğul dini fəaliyyətlə məşğul olduqlarına və kolxozlaşdırmaya etiraz etdiklərinə görə Ordubad rayon XDİK tərəfindən həbs edilmişdilər. Üçlüyün 26 fevral 1938-ci il tarixli qərarı ilə Heydərov Molla Məhəmməd Heydər oğlu əmlakı müsadirə edilməklə güllələnməyə məhkum edilmişdi [8, 55].

**Sovet hakimiyyətinin məscidlərə qarşı mübarizəsi.** Məscid müsəlmanların ibadət mərkəzi, iman yeri, toplaşdığı yerdir. Bu xüsusiyyətlərinə görə də bolşeviklər məscidləri dağıdır və ya klub, mədəniyyət evi, kitabxanaya çevirirdilər. Bu işdə komsomolçular böyük fəallıq nümayiş etdirirdilər. 1928-ci ilin dekabrında "Məscidlərin kəndlilərin mədəni ehtiyacı üçün verilməsi haqqında" məsələyə baxıldı. Müxtəlif idarələrə məscidlərdən minbərləri, kilsələrdən xaçları çıxarmaq, ağartmaq üçün əmr verildi. [13, 254].

Bəzən məscidləri bağlamaq, orada xidmət edən din xadimlərini ləkələmək üçün sovet partiya təşkilatları qurama işlər təşkil edirdilər. Məsələn, Bakıda Tatar küçəsi, № 124-də yerləşən iranlılara məxsus "Zənganlılar" məscidini bağlamaq üçün, guya məscid əhalinin diqqətini seçki kampaniyasından yayındırır bəhanəsi ilə oraya təxribatçı göndərmiş və saxta iş təşkil etmişdilər. Lakin 1937-ci ilin 27 dekabrından 1938-ci ilin 4 yanvarınadək məsələ araşdırılmış, rayon partiya təşkilatı katibi Allahverdiyev, təlimatçı Cavadov partiya cəzası almışdılar. Qərarı Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırov təsdiq etmişdi. Onların bu hərəkəti Sovet hakimiyyət idarələrini nüfuzdan salmaq kimi qiymətləndirilmişdi [16, 88-95].

Azərbaycan qəzalarında elə bir məscid qalmadı ki, ya dağıdılmasın, ya da anbara, kluba, kitabxanaya çevrilməsin. Quba qəzasında 1928-ci il dekabrın 15-dən 1929-cu il yanvarın 6-dək 22 gün ərzində 18 məscid anbara və mədəni-maarif idarələrinə çevrildi. Bütün Azərbaycanda 1929-cu ildə 400 məscid bağlanmışdı. 1929-cu ildə Azərbaycan qəzalarında 120 məscid binası zəbt edilib məktəb üçün istifadəyə verilmişdi [18, 44-45]. 1929-cu il fevralın 12-nə kimi respublikanın 13 qəzasında guya əhalinin ictimai-könüllü arzusuna əsaslanmaq pərdəsi altında 317 məscid, mədrəsə və kilsə alınıb mədəni-maarif müəssisəsinə çevrilmişdi [6, 117]. 1935-ci ildə Aleksandr Nevski soboru – "Qızıllı kilsə" dağıdıldı. 1936-cı ildə səkkizinci şiə imamı Həzrəti Rzanın bacısının qəbri olduğu, XIX əsrin ortalarında inşa edilmiş Bibiheybət məscidi Bağırovun əmri ilə partladıldı [1, 357].

**Sovet hakimiyyətinin dini ayinlərə qarşı mübarizəsi.** Xalq Komissarlar Sovetinin sədri Nəriman Nərimanov Azərbaycandan uzaqlaşdırılandan sonra din əleyhinə mübarizə daha da gücləndi. N.Nərimanov iyun 1923-27 may 1924 –cü il tarixli " Ucqarlarda inqilabımızın tarixinə dair" başlıqlı məktubunu Mərkəzi Komitəyə İ.V.Stalin, L.D.Trotski, K.B.Radekə ünvanlayaraq yazmışdı: "Azərbaycanı başdan –başa qarət edirlər, sağa və sola güllələyirlər" - bəzi yoldaşlar məni ( onların arasında nə Qarayev, nə Hüseynov var idi) bu sözlərlə qarşıladılar[10, 11] Mərkəzin müsəlmanlara qarşı Sovet Azərbaycanında həyata keçirdiyi amansız siyasətə baxmayaraq Azərbaycan din xadimləri islam dininin onlara buyurduğu kimi yardıma ehtiyacı olana əl tuturdular.1921-1922-ci illərdə taxıl rayonları olan Volqaboyu, Ukrayna, Krım və Şimali Qafqazın aclıq çəkən əhalisinə yardım məqsədi ilə 1922- ci il mayın 23-də Təzəpir məscidində Axund Ağa Əlizadə, qazı Əbdülrəhim Hacızadə İran,Türküstan, Türkiyə, Hindistan və Əfqanıstan ruhanilərinə müraciət edərək aclıq

çəkənlərə kömək etməyə çağırırdı [4, 28-29]

Milli adət-ənənə və məişətimizə qarşı kampaniyalar keçirildi. Müsəlman qadınlarının örtüyü olan çadranın ləğv edilməsi haqqında Azərbaycan K(b)P MK Bakı Komitəsi ilə birlikdə qərar qəbul etdi. İslam dini ayinlərinin keçirilməsinə qarşı da təbliğat işi gücləndirildi. Müqəddəs Qurban bayramı, Məhərrəmlik ( aşura) mərasiminin keçirilməsi qadağan edilmişdi. Hətta milli bayram- yazın gəlməsi bayramı olan Novruz bayramı da dini bayram sayılaraq qadağan edilmişdi. Məhərrəm ərəb təqvimində ilin birinci ayıdır, həmin ayın onuncu günü (aşura) Məhəmməd Peyğəmbərin nəvəsi, Həzrət Əlinin oğlu İmam Hüseyn ailə üzvləri və 72 nəfər tərəfdarı ilə Kufə çölündə Müaviyənin oğlu xəlifə Yezidin əmri ilə qətlə yetirilmişdi. Bu nə süni-şiə davası, nə hakimiyyət uğrunda mübarizə idi. Bu ədalət uğrunda İmam Hüseyn və onun tərəfdarları tərəfindən aparılan mübarizə, bir şəhidlik məktəbi idi. N. Nərimanov bu mərasimin bəzi qaydalarını tənqid edirdi, o dinə qarşı yox, xurafata və geriliyə qarşı mübarizə aparırdı, dini maarifləndirmənin vacib olduğunu göstərirdi: "Yalnız dindar kütlənin inkişaf səviyyəsini yüksəltdikdən sonra onlar matəm günlərinə mömin müsəlman ziyalısı kimi baxacaq, lakin özünə işğəncələr vermək mərasimində iştirak etməyəcək. [10, 50] Bolşeviklər mətbuatda da siyasi pamfletlərlə, karikaturalarla məhərrəmliyə qarşı təbliğat aparır, Kərbəla hadisələrini feodal münaqişəsi kimi qiymətləndirir, " sinfi mübarizə" ideyasını təbliğ edirdilər. Məhərrəmlikdən xeyli qabaq ona qarşı kampaniyaya başlayırdılar.

İslamın şərtlərindən biri oruc tutmaqdır. Orucluq insanda ən yaxşı mənəvi keyfiyyətləri təlqin edir: dözümlülük, paklık, xeyirxahlıq, qənaətçilik. Orucluq islamın şərtlərindən biri olduğu üçün, deməli, bolşeviklər islam dininə qarşı da mübarizə edirdilər. 1927-ci ildə ramazanla bağlı bolşeviklərin hazırladığı tezislər dərc edilirdi. 11 maddədən ibarət olan bu tezislərdə orucluğun ancaq zərərindən bəhs edilirdi. [14, 79]

İslamın başqa mərasimləri kimi Qurban bayramı da bolşeviklər tərəfindən təqib edilirdi. Qurban bayramı müsəlman təqviminin on ikinci ayı olan zilhiccə ayının onuncu günü, Məkkədə həcc dövründə qurbanlıq heyvanların kəsilməsi ilə qeyd olunur. Bu bayram Allaha səmimi qəlbdən edilən etiqad, mərhəmət,xeyriyyəçilik, yardımlaşma bayramıdır. Lakin şəriətlə bağlı olduğundan bolşeviklər ona qarşıda mübarizəni gücləndirirdilər. Mətbuatda pamfletlər, karikaturalarla çıxış edir, müsəlmanların dini hisslərini təhqir edirdilər. [14, 80]

Azərbaycan dini abidələri yalnız Sovet dövründə deyil, həm də parallel və sonrakı dövrdə erməni vandalizminin qurbanı olub. Ermənistan hər zaman Azərbaycana qarşı hərbi təcavüz və işğal siyasətinin tərkib hissəsi kimi işğal olunmuş ərazilərimizdə maddi-mədəniyyət və dini abidələrin dağıdılması, talan edilməsi, mənimsənilməsi, mənşəyi və təyinatının dəyişdirilməsi kimi vandalizm siyasəti yürüdüb. Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. [5]

Yekun. Sovet hakimiyyətinin dinə qarşı mübarizə məqsədilə yaratdığı "Allahsızlar cəmiyyəti" özünə qarşı dindarların nifrətinə səbəb oldu. 1920-1930-cu illərdə Azərbaycanda islam dini, onun mərasimləri, bayramları bolşeviklər tərəfindən ləğv edildi, məscidlə dağıdıldı, din xadimləri təqiblərə məruz qaldı. Sovet hakimiyyətinin Azərbaycandakı siyasətində yol verdiyi əyintilər bu hakimiyyətə qarşı müqavimət hərəkatına səbəb oldu. Bolşeviklər Azərbaycan xalqını öz mənəvi köklərindən və ənənələrindən ayırmağa çalışırdılar. Bütün bunlara baxmayaraq, xalqı "allahsızlaşdıra" bilmədilər.

Bu gün Azərbaycanda islam dini dəyərlərinin yayılması və təbliğinə, dini icmaların fəaliyyətinə, dini ayin və mərasimlərin icrasına geniş şərait yaradılmış, ölkə Prezidentin andiçmə mərasiminə Konstitusiya ilə yanaşı "Qurani –Kərim"ə and içmək ənənəsi də daxil edilmişdir. Yeni məscidlər inşa edilmiş, dini ibadət ocaqları təmir və bərpa olunmuşdur. Ölkəmizdə milli-mənəvi dəyərlər qorunur və təbliğ edilir. Bəşəriyyəti "Qurani-kərim"in insanları sülhə, humanizmə çağıran nəsihətlərindən yararlanmağa çağırırıq.

**Açar sözlər:** *Azərbaycan SSR, bolşeviklər, dekretlər, Nəriman Nərimanov, din xadimləri, Fövqəladə üçlük, məscid, ayin.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan tarixi. 7 cilddə, VI c., Bakı, Elm, 2001, 568 s.*

*2. Bünyadov Z. Dinlər, təriqətlər, məzhəblər. Bakı: "Şərq-Qərb", 2007, 366 s.*

*3. Bünyadov Z. Qırmızı terror. Bakı, Azərnəşr, 1993, 331 s.*

*4. Cümhuriyyətin və sovet dövrünün Şeyxülislamı. Bakı: "Elm və təhsil", 2011,184 s.*

*5. "Ermənilərin Qarabağda dağıtdığı məscidlər", https://report.az/qarabag/ermenilerin-qarabagda-dagitdigi-mescidler/*

*6. İbişov F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930). Bakı: Mütərcim, 1996, 168 s.*

*7. Hüseynli R. Azərbaycan ruhaniliyi (xanlıqlar*

*çağından sovet işğalınadək olan dövrdə). Bakı, Kür, 2002, 266 s.*

*8. Hüseynbəyli N.M. XX əsrin 20-30-cu illərində Naxçıvan MSSR-də siyasi repressiya və onun nəticələri. T.ü.f.d., dissertasiyası. Bakı: 2006, 165 s.*

*9. Qurani-Kərim. Bakı: Azərnəşr,1992,718 s .*

*10. Nərimanov N. "Məktublar və Qarabağ məsələsinə dair sənədlər" Bakı: "Nurlar", NPM, 2002, 104 s.*

*11. Nərimanov V. Seçilmiş əsərləri. Bakı: Lider nəşriyyatı, 2004, 496 s.*

*12. «Бакинский рабочий» qəzeti, 1925, 14 aprel.1925*

*13. Декреты Азревкома ( 1920-1921гг) Сборник документов .Баку: Азернешр,1988, 519 с*

*14. Гаджибейли Дж. Избранное. Баку: Азернешр,1993, 128 с .*

*15. Исмаилов Э.Р. Накануне печального «Юбилея» // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. Bakı: 2007, № 1, c. 71-76.*

*16. На имя Багирова. За подписью Багирова. Сборник архивных документов. Tərtibçi: Teyyub Qurban. Баку: «Ol» npkt, 2016, 392 с.*

*17. Лубянка. Сталин и главноеуправление госбезопасности НКВД.1937-1938. Под ред.академика А.Н.Яковлева. М.,изд-во «Материк»,2004, 736 с.*

*18. Мусаева Т.А. Борьба за развитие народного образования в Азербайджане в годы первой пятилетки. Баку, 1964, 134 с.*

**SEVDA ISMAYILOVA**
**PhD in history, Associate Professor,**
**Baku State University**

## THE POLICY OF THE SOVIET GOVERNMENT IN THE FIELD OF RELIGION IN THE AZERBAIJAN SSR AND ITS ESSENCE (1920-1930)

### SUMMARY

The article reveals the policy of the Soviet government in Azerbaijan in the field of religion in 1920-1930, established after the April occupation, and its essence. It shows the adoption of decrees in the country, which are an indicator of Soviet construction, the conversion of some of these decrees against Islam, the spiritual world of the people, the direct destruction of the communist ideology and the denial of God. Chairman of the Council of People's Commissars of Azerbaijan, prominent political figure Nariman Narimanov's attitude to the anti-religious policy pursued by the Bolsheviks in Azerbaijan is announced. The creation of the "Society of the Ungodly" by the Bolshevik government, which declared religion an enemy of state policy, the struggle against the clergy, mosques, the Islamic rite of mahram, the holy holidays of Ramadan and Eid al-Adha in order to alienate the Azerbaijani people from their spiritual roots. The article also compares the destructive activities against the religious and cultural heritage of Azerbaijan during the Soviet era with the vandalism committed by Armenians in the occupied territories, and provides statistical data.

**Keywords:** *Azerbaijan SSR, Bolsheviks, decrees, Nariman Narimanov, religious figures, Emergency Trinity, mosque, ritual.*

**СЕВДА ИСМАИЛОВА**
**кандидат исторических наук, доцент,**
**Бакинский Государственный Университет**

## ПОЛИТИКА СОВЕТСКОГО ПРАВИТЕЛЬСТВА В ОБЛАСТИ РЕЛИГИИ В АЗЕРБАЙДЖАНСКОЙ СССР И ЕЕ СУЩНОСТЬ (1920-1930-Е ГГ.)

### РЕЗЮМЕ

В статье раскрывается политика советского правительства в Азербайджане в области религии в 1920-1930-е годы, сложившаяся после апрельской оккупации, и ее сущность. Показано принятие в стране указов, являющихся показателем советского строительства, обращение части этих указов против ислама, духовного мира народа, прямое уничтожение коммунистической идеологии и отрицание Бога. Оглашается отношение председателя Совета Народных Комиссаров Азербайджана, видного политического деятеля Наримана Нариманова к антирелигиозной политике, проводимой большевиками в Азербайджане. Создание «Общества безбожников» большевистским правительством, объявившим религию врагом государственной политики, борьба с духовенством, мечетями, исламским обрядом махаррама, священными праздниками Рамадан и Курбан-Байрам в целях отдалить азербайджанский народ от его духовных корней. В статье также сравниваются деструктивные действия против религиозного и культурного наследия Азербайджана в советское время с вандализмом, совершаемым армянами на оккупированных территориях, и приводятся статистические данные.

**Ключевые слова:** *Азербайджанская ССР, большевики, указы, Нариман Нариманов, религиозные деятели, Чрезвычайная Тройка, мечеть, обряд.*

UOT 94(479.24)

# NAXÇIVAN XANLIĞININ TARİXİ COĞRAFİYASI

**SEVİNC QULUZADƏ**
*Bakı Dövlət Universitetinin*
*Tarix fakültəsinin Tarixşünaslıq,*
*Mənbəşünaslıq və Medotika kafedrasının*
*Tarixi coğrafiya ixtisası üzrə II kurs doktorantı*

*E-mail: sevinc.gulmaliyeva93@mail.ru*

Azərbaycan tarixinin XVIII əsrin II yarısı feodal dağınıqlığı, yaxud xanlıqlar dövrü kimi qiymətləndirilir. Bu tarixi çərçivə Azərbaycan torpaqlarının Rusiya və Qacarlar dövlətləri tərəfindən işğalına qədər davam etmişdir. Xanlıqlar dövrü nə qədər feodal pərakəndəliyi kimi səciyyələndirilsə də, bütövlükdə dövlətçilik ənənələrinin bir müddət qorunub saxlanması baxımından əhəmiyyət kəsb edir. Belə ki, Səfəvi dövlətinin 1736-cı ildə hüquqi baxımdan varlığına son qoyulduqdan sonra Azərbaycan torpaqları Nadir şahın Əfşarlar dövlətinin bir parçasına çevrildi. Əfşarlar dövləti cəmi 11 il – 1736-1747-ci illərdə mövcud olsa da, bəhs olunan dövrün ən güclü dövlətlərindən biri olmuşdur. Azərbaycan torpaqları bu dövlətdə mərkəzi vilayətlərdən birini təşkil edirdi.

Naxçıvan diyarı XVI əsrdən XVIII əsrin 30-cu illərinədək Azərbaycan Səfəvilər dövlətinin tərkibində olmuşdur. Amma buna baxmayaraq, Naxçıvan ayrılıqda inzibati-ərazi vahidi kimi əvvəlcə Təbriz bəylərbəyiliyinin, XVII əsrin sonunda isə Çuxursəd bəylərbəyiliyinin bir hissəsini təşkil etmişdir. Naxçıvan bu zaman aralığında Osmanlı imperiyası tərəfindən iki dəfə işğal olunmuşdur. Ona görə də, inzibati-ərazi bölgüsündə də müəyyən dəyişikliklər olmuşdur. 1736-1747-ci illərdə, yəni Nadir şahın hakimiyyəti dövründə Naxçıvan yeni yaradılan Azərbaycan vilayətinin tərkibinə daxil edilmişdir (5, s. 24-25).

Naxçıvan diyarı, yuxarıda qeyd edildiyi kimi, Səfəvilər dövlətinin tərkibində inzibati bölgü baxımından Azərbaycana aid olan dörd bəylərbəylikdən biri – Çuxursəd bəylərbəyiliyinə daxil edilmişdir. Çuxursəd bəylərbəyiliyinin daxilində isə Naxçıvan diyarı Qızılbaş tayfalarından olan Ustaclulara verilərək, onların "ölkəsi"nə çevrilmişdir ( 6, s.114).

Naxçıvan diyarı ilə bağlı Osmanlıların "Müfəssəl dəftərləri"ndən müfəssəl məlumatlar almaq mümkündür. Belə dəftərlərdən biri də "İrəvan əyalətinin müfəssəl dəftəri"dir. 393 səhifəlik bu dəftərin 117 səhifəsi ( səhifə 276-393) Naxçıvan diyarına aiddir. Dəftərdəki məlumata görə, Naxçıvan diyarı inzibati baxımdan "sancaq" kimi qeydə alınmışdır. Osmanlıların inzibati bölgüsünə görə, Naxçıvan sancağı on altı nahiyəyə bölünmüşdür: Naxçıvan, Məvazi-yi-Xatun, Mülkü-Arslan, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bozarçayı, Şərur, Zar, Zəbil, Əlincə, Sisyan, Ordubad, Azadciran, Şorlut və Dərnəkürt. Naxçıvan sancağı kəndləri bu nahiyyəyə daxil idi (2, s.10).

Nadir şah hakimiyyətə gəldikdən sonra Səfəvi inzibati-ərazi bölgülərini – bəylərbəyilikləri ləğv etdi. Azərbaycan ərazisində Şirvan, Qarabağ (Gəncə), Təbriz və Çuxursəd bəylərbəyliklərini ləğv edib, vahid "Azərbaycan vilayəti" adı altında bir mərkəzdə – Təbriz ətrafında birləşdirdi. Şah vilayətin idarəsini qardaşı İbrahim xana həvalə etdi. Bundan əlavə, hər yerdə yerli hakimlər Nadir şahın yaxın adamları ilə əvəz olundu (3, s.27).

Nadir şahın 1747-ci ildə sui-qəsdə məruz qalmasından sonra Azərbaycan torpaqlarında müstəqil və yarımmüstəqil kiçik feodal dövlətlər yarandı; xanlıqlar, sultanlıqlar, məlikliklər və Car-Balakən camaatlığı. Yaranmış 20 xanlıqdan biri də Naxçıvan xanlığı idi. Naxçıvan xanlığı yarandıqda, əksər tədqiqatçıların fikrincə, onun ərazisi Zəngəzur dağlarından başlayaraq Araz çayı vadisinə qədər olan torpaqları əhatə edirdi. Xanlıq şimal-şərqdən Dərələyəz dağları, cənub-şərqdən İlanlıdağ, şimal-qərbdən isə Böyük və Kiçik Ağrı dağları ilə əhatə olunmuşdu. Naxçıvan xanlığı İrəvan, Qarabağ, Xoy və Maku xanlıqları ilə həmsərhəd idi. Hesablamalara görə, Naxçıvan xanlığının tarixinin birinci dövründə, yəni müstəqil olduğu 1747-1797-ci illərdə ərazisi 9428,71 kv.km, İrandan qismən asılı olduğu 1797-1828-ci illərdə isə ərazisi 4642,83 kv.km olmuşdur (4, s. 112).

1747-ci ildə yaranmış Naxçıvan xanlığı nə özünün iqtisadi inkişafı, nə də hərbi qüdrəti baxımından digər xanlıqlardan fərqlənmirdi. Hakimiyyətini gücləndirmək və təcavüzlərdən qorunmaq məqsədilə Naxçıvan xanlığının əsasını qoymuş Heydərqulu xan (1747-1763/1764) fəaliyyətinin ilk dövründə daha güclü olan Qarabağ xanlığına arxalanırdı, Qarabağ xanı Pənahəli xanla ittifaqa girirdi (2, s. 13).

Naxçıvan xanlığında dövriyyədə, əsasən, Azərbaycan və İran pul vahidləri işlədilirdi: "tümən", "yarım tümən", sahibqıran", "pənahabad", "şahı", "yarım şahı", "para", "mahmudiyyə", səksənlik" və "yüzlük" xanlıqda işlədilən pul vahidləri idi. Axtarışlar zamanı Naxçıvan xanlığında pul vahidinin zərbləndiyi də məlum oldu. Naxçıvan xanlığının milli geyimli süvari qoşunları var idi. Hətta həmin süvari qoşunların milli geyimlərinin təsvirini əks etdirən sənəd də əldə edilmişdir (5, s. 27).

İran hakimiyyəti dövründə Naxçıvan xanlığı inzibati baxımdan iki tümənə bölünmüşdür ki, bunlardan biri Naxçıvan, digəri isə Ordubad tümənləri idi. 1797-ci ildən etibarən Naxçıvan xanlığına daxil olan Mehri və Qafan mahalları İbrahimxəlil xan tərəfindən işğal olunub Qarabağ xanlığına birləşdirilmişdir. Naxçıvan və Ordubad tümənləri öz növbəsində bir neçə mahala bölünürdü. 1813-1828-ci illərdə Naxçıvan tüməni dörd mahaldan (Naxçıvan, Əlincə, Xok və Dərələyəz), Ordubad tüməni isə beş mahaldan (Ordubad, Əylis, Dəstə, Cənnab və Bilev) ibarət idi (2, s.14).

Naxçıvan xanlığı 1797-ci ilə qədər müstəqil bir dövlət qurumu idi. Xanlığın bütün feodalları xana tabe idilər. Başqa Azərbaycan xanlıqlarında olduğu kimi, Naxçıvanda da bütün hakimiyyət xanın əlində cəmlənmişdi. İnzibati-ərazi bölgüsündə heç bir dəyişiklik baş verməyən Naxçıvan xanlığı 1797-1813-cü illərdə faktiki olaraq İrandan asılı vəziyyətə düşür, müstəqilliyini itirir və xanlıq artıq İran şahlarının Kəngərli tayfasından təyin etdikləri adamlar tərəfindən idarə olunurdu (2, s.14).

Ümumiyyətlə, Naxçıvan xanlığının tarixini beş mərhələyə bölmək olar:

I mərhələ – Naxçıvan xanlığının banisi Heydərqulu xanın hakimiyyəti və fəaliyyəti (1747-1763/1764-cü illər).

II mərhələ – 1764-1787-ci illər. Hakimiyyət uğrunda çəkişmələr dövrü.

III mərhələ – I Kəlbalı xanın 1787-1797-ci illərdə hakimiyyəti və fəaliyyəti. Bu illəri Naxçıvan xanlığının intibah dövrü adlandırmaq doğru olardı. Bu illərdə xanlığın müstəqilliyinin qorunması üçün aparılan mübarizə böyük məharət tələb edirdi və Naxçıvan xanlığı digər Azərbaycan xanlıqlarının əksəriyyəti ilə çox yaxın dostluq münasibətləri saxlayırdı.

IV mərhələ – 1797-1828. Bu dövrdə Naxçıvan xanlığının tənəzzülü başlayır. Hakimiyyət əldən-ələ keçir.

V mərhələ – Naxçıvan xanlığının süqut dövrü. Naxçıvan və İrəvan xanlıqlarının ərazisində qondarma erməni vilayətinin yaradılması ilə əlaqədar olaraq Naxçıvan xanlığının dövlətçilik prinsiplərinə böyük zərbə vurulur. Həmçinin ərazisi Rusiya tərəfindən işğal olunur. Amma Naxçıvan xanlığını Azərbaycanın digər xanlıqlarından fərqləndirən bir cəhət var: formal olaraq Naxçıvan xanlığı 1840-cı ilədək fəaliyyət göstərir. Kəngərli tayfasına və süvarilərinə Don kazaklarına verilən imtiyazlar şamil olunur (5, s. 28-29).

Naxçıvan xanlığının idarə sistemi, əsasən, Azərbaycan xanlıqlarının idarə sistemi ilə eyni idi. Bu idarə sistemi isə ümumən Səfəvilər dövlətinin idarə sisteminə əsaslanırdı. Bununla eyni zamanda, hər bir xanlığın təşəkkül tapması və fəaliyyətinin bəzi xüsusiyyətlərinə uyğun olaraq, idarəetmədə də spesifik cəhətlər özünü göstərirdi. Naxçıvan xanlığının müstəqilliyi dövründə – 1747-1797-ci illərdə xanlar sərbəst olduğu halda, 1797-1828-ci illərdə Qacarların iradəsindən asılı idilər. Naxçıvan xanlığının mövcud olduğu dövrdə burada Heydərqulu xan (1747-1763/64), Şükrulla xan (1768, 1770-1771, 1777, 1779), Kəlbalı xan (1787-1820), Ehsan xan (1827-1828) kimi nüfuzlu xanlar hakimiyyətdə olmuşdur (4, s. 113).

Naxçıvan xanlığı müstəqil olduğu illər ərzində xanlığın daxili işlərinə və xarici siyasətinə xan özü başçılıq etsə də, 1797-ci ildən sonra Naxçıvan xanlığı İrandan asılı vəziyyətə düşdüyündən xanları İran şahı təyin edirdi. Əgər əvvəllər Naxçıvan xanı "hakimi-mütləq" hesab edilirdisə, indi İran şahından asılı idi. O, yerli orqanlara özünün yaxın adamlarını təyin etsə də, hökmən şahın tapşırıqlarını nəzərə almalıydı. Xanlıq taxtında əyləşən xanlar öz xəzinələrini əhalidən toplanan vergilərə əsasən doldururdular. Naxçıvan xanları vergilərdən topladıqları gəlirdən əlavə, eyni zamanda vəzifəli şəxslərə çox nadir hallarda xəzinədən maaş verirdilər (5, s.33).

1813-cü il Gülüstan sülh müqaviləsinə görə Naxçıvan xanlığı müstəqilliyini faktiki olaraq itirərək, Qacarlar dövlətinin əyalətlərindən birinə çevrildi. Bu əyalətin idarəsini şah oğlu Abbas Mirzəyə həvalə etdi. Abbas Mirzə xanlığın keçmiş mahallarını mahal bəyləri vasitəsiylə idarə etməyə başladı. Mahal bəylərinin rəhbərliyi altında mirbölük, kəndxuda, darğa, mirab vəzifələrini daşıyan şəxslər var idi.

Rusiya və Qacarlar dövlətləri arasında bağlanan Gülüstan müqaviləsindən sonra Naxçıvan tüməni

4 mahala bölünmüşdü: Naxçıvan, Əlincə, Xok, Dərələyəz, Ordubad tüməni isə Ordubad, Əylis, Çənnəb, Dəstə və Biləv. Qeyd edək ki, V.N. Qriqoryev "Qafqaz arxasında Rusiya mülklərinin icmalı"na həsr edilmiş əsərində Naxçıvan əyalətinə aid hissəni də yazmışdır.

Naxçıvan xanlığının belə bir inzibati-ərazi bölgüsü digər tədqiqatçıların əsərlərində öz əksini tapmadığından, onlar xanlığın ərazisinin Zəngəzur dağlarından başlandığını yazmışlar. Qriqoryevin yazdığı istiqamətlərdə aparılan araşdırmalar zamanı məlum oldu ki, Naxçıvan xanlığının ərazisi Zəngəzur sıra dağlarından xeyli şimalda olan Kəngərli çayından başlanır. Rusiya qoşunlarının tərkibində Naxçıvan xanlığına yürüş edən knyaz Şerbatovun kitabında qraf Paskeviçin tərtib etdirdiyi dəqiq hərbi xəritələr də verilmişdir ( 5, s. 31).

Naxçıvan xanlığının banisi kəngərli tayfasından olan Heydərqulu xan olmuşdur. Kəngərli tayfası Naxçıvanın siyasi, ictimai tarixində həmişə önəmli rol oynayan türk tayfalarından biri olmuşdur. Hələ Səfəvi şahları dövründə bu tayfa Naxçıvanda siyasi hakimiyyətdə əhəmiyyətli yer tutmuşdur. Mənbələrin məlumatına görə, qızılbaş tayfalarından olan kəngərlilər şah Məhəmməd Xudabəndənin (1578-1587) dövründə Naxçıvanın irsi hakimlərinə çevrilmişdir. Bəhs olunan Səfəvi şahı zəif iradəli olması ilə yadda qalmış, bundan istifadə edən güclü tayfalar Səfəvi dövlətinin bu və ya digər ərazisində hakimiyyətə yiyələnmişdir. Kəngərli tayfası da, beləcə, XVI əsrin II yarısından başlayaraq Naxçıvan ərazisini idarə etmişdir. Bununla yanaşı, Kəngərli tayfası hər zaman Səfəvi şahlarına xüsusi rəğbət və sədaqətlə seçilmişlər. Nadir şahın şah elan olunması onların da etirazına səbəb olmuşdur. Naxçıvan bölgəsində Kəngərli tayfasının bəzi nümayəndələri mərkəzə tabe olmadıqları üçün şah tərəfindən uzaq yerlərə – Əfqanıstana köçürüldülər. Kəngərlilərin tabesizliyi Nadir şahda şübhə oyatdığı üçün bu tayfaya o qədər də etibar etməyib, başqa yerlərdən fərqli olaraq, Naxçıvan əyalətini idarə etmək üçün buraya həmin tayfadan iki hakim təyin etdi: birinci hakim-e ölke-yi Naxçıvan (Naxçıvan ölkəsinin hakimi), ikincisi hakim-e tümən-e Naxçıvan və ya kəngərli tayfa başçısı və süvari bölməsinin rəisi. Onlardan başqa Naxçıvan ölkəsinin idarəsində vəkillər və tayfa ağsaqqalları da iştirak edirdilər. Arxiv sənədlərindən məlum olur ki, bu dövrdə Naxçıvan ölkəsində kəngərli tayfasının aşağıdakı qolları məşhur idi: Qızıllı, Sarbanlar, Ağabəyli, Qaradolaq, Əlixanlı, Qaraxanbəyli, Qarabağlar və s. (3, s.26-27).

XIX əsrin əvvəllərində Rusiya-İran və Rusiya-Osmanlı müharibələri ilə əlaqədar Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan bölgəsində də əhalinin həm ümumi sayında, həm də milli tərkibində ciddi dəyişikliklər müşahidə olunur. Məlumdur ki, çar Rusiyası həm apardığı müharibələrin gedişində, həm də müharibədən sonra İran və Türkiyə sərhədlərində xristianlardan ibarət özünə etibarlı zona yaratmağa çalışırdı. Bu məqsədlə İrandan, Cənubi Azərbaycandan və Osmanlıdan ermənilərin Cənubi Qafqaza kütləvi köçürülməsinə başlanıldı. 1828-1832-ci illərdə bu proses daha intensiv xarakter almışdı. Köçürülənlər ən çox İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində ən yaxşı torpaqlarda yerləşdirilirdilər. Bu zaman yerli azərbaycanlı əhalinin hüquqları kobudcasına pozulur, onlar xüsusi amansızlıqla öz yaşayış vasitələrindən məhrum edilirdilər. Məhz bunun nəticəsində azərbaycanlılar kütləvi şəkildə öz yaşayış yerlərini tərk etməyə məcbur edilirdilər. Məsələn, I Rusiya-Qacarlar müharibəsinin gedişində yalnız Qarabağdan 20 min azərbaycanlı öz vətənlərini tərk edərək İrana və Azərbaycanın şərq hissəsinə köçməyə məcbur olmuşdu. Bu proses Naxçıvan bölgəsində də müşahidə olunurdu.

XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Naxçıvan bölgəsində əhalinin milli tərkibində baş verən dəyişikliklər, yuxarıda qeyd edildiyi kimi, hər şeydən əvvəl, çarizmin köçürmə siyasəti ilə bağlı idi. Yalnız 1828-1831-ci illərdə Naxçıvan bölgəsinə 2387 erməni ailəsi (12 min nəfər) köçürülmüşdü. Köçürülən ermənilərin bir hissəsi Naxçıvan və Ordubad şəhərlərində yerləşdirilmişdi (2, s. 38-39).

Naxçıvan ərazisindən bir sıra çaylar axır. Qarababaçay adı ilə məşhur olan çay öz mənbəyini Zəngəzur sərhədindəki Salvartı dağlarından götürür. Bu çay Naxçıvan düzənliyi ilə uzanıb Naxçıvan şəhəri yaxınlığından axdığından Naxçıvan çayı adlanır və Araza tökülür. XIX əsrin əvvəllərində Abbasabad qalası da bu çayın töküldüyü yerdə tiilmişdi ( 3, s. 29).

Naxçıvan xanlığı ərazisində çox da böyük olmayan üç çay axırdı: Naxçıvan çayı, Əlincə çayı və Gilançay. Bunlardan başqa da dörd kiçik çay vardı: Urlusçay, Vənəndçay, Nukədiçay və Ordubad çayı.

1826-1828-ci illərdə baş vermiş II Rusiya-Qacarlar müharibəsinin nəticəsi olaraq, Naxçıvan

xanlığı Rusiya tərəfindən işğal olundu. 1828-ci il 10 fevralda imzalanan Türkmənçay sülh müqaviləsi Naxçıvan və İrəvan xanlıqlarının Rusiyaya birləşdirilməsini təsdiqləyirdi. Bununla da, şimali Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalına son qoyuldu. İşğal olunmuş ərazilərlə bağlı çar Rusiyasının mənfur planları var idi. Cənubi Qafqazda özünə xristianlardan ibarət sosial dayaq yaratmaq Rusiyanın çoxdankı planı idi. Gülüstan və Türkmənçay müqavilələri və 1829-cu ildə Osmanlı dövləti ilə imzalanan Ədirnə müqaviləsi Rusiyaya mənfur planını yerinə yetirmək üçün əlverişli stimul verdi.

1828-ci ilin martında çar I Nikolay ermənilərə verdiyi vədi yerinə yetirdi, İrəvan və Naxçıvan xanlıqlarını ləğv edib "Erməni vilayəti" deyilən qondarma əyalət yaratdı. Arxiv sənədlərini araşdırarkən çar I Nikolayın qraf Paskeviçə göndərdiyi teleqram Türkmənçay müqaviləsindən dərhal sonra yazılmışdı: "Təbrik edirəm! Nəhayət ki, "Böyük Ermənistan" yaradıldı!". Burada bir maraqlı nüans var. Çar I Nikolay yazmır ki, "Böyük Ermənistan" bərpa edildi, yazır ki, yaradıldı. Bu isə ermənilərin "Böyük Ermənistan" iddialarını təkzib edən faktdır (5, s. 145). Ancaq, 1828-ci ildə Rusiya çarı I Nikolay öz fərmanı ilə qondarma "Erməni vilayəti" yaratsa da, Naxçıvanı erməniləşdirə bilmədi. Buna əsas maneə yaradan I Ehsan xan Kəngərli və onun qorxmaz hünərli süvariləri oldu. Çar I Nikolay ona başağrısı gətirən süni "Erməni vilayəti"ni 1840-cı ildə ləğv etməli oldu.

## ƏDƏBİYYAT SİYAHISI


1. *Budaqova S. Naxçıvan diyarının siyasi tarixi. Bakı, 2014.*
2. *Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin II yarısı – XIX əsrin I qərinəsi). Bakı, 1995.*
3. *Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı, 2007.*
4. *Hacıyev İ. Naxçıvan xanlığı, onun Rusiya imperiyası tərəfindən işğalı və xanlığın süqutu. AMEA Naxçıvan bölməsinin xəbərləri, İctimai və humanitar elmlər seriyası, 2017, № 1.*
5. *Quliyev M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri. Naxçıvan, 2013*
6. *О.А. Эфендиев. Территория и границы Азербайджанских гсударств в XV-XVI вв.- «Историческая география Азербайджана» Баку,1987.*


## XÜLASƏ


Naxçıvan xanlığı Azərbaycan tarixində önəmli yer tutan dövlət qurumlarından biridir. Böyük türk siyasətçisi M.K.Atatürkün "Türk qapısı" adlandırdığı bu gözəl diyarın XVIII əsrin II yarısı – XIX əsrin I yarısı tarixi xanlıq dövrü kimi səciyyələnir. Bəhs olunan dövrdə Azərbaycan torpaqlarında çoxlu belə kiçik dövlətlər mövcud idi. Naxçıvan xanlığının tarixində onunla qonşu olan xanlıqların və böyük dövlətlərin oynadığı rol danılmazdır. Xanlığın tarixi müstəqil (1747-1797) və yarımmüstəqil (1797-1828) olmaqla iki dövrə bölünür. Müstəsna hal kimi, Naxçıvanı, eləcə də İrəvan xanlığını digər Azərbaycan xanlıqlarından fərqləndirən əlamətlərdən biri də, çar işğalından sonra burada "Erməni vilayəti"nin yaradılması hesab edilə bilər.

Naxçıvan diyarı hələ Səfəvilərin dövründə vacib inzibati vahidlərdən olan Çuxursəd bəylərbəyliyinin tərkibinə daxil olmuşdur. Səfəvilər dövlətinin süqutundan sonra hakimiyyətə gələn Nadir şah Əfşar yeni inzibati vahidlər yaradır və Naxçıvan əyaləti də vahid Azərbaycan ölkəsinin tərkib hissəsinə çevrilir. Nadir şahın ölümündən sonra bölgədə xanlıq üsul-idarəsi yaradılır və Naxçıvan xanlığı formal olaraq bir əsrə qədər mövcud olur.

Çar Rusiyası tərəfindən Naxçıvan xanlığının işğalından sonra xanlıq idarəsi ləğv edilərək, I Nikolayın "Böyük Ermənistan" adlandırdığı "Erməni vilayəti" yaradıldı. Həmçinin, Naxçıvan, İrəvan, Qarabağ xanlıqlarına ermənilərin kütləvi köçürülməsinə başlandı. Bütün bunların nəticəsində bölgə müəyyən qədər etnik dəyişikliyə məruz qalır, lakin çar Rusiyası bu əraziləri erməniləşdirə bilmir. Belə ki, ciddi narazılıqlarla qarşılaşan çar I Nikolay 1840-cı ildə verdiyi fərmanla "Erməni vilayəti"ni ləğv etməyə məcbur olur.



**Açar sözlər:** *Naxçıvan, Kəngərli, xanlıq, Çuxursəd, Heydərqulu xan, "Erməni vilayəti", Qacarlar, Rusiya*


## РЕЗЮМЕ


Нахчыванское ханство - один из важных государственных институтов в истории Азербайджана. Эта красивая земля, которую великий турецкий политический деятель М.К. Ататюрк назвал «Турецкими воротами», характеризуется как исторический период ханства второй половины XVIII - первой

половины XIX века. В то время на территории Азербайджана было много таких небольших государств. Роль соседних ханств и великих держав в истории Нахчыванского ханства неоспорима. История ханства делится на два периода: независимый (1747-1797) и полунезависимый (1797-1828). В качестве исключения одной из особенностей, отличающих Нахчыван, а также Иреванское ханство от других азербайджанских ханств, можно считать создание здесь «армянской провинции» после царской оккупации.

Земля Нахчывана все еще была частью Чукурсад бейлербей, одной из важных административных единиц во времена Сефевидов. Надир Шах Афшар, пришедший к власти после падения государства Сефевидов, создал новые административные единицы, и провинция Нахчыван вошла в состав единой азербайджанской страны. После смерти Надир-шаха в регионе было создано ханство, и Нахчыванское ханство формально просуществовало целое столетие.

После оккупации Нахчыванского ханства царской Россией ханство было упразднено, и была создана «Армянская провинция», которую Николай I назвал «Великой Арменией». Также началось массовое переселение армян в Нахчыван, Ереван и Карабахское ханство. В результате в регионе происходят некоторые этнические изменения, но царская Россия не может арменизировать эти территории. Таким образом, столкнувшись с серьезными протестами, царь Николай I своим указом 1840 года был вынужден упразднить «армянскую провинцию».

**Ключевые слова:** *Нахчыван, Кангарли, ханство, Чукурсад, Гейдаргулу хан, «Армянская провинция», Гаджарс, Россия*

## SUMMARY

Nakhchivan Khanate is one of the important state institutions in the history of Azerbaijan. This beautiful land, which the great Turkish politician MK Ataturk called the "Turkish Gate", is characterized as the historical khanate period of the second half of the XVIII century - the first half of the XIX century. At that time, there were many such small states on the territory of Azerbaijan. The role of neighboring khanates and great powers in the history of the Nakhchivan khanate is undeniable. The history of the khanate is divided into two periods: independent (1747-1797) and semi-independent (1797-1828). As an exception, one of the features that distinguishes Nakhchivan, as well as the Iravan khanate from other Azerbaijani khanates, can be considered the creation of the "Armenian province" here after the tsarist occupation.

The land of Nakhchivan was still part of the Chukursad beylerbeyi, one of the important administrative units during the Safavids. Nadir Shah Afshar, who came to power after the fall of the Safavid state, created new administrative units, and Nakhchivan province became part of a single Azerbaijani country. After the death of Nadir Shah, a khanate was established in the region, and the Nakhchivan Khanate formally existed for a century.

After the occupation of the Nakhchivan khanate by Tsarist Russia, the khanate was abolished and the "Armenian province", which Nicholas I called "Greater Armenia", was created. Also, mass resettlement of Armenians to Nakhchivan, Yerevan and Karabakh khanates began. As a result, the region is subject to some ethnic change, but Tsarist Russia is unable to Armenianize these territories. Thus, in the face of serious protests, Tsar Nicholas I was forced to abolish the "Armenian province" by decree in 1840.

**Keywords:** *Nakhchivan, Kangarli, khanate, Chukursad, Heydargulu khan, “Armenian province”, Gajars, Russia*

UOT 94

# KEÇMİŞ YUQOSLAVİYA ƏRAZİSİNDƏ ETNİK MÜNAQİŞƏLƏR

**AYGÜN İSMAYILOVA**
*Bakı Dövlət Universitetinin*
*Tarix fakültəsinin doktorantı*

*E-mail: aygun.ismayilova.vilayat@gmail.com*

Bir neçə əsr ərzində bu regionda müxtəlif dinlərə etiqad edən və mədəni-siyasi ənənələri ilə seçilən çoxsaylı cənubi slavyan etnosları yaşamışlar. Serb etnosu bu ərazidə yaşayan digər xalqlar üzərində hakim olub, daim onlarla gizli qarşıdurma vəziyyətində olmuşdur. Avtoritar sistemin dağılması və nüfuzlu kommunist lider İ.B. Titonun hakimiyyətdən getməsi millətçi hərəkatlara təkan vermişdir. 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində Şərqi Avropada kommunizmin dağılması və dirçələn millətçiliyə təsadüf edən Yuqoslaviya gərgin siyasi və iqtisadi böhran dövrünü yaşadı. Belə ki, keçmiş Yuqoslaviya ərazisində çoxsaylı etnik münaqişələr regionu dərin sosial-iqtisadi böhran vəziyyətinə gətirib çıxarmışdır. Mərkəzi hökumət zəiflədi, millətçilik sürətlə böyüdü. Bir tərəfdən, respublikaların tam müstəqilliyini müdafiə edən, digər tərəfdən isə federasiya daxilində müəyyən respublikalara daha böyük səlahiyyətlər verilməsini tələb edən siyasi partiyalar çoxalırdı.

Burada yaşayan etnoslar öz milli müqəddəratını təyinetmə cəhdlərini ifadə etdilər. 1990-cı ilin yanvarında Yuqoslaviya Kommunistlər İttifaqının dağılması, habelə Sloveniya və Xorvatiyadakı seçkilərdə onların məğlubiyyəti vəziyyəti daha da ağırlaşdırdı. Siyasi liderlər ümumi Yuqoslaviya kimliyini aşındırmaq və müxtəlif etnik qruplar arasında qorxu və inamsızlıq yaratmaq üçün millətçi ritorikadan istifadə etdilər. 1991-ci ilə qədər ölkənin parçalanması Sloveniya və Xorvatiyanın Serbiyanı Yuqoslaviyanın hökuməti, ordusu və maliyyəsi üzərində ədalətsiz hökmranlıq etməkdə ittiham etməsi ilə yaxınlaşdı. Serbiya da öz növbəsində iki respublikanı separatizmdə ittiham edirdi. Keçmiş kommunistlər yalnız Serbiya və Çernoqoriyada hakimiyyəti saxladılar. Milli prinsip əsasında formalaşmış və etnik qrupların maraqlarını müdafiə edən partiyalar kommunistlərə müxalif mövqedə dayanırdı [3, 354].

Bütün bu hadisələr 1980-ci illərin sonu-1990-cı illərin əvvəllərində Yuqoslaviya Federasiyasının dağılmasına gətirib çıxardı. 1991-ci ildə YSFR dağıldıqdan sonra onun ərazisində bir neçə dövlət yarandı.

Yuqoslaviyanın dağılmasının əsas mərhələlərinə qısaca nəzər salaq. 1991-ci ilin 27 iyun-7 iyul tarixlərini əhatə edən Sloveniyadakı münaqişə ən sürətli keçid oldu. Bu münaqişə respublika müstəqillik elan etdikdən sonra başladı və tarixə on günlük müharibə kimi daxil oldu. Yuqoslaviya Xalq Ordusunun bölmələri yerli özünümüdafiə dəstələri tərəfindən şiddətli müqavimətlə üzləşdilər. Sloveniya tərəfinin bildirdiyinə görə, YXO-nun itkisi 45 nəfərin ölümünə, 146 nəfərin yaralanmasına səbəb olub. Təxminən beş min hərbçi və Federal Xidmət əməkdaşları əsir düşüblər. [1, 280] Sloveniyalı özünümüdafiə qüvvələrinin itkiləri 19 nəfər öldürülmüş və 182 nəfər yaralanmışdır. Həmçinin 12 xarici ölkə vətəndaşı həlak olmuşdur. Müharibə 7 iyul 1991-ci il tarixli Aİ-nin vasitəçiliyi ilə Brion sazişinin imzalanması ilə başa çatdı. Yuqoslaviya xalq ordusu Sloveniya ərazisində hərbi əməliyyatları dayandırmalı idi ki, bu da öz növbəsində müstəqillik bəyannaməsinin qüvvəyə minməsini üç ay təxirə salırdı. [7]

Xorvatiyadakı münaqişə (1991-1995) də 25 iyun 1991-ci ildə bu respublikanın müstəqillik elan etməsi ilə əlaqələndirilir. O, Vətən Müharibəsi adlanır, bu müddətdə Xorvatiya qüvvələri YXO-a və Belqradda hakimiyyət tərəfindən dəstəklənən yerli serb birləşmələrinə qarşı çıxdı. 1991-ci ilin dekabr ayında 480 min nəfər əhalisi olan (91% - serblər) müstəqil Müstəqil Serbiya Krajina Respublikası yaradıldı. Beləliklə, Xorvatiya ərazisinin xeyli hissəsini itirdi. Sonrakı üç ildə Xorvatiya nizami ordusunu intensiv şəkildə möhkəmləndirmiş, qonşu Bosniya və Herseqovinada (1992-1995-ci illər) vətəndaş müharibəsində iştirak etmiş və Serbiya vilayətində məhdud silahlı əməliyyatlar keçirmişdir. 1992-ci ilin fevralında BMT Təhlükəsizlik Şurası BMT-nin Müdafiə Qüvvələrini Xorvatiyaya göndərmişdir. İlkin olaraq, BMT Müdafiə Qüvvələrinə Yuqoslaviya böhranının hərtərəfli həlli ilə bağlı danışıqlar üçün şərait hazırlamaq məqsədilə müvəqqəti formalaşma kimi baxılırdı. 1995-ci ilin avqustunda Xorvat Ordusu genişmiqyaslı "Fırtına" əməliyyatına başlamış və bir neçə gün ərzində Krajina serblərinin müdafiəsini yarmışdır. Krajinanın süqutu müharibədən əvvəl 12% təşkil edən demək olar ki, bütün serb əhalisinin Xorvatiyadan çıxması ilə nəticələndi [5, 120].

Bosniya və Herseqovinada münaqişə dağılan Yuqoslaviya Federasiyasında ən ölümcül münaqişə oldu. Bosniya və Herseqovinada 1992-1995-ci illərdə müsəlmanlar, serblər və xorvatların iştirakı ilə daha miqyaslı və şiddətli müharibə baş verdi. Bu mərkəzi Yuqoslaviya Respublikasında əhalinin təxminən 43 faizini bosniyalı müsəlmanlar, 33 faizini bosniyalı serblər, 17 faizini bosniyalı xorvatlar və təxminən yeddi faizi digər millətlərdən təşkil edən qarışıq etnik tərkibi əks etdirən ortaq hökumət var idi. Respublikanın strateji mövqeyi onu həm Serbiyanın, həm də Xorvatiyanın ərazisinin böyük hissələri üzərində hökmranlıq etməyə cəhd göstərməsinə şərait yaradırdı. Əslində, Xorvatiya və Serbiya liderləri artıq 1991-ci ildə gizli şəkildə görüşmüşdülər və orada müsəlmanlar üçün kiçik bir anklav qoyaraq Bosniya və Herseqovinanı bölmək barədə razılığa gəlmişdilər [4].

29 fevral-1 mart 1992-ci ildə Bosniya və Herseqovinanın müstəqillik referendumu da gərginliyin artması ilə nəticələndi. Bu referendum əksər serblər tərəfindən boykotla müşahidə olunmuşdur. Belə ki, 1992-ci ilin martında Bosniya serblərinin boykot etdiyi referendumda Bosniya vətəndaşlarının 60 faizindən çoxu müstəqilliyə səs verdi [8].

Demək olar ki, dərhal, 1992-ci ilin aprelində Bosniya serbləri Yuqoslaviya Xalq Ordusu və Serbiyanın dəstəyi ilə üsyan qaldıraraq, Bosniya və Herseqovinada nəzarəti altında olan əraziləri Serb Respublikası elan etdilər. Həddindən artıq hərbi üstünlük və qeyri-serblərə qarşı sistematik təqib kampaniyası vasitəsilə onlar tez bir zamanda ölkənin 60%-dən çoxuna nəzarəti təsdiqlədilər [6].

Bosniyalı xorvatlar tezliklə Bosniya hökumətinin səlahiyyətlərini rədd edərək, Xorvatiyanın dəstəyi ilə öz respublikalarını elan etdilər. Münaqişə ərazilər uğrunda qanlı üçtərəfli mübarizəyə çevrildi, bütün etnik mənsubiyyətlərdən olan mülki insanlar dəhşətli cinayətlərin qurbanına çevrildi.

1992-ci ilin aprelindən 1995-ci ilin noyabrına qədər davam edən müharibə nəticəsində 100.000-dən çox insanın öldürüldüyü və iki milyon insanın, yəni əhalinin yarıdan çoxunun Deytonda sülh sazişi imzalandığı zaman evlərini tərk etmək məcburiyyətində qaldığı təxmin edilir. Minlərlə bosniyalı qadın sistematik şəkildə təcavüzə məruz qalmışdır. Bütün münaqişə tərəfləri: Priyedor, Omarska, Konjiç, Dretelj və digər yerlərdə mülki şəxslər üçün bədnam həbs mərkəzləri yaradılmışdı. Müharibənin yeganə ən dəhşətli vəhşiliyi 1995-ci ilin yayında BMT-nin təhlükəsiz ərazi elan etdiyi Bosniyanın Srebrenitsa şəhərinin bosniyalı serb komandiri Ratko Mladiçin rəhbərlik etdiyi qüvvələrin hücumuna məruz qalması ilə baş verdi. İyulun əvvəlində bir neçə gün ərzində 8000-dən çox bosniyalı müsəlman kişi əhalisi serb qüvvələri tərəfindən soyqırımı aktı ilə edam edilmişdi. Şəhərin qalan qadın və uşaqları isə qovulmuşdu [7].

21 noyabr 1995-ci ildə ABŞ-ın Deyton (Ohayo ştatı) hərbi bazasında hazırlanmış və 14 dekabr 1995-ci ildə Parisdə Bosniya müsəlmanlarının lideri Aliya İzzetbeqoviç, Serbiya prezidenti Slobodan Miloşeviç və Xorvatiya Prezidenti Franko Tucman tərəfindən imzalanmış Deyton razılaşması münaqişəyə son qoydu. Saziş Bosniya və Herseqovinanın müharibədən sonrakı quruluşunu müəyyən edirdi və NATO komandanlığı altında 60 min nəfərlik beynəlxalq sülhməramlı kontingentin burada yerləşdirilməsini nəzərdə tuturdu [2, 20].

Nəticə etibarilə, Bosniya münaqişəsi kütləvi etnik təmizləmə və dinc əhaliyə divan tutulması ilə müşayiət olunmuşdur. Onun gedişində 100 minə yaxın insan, əsasən müsəlmanlar həlak olmuş, Bosniya və Herseqovinanın 4,4 milyon nəfər əhalisindən iki milyon nəfər isə qaçqın düşmüşdür. Müharibədən vurulan zərər on milyardlarla dollar təşkil etdi. Bosniya və Herseqovinanın iqtisadiyyatı və sosial sahəsi demək olar ki, tamamilə məhv edildi [3, 542].

Növbəti münaqişə zonası Kosovoda cəmləşdi, burada etnik alban icması Serbiyadan müstəqillik əldə etmək istədi. Serbiyanın cənub bölgəsində-Kosovo və Metoxiyadakı silahlı qarşıdurma (1998-1999) Belqrad və Kosovo albanları (hazırda əyalət əhalisinin 90-95%) arasındakı ziddiyyətlərin kəskinləşməsi ilə əlaqələndirildi. 1998-ci ildə Kosovo Azadlıq Ordusu serb hakimiyyətinə qarşı açıq üsyana başladı. Serbiya, Belqraddan müstəqillik istəyən Albaniya Azadlıq Ordusunun yaraqlılarına qarşı geniş bir hərbi əməliyyat başlatdı. Üsyançıları əzmək üçün polis və ordunun əlavə qüvvələri göndərilməsi ilə vəziyət daha da şiddətləndi. Kampaniya zamanı serb qüvvələri dinc əhalini ağır şəkildə hədəfə alıb, kəndləri atəşə tutub və Kosovo albanlarını qaçmağa məcbur ediblər [7].

1999-cu ilin əvvəlində Rambuyedə (Fransa) sülh razılaşmalarına nail olmaq cəhdləri uğursuzluqla nəticələndikdən sonra ABŞ başda olmaqla, NATO ölkələri Yuqoslaviya ərazisində "İttifaq gücü" adlanan hərbi əməliyyat keçirdi. NATO qoşunlarının hərbi müdaxiləsinə geniş miqyaslı etnik təmizləmələr səbəb olmuşdur. NATO-nun Kosovo və Serbiyadakı hədəflərə qarşı 78 günlük hava hücumları kampaniyasına cavab olaraq serb qüvvələri Kosovo albanlarının mülki əhalisinə qarşı təqibləri daha da gücləndirdilər [1, 277].

Nəhayət, Serbiya prezidenti Slobodan Miloşeviç qoşunlarını və polisini əyalətdən çıxarmağa razı oldu. Belə ki, 2 iyun 1999-cu ildə Miloşevic qarşıdurmaya son qoymağa razı oldu. Razılaşmanın şərtlərinə görə, Miloşeviç Kosovodan qüvvələrini çıxarmalı, NATO rəhbərliyindəki bir qüvvə vilayətin təhlükəsizliyini təmin etməli; qaçqınların evlərinə qayıtmalarına icazə verilməli və Kosovoya Yuqoslaviya suverenliyi altında özünü idarə etmək imkanı verilməli idi. İyunun 9-da Makedoniyanın Kumanova şəhərində NATO ilə "Hərbi və texniki saziş" adlı sənəd imzalandı. İyunun 10-da Serbiya hökuməti bu sazişi ratifikasiya etdikdən sonra Serbiya qoşunları Kosovodan çıxmağa başladı [2, 22].

BMT Təhlükəsizlik Şurası 10 iyun 1999-cu ildə hərbi əməliyyatlara son qoyan 1244 saylı qətnamə qəbul etdi. Qətnamə NATO komandanlığı altında beynəlxalq sülhməramlı kontingentin (ilkin mərhələdə 46,5 min nəfər) daxil olmasını nəzərdə tuturdu. Sənəd Kosovonın son statusunun daha sonrakı mərhələsində müəyyənləşdirilməsini də təmin etmişdir.

Qeyd edək ki, bu əməliyyata münasibət birmənalı deyil. Belə ki, rus müəlliflərinə görə, bu, NATO-nun təcavüzüdür. Onlar bunu BMT TŞ-nin qərarı olmadan NATO-nun əməliyyata başlaması ilə əlaqələndirirlər. Lakin Qərb dünyası üçün bu əməliyyat qırğının qarşısını almaq, bölgədə sabitliyi bərpa etmək üçün atılmış bir addım olaraq dəyərləndirilir. Sözsüz ki, həm qərbin, həm də Rusiyanın bu bölgədə öz maraqları var idi və Yuqoslaviya ərazisində baş verən bu hadisələrdən hər bir tərəf yararlanmağa çalışırdı.

Yuqoslaviya Federasiyasının ən cənub respublikası Makedoniya 1991-ci ilin payızında müstəqilliyini elan etdi və sülh yolu ilə ayrıldı. Daha sonra keçmiş Yuqoslaviya Makedoniya Respublikası müvəqqəti adı ilə BMT-yə qəbul edildi. Əksəriyyəti etnik makedonlar və böyük bir alban azlığından ibarət olan keçmiş Yuqoslaviya Makedoniya Respublikası 1990-cı illərin əvvəllərindəki Yuqoslaviya müharibələri zamanı sülh şəraitində qalsa da, bununla belə, etnik münaqişələr burda da baş verdi [8].

2000-2001-ci illərdə Serbiyanın cənubunda, Preşevo, Buyanov və Medvec icmalarında əhalinin əksəriyyətini təşkil edən albanlar arasında vəziyyət kəskin şəkildə kəskinləşmişdir. Serbiyanın cənubundakı toqquşmalar Preşev vadisindəki münaqişə kimi tanınır. Preşev, Medvec və Buyanovaç Azadlıq Ordusundan olan alban hərbçiləri bu ərazilərin Serbiyadan ayrılması üçün mübarizə apardılar. Hadisələr Kosovo münaqişəsinin nəticələrindən sonra 1999-cu ildə Serbiya ərazisində yaradılan 5 km-lik "quru təhlükəsizliyi zonasında" baş verdi. Nəticədə, Yuqoslaviya Makedoniya Respublikası yalnız yüngül atıcı silahların daşınmasına icazə verilən yerli polis istisna olmaqla, burada ordu formalarını və təhlükəsizlik qüvvələrini yerləşdirə bilməzdi [7].

2001-ci il yanvarın əvvəlində etnik Alban Milli Azadlıq Ordusu (MQ) silahlı qruplaşması ölkədə albanların məskunlaşdığı ərazilərə muxtariyyət və ya müstəqillik əldə etmək məqsədilə respublikanın təhlükəsizlik qüvvələri ilə toqquşdu. Silahlı münaqişə 2001-ci ildə bir neçə ay davam etdi və hakimiyyətin bölüşdürülməsi, alban milislərinin tərk-silah edilməsi və NATO-nun nəzarətçi qüvvələrinin yerləşdirilməsinə dair siyasi razılaşmanı nəzərdə tutan sülh sazişi ilə başa çatdı. 2001-ci ilin mayında Belqradla NATO arasında Makedoniya yuqoslav ordusunun kontingentinin "yerüstü təhlükəsizlik zonasına"qayıtmasına dair razılaşma əldə edildikdən sonra Serbiyanın cənubunda vəziyyət sabitləşdi [5, 121].

Makedoniyada albanlara (əhalinin 20-30%-i) məhdud hüquqi və mədəni muxtariyyət verən Oxrid sazişi imzalanmışdır. Hərbçilərə qarşı əfv, çoxmillətli polis qüvvəsinin yaradılması və yerli əhalinin ictimai quruluşlara inteqrasiyası barədə qərarlar da qəbul edilmişdir. Bu böhran zamanı bir neçə serb hərbi qulluqçu və mülki şəxs, habelə onlarla alban öldürüldü. Müxtəlif qiymətləndirmələrə görə, münaqişə nəticəsində 70-dən çox Makedoniya hərbçisi və 800-dək alban həlak olmuşdur [8].

YSFR-nin dağılmasında iqtisadi problemlər, siyasi və sosial gərginliyin artması, həmçinin milli məsələnin spekulyativ istifadəsi səbəb olmuşdur. Bu faktorlar etnik qruplar arasında vəziyyətin gərginləşməsinə və birbaşa qarşıdurmaya gətirib çıxardı ki, bu da millətçi hərəkatların təsiri və keçmiş Yuqoslaviya respublikalarında düşmənçiliyin artması ilə dolayısı ilə güclənirdi.

Kommunist rejiminin süqutundan sonra gizli bir dövlətdən olan etnik ziddiyyətlər iki mərhələdən ibarət olan kəskin böhrana çevrildi: birinci mərhələdə bütün qeyri-bərabər hüquqlara malik xalqların dövlət yaradan milliyyətçi serblərlə münaqişəsi baş verdi. İkinci mərhələdə, yeni dövlətlərdə, serblər və çoxluq təşkil edən millətlər arasındakı qarşıdurmaya çevrildi. Paradoksal vəziyyət ondan ibarət idi ki, hər bir xalqın milli varlığına təhlükə həm əvvəlki Yuqoslaviyanın qorunması faktından, həm də on minlərlə qurban və milyonlarla qaçqının miqrasiyası ilə müşayiət olunan ittifaq dövlətinin dağılmasından qaynaqlanırdı. XX əsrin sonunda keçmiş Yuqoslaviya ərazisində baş verən hadisələr dünya hadisələri kontekstinə uyğundur, əvvəlcə Şərqi Avropada, sonra isə SSRİ-də sosialist sistemlərinin dağılması etnik münaqişələrin güclənməsi ilə nəti-

cələndi. Bunun əsas səbəblərindən biri bu idi ki, milli məsələ nə keçmiş Yuqoslaviya, nə də SSRİ ərazisində hər kəsi qane edəcək səviyyədə öz həllini tapmadı. Hər hansı bir millətin aliliyi və siyasi səviyyədə üstünlüyə can atması hadisələri alovlandırmış oldu. Mərkəzi hökumətin federasiyanı qorumaq cəhdləri də nəticəsiz qaldı və əksinə, bunun üçün görülən yanlış tədbirlər hadisələri daha da sürətləndirmiş oldu.

Bu gün beynəlxalq ictimaiyyətin səyi ilə etnik münaqişələr tənzimlənsə, günahkarlar beynəlxalq tribunalda cəzalandırılmış olsa da, bölgədə milli problemlər hələ də qalmaqda davam edir. Çoxmillətli kommunist federasiyalarının dağılması və bunun ardınca gedən silahlı münaqişələr onların müstəqil milli dövlətlərə transformasiyası nəticəsində yaranmış milli məsələni, yəni, milli və ya etnik qrupun öz ərazisində bir neçə etnik qrupu da daxil olmaqla dövlətə münasibətini beynəlxalq siyasət, hüquq və nəzəriyyə məsələlərinə dair debatların ön planına qaytardı. Yuqoslaviyanın şiddətli şəkildə parçalanması, xüsusilə beynəlxalq ictimaiyyətin çoxmillətli dövlətlərin bu tip tərkib hissələrinin öz yolu ilə getməyi qərara aldığı hər hansı möhkəm hüquqi prinsiplərə, rəhbər prinsiplərə və ya müəyyən edilmiş mexanizmlərə arxalana bilməməsini nümayiş etdirir.

**Açar sözlər:** *Yuqoslaviya, etnik münaqişələr, NATO, Bosniya və Hersoqovina, Serbiya, Makedoniya*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Волков В.К. Узловые проблемы новейшей истории стран Центральной и Юго-Восточной Европы. Москва, 2000. С. 322.*

*2. Никитин А.И. Миротворчество ООН: обновление принципов, реформирование практики. "Мировая экономика и международные отношения", 2016, № 60(3), 16–26.*

*3. Югославия в XX веке: Очерки политической истории / Ответственный редактор К. В. Никифоров. — Москва «Индрик», 2011. — 888 с.*

*4. Ямбаев М.Л. Вооруженный конфликт 2001 г. в Македонии и развитие политической ситуации в стране // URL: http://www.guskova.ru.*

*5. Худайкулова А.В. миротворчество ООН в XXI веке: основные векторы реформ по повышению эффективности миротворческих операций// "Южно-российский журнал социальных наук". 2019. Т. 20. № 4. С. 109-126*

*6. Dos Santos Cruz, C. A., Phillips, W. R. & Cusimano, S., (2017). Improving Security of United Nations Peacekeepers: We need to change the way we are doing business. UN. Retrieved from https://digitallibrary.un.org/record/1479770/files/improving_security_of_united_nations_ peacekeepers_report.pdf*

*7. International Criminal Tribunal for the former Yugoslavia // https://www.icty.org/en/about/what-former-yugoslavia/conflicts*

*8. Sotiropoulou A. The role of ethnicity in ethnic conflicts: The case of Yugoslavia // https://www.files.ethz.ch/isn/26506/PN04.02.pdf*

## SUMMARY

The article provides information on ethnic conflicts that occurred in the territory of the former Yugoslavia, their causes and consequences. The disintegration of the Yugoslav federation caused great problems. The desire of the nations to self-determine their own destiny led to military clashes. Ethnic conflicts in Slovenia, Croatia, Bosnia and Herzegovina and Macedonia have caused a lot of human losses and economic, social and political crises. And the reward of that world was given to him. In order to stabilize the situation, NATO conducted a military operation here. This military operation, which is regarded as aggression by Russia and some states, is characterized by the Western world as a peacekeeping mission.

**Keywords:** *Yugoslavia, ethnic conflicts, NATO, Bosnia and Herzegovina, Serbia, Macedonia*

## РЕЗЮМЕ

В статье представлена информация об этнических конфликтах, происходивших на территории бывшей Югославии, их причинах и последствиях. В процессе распада югославской федерации возникли большие проблемы. Стремление народов самостоятельно определять свою судьбу привело к военным столкновениям. Столкновения на этнической почве на территории Словении, Хорватии, Боснии и Герцеговины, Македонии привели к значительным человеческим жертвам и экономическому и социальному, а также политическому кризису. В такой момент внимание государств мира было сосредоточено на этих территориях. Для стабилизации ситуации НАТО проводило здесь военную операцию. Эта военная операция, расцененная Россией и некоторыми государствами как агрессия, охарактеризована западным миром как миротворческая миссия.

**Ключевые слова:** *Югославия, этнические конфликты, НАТО, Босния и Герцеговина, Сербия, Македония*

UOT 331.01

# MÜASİR İQTİSADİ ŞƏRAİTDƏ AQRAR SAHƏDƏ RƏQƏMSALLAŞMANIN ƏSAS XÜSUSİYYƏTLƏRİ

**FAMİL RÜSTƏMOV**
*İqtisad üzrə fəlsəfə doktoru,*
*AMEA İqtisadiyyat İnstitutu*
*E-mail: Familrustamov456@gmail.com*

## Giriş

Hazırda aqrar sahənin qarşısında həllini gözləyən çoxsaylı məsələlər durur. 2019-cu ildə planetin əhalisi 7,67 milyard nəfər idisə, ilkin hesablamalara görə, 2050-ci ilə bu göstərici 9,6 milyardı keçəcək və bu da təbii olaraq kənd təsərrüfatı məhsullarına olan tələbatın əhəmiyyətli şəkildə artımına səbəb olacaq. Mövcud təbii ehtiyatların, o cümlədən şirin su ehtiyatlarının məhdud olması, məhsuldar əkin sahələrinin ilbəil azalması problemin nə dərəcədə ciddi olmasından xəbər verir. İstehsal narahatlıq gətirən tək amil deyildır. Bu gün bütün dünya əhalisinə yetərli olacaq səviyyədə kənd təsərrüfatı məhsulları istehsal olunsa da, bu ərzaq məhsullarının qeyri-bərabər bölünməsi nəticəsində hələ də planetin 800 milyondan çox sakini aclıqdan əziyyət çəkir. Digər proseslər, məsələn, sürətli şəhərləşmə (urbanizasiya), şəhər həyat tərzinin daha geniş yayılması istehsal nümunələrinə və qida istehlakına güclü təsir göstərir. Şübhəsiz ki, aqrar sahənin mahiyyəti insanların qidaya olan tələbatın ödənilməsilə yekunlaşmır. Məşğulluq məsələlərinin həllində də aqrar sahə əhəmiyyətli rola malikdir. Hazırda dünyada 570 milyondan çox kiçik təsərrüfat var və dünyanın məşğul əhalisinin 28% -i bu sahədə çalışır [1,s.255].

## Dünyada aqrar sahədə rəqəmsallaşmanın müasir vəziyyəti

Son illərdə bəşəriyyət qlobal və köklü dəyişikliklər yoluna qədəm qoymuşdur. Postindustrial dövr insanın həyatından tədricən inkişaf tariximizdəki yeni dəyişiklik – rəqəmsallaşma vasitəsilə sıxışdırılıb çıxarılır. Səmərəliliyin artırılması istənilən kənd təsərrüfatı müəssisəsinin inkişafı üçün əsas istiqamətdir. iqtisadi fəaliyyətdə əhəmiyyətli keyfiyyət dəyişikliklərinə nail olmaq üçün bu gün rəqəmsal proseslərin və texnologiyaların tətbiqi mütləqdir, vacibdir. Rəqəmsallaşma artıq gələcək deyil, kənd təsərrüfatının bu günüdür. Aqrar sahədə rəqəmsallaşma riskləri azaltmağa, iqlim dəyişikliyinə uyğunlaşmağa və yüksək məhsuldarlığa nail olmağa imkan verir. Bu isə öz növbəsində istehsal olunan məhsulun maya dəyərinin azaldılmasına, keyfiyyətinin və rəqabət qabiliyyətinin artırılmasına səbəb olur. Kənd təsərrüfatı istehsalçılarına lazımi məlumatların verilməsi alqı-satqı xərclərini azaldacaq, məhsulların sahədən istehlakçıya tədarük zəncirini sadələşdirəcək və işçi qüvvəsinin ixtisas çatışmazlığını azaldacaqdır. Rəqəmsallaşmadan fəaliyyət göstərmək, qlobal rəqabətdə məğlub olmaq deməkdir. Bazarda rəqabətdə qalmaq üçün istehlakçıların tələbindən və istəklərindən asılı olaraq məhsul təklifini proqnozlaşdırmaq lazımdır. Düzgün idarəetmə qərarılarnın verilməsi üçün kənd təsərrüfatı istehsalçılarının peyk görüntülərindən, yüksək texnologiyalı sensorlarlarda, mobil tətbiqlərdən, GPS sistemlərindən istifadəsi bir zərurətə çevrilməkdədir.

İnkişaf etmiş kənd təsərrüfatına sektoruna malik olan ölkələrin təcrübəsi göstərir ki, İT texnologiyalarının istehsalata tətbiqi planlaşdırılmamış xərcləri 20 faizə qədər azalatmağa imkan verir. Müasir İT texnologiyalardan, mobil və ya onlayn tətbiqlərdən, pilotsuz təyyarələr, peyklər və digər xarici tətbiqetmələrdən əldə edilən məlumatlardan istifadə etməklə optimal həllərə nail olmaq mümkündür. Yeni texnologiyalar məhsulun sahədən istehlakçıya çatmasına qədər bütün yolu izləməyə imkan verir ki, bu da keyfiyyətə nəzarətə zəmanət verir və eyni zamanda müştərilərin tələblərinə cavab verir. Rəqəmsallaşma aqrar-sənaye kompleksinin tənzimlənməsinin əsas istiqamətləri, o cümlədən aqrobiznes subyektləri üçün maliyyələşmə, satış bazarlarının mövcudluğu və ixracın inkişafı üçün əsas vasitə olacaqdır. Aqro-sənaye kompleksinin rəqəmsallaşdırılması rəqabətqabiliyyətliliyi və əmək məhsuldarlığını artırmağa, qida təhlükəsizliyini təmin etməyə və bu sahəyə investisiya cəlb etməyə kömək edəcəkdir [2,s.211].

Dünyada getdikcə daha çox kənd təsərrüfatı istehsalçısı pilotsuz vasitələrdən, GPS naviqasiya sis-

temlərindən istifadə edir, kosmik peyklərdən və pilotsuz təyyarələrdən alınan məlumatlara etibar edir və öz hava stansiyalarını satın alırlar. ABŞ, Hollandiya, Yaponiya və Hindistanda bir neçə iri kənd təsərrüfatı istehsalçıları neçə ildir pilotsuz, avtomatik idarəetmə sistemi ilə təchiz olunmuş traktor və kombayn modellərini sınaqdan keçirməkdədilər. Pilotsuz nəqliyyat vasitələrinin ticari istismara girməsinə qədər nə qədər vaxt lazım olduğunu söyləmək çətindir. Bir sıra mütəxəssislər çətin ərazi ilə xarakterizə olunan və daim əngəllərlə qarşılaşan sahələrində operator olmadan işləmək mümkün olmadığına işarə edərək, bədbindirlər. Digər mütəxəssislərin fikir və proqnozlarına görə, 2024-cü ilə qədər qlobal bazarda traktor satışlarında pilotsuz texnikaların payı olduqça artacaq və bu texnologiyanın bazarı milyardlarla dollar təşkil edəcək [3,s.304].

Yeni vasitələrin sürətlə yayılmasına mane olan əsas problem kimi kənd təsərrüfatı istehsalçıları böyük investisiyalara ehtiyac olduğunu söyləyirlər. Hətta kənd təsərrüfatı holdinqləri də hər addımın səmərəliliyini tədricən qiymətləndirərək, maliyyə yükünü paylayaraq və əlavə kreditlərdən yayınaraq mərhələ-mərhələ yeniliklər tətbiq etməyə üstünlük verirlər. Kiçik müəssisələr üçün isə rəqəmsallaşdırma sahəsindəki nailiyyətlər əlçatmaz olaraq qalır. BMT-nin 2030-cu ilə dayanıqlı inkişaf sahəsində aclığın aradan qaldırılması hədəflərinə çatmaq üçün daha effektiv, daha məhsuldar, dayanıqlı, inkluziv, şəffaf, xarici təsirlərə dözümlü aqrar sistemlərin yaradılması tələb olunur. Bu isə o deməkdir mövcud aqrosistemlərin təkmilləşdirilməsi zəruridir. mütləqdir. Qarşıya qoyulmuş məqsədə çatmaq üçün rəqəmsal innovasiyalar və texnologiyalar əhəmiyyətli rol oynaya bilər. " Dördüncü sənaye inqlabı" bir sıra sahələrin mütərəqqi rəqəmsal innovasiyaların – blokçeyn, internet məhsul və xidmətlərin, süni intilektin təsiri altında sürətli transformasiyası müşayiət olunur. Aqrar sektorda mobil texnologiyaların geniş yayılması kiçik fermerlərin maariflənməsini, maliyyəyə, informasiyaya, bazarlara çıxış imkanlarını artırır. Rəqəmsal texnologiyalar kiçik fermer təsərrüfatlarının rəqəmsal aqrar istehsal sistemlərinə inteqrasiyası üçün yeni imkanlar yaradır. Gözlənilir ki, mobil rabitənin inkişafının növbəti mərhələsinin hərəkətverici qüvvəsi ilk növbədə kənd icması olacaqdır. Hazırda dünya əhalisinin 20%-ni təşkil edən, inkişaf etməkdə olan ölkələrin əhalisinin 70 faizinin mobil telefonlardan istifadə imkanı mövcuddur (World Bank, 2016). Bundan əlavə dünya əhalisinin 53%-dən çoxunun internetə çıxış imkanı vardır və hazırda inkişaf etməkdə olan ölkələrin kənd əhalisinin "Ümumdünya şəbəkəsinə" çıxış imkanlarının artırılması istiqamətində çoxsaylı təşəbbüslər reallaşdırılmaqdadır [4,s.270] .

Bununla bərabər ərzaq məhsullarının istehsalı və logistikasının rəqəmsallaşdırılması zamanı müəyyən problemlər də yarana bilir ki, bu problemləri də ciddiyə almaq lazımdır. Ayrı-ayrı ölkələr və analoji sahələr arasında yeni texnologiyaların mənimsənilməsi qabiliyyətinin fərqli olması islahatlar zamanı rəqəmsal boşluğun yaranması ilə nəticələnə bildiyindən, dəyişikliklər ehtiyatla, hərtərəfli düşünülərək tətbiq edilməlidir. Zəif inkişaf etmiş ölkələrdə, xüsusilə də kənd yerlərində texniki infrastrukturun zəif olması, müassir texnologiyaların bahalılığı, kompüter biliklərinin və rəqəmsal bacarıqların, mövcud kadr potensialının səviyyəsinin aşağı olması, habelə xidmətlərin məhdud əlçatanlığı rəqəmsallaşdırılma prosesinin zəif şəkildə həyata keçirilməsinə səbəb olur. Amma, inkişaf etməkdə olan ölkələr bu mənada müəyyən üstünlüklərə malikdirlər. Belə ki, onlar aqrar sahə ilə bağlı köhnəlmiş texnologiyalardan istifadə etmədən birbaşa kənd təsərrüfatındakı rəqəmsal inqilabi nəaliyyətlərdən istifadə edə biləcəklər. Bunun üçün isə vəziyyətin aidiyyatı orqanlar, istər rəsmi qurumlar, istər özəl şirkətlər və ya sadə insanlar tərəfindən düzgün dərk edilməli, köhnə yolla hərəkətin problemləri həll etməyəcəyi qəbul edilməlidir. Müasir dövrümüzə qədər aqrar sahə ilə bağlı xeyli sayda inqlabi proseslər baş vermişdir ki, bunların da hər biri özündən əvvəlki dövrlə müqayisədə məhsuldarlığın, gəlirlərin, eləcə də effektivliyin artmasına gətirib çıxarmışdır. Yaxın illər üçün gözləntilər belədir ki, "aqrar sahədə rəqəmsal inqlab" yeni bir hərəkətlənməyə səbəb olacaq ki, bunun da nəticəsində dünya əhalisinin aqrar məsullara olan tələbatının ödənilməsinin daha da yaxşılaşdırılması baş verəcək. Təbii ki, rəqəmsallaşma aqrar istehsal zəncirinin bütün həlqələrinə öz təsirini göstərəcək. İstehsal zəncirinin bütün həlqələrində resurslardan istifadənin və idarəetmənin optimallaşdırılması, fərdi yanaşma prinsipləri əsasında qurulması tələb olunur. Bütöv sistemin fəaliyyəti

isə məlumatlara real vaxt rejimində sürətli qoşulma hesabına təmin edilməlidir. Bu sistemin sayəsində dəyər zəncirləri tamamilə izlənilə və koordinasiya edilə bilər, həmçinin əkin sahələrinin, heyvanların idarə olunması üçün optimal modellər yaradıla bilər. Kənd təsərrüfatının rəqəmsallaşması istehsalda yüksək məhsuldarlığa nail olunmasına, proqnozların daha dəqiq verilməsinə, həmçinin iqlim dəyişikliyinə uyğunlaşa bilən müassir idarəetmə sistemləri yaradılmasına imkan verəcəkdir. Bu da öz növbəsində ərzaq təhlükəsizliyinin təmin edilməsinə, ölkənin, kəndli və fermerlərin gəlirlərinin artmasına kömək edəcəkdir. Məsələyə davamlı inkişaf məqsədləri kontekstində baxdıqda isə, rəqəmsal kənd təsərrüfatı, məhsuldarlığın artması ilə yanaşı, xərclərin düzgün idarə edilməsi və bazarın təhlili baxımından da əhəmiyyətli iqtisadi fayda verə bilər. Aqrar sahədə rəqəmsallaşdırmanın potensial faydaları cəlbedici görünsə də, bunların reallaşdırılması kənd təsərrüfatı istehsal sistemlərində, kənd iqtisadiyyatında, təbii ehtiyatların idarə edilməsində böyük dəyişiklikləri tələb edir[5].

Yuxarıda qeyd edilənləri nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, potensial fayda əldə etmək üçün sistemli bir yanaşma tələb olunur. Aqrar-qida sektorunun rəqəmsallaşdırılması kənd və şəhər yerləri, gender qrupları, gənclər və rəqəmsal biliklərə sahib olanlar arasında potensial gəlirlərin qeyri-bərabər paylanma riskini artırır. Şəhər yerlərində "rəqəmsal ekosistemlər" (resurslar, bacarıq və biliklər, şəbəkələr) çox vaxt kənd yerlərindən daha yaxşı inkişaf edir. Rəqəmsallaşmanın qlobal tendensiyalar fonunda - şəhərləşmə, orta və varlı təbəqə təmsilçilərinin şəhərlərə hərəkəti - şəhər və kənd yerləri, gender qrupları, gənclər və rəqəmsal bacarıqlara sahib olanlar arasındakı bərabərsizliyi daha da artırmaq potensialı var. Bununda nəticəsi olaraq kənd əhalisi rəqəmsallaşma proseslərinə qoşulmada çətinlik çəkəcək. Yeni rəqəmsal cəmiyyətin üstünlüklərindən faydalanmaq və eləcədə rəqəmsallaşma sahəsində mövcud fərqlərin aradan qaldırılması sahəsində BMT-nin" Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı" hökumətlərə və tərəfdaşlarına müəyyən dəsdək göstərməkdədir. Mövcud kontekstləri nəzərə alaraq kənd təsərrüfatında rəqəmsal transformasiya formatını müəyyənləşdirəcək bir sıra şərtlər mövcuddur [6,s.22]:

Elektrik təhcizatı sisteminin mövcudluğu və bu sistemə qoşulmanın rahatlığı, internet şəbəkəsinin və ona qoşulma imkanlarının mövcudluğu, tariflərin əlçatanlığı, maliyyə resurslarına əl çatanlıq, mobil rabitə imkanları, kompüter savadlılığı, ixtisaslı kadrların mövcudluğu, təhsili və rəqəmsal strategiyaları dəstəkləyən İKT siyasət və proqramlar (elektron hökumət) aqrar sahədə rəqəmsallaşmanın həyata keçirilməsinin təməl prinsipləri hesab edilir.

Rəqəmsal texnologiyalara çıxış imkanlarının reallaşması kiçik fermer təsərrüfatlarına və eləcədə digər kənd təsərrüfatı müəssisələrinə tədarükçülərlə əlaqə yaradılmasında, məlumat bazasının genişləndirilməsində, istedadlı kadrların tapılmasında, strateji tərəfdaşlığın yaradılması və ya möhkəmləndirilməsində, dəstək xidmətlərinə - təhsil, maliyyə, hüquqi və xüsusilə bazarlara çıxış və istehlakçılarla əlaqə yaradılması baxımından əhəmiyyətli fayda verə bilər. Bununla yanaşı, kənd yerlərində rəqəmsal texnologiyaların tətbiqi müəyyən problemlər səbəbindən ləngiyir. Hazırda bütün dünyada kənd əhalisinin sayı azalır və eyni zamanda onların təlim və məşğulluq imkanları da məhdud olaraq qalır. Vacib informasiya texnologiyaları infrastrukturu xüsusən də ucqar kənd yerlərində əksər hallarda çatışmır. Həmçinin, kənd yerlərində informasiya texnologiyaları infrastrukturunun zəif maliyyələşdirilməsi, bu sahəyə diqqətin zəif olması xüsusilə inkişaf etməkdə olan ölkələrdə və ya az inkişaf etmiş ölkələrdə çox böyük bir maneədir. Sevindirici haldır ki, bir sıra ölkələrdə son zamanlar hökumət tərəfindən həyata keçirilən siyasət və yaradılan yeni mexanizmlər rəqəmsal bazarların və elektron xidmətlərin inkişafı üçün əlverişli bir mühitin formalaşmasına səbəb olur. Bundan əlavə, bir sıra dövlət qrumlarının, xüsusən də səhiyyə, təhsil,rabitə, ətraf mühit və məşğulluq sahələrində elektron xidmət mexanizmlərinin ("elektron hökumət") genişləndirilməsi tendensiyası da müşahidə olunmaqdadır.

Bununla belə, elektron hökumət proqramlarının inkişafı və idarə olunması üçün yüksək ixtisaslı kadrların mövcudluğu tələb olunduğundan bir sıra ölkələr bu yolda yalnız məhdud irəliləyiş əldə etmişlər. Bu mənada inkişaf etməkdə olan ölkələr prosesi idarə etmək üçün lazım olan potensial baxımından inkişaf etmiş ölkələrdən xeyli geridə qalır. Yalnız müəyyən sahələrdə ciddi irəliləyişlər müşahidə edilir

və bir çox ölkələrdə məşğulluğun ən böyük hissəsini təmin edən kənd təsərrüfatı sektoru bu sahədə geridə qalır. Rəqəmsallaşma ilə bağlı dövlət siyasətlərinə dair dərc olunmuş az sayda tədqiqat işinin mövcudluğu da dediklərimizin təsdiqidir.

Onu da qeyd etməliyik ki, əvvəlki illərlə müqayisədə hökumətlər İKT və rəqəmsal şəbəkələrə çıxışın genişləndirilməsi sahəsində ciddi irəliləyişlər əldə edə bilmişlər. Bir sıra inkişaf etmiş ölkələr sabit və mobil əlaqə vasitələrinə çıxışı təmin etsələr də, inkişaf etməkdə olan ölkələr mobil xidmətlərin genişləndirilməsi bir qədər geri qalırlar. Bir çox hökumətlər səhiyyə və təhsil sahəsində elektron xidmətlərdən istifadə imkanlarını xeyli genişləndirə bilmişlər. Təəssüf ki, hələ də zəif inkişaf etmiş və bəzi inkişaf etməkdə olan ölkələrdə əhalinin əhəmiyyətli bir hissəsi elektron xidmətlərdən istifadə edə bilmirlər və ya az istifadə edirlər. Gəlirlərin aşağı səviyyədə olması, lazımi istifadə bacarıqları və infrastruktur çatışmazlığı İKT-lərədən faydalanmağa maneyə yaradır.

Hazırda çox az ölkədə kənd təsərrüfatı sahəsində elektron xidmətlərin geniş spektrı mövcuddur. İnformasiya komunikasiya texnologiyalarınının kənd təsərrüfatında geniş istifadəsinə üstünlük verən ölkələr bir qayda olaraq daha pozitiv sahibkarlıq mühitinə və aqrobiznes üçün daha əlverişli siyasi və tənzimləyici mexanizmlərə sahibdirlər. Bəlkə də bu, İKT-nin istifadəsi ilə əlaqədardır, çünki bu vəziyyət təhsil səviyyəsindən, savadlılıqdan və kənd təsərrüfatının ölkənin ÜDM-dəki payından asılı görünmür. Hazırda inkişaf etmiş ölkələr kənd təsərrüfatına dair rəqəmsallaşdırma strategiyalarının milli səviyyədə həyata keçirilməsində liderdirlər. İnkişaf etməkdə olan ölkələrdə isə kənd təsərrüfatı sahəsindəki mövcud elektron xidmətlərin əksəriyyəti, bir qayda olaraq, elektron hökumət sistemi çərçivəsində və ya İKT strategiyaları çərçivəsində məhdudlaşır. Bu ölkələrdə kənd təsərrüfatı sektorunda göstərilən əsas elektron xidmətlər ümumi məlumatlandırma ilə yekunlaşır. Rəqəmsal texnologiyaların istifadəsi, yaradılan məlumatların işlənməsi baxımından siyasi və tənzimləyici tədbirlərə ehtiyac yaradacaqdır. Məlumat sahibliyi üçün format və şərtləri müəyyənləşdirən standartların olmaması kənd təsərrüfatı subyektləri arasında qeyri-bərabərliyə səbəb ola bilər. İlk növbədə də o yerlərdəki iri beynəlxalq şirkətlərin aqrobiznesin inkişafı üçün rəqəmsallaşmanı tətbiq etdikləri halda, kənd təsərrüfatında çalışan kiçik fermer təsərrüfatları və yerli sahibkarlar kənd təsərrüfatında sosial problemləri həll etmək üçün rəqəmsal texnologiyalar tətbiq edirlər. Kənd təsərrüfatı müəssisələrinin əhəmiyyətli bir hissəsi (sorğulara görə - təqribən 54%) rəqəmsal texnologiyaları yalnız birgə maliyyələşdirmə şərtləri ilə tətbiq etməyə hazırdır, kənd təsərrüfatı istehsalçıları əsasən dövlət dəstəyinə ümid bəsləyirlər. Bu sahədə mövcud qanunvericiliyin, hüquqi bazanın da ciddi təkmilləşməyə ehtiyacı vardır [5].

Son illərdə süni intellektə əsaslanan texnologiyalar bir çox aqraq müəssisələrdə idarəetmənin səmərəliliyinin artırılmasında əhəmiyyətli rol oynamışdır. Süni intilekt, şirkətləri fermerlərə əkin sahələrindəki mövcud vəziyyəti qiymətləndirməyə və istehsal dövrünün hər mərhələsini izləməyə kömək edir. Süni intellektə əsaslanan texnologiyalar əkinçilik sektorunu dəyişdirir: bir fermerin öz təsərrüfatındakı vəziyyəti qiymətləndirməsi üçün artıq onun orada fiziki varlığı vacib deyil, peyklərdən və PUA-dan alınan məlumatlara etibar edə bilər. süni intellektə əsaslanan texnologiyalar vaxtında qəbul edilmiş qərarları əsaslandırmaq və monitorinq sistemlərinin gecə-gündüz fəaliyyətini təmin etmək üçün proqnozlaşdırıcı modelləşdirməyə əsaslanan mənbələrin istifadəsini optimallaşdırmağa qadirdir. Kənd təsərrüfatı robotları (“aqrobotlar”) yaxın gələcəkdə kənd təsərrüfatına son dərəcə güclü təsir göstərə bilər. Artıq bu gün tarla aqrobotları fermerlərə su istehlakının ölçülməsində və suvarmanın optimallaşdırılmasına kömək edir. Yüngül kiçik robotlar ağır traktorları əvəz edə bilər ki, bu da torpağın sıxılmasını tədricən azaldacaq, hava ilə doyma qabiliyyətini bərpa edəcək və səmərəliliyini artıracaqdır [7.s.15].

FAO tərəfindən hazırlanmış “EMA-İ” baytar həkimlərinə heyvan xəstəlikləri ilə bağlı real vaxt rejimində yüksək keyfiyyətli məlumat təqdim etməyə imkan verən erkən xəbərdarlıq tətbiqidir. Tətbiq, Qlobal Heyvan Xəstəlikləri Məlumat Sisteminə (EMPRES i) inteqrasiya olunur ki, bu da məlumatların ölkələr tərəfindən etibarlı şəkildə saxlanılmasını və istifadəsini təmin edir. “EMA-İ” milli heyvan xəstəlikləri hesabat sistemləri ilə olduqca uyğundur. Tətbiq milli nəzarət və real vaxt rabitəsini dəstək-

ləyir, heyvan xəstəlikləri üçün erkən xəbərdarlıq və cavab sistemlərini yaxşılaşdırır, bununla da qida təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli dərəcədə müsbət təsirlər göstərir. “EMA-İ” hazırda altı Afrika ölkəsində - Qana, Gine, Fil Dişi Sahili, Lesoto, Tanzaniya və Zimbabvedə istifadə olunur.

MYCROP kənd təsərrüfatının planlaşdırılması və idarəedilməsi sistemidir. MyCrop, məhsuldarlığı, gəlirliliyi artırmaq və beləliklə həyat səviyyəsini yüksəltmək üçün fermerlərə məlumat, təcrübə və resurslar təqdim edərək gücləndirməyə yönəlmiş bir texnologiya əsaslı təşəbbüsdür. Bu, qabaqcıl texnologiyalara (böyük məlumatlar bazası, müasir texnoloji avadanlıqlardan istifadə bacarıqlarına yiyələnmə, smartfonlar, tabletlər və s.), yeni iş modellərinə əsaslanan kiçik sahibkarlar üçün məhsul istehsalı və xidmətlər sahəsində bir əməkdaşlıq platformasıdır. MyCrop, fermerlərə optimal qərarlar qəbul etməyə və onları həyata keçirməyə kömək edir: bu platforma ərazini xəritələşdirməyə, məhsul seçimini planlaşdırmağa, fərdi təsərrüfatlar üçün iş planları qurmağa və hava şəraiti, torpağın keyfiyyəti, xəstəliklər, zərərvericilər və bitkilər və s. qiymətləndirməyə imkan verir. Həmçinin MyCrop-geniş məlumat bazasına əsaslanan,dayanıqlı,intelektual,-real vaxt rejimində əməkdaşlığa əsaslanan, proaktiv analiz və monitorinqi təmin edən, qəbul edilmiş qərarları əsaslandıran və elektron ticarət (xammal və hazır məhsulların alqı-satqısı) üçün bir müstəvi rolunu oynayan təsərrüfat platformasıdır.

Ümid edək ki, önümüzdəki illərdə rəqəmsal həllərin tətbiqi ölkəmizdə kənd təsərrüfatının inkişafına ciddi təsir göstərəcək: məhsuldarlığın, kənd təsərrüfatı müəssisələrinin gəlirliliyinin artmasına səbəb olacaq texnoloji bir sıçrayışı təmin edəcəkdir. Buna baxmayaraq, yeni texnologiyaların hər yerdə geniş yayılması barədə danışmaq hələ tezdir. Respublikamızda rəqəmsallaşma nailiyyətlərindən istifadə edən müəssisələrin sayı hər il artmaqdadır, lakin istehsalın bütün mərhələlərində həssas əkinçilik sistemlərini tətbiq edən müəssisələrimiz demək olarki, yoxdur. Bu istiqamətdə işlərə yeni başlanılır. Bu yaxınlarda respublikamızda aqrar sektorun rəqəmsallaşması istiqamətində növbəti mühüm addım atılıb. "Aqroservis” (keçmiş Aqrolizinq) Açıq Səhmdar Cəmiyyəti tərəfindən fermer və mexanizatorlar arasında kommunikasiyanı həyata keçirən “AgroUber” mobil tətbiqi yaradılıb və təqdimatı keçirilib. Android platformasında fəaliyyət göstərəcək bu mobil tətbiq müxtəlif aqroxidmətlər üzrə fermerlər və mexanizatorlar arasında onlayn platforma üzərindən əlaqələndirməni təmin edəcək. Hazırda aqrar sektorun bu tip rəqəmsal həllərə ciddi ehtiyacı var. Hazırda fəaliyyət göstərən Elektron Kənd Təsərrüfatı İnformasiya sistemi - eAgro sistemi daha çox Nazirliyin öz daxili fəaliyyətini qurmağa, nazirliyə effektiv qərarlar qəbul etməyə kömək edirdi. Əslində, bu resursun özünün təkmilləşdirilməsinə ciddi ehtiyac var, sistemin yenilənməsi ləng aparılır, qanunvericilikdəki dəyişikliklər burada öz əksini gec tapır, bəzən isə sistemdəki elektron müraciətdən yerli DAİM qurumların ümumiyyətlə xəbəri olmur”. Təəssüf ki, aqrar prosesin birbaşa iştirakçılarına, fermerlərə, aqrar mütəxəssislərə və işçilərə fayda verəcək rəqəmsal resurslar isə indiyədək hazırlanmayıb. AgroUber rəqəmsal həlli isə məhz birbaşa proses iştirakçılarına yönəlib, bu resurs müxtəlif aqroxidmətlər üzrə fermerlər və mexanizatorlar arasında onlayn platforma üzərindən əlaqələndirməni təmin edəcək. Həmçinin bu resursla fermer istənilən mövsümdə müvafiq aqrotexniki xidmətlər üzrə axtarış aparmaq imkanı qazanır. Proqram fermerin seçiminə uyğun olaraq mexanizatoru təyin edir və sifarişi formalaşdırır, fermerlərin birbaşa mexanizatorlara çıxışını təmin edilir və vahid mexanizator bazası yaradılır. AgroUber-lə ilkin tanışlıqda belə qənaətə gəlmək olar ki, resursun təkmilləşdirilməsinə, ciddi tanıtım və marketinq işlərinin təşkilinə, hər bir fermerin telefonunda bu resursun olması və datanın formalaşması üçün, rəqəmsal savadlılığın artırılması üçün nazirliyin yerli DAİM və digər qurumları tərəfindən dəstək tədbirlərinin aparılmasına ciddi ehtiyac vardır [8].

**Aqrar sahədə rəqəmsallaşmanın əsas xüsusiyyətləri**

Müasir fermerlər yalnız kənd təsərrüfatı ilə məşğul olan şəxslər deyil, onlar eyni zamanda biznes planları hazırlayan, maliyyə axtaran və elmi konfranslara qatılan sahibkarlardır. Dünyada aqrar biznes inkubatorları getdikcə daha çox populyarlaşır və rəqəmsal dövr əkinçiliyin qlobal inkişafı, müxtəlif ölkələrdən olan sahibkarların əməkdaşlığı və kənd təsərrüfatında yeniliklər mübadiləsi üçün böyük imkanlar açır. Kənd təsərrüfatı sahəsində son

zamanların ən maraqlı yenilikçi fikirlərindən ibarət bir seçim təqdim edirik.

Bu gün dünyada kapitallaşması 1 milyard dollardan çox olan, böyük bir biznesə çevrilən kənd təsərrüfatı startaplarının sayı 200-dən çox deyildir. Onlar əsasən İnternet resurslarından, avadanlıqlardan və texnoloji araşdırma vasitələrindən istifadə edərək proqram təminatı, sensorlar, hava görüntüləri (aerokosmik görüntü vasitələri) , paylayıcı kanalları hazırlayırlar. BMT-nin FAO ekspertlərinin fikrincə, kənd təsərrüfatı sahəsində sahibkarlığın əsas problemi ixtiraçılıq texnologiyalarının, o cümlədən rəqəmsal həllərin geniş miqyasda tətbiqi mexanizmlərinin olmamasıdır. Aqrar sahədə yaranan bir çox startaplar uğurla fəaliyyət göstərən bisnes növlərinə çevrilə bilmirlər. Kənd təsərrüfatı sektorunun rəqəmsallaşması yalnız indi geniş yayılır və sahibkarlar bazarlarda biznes strategiyalarının miqyasını genişləndirmək təcrübəsini hələ əldə etməmişlər. Xüsusi təhsil, məsələn, kənd təsərrüfatı biznes kursları, tədqiqat və inkişafa (AR -GE) investisiya, dövlət səviyyəsində təcrübələrin inkişafı və təşviqi aqrar sektorda bu prosesləri sürətləndirə bilər. Şübhəsizdir ki, kənd təsərrüfatı işinin rəqəmsallaşdırılması kənd təsərrüfatında yeniliklərin və ixtiraların təşviqi və genişləndirilməsi üçün unikal imkanlar yaradır. Kənd təsərrüfatı üçün kütləvi şəkildə tətbiq olunan bir texnologiya olmaq şansı olan bəzi rəqəmsal fikirlər diqqət çəkir.

Birincisi, IoT platformalarıdır. IoT şəbəkələri məlumatları sensorlardan aqrobiznesə nəzarət mərkəzlərinə ötürmək üçün istifadə olunur. Bu şəbəkələr qeyri -sabit mobil əhatə dairəsi olan ucqar bölgələrdə istifadə edilə biləcəyi üçün mobil şəbəkələrlə rəqabət aparır. Belə şəbəkələrdəki sensorlar bir neçə il bir batareya şarjı ilə işləyir. IoT şəbəkələrinin yerləşdirilməsinin dəyəri ənənəvi mobil şəbəkələrdən bir qədər aşağıdır. Və spektrin lisenziyasız hissəsinin istifadəsi IoT baza stansiyasını 2G / 3G / 4G şəbəkəsindən daha sürətli yerləşdirməyə imkan verir. Belə stansiyalardan biri bir neçə on kilometrlik ərazini əhatə edə bilər. Məsələn, xərclərin əsas hissəsinin isitməyə xərcləndiyi və qənaət olunan hər bir istilik vahidinin vacib olduğu böyük istixana təsərrüfatlarında bu cür məlumat ötürmə sistemləri əvəzolunmazdır. Bu texnologiyadan istifadə edildikdə, istixana içərisində iqlimin vəziyyəti (temperatur, rütubət, işıqlandırma və s.) haqqında məlumatlar sensorlardan idarəetmə mərkəzinə ötürülür.

İkincisi, rəqəmsal olaraq idarə olunan konteyner təsərrüfatlarıdır. Belə bir fermanın iş modulu işıqlandırma, suvarma sistemi və su təchizatı ilə təchiz edilmiş 40 futluq dəniz konteyneridir. Belə bir təsərrüfat toxumla "doldurula" bilər və dəmir yolu ilə ölkənin istənilən nöqtəsinə göndərilə bilər, burada şəbəkəyə qoşulacaq və əkinnin inkişafı prosesinə başlanılacaq. Belə bir modula ehtiyacı olan hər şey, torpağın nəmliyi, su təchizatı və hava istiliyi haqqında məlumatları operatora ötürmək üçün enerji təchizatı və mobil əlaqədir. Belə bir fermanın münbit torpağa ehtiyacı yoxdur, sözün əsl mənasında bir qayaya yerləşdirilə bilər. Gündəlik qulluq da tələb olunmur - başqa bir şəhərdə ola biləcək operator sizə su ehtiyatını doldurmalı və ya məhsul yığmalı olduğunuzu bildirəcəkdir. Nəhayət, məhsul yığıldıqdan sonra konteyner yenidən "doldurulmağa" göndərilə bilər. Yerli tərəvəz, meyvə və göyərti istehsalına olan tələbatı nəzərə alaraq, şəhər təsərrüfatları istənilən pərakəndə satıcıya, restorana və ya şəhər fermerinə fayda verəcək.

Üçüncüsü, torpağın tərkibi haqqında məlumatlara əsaslanaraq tələb olunan gübrə dozasının son dərəcə dəqiq hesablanması texnologiyasıdır. Ümumiyyətlə, bu texnika yeni deyil, amma hər il gübrələr daha "dəqiq" olur. Artıq torpağın ekspress təhlili bitkilərin inkişafının bütün mərhələlərində 25 kənd təsərrüfatı bitkisi üçün 12 qida maddəsinə olan ehtiyacı müəyyən etməyə imkan verir və proqram alqoritmləri gübrə dozasını hesablayarkən havanın temperaturu və yağıntıların miqdarını nəzərə almağa imkan verir. Bu texnologiya məhsuldarlığı 30 faiz artırır.

Dördüncü - ticarət prosesini optimallaşdıran kənd təsərrüfatı məhsullarının topdan alışı və satışı üçün nəzərdə tutulan ticarət platformalarıdır. Əlbəttə ki, bu, yalnız kənd təsərrüfatı layihəsi deyil. Əksinə, fermerlərin ehtiyaclarına uyğunlaşdırılmış bir ticarət texnologiyasıdır və uzun müddətdir digər sahələrdə istifadə olunur. Buna baxmayaraq, məhsul yetişdirmək savaşın yalnız yarısıdır, həm də qazanclı şəkildə satılmalıdır və fermerin mənfəəti ən çox bu prosesdən asılıdır. Beləliklə, bu cür platformalara böyük tələbat olacaq.

Beşincisi, kiçik fermer təsərrüfatlarının məhsulla-

rını restoran və perakəndə alıcılara xüsusi bir İT platformasından istifadə edərək çatdırmalarına kömək edən bir onlayn xidmətdir. Satıcılar üçün bir növ Uber təchizatçı qabiliyyətlərinin məcmusu. Texnologiya ixtira edilib və artıq Hindistanda tətbiq olunur. Fermerləri pərakəndə satıcılarla birbaşa əlaqələndirməklə kənd təsərrüfatı məhsullarının tədarükü üçün infrastrukturu optimallaşdırır. Hindistan təcrübəsinə əsaslanan platforma, fermerlərə gəlirlərini 20 % artırmağa imkan verir [9].

Gənc fermerlər bu gün rəqəmsallaşmada və buna görə də qlobal kənd təsərrüfatının inkişafında əsas halqadır. Bu gün aqrar sektorda ali təhsilli insanların faizi artır, sənaye intellektual hala gəlir və yenilikçi düşüncəli şəhər gənclərini cəlb edir. Həm də ekoloji cəhətdən təmiz, sağlam bir iş qurmaq məqsədi ilə aqrar sahəyə daha çox gənc gəlir. Onların kənd təsərrüfatı sahəsinə kütləvi şəkildə girməsi üçün sürətləndirilmiş təhsil proqramlarına və maliyyə dəstəyinə ehtiyacları var. Bu cür proqramlar startaplara investisiya cəlb etmək və investorlar ilə əməkdaşlıq üçün şərait yaradır.

**Kənd təsərrüfatı sektorunun rəqəmsallaşdırılması - ümumi tendensiyalar və inkişaf istiqamətləri**

Rəqəmsallaşma aqrar sektorun gələcəyini müəyyin edən əsas aspektlərdən, əsas amillərdən biridir. Almaniya Federal Kənd Təsərrüfatı Nazirliyi (BMEL), aşağıdakı əsas prinsipi rəhbər tutaraq "rəqəmsal kənd təsərrüfatı" (("Digital Farming") üçün çərçivə şərtlərinin formalaşdırılmasında fəal iştirak edir. Burada başlıca şərt rəqəmsal transformasiyanın kənd təsərrüfatı və aqrar sektor üçün hansı təsirləri olacaq və yeni imkanlar həm fermerlərə, həm ətraf mühitə, həm də istehlakçılara eyni dərəcədə fayda verməsidir. Rəqəmsal texnologiyalar müasir kənd təsərrüfatı üçün heç də yad deyil: artıq uzun illərdir ki, kompüter elmləri və elektronika onun iş prosesinin bir hissəsidir. Rəqəmsal həllər bitki mühafizə tədbirlərini həyata keçirmək və meteoroloji proqnozların hazırlanması üçün istifadə olunur. Kənd təsərrüfatı maşınları dəqiq əkinçilik üçün ağıllı texnologiyalarla təchiz edilmişdir. Tarlalarda və heyvandarlıq fermalarında bir çox iş prosesi avtomatlaşdırılmışdır. Bununla birlikdə rəqəmsallaşdırma daha da irəli gedir və informasiya axınının hərəkəti çərçivəsində müxtəlif proseslər və onların iştirakçıları arasında əlaqələr qurur ki, bunlara kənd təsərrüfatı istehsalçıları ilə yanaşı İT xidmətləri, kənd təsərrüfatı avadanlığı təminatçıları və ixtisaslaşmış məsləhətçilər də daxildir. GPS məlumatlarından ilk istifadə edən sahələrdən biri məhz kənd təsərrüfatı idi. GPS nəzarəti, uyğun kompüter proqramları ilə birlikdə traktorların və özüyeriyən kombaynların hərəkətini optimallaşdırır və yanacağa qənaət edir. Hava proqnozları, pilotsuz uçuş aparatları və digər məlumat idarəetmə sistemləri təqdim edən tətbiqlər, torpağın işlənməsi və yığım proseslərini optimallaşdırmağa kömək edir. Bulud əsaslı saxlama həlləri bitkilərin daha səmərəli və daha yaxşı gübrələməsini və qidalanmasını təmin edə bilər. Qarğıdalı silosu və ya şəkər çuğunduru yığımı kimi mürəkkəb istehsal proseslərinin real vaxt rejimində izlənməsi və birgə təşkili mümkün olur. Qidalanma robotları, süd ölçmə cihazları və ya iqlim nəzarət sistemləri heyvanların rifahına və ətraf mühitin qorunmasına əhəmiyyətli töhfə verməklə yanaşı, kənd təsərrüfatı işçilərinin işini asanlaşdırır. Sensor texnologiyasındakı yeni nəaliyyətlər heyvanların davranışlarını izləməyə və qiymətləndirməyə imkan verir. Təxminən iyirmi ildir ki, aqrobiznes sənayesi, proseslərin yaxşı istehsal təcrübələrinin tələblərinə uyğun olaraq optimallaşdırılmasını və dəqiq şəkildə həyata keçirilməsini ("dəqiq əkinçilik") və ağıllı idarəetmə ("ağıllı əkinçilik") vasitəsilə daha da təkmilləşdirilməsini təmin etmək üçün hər fürsətdən istifadə etmişdir. Traktor və qoşmanın daha səmərəli birləşməsini təmin etmək və ya optimal təchizat zəncirlərini təşkil etmək üçün aparat və proqram təminatı daim təkmilləşdirilir. Kənd təsərrüfatı istehsal vasitələrindən (məsələn, toxum, gübrə, bitki mühafizə vasitələri) istifadə edir və son istehlakçıya çatana qədər nəql və emal prosesinə nəzarət edir. Rəqəmsal vasitələrdən istifadə edərək bu material və trafik axınının göstərilməsi və uzlaşdırılmasının səmərəliliyini və şəffaflığını artıracağı, eləcə də iş şəraitini yaxşılaşdıracağı gözlənilir. Həmçinin, kənd təsərrüfatının rəqəmsallaşdırılması, davamlı qaynaq istifadəsini və heyvan və bitkilərin ehtiyaclarına uyğun olaraq diqqətli davranılmasını təmin etməklə ətraf mühitə müsbət təsir göstərə bilər.

Alman kənd təsərrüfatı kiçik və böyük müəssisələr də daxil olmaqla müxtəlif istehsal strukturları ilə seçilir. Bəzi müəssisələr üçün kənd təsərrüfatı

fəaliyyəti əsas, digərləri üçün əlavə gəlir mənbəyidir və bütün bunlar əsasən kənd bölgələrindədir. Kənd yerlərində rəqəmsal texnologiyaların daha geniş yayılması üçün aşağıdakı şərtlər yerinə yetirilməlidir: rəqəmsal infrastrukturun davamlı genişləndirilməsinə hədəflənmək (5G), yeni yaradılan müxtəlif interfeyslərin və proqram məhsullarının standartlaşdırılması, təlim və konsaltinq, çünki fermerlər İT mütəxəssisi deyillər və bu sahəyə qoyulan investisiyalarla bağlı qərar qəbul etmək üçün yaxşı məlumat bazasına malik olmalıdırlar, avadanlıqların etibarlılığının artırılması, kənd təsərrüfatının rəqəmsallaşmasının təsirlərini qiymətləndirən əlavə tədqiqatlar, məlumatların qorunmasının hüquqi tənzimlənməsi, onun təhlükəsiz saxlanılması və informasiya suverenliyi, habelə digər əsas şərtlərin müəyyən edilməsi (məsələn, dronların istifadəsi ilə bağlı qaydaların və şərtlərin tətbiqi).

**Nəticə**

Mütəxəssislər hesab edirlər ki, yeni texnologiyaların istifadəsi tarixən mövcud olmuş kənd təsərrüfatı peşələrinin yox olmasına gətirib çıxara bilər, lakin bu, yeni məşğulluq sahələrinin yaranması ilə kompensasiya olunacaq. Mannheimdəki Avropa İqtisadi Araşdırmalar Mərkəzinin alimləri, Almaniyada işləyənlərin 42% -nin təxminən 20 il ərzində ya avtomatlaşdırılmış, ya da rəqəmsal hala gətirilə bilən işlərlə məşğul olduğunu təsbit etdi. Kənd təsərrüfatı müəssisələri ilə bağlı sual yaranır - rəqəmsallaşmanın istehsal strukturlarına təsiri varmı və kənd təsərrüfatı istehsalında iş yerlərinin mövcudluğunu təhdid edirmi ? Orta və kiçik kənd təsərrüfatı müəssisələri üçün rəqəmsallaşmanın faydalarının qiymətləndirilməsi fərqlidir. Almaniya Federativ Respublikasının Kənd Təsərrüfatı Nazirliyi mütəxəssislər və sənaye nümayəndələri ilə əməkdaşlıq edərək, kənd təsərrüfatının rəqəmsallaşdırılması prosesini aktiv şəkildə dəstəkləmək üçün altı istiqaməti müəyyənləşdirdi: Kənd təsərrüfatı müəssisələrində təcrübə sahələrinin təşkili,Kənd təsərrüfatının rəqəmsallaşdırılması sahəsində yetkililik mərkəzinin ("Competence Center") yaradılması, Federal Kənd Təsərrüfatı Nazirliyinin, siyasi dairələrin (Almaniya Bundestaqının deputatları), federal əyalətlərin tabeliyində olan tədqiqat təşkilatlarının və yuxarıda göstərilən yetkililik mərkəzinin nümayəndələrindən ibarət "idarəetmə komitəsi" nin formalaşdırılması, Federal Kənd Təsərrüfatı Nazirliyinə AB və beynəlxalq səviyyələrdə əməkdaşlıq üçün səlahiyyət və resursların verilməsi, kənd infrastrukturunun inkişafı, Coğrafi məlumatların, meteoroloji və istehsal vasitələri haqqında məlumatların toplanması.

Bu istiqamətlər arasında əsas üstünlük biliklərin idarə edilməsi və ötürülməsinə verilir.Təsərrüfatlararası rəqəmsal həllər xüsusilə kiçik müəssisələr üçün faydalı ola bilər. Aktiv siyasi iştirak isə, risklərin vaxtında müəyyən edilməsi və qarşısının alınması ilə rəqəmsallaşma potensialından optimal şəkildə istifadə olunmasını təmin etmək üçün nəzərdə tutulmuşdur. Bu da uzun müddətli perespektivdə Almaniyanın kənd təsərrüfatı sektorunun güclənməsinə kömək edəcək.

**ƏDƏBIYYAT SİYAHISI**


*1. Alıyev İ.H., İbadov S.A. və s. Azərbaycan iqtisadiyyatı, Bakı.: Ağrıdağ, 1998, 396 s.*

*2. Əliyev A.Ə., Şəkərəliyev A.S. Bazar iqtisadiyyatının əsasları, Bakı: Elm, 2002, 265 s.*

*3. Abdullayev K.N. Regional təhlükəsizliyin təmin olunmasında "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizinin rolu // Şəxsiyyət, Cəmiyyət, Dövlət: Qarşılıqlı münasibətlərə müasir yanaşmalar (Respublika elmi konfransının materialları), Azərbaycan Respublikası Təhsil Nazirliyi, Mingəçevir Dövlət Universiteti , Mingəçevir.: MİQ poliqrafiya nəşr. 2019, s.304-305*

*4. Волгина Н.А. Международная экономика, Москва.: Эксмо, 2010, 480 с.*

*5. Rəqəmsal texnologiyalar kənd təsərrüfatı və kənd yerlərinin xidmətində [Elektron resurs] / Kənd təsərrüfatı xəbərlərinə həsr olunmuş internet portal, 17.01.2020-https://agrovesti.net/lib/industries/tsifrovye-tekhnologii-na-sluzhbe-selskogo-khozyajstva-i-selskikh-rajonov.html*

*6. Алетдинова А.А. Инновационное развитие аграрного сектора на основе цифровизации и создания технологических платформ // Инновация: электронный научный журнал. 2017. №4 (33). – с. 22.*

*7. Афонина В.Е. Влияние цифровизации на развитие аграрного сектора экономики //МСХ. 2018. №3. – с. 15-17.*

*8. Statistik məcmuələr [Elektron resurs] / Azər-*

*baycan Respublikasının Dövlət Statistika Komitəsi, 2022 - https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/*

*9. Kənd təsərrüfatına xidmət edən rəqmital texnologiyalar [Elektron resurs] / Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Roma, 2019 http://www.fao.org/3/ca4887ru/ca4887ru.pdf*

## XÜLASƏ

**Tədqiqatın məqsədi** - müasir bazar iqtisadiyyatı şəraitində aqrar sahənin inkişafının təmin olunmasında rəqəmsal fəaliyyətinin rolunu dəyərləndirmək, onun səmərəli inkişaf istiqamətlərini müəyyən etməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası** – sistemli və kompleks təhlil əsasında, aqrara sahə üzrə rəqəmsallaşma fəaliyyətinin qiymətləndirilməsinə metodoloji yanaşmalar və bu istiqamətdə beynəlxalq təcrübəsinin mühüm prinsiplərindən, müxtəlif tədqiqatçıların elmi əsərlərində verilmiş elmi müddəalardan ibarətdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – tədqiqatda alınmış nəticələrdən, irəli sürülən təkliflərdən aqrar sahə üzrə rəqəmsal fəaliyyətin inkişafı və idarə edilməsi mexanizimlərinin təkmilləşdirilməsində, regionların sosial-iqtisadi inkişafının təmin edilməsində istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** – regionlarda sosial-iqtisadi inkişafın təmin olunmasında aqrar sahə üzrə rəqəmsal fəaliyyətin inkişafına və formalaşdırılmasına dair yeni yanaşmaları qiymətləndirmək, səmərəli tövsiyə və təkliflər hazırlamaqdan ibarətdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – ölkə regionlarında aqrar sahə üzrə rəqəmsal fəaliyyətin inkişaf etdirilməsinin mümkün potensialları araşdırılmış, mövcud problemlərə müəllif yanaşmaları əsasında qiymətləndirmələr aparılmışdır. Məqalədə ölkə üzrə rəqəmsallaşma fəaliyyətinin mövcud vəziyyəti təhlil olunmuş, yaranmış problemlərin həlli istiqamətində təklif və tövsiyələr irəli sürülmüşdür.

**Açar sözlər:** *rəqəmsallaşma, sahibkarlıq, informasiya texnologiyaları, islahatlar, iqtisadi inkişaf, milli iqtisadiyyat, investisiya, region*

**Фамил Вели оглы Рустамов**
**Д.ф.э., Институт Экономики НАНА**

## ОСНОВНЫЕ ОСОБЕННОСТИ ЦИФРОВИЗАЦИЯ В АГРАРНОЙ СФЕРЕ В СОВРЕМЕННЫХ ЭКОНОМИЧЕСКИХ УСЛОВИЯХ

## РЕЗЮМЕ

**Цель исследования** - оценить роль цифровой деятельности в обеспечении развития аграрной сферы в условиях современной рыночной экономики, определить направления ее эффективного развития.

**Методология исследования** – базируется на системном и комплексном анализе. Применяется научный подход к оценке деятельности по цифровизация аграрной сферы. Изучаются и оцениваются позиции различных авторов, изложенных в научных работах, а также международных опыт в этой области.

**Прикладная значимость исследования** – заключается в том, что полученные в ходе исследования результаты, выдвинутые предложения могут быть использованы для совершенствования механизмов развития и управления цифровой деятельностью в аграрной сфере, обеспечения социально-экономического развития регионов.

**Результаты исследования** - оценка новых подходов к формированию и развитию цифровой деятельности в аграрной сфере для обеспечения социально-экономического развития в регионов, разработка эффективных рекомендаций и предложений.

**Оригинальность и научная новизна работы** – состоит в том что исследован потенциал развития цифровой деятельности в аграрной сфере в регионах страны, проведена оценка позиций различных авторов к существующим проблемам. В статье проанализировано текущее состояние цифровизации в аграрной сфере, выдвинуты предложения и рекомендации по решению возникших проблем.

**Ключевые слова:** *цифровизация, предпринимательство, информационные технологии, экономические реформы,*

*экономическое развитие, национальная экономика, инвестиции, регион.*

**Famil Vali oglu Rustamov**
**Ph.D in economnics, Institute of Economy of ANAS**

## MAIN FEATURES OF DIGITALIZATION IN AGRICULTURE UNDER THE MODERN ECONOMIC CONDITIONS

### SUMMARY

**The purpose of the study** - is to assess the role of digital activity in ensuring the development of the agricultural sector in a modern market economy, to determine its effective development.

**The methodology of the research** is based on systematic and complex analysis, methodological approaches to the assessment of digitalization activities in the agricultural sector and important principles of international experience in this area, scientific provisions in the scientific works of various researchers.

**The practical importance of the research** - the results obtained in the study, the proposals put forward can be used to improve the mechanisms of development and management of digital activities in the agricultural sector, to ensure the socio-economic development of the regions.

**The results of the research** - are to evaluate new approaches to the development and formation of digital activities in the agricultural sector in ensuring socio-economic development in the regions, to develop effective recommendations and proposals.

**Originality and scientific novelty of the research** - possible potentials for the development of digital activities in the agricultural sector in the regions of the country were studied, assessments were made on the basis of the author's approaches to existing problems. The article analyzes the current state of entrepreneurial activity in economic regions, makes suggestions and recommendations to solve the problems.

**Key words:** *digitalization, entrepreneurship, information technologies, economic reforms, economic development, national economy, investment, region.*

UOT 332. 146.2

# AZƏRBAYCANDA YENİ İQTİSADİ RAYONLAŞMA VƏ REGİONAL İQTİSADİ POTENSİALIN FORMALAŞMASI REALLIQLARI

**VÜQAR İBRAHİMLİ**
*Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant*

*E-mail: vuqaribrahimli179@gmail.com*

## Giriş

Azərbaycan iqtisadiyyatının mövcud vəziyyəti və gələcək inkişafı strateji milli maraqların təmin edilməsi istiqamətlərinin reallaşmasından asılıdır. Bu istiqamətlər sırasında cari iqtisadi resurs potensialından effektiv və qənaətlə istifadənin təmin edilməsində mühüm əhəmiyyət kəsb edən sahibkarlıq subyektləri potensialının reallaşdırılması xüsusi rola malikdir. Xüsusilə bu, Azərbaycan reallığında özünü daha qabarıq göstərir. Hər bir ölkənin ən vacib strateji hədəfinin gerçəkləşməsində sahibkarlıq fəaliyyətinin intensiv inkişafı ölkə iqtisadiyyatında rəqabətə davamlı məhsul istehsalı üzrə sabit artım templərinə, əhalinin yaşayış səviyyəsinin və keyfiyyətinin yüksəlməsinə, fərqli fəaliyyət səviyyələrinin sabitliyinə, yüksək məhsuldarlıqlı iş yerlərinin yaradılmasına gətirib çıxarır.

Yuxarıda qeyd edilən məqsəd bir çox qarşılıqlı əlaqəli məsələlərin həllini tələb edir ki, bunlardan biri də ölkə ərazisindəki fərqli bölgələrin, o cümlədən Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yaradılmış 2 yeni iqtisadi rayonun inkişafının təmin olunmasında sahibkarlıq subyektlərinin potensialından düzgün istifadə etməkdən, eləcə də hər bir bölgə üzrə sosial-iqtisadi və məkan inkişafının prioritet istiqamətini düzgün seçməkdən ibarətdir.

Bölgələrin sosial-iqtisadi inkişafını təmin etmək üçün qəbul edilən proqramların əsasında mürəkkəb struktura malik olan, habelə reallaşması müəyyən çətinliklərlə xarakterizə edilən sosial-iqtisadi potensialın inkişafı dayanır. Xüsusilə, bölgənin iqtisadi inkişafının müsbət dinamikası azad rəqabət şəraitində fəaliyyət göstərən kiçik və orta sahibkarlıq (KOS) subyektlərinin fəaliyyətindən asılıdır. Başqa sözlə desək, bölgənin sosial-iqtisadi inkişafında müsbət tendensiyanın təmin edilməsi KOS-un effektiv dəstəyi, antiinhisar tədbirlər və istehlakçıların qorunması sayəsində mümkündür.

## 1. Azərbaycanda iqtisadi rayonların yenidən formalaşdırılmasının strateji əhəmiyyəti və xarakterik cəhətləri

Azərbaycan Prezidenti İlham Əliyev son dərəcə mürəkkəb bir şəraitdə əhəmiyyətli bir fərmanı imzalamaqla yeni iqtisadi rayonlaşmanın formalaşmasını müəyyən etmiş və ölkə iqtisadiyyatında strateji idarəetmə mexanizmlərinin yenidən qurulmasına imkan yaranmışdır. Belə ki, dövlət başçısı tərəfindən 7 iyul 2021-ci il tarixində təsdiqlənmiş fərmana əsasən Azərbaycanda yeni iqtisadi rayonlaşmanın əsası qoyuldu [1].

Həmin fərmana görə, erməni işğalından azad olunmuş Azərbaycan ərazilərinin bərpası, perspektiv inkişafının təmini, zəruri infrastrukturun qurulması, qaçqın və məcburi köçkün düşmüş ölkə əhalisinin öz doğma torpaqlarına qayıdışı yönümündə böyük miqyaslı tədbirlər görülməkdədir. Fikrimizcə, bu tədbirlərin daha əlverişli reallaşmasında yeni iqtisadi rayonlaşmanın tarixi-elmi və metodoloji baxımdan əsaslandırılması milli təhlükəsizlik kontekstində strateji aspektdən mühüm əhəmiyyət kəsb edir.

Heç kimə sirr deyil ki, Qarabağ zonası yarandığı vaxtdan etibarən özünəməxsus səciyyəvi cəhətləri və məşğulluq formaları ilə, zəngin təbii ehtiyatlar, qədim tarixi-mədəni irsə malik abidələri ilə daha çox seçilir. Qarabağ iqtisadi bölgəsinə azad olunduqdan sonra ölkəmizin mədəniyyət paytaxtı elan edilmiş Şuşa ilə yanaşı, Xankəndi şəhəri, Ağdam, Füzuli, Xocalı, Ağcabədi və Bərdə, Xocavənd, Tərtər rayonları daxil olunub.

Həm də, Qarabağın güclü iqtisadi potensialı da vardır. 1861-ci ildə dağ silsiləsi ilə əhatə olunmuş Zəngəzur mahalı yaradılmış və bu zonada hazırda Zəngəzurun Azərbaycanda yerləşən, həm də, Qarabağa birləşdirilmiş rayonların- Qubadlının, Cəbrayılın, Zəngilanın, Kəlbəcərin və Laçının adlarını çəkmək vacibdir. Qeyd edilmiş tarixi qaynaqların kontekstindən yanaşılmaqla, ərazidə iqtisadi rayonlaşma prinsiplərinin müasirləşdirilməsi və tənzimlənməsi mühüm əhəmiyyət daşıyırdı. Bu sə-

bəbdən də respublika başçısının fərmanı vurğulanan məsələləri tənzimləyərək, iqtisadi ərazilərin yenidən bölüşdürülməsini reallaşdırmaqla iqtisadiyyatda baş verən rəqabətin artırılmasına, işğaldan azad olunmuş ərazilərin respublika iqtisadiyyatına reinteqrasiyasının sürətlənməsinə, planlaşdırma-proqnozlaşdırma tədbirinin daha yaxşı təşkil olmasına imkan verəcəkdir. Bununla belə, xarici sərmayələrin daha da səmərəli formada cəlb olunması və daxili maliyyə vəsaitlərin məqsədli və əlverişli formada istiqamətləndirilməsi, yeni maliyyə sərmayələrinin formalaşdırılmasında, əlavə dəyərin sisteminin diversifikasiyalaşdırılması prosesində yeni iqtisadi ərazilərin rol və əhəmiyyəti yüksələcəkdir.

Artıq Nazirlər Kabinetinin 10 iyul 2021-ci il tarixində təsdiq olunmuş qərarı ilə "AR iqtisadi rayonların yeni bölgüsü barədə" respublika Prezidentinin 2021-ci ilin 07 iyul tarixli Fərmanının icra edilməsinin reallaşdırılması istiqamətində vacib tədbirlər icra olunmaqdadır [2]. Yəni, yeni iqtisadi bölgünün həyata keçirilməsi ilə bağlı ayrı-ayrı layihə və təkliflərin tərtib edilərək razılıq alınması və təqdimat tədbirlərinin reallaşdırılması, qəbul olunmuş qərarların qanunvericiliyə uyğun olaraq tənzimlənməsi ilə əlaqədar müvafiq işlər görülməkdədir.

**2. Azərbaycan Respublikasında yeni iqtisadi rayonların yaradılmasının tarixi-iqtisadi əsaslandırılması**

Müasir iqtisadi rayonların iqtisadi yanaşmadan əvvəl, az olsa da, tarixi həqiqətlərə toxunmaq çox vacibdir. Zəngəzurun türk mənşəli toponim sayılmaqla bərabər onun adında qeyd olunan "zəngi" sözünün leksik vahid kimi türk tayfalarına məxsus olduğunu qeyd etmək lazımdır [3].

Qafan, Gorus, Qarakilsə, Mehri, Zəngilan, Qubadlı və Laçında yerləşən ərazilər 1861-ci il tarixində yaradılmış Zəngəzur mahalında mövcud olmuş və artıq bu ərazidə XX əsrin əvvəlində 313 türk kəndi var idi və əhalisi gəlmələrdən olan iki erməni kəndi mövcud idi. Mahalın ərazisinin 7892 $km^2$ olduğunu qeyd etməliyik. Qüdrətli Azərbaycan ordusunun Böyük Qarabağ Zəfərindən sonra bu bölgənin 4505,5 $km^2$ ermənilərdən təmizlənmişdir. Qeyd olunan ərazilərdə Zəngilan, Qubadlı və Laçın rayonu yerləşir. Buna baxmayaraq, təəssüflə qeyd etməliyik ki, bir əsrdən çoxdur ki, Qafan, Gorus, Qarakilsə və Mehri rayonları (bu ərazilərimiz Zəngəzurun qərb tərəfində yerləşir) hələ də işğaldan azad olunmayıb. Tarixə nəzər yetirdikdə görə bilərik ki, ADR-nı süquta yetirən və ölkəmizi işğal altında saxlayan bolşeviklərin təzyiq etməsi və dekabr 1920-ci ilin dekabrında qəbul edilən qərara görə Zəngəzurun Ermənistana verilməsi reallaşdı[4].

SSRİ vaxtı "Zəngəzur" toponimi erməni işğalçıları tərəfindən xəritədən silinməyə çalışılırdı və bu ərazidə yeni rayonlar yaradılaraq Zəngəzurun yaddan çıxarılmasına nail olduqlarına onlarda inam yaranmışdı. Bununla belə, tarixi ədalətin öz yerini tutduğunu, xalqımız dədə-baba ərazilərini heç vaxt unutmadığını və Zəngəzur qəzasının şərqinin işğaldan azad olunaraq, hər bir dövlətlərə öz torpaqlarımız və yurdlarımıza sahib çıxmağımızı göstərdiyimizi qeyd etməliyik. Ona görə də Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması həmçinin, tarixi ədalətin bərpa edilərək qiymətləndirilməsi kimi qəbul edilməlidir. İqtisadi rayonların yenidən bölüşdürülməsi respublikada iqtisadi inkişafın nizamlanması üçün ən doğru addımdır və bunun da iqtisadi konsentrasiyanın daha az bir zamanda formalaşmasına şərait yaradacağı şübhəsizdir[5].

**3. Ölkənin işğaldan azad edilmiş bölgələrinin sosial-iqtisadi inkişafına yeni iqtisadi rayonlaşmanın təsiri**

Qeyd edilməlidir ki, yeni iqtisadi rayon bölgüsü tezisi bütövlükdə ölkənin bütün ərazisi boyunca iqtisadi stimullaşdırmanın artırılmasına və dövlət sərmayələrinin əlverişliliyinin yüksəldilməsinə, respublika bölgələrində sahibkarlıq və biznesin inkişaf etdirilməsinə, sosial-iqtisadi müstəvidə inkişafın sürətləndirilməsinə, vətəndaşların qazancının diversifikasiyalaşdırılmasına və yaşam səviyyəsinin daha da yaxşılaşdırılmasına əlavə stimul verəcəkdir. Əsasən də, indiki qlobal təhdidlərin və COVID-19 pandemiyasından yaranan problemlər qarşılığında iqtisadi sektorların fəaliyyətinin tez vaxtda bərpası, iqtisadi çatışmazlığın minimuma endirilməsi və əlverişliliyinin gücləndirilməsi cəhətdən daha geniş perspektivlər vəd etməkdədir. Digər tərəfdən, iqtisadi rayonların bölgüsünün yenilənməsi və müasir iqtisadi rayonların formalaşdırılması Vətən müharibəsində qazanılan Zəfərdən sonra meydana çıxan obyektiv gerçəklikləri özündə ehtiva edir [6].

Belə ki, ölkənin işğaldan azad edilmiş bölgələrində iqtisadi və təsərrüfat dövriyyələrinə cəlb edilməsi iqtisadi rayonlaşmanın yenilənməsini, əlverişli

qüvvə və mənbələrin daha dürüst, səmərəli yerləşdirilməsi və bölgüsünü vacib edir. Hər bir iqtisadi rayonun özünə aid olan ixtisaslaşma cəhəti və xüsusiyyətləri vardır. Burada müxtəlif ünsürlərin, həm də, coğrafi, təbii və təsərrüfat ünsürlərinin daha çox diqqət çəkdiyini qeyd etmək olar. Vətəndaşlarımızın məşğulluq özəlliyi, adəti və ənənələri, milli tərkibi də vacib amillərdəndir [7].

İqtisadi rayonların əvvəlcədən müəyyənləşdirilmiş formada və nizamlı formada idarə edilməsi, burada tələb olunan qabaqcıl layihələrinin formalaşdırılması və yerinə yetirilməsi, ölkə tərəfindən maliyyə-investisiya mexanizmlərinin yerinə yetirilməsi və tətbiq olunması, başqa maliyyə qaynaqlarının inkişaf etdirilməsi üçün əlverişli mühitin formalaşması, vətəndaşların məşğulluğunun təmin olunması və iqtisadi fəallığının gücləndirilməsi, sosial infrastrukturun möhkəmləndirilməsi, istehsal və kommersiya strukturunun təmin edilməsi, sahibkarlığın stimullaşdırılması və biznes mühitinin əlverişli olmasına nail olunması mühüm əhəmiyyətə malikdir.

**4. Müasir şəraitdə Azərbaycanın regionlarında mövcud sahibkarlıq subyektlərinin imkanlarının qiymətləndirilməsi**

Dövlət Statistika Komitəsinin məlumatları göstərir ki, Azərbaycanda fəaliyyətdə olan 316,4 min mikro, kiçik və orta sahibkarlıq subyektlərinin 2,75%-i və ya 8,7 mini KOS-un payına düşür. 2019-2020-ci illərdə Azərbaycanda fəaliyyət göstərən KOS subyektlərinin dinamikasına diqqət etsək, aydın olar ki, 2019 və 2020-ci illərdə ölkədə KOS-ların sayı müvafiq olaraq 8682 və 8653 vahid olub ki, bu da cüzi azalmadan xəbər verir.

Cədvəl 1-in məlumatlarına əsasən, 2020-ci ildə KOS subyektlərinin xüsusi çəkisi 2019-cu illə müqayisədə daha 0,5% azalaraq 2,7%-ə bərabər olmuşdur. KOS subyektlərinin xeyli hissəsi (70%-ə yaxını) Bakı şəhərində cəmlənmişdir. Bununla yanaşı, KOS subyektlərinin sayı 2020-ci ildə 2019-cu ilə nisbətən 2,1% artaraq 65,3%-dən 67,4%-ə yüksəlmişdir. KOS-ların 6,7%-i Abşeron-Xızının, 3,3%-i Naxçıvan MR-in, hərəsi 2,8% olmaqla Şəki-Zaqatala və Mərkəzi Aran, 2,6%-i Gəncə-Daşkəsən, 2,5%-i Lənkəran-Astara, hərəsi 2,3% olmaqla Qazax-Tovuz və Quba-Xaçmaz, 2,1%-i Şirvan-Salyan, hərəsi 1,9% olmaqla Qarabağ və Mil-Muğan iqtisadi rayonlarının payına düşür.

**Cədvəl 1**

**Azərbaycanda fəaliyyət göstərən KOS subyektlərinin onun iqtisadi rayonlar üzrə bölgüsü**

| | **2019** | | | **2020** | | |
|---|---|---|---|---|---|---|
| | **Cəmi** | **o cümlədən** | | **Cəmi** | **o cümlədən** | |
| | | Kiçik | Orta | | Kiçik | Orta |
| Ölkə üzrə cəmi | 8682 | **5956** | **2726** | 8653 | **5943** | **2710** |
| Bakı **şəhəri** - cəmi | 5672 | 4026 | 1646 | 5830 | 4130 | 1700 |
| Naxçıvan MR | 288 | 168 | 120 | 285 | 167 | 118 |
| Abşeron-Xızı | 550 | 365 | 185 | 577 | 394 | 183 |
| Dağlıq **Şirvan** | 115 | 75 | 40 | 101 | 65 | 36 |
| Gəncə-Daşkəsən | 243 | 157 | 86 | 222 | 130 | 92 |
| Qarabağ | 189 | 133 | 56 | 165 | 114 | 51 |
| Qazax-Tovuz | 208 | 133 | 75 | 197 | 133 | 64 |
| Quba-Xaçmaz | 223 | 140 | 83 | 197 | 124 | 73 |
| Lənkəran-Astara | 232 | 151 | 81 | 213 | 141 | 72 |
| Mərkəzi Aran | 267 | 174 | 93 | 237 | 158 | 79 |
| Mil-Muğan | 182 | 115 | 67 | 164 | 101 | 63 |
| **Şəki-Zaqatala** | 272 | 164 | 108 | 242 | 147 | 95 |
| **Şərqi** Zəngəzur | 41 | 31 | 10 | 43 | 28 | 15 |
| **Şirvan-Salyan** | 200 | 124 | 76 | 180 | 111 | 69 |

**Mənbə:** *www.azstat.org*

İqtisadi bolgələrdə sabit və dinamik inkişafı təmin etmək məqsədilə iqtisadi fəaliyyətin modelləşdirilməsi və sahibkarlığın genişləndirilməsi ölkə siyasətinin əhəmiyyətli istiqamətlərindən biri kimi çıxış edir. Nümunə olaraq qeyd edək ki, Sahibkarlığın İnkişafı Fondunun vəsaitini əlverişli yerləşdirmək üçün iqtisadi rayonlara görə üstün istiqamətlər müəyyənləşdirilmişdir və qeyd edilən istiqamət üzrə maraqlı, eləcə də potensial sərmayədarların cəlbi tələb olunur [8].

Fikrimizcə, yaxın müddət ərzində yeni yaradılmış iqtisadi rayonlarda prioritet texnologiyalar perspektivli iqtisadi sahələrin gələcək iqtisadi artımı, sahibkarlığın stimullaşdırılması üçün daha səmərəli fəaliyyət mexanizminin işlənib hazırlanması təmin ediləcəkdir. Bunlara çevik və mütərəqqi texnologiyaları təmsil edən istehsal və emal sektorlarının formalaşması, kreativ və qənaətcil xidmət müəssisəsinin fəaliyyətinin düzgün təşkilini aid etmək olar. Bütün sadalananlar yeni yaradılmış iqtisadi rayonlarda iqtisadi-sosial inkişafın daha dinamik və məhsuldar olduğuna dəlalət edir.

Qarabağ iqtisadi rayonu üzrə fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq müəssisələrinin bölgüsündən məlum olur ki, bu tip müəssisələrin

təqribən 40%-i Bərdə rayonunda və 21%-i Ağcabədi rayonunda olsa da, orta sahibkarlıq müəssisələrinin sayına əsasən Tərtər rayonunun (11) da əsas yerlərdən birini tutduğunu qeyd etmək lazımdır (Cədvəl 2).

**Cədvəl 2**

**Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin Qarabağ iqtisadi rayonu üzrə bölgüsü**

| | 2019 | | | 2020 | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | o cümlədən | | Cəmi | o cümlədən | |
| | | Kiçik | Orta | Mikro | Kiçik | Orta |
| Ölkə üzrə cəmi | 8682 | **5956** | **2726** | 8653 | **5943** | **2710** |
| **Qarabağ** | 189 | 133 | 56 | 165 | 114 | 51 |
| Xankəndi şəhəri | - | - | - | - | - | - |
| Ağcabədi rayonu | 38 | 27 | 11 | 26 | 15 | 11 |
| Ağdam rayonu | 28 | 22 | 6 | 25 | 17 | 8 |
| Bərdə rayonu | 52 | 40 | 12 | 45 | 35 | 10 |
| Füzuli rayonu | 33 | 22 | 11 | 30 | 21 | 9 |
| Xocalı rayonu | 2 | 1 | 1 | 2 | 1 | 1 |
| Xocavənd rayonu | 6 | 4 | 2 | 6 | 5 | 1 |
| Şuşa rayonu | 3 | 3 | - | 4 | 4 | - |
| Tərtər rayonu | 27 | 14 | 13 | 27 | 16 | 11 |

**Mənbə:** *www.azstat.org*

Digər tərəfdən, yeni formalaşdırılan iqtisadi rayonların siyasi və milli təhlükəsizliyi tərəfindən vacib əhəmiyyət daşıması məlum hadisədir. Bildiyimiz kimi, hazırda ölkəmizdə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” üzrə hədəflər həyata keçməkdədir. Buradan belə qənaətə gəlirik ki, bu proseslər baş verəndən sonra ölkəmizin qüdrətli dövlət kimi formalaşması imkanı daha da artacaq və milli, həm də iqtisadi təhlükəsizliyimizi daha da möhkəmləndirəcəyik. Ona görə ki, Qarabağ iqtisadi rayonunu formalaşdırmaqla, Qarabağ zonasının özü ümumilikdə bir iqtisadi-siyasi termin kimi gündəmə gələrək revanşist fikirlərə qarşı ehtiyat tədbirləri kimi qiymətləndirilə bilər. Bununla yanaşı, Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması, ölkəmizin öz dədə-baba torpaqlarını canlandıraraq inkişaf etdirmək niyyətinin daha qabarıq olduğunu bildirir. “Ərazidə sülh və təhlükəsizliyin təminatı üçün yaxşı şərait formalaşır. Ermənistanın və ya başqa revanşist-radikal ünsürlərin sülhün bərqərar olmasını seçməkdən başqa çıxış yolu olmur. Yəni, cənab İlham Əliyevin sərəncam və fərmanları strateji əhəmiyyətli, konseptual xarakter daşıyır. Qeyd olunan sənədlərin əsas məqsədi respublikanın gələcəyinin təmin edilməsi, onu bir dövlət kimi daha da möhkəmləndirməkdən ibarətdir” [9]. Bununla birgə, həyata keçirilən tədbirlərdən əlavə, ölkəmizin ərazilərində olan resurslardan istifadənin səmərəliliyi dəfələrlə arta bilər.

Son zamanlarda respublika iqtisadiyyatının 3 dəfədən çox böyüdüyünü və hər il genişləndiyini qeyd etmək lazımdır. Bölgələrimizin inkişaf çətinliklərinin həll olunması yolunda 2004-cü ildən bu tərəfə üç müəyyən istiqamətə doğru yönəldilmiş dövlət proqramı icra edilmiş və indiki zamanda 2019-2023-cü illər arasında dördüncü dövlət proqramının uğurla icra olunduğunu vurğulamaq lazımdır. Qeyd olunanlara əsasən iqtisadi rayonlar üzrə bölgünün faydalı iş əmsalını daha da çoxaltmaq imkanını reallaşdıracağının şahidi olacağıq. “Yeni bölgünün gələcək strategiya və plana əsasən reinteqrasiya faktı sayıldığını və sabahımızla əlaqəli daha nikbin proqnoza şərait yaradacağını görəcəyik” [10].

Ona görə ki, Şərqi Zəngəzur iqtisadi rayonunun inkişafına yardım edəcək resurslar bu zonada respublikamızın qüdrətini və gücünü daha da yüksəldəcəkdir. Qarabağ iqtisadi rayonunun yenidən qurulması isə “özəl xüsusiyyətlərə malik qədim Qarabağ ərazisinin bərpasının və sürətli inkişafına malik olunması üçün” çox vacibdir. Bir çox iqtisadi rayonlarda kənd təsərrüfatı və aqrar sektorun inkişafı önəmli olduğundan, yeni iqtisadi rayonların bölgüləri, ilk əvvəl, bu sektorların inkişaf etdirilməsi üçün güclü səbəb olacaqdır [11].

İqtisadi rayonlaşmanın yenidən qurulması və çox önəmli strateji əhəmiyyətə malik olan iki yeni iqtisadi rayonun qurulması erməni separatçıları və onların tərəfdarlarına ötürülən açıq mesajdır və bunun xüsusiyyəti odur ki, artıq "Dağlıq Qarabağ" adı altında ayrıca olaraq inzibati bölgü vahidi yoxdur. Daha bu haqda sərsəm fikirlərə ehtiyac yoxdur. Buradan məlum olur ki, yeni iqtisadi rayonların qurulması və davamlı şəkildə inkişaf etdirilməsi ilə ölkəmiz Qarabağı daha güclü inkişafda olan bir iqtisadi zonaya çevirməklə birgə, qədim Azərbaycan torpaqlarımız olan Zəngəzura tam şəkildə vətəndaşlarımızın repartriasiyasında və qədim torpaqlarımızın inkişaf etdirilməsində kifayət qədər inadlıdır.

Hazırkı dövrdə - Şərqi Zəngəzur iqtisadi rayonu regionunda yeni bölgüyə əsasən müəyyən edilən ərazilərdə bir çox iqtisadi sahələrin, bununla yanaşı, turizmin, sənayenin, aqrar sektorun və kənd təsərrüfatının, ilk əvvəl, bitkiçilik və heyvandarlığın inkişaf etməsi üçün iri təbii və iqtisadi resursların, həm də şəraitin olduğunu qeyd etməliyik. Məlumdur ki, erməni separatçıları, xaricdən olan tərəfdarlarının yardımı və qanunsuz investisiya fəaliyyətinin hesa-

bına Zəngəzur regionumuzun təbii sərvətlərini talana məruz qoymuşlar, bununla belə, əminliklə söyləyə bilərik ki, az bir zaman ərzində onlar həyata keçirdikləri cinayətlərin əvəzini mütləq ödəyəcəklər. "Zəngəzur regionumuzda böyük biznes formalaşdıran Ermənistanın ən iri sənaye mərkəzlərindən sayılan "Zəngəzur mis-molibden kombinatı"nın 2020-ci il ərzində 63 milyonluq vergi ödədiyini və Ermənistanda üçüncü ən iri vergi ödəyicisi olduğu qeyd olunmalıdır" [12].

Adıçəkilən kombinatın fəaliyyətdə olması bununla yanaşı, regionda ekoloji fəlakət ocağı yaradır, ona görə ki, istehsal tullantı və zəhərli birləşmələr təmizlənmədən Oxçuçaya atılır. Son vaxtlarda ölkəmizin görkəmli ictimaiyyət xadimləri və mütəxəssisləri bu ekoloji fəlakətə görə beynəlxalq təşkilatlara bir çox müraciət və çağırışlar etmişlər. Burada məqsəd isə erməni separatçılarının həyata keçirdiyi çirkin və cinayətkar əməllərin qarşısını almaq və regionda ekoloji tarazlığın bərqərar olmasından ibarətdir.

Yeni iqtisadi rayonların qurulması respublikamızın yaxın, orta və uzaq vaxta hesablanmış hədəflərinin reallaşdırılmasında, güclü bölgələrin qurulmasında, xüsusilə də, işğaldan azad olunmuş ərazilərdə dünya praktikasına bərabər, amma ölkənin sosial-iqtisadi inkişaf amillərini özündə büruzə verən və yüksək texnologiya ilə inkişaf edən nümunəvi iqtisadi rayonların qurulması anlamı daşımalıdır. Düzgün olaraq qeyd olunur ki: "Biz iqtisadi rayonlar arasında yeni adları-Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını gördük. Bu, strateji, bununla yanaşı, iqtisadi, həm də tarixi mənada kifayət qədər vacib qərar sayılmalıdır. Əvvəlki bölgü zamanı Yuxarı Qarabağın, Kəlbəcər və Laçın iqtisadi rayonunun adı mövcud idi, yeni bölgü zamanı isə Qarabağda yerləşən rayonlar Qarabağ adlı iqtisadi rayonda təmsil olunacaqlar" [13].

Bununla yanaşı, bu iqtisadi rayonların qurulması xain, hiyləgər, faşist xüsusiyyətli düşməni yuxusuz qoymaqdadır. "Təsadüfi sayılmır ki, düşmən hətta Ermənistanda olan bütün təsisatları prezidentimizin qəbul etdiyi tarixi Fərmandan çox narahat idilər. Görsənən odur ki, Fərman hər bir müsbət iqtisadi istiqamətləri ilə birlikdə, düşmənləri bir daha demoralizə edərək revanşist ruhunu əzməkdədir" [14].

## Nəticə

Beləliklə, yaxın vaxtlarda biz əminliklə müstəqil ölkəmizin yeni qurulan iqtisadi rayonlarının daha da inkişaf etməsinə şahidlik edəcəyik və bu əminlik arqumentlərini aşağıdakı şəkildə ümumiləşdirmişik:

- Azərbaycan qalibdir və 30 ilə yaxın işğal altında olan torpaqlarımız erməni faşistləri tərəfindən rəzil şəkil aldı, onun başda oturanlarını təslimçilik müqaviləsinə məcbur etdik;
- işğaldan azad edilmiş bölgələrimizin inkişaf etməsi və yüksək texnologiyalarla, həmçinin, "ağıllı" texnologiyanın bazasında yeni kəndlərin qurulması, şəhərlərin yenidən yaradılması bu regionu həm respublikamızda, həm də dünya üzrə dinamik və dayanmadan inkişafda olan bir əraziyə çevirəcək;
- Qarabağ və Şərqi Zəngəzurun yaradılması isə dünyada ölkəmizin strateji əhəmiyyətliliyini birə beş artırır, ona görə ki, iki yeni iqtisadi rayonun inkişaf etməsi üçün strateji hədəflərin olması, Zəngəzur dəhlizi vasitəsilə türkdilli dövlətlərin inteqrasiyasının tezləşdirilməsi, Qərblə Şərqin, Şimal və Cənubun arasındakı yükdaşıma sürətliliyinin artırılması, beynəlxalq ticarət əməliyyatlarının genişləndirilməsi, nəqliyyatın və logistika sahəsinin əhəmiyyətli dərəcədə inkişaf etdirilməsi ilə respublikamızın rəqabət qabiliyyətinin, bununla yanaşı, siyasi və iqtisadi nüfuzunun dəfələrlə çoxalmasına real potensial formalaşacaqdır və s.

**Açar sözlər:** *yeni iqtisadi rayonlaşma, işğaldan azad edilmiş bölgələr, regional iqtisadi potensial, kiçik və orta sahibkarlıq.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il.*

*2. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə "Bakı şəhəri, 10 iyul 2021-ci il. https://nk.gov.az/az/document/5457/print/.*

*3. Bayramov, İ.M. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı: "Elm" nəşriyyatı, 696 s.*

*4. Musayev, İ. "Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917–1921-ci illər)". Monoqrafiya. Bakı, 1998, 284 s.*

*5. Qarayeva, S. "Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması tarixi ədalətin bərpasıdır". https://525.az/news/171825-serqi-zengezur-iqtisadi-rayonunun-yaradilmasi-tarixi-edaletin-berpasidir.*

*6. Eyyubova, G. İqtisadi rayonların sayının artması Vətən müharibəsində qazandığımız Zəfərdən sonra formalaşmış yeni reallıqlara tam uyğundur. 09*

*iyul 2021. https://ikisahil.az/post/233156-iqtisadi-rayonlarin-sayinin-artmasi-veten-muharibesinde-qazandigimiz-zeferden-sonra-formalashmish-yeni-realliqlara-tam-uygundur.*

*7. İqtisadi rayonlaşdırma. https://www.azerbaijans.com/content_464_az.html.*

*8. Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitinin səmərəli yerləşdirilməsi məqsədilə iqtisadi rayonlar üzrə prioritet istiqamətlər. http://edf.gov.az/az/content/105#.*

*9. Qurbanlı, T. Yeni iqtisadi rayonlar: siyasi və milli təhlükəsizlik prinsipləri. 12.07.2021. https://teleqraf.com/news/siyaset/294486.html.*

*10. Nəcəfxanlı, Ə. İqtisadi rayonlar üzrə yeni bölgü faydalı iş əmsalını daha da artıracaq. 11.07.2021. https://xalqqazeti.com/mobile/az/news/80407.*

*11. Sadıqlı, F. Yeni iqtisadi rayonlar ölkəmizin gələcək inkişafı üçün yeni imkanlar açır. 09.07.2021. https://azerbaijan-news.az/posts/detail/yeni-iqtisadi-rayonlar-olkemizin-gelecek-inkisafi-ucun-yeni-imkanlar-acir-1625780115.*

*12. Zəngəzurun təbii sərvətləri ermənilər tərəfindən talan edilir. 03 noyabr 2020. https://aqreqator.az/az/iqtisadiyyat/1088111.*

*13. Yeni bölgü siyasəti: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları niyə yaradıldı? 09.07.2021. https://nuhcixan.az/news/iqtisadiyyat/49382-yeni-bolgu-siyaseti-qarabag-ve-serqi-zengezur-iqtisadi-rayonlari-niye-yaradildi.*

*14. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması düşmənin revanşist ruhunu əzib. 08.07.2021. https://azertag.az/xeber/Azerbaycanin_Qarabag_ve_Serqi_Zengezur_iqtisadi_rayonlarinin_yaradilmasi_dusmenin_revansist_ruhunu_ezib-1826439.*

**Ibrahimli Vugar Alfi oglu**
**Doctoral student of Azerbaijan State University of Economics**

**Realities of new economic zoning and formation of regional economic potential in Azerbaijan**

**SUMMARY**

The article identifies the strategic importance and characteristics of the re-formation of economic regions in Azerbaijan, and substantiates the creation of new economic regions from a historical and economic point of view. The article also describes the impact of the new economic zoning on the socio-economic development of the liberated regions of the country, and assesses the opportunities of existing business entities in the regions of Azerbaijan in modern conditions.

The implementation of the study will help to make more efficient use of available resources in the liberated areas, reduce costs and increase efficiency in foreign economic activity and integration processes, and strengthen the security of the liberated areas and the national economy as a whole.

**Keywords:** *new economic zoning, liberated areas, regional economic potential, small and medium enterprises.*

**Ибрагимли Вугар Алфи оглы**
**Докторант Азербайджанского Государственного Экономического Университета**

**Реалии нового экономического районирования и формирования регионального экономического потенциала в Азербайджане**

**РЕЗЮМЕ**

В статье определяется стратегическое значение и особенности реформирования экономических районов в Азербайджане, а также обосновывается создание новых экономических районов с историко-экономической точки зрения. В статье также описывается влияние нового экономического районирования на социально-экономическое развитие освобожденных районов страны, и оцениваются возможности существующих хозяйствующих субъектов в регионах Азербайджана в современных условиях.

Реализация исследования позволит более эффективно использовать имеющиеся ресурсы на освобожденных территориях, снизить затраты и повысить эффективность внешнеэкономической деятельности и интеграционных процессов, укрепить безопасность освобожденных территорий и национальной экономики в целом.

**Ключевые слова:** *новое экономическое районирование, высвобожденные территории, экономический потенциал региона, малый и средний бизнес.*

UOT 33

# АНАЛИЗ СОВРЕМЕННОГО СОСТОЯНИЯ АЛЬТЕРНАТИВНОЙ И ВОЗОБНОВЛЯЕМОЙ ЭНЕРГЕТИКИ В КАРАБАХСКОМ РЕГИОНЕ

**САМИРА ГУСЕЙНОВА**
*Бакинский Государственный Университет, докторант*

*E-mail: samira97@mail.ru*

## Введение

В связи с ростом населения планеты, появлением новых сервисов, развитием энергоемких производств увеличивается общее мировое энергопотребление. Для того, чтобы обеспечить растущие глобальные запросы в энергии нужны качественные изменения в структуре энергетики. В условиях нестабильности и колебания цен на нефть, истощения традиционных источников энергии эра углеводородов идет к закату, что вынуждает искать другие эффективные варианты и переориентироваться на альтернативные источники энергии. Именно поэтому использование альтернативных и возобновляемых источников энергии (ВИЭ), децентрализация генерации и широкое внедрение «умных сетей» (smart grid) является решением данной проблемы, т.е. приводит к радикальному снижению стоимости электроэнергии. Развитие интеллектуальных сетей может сопровождаться и государственным финансированием, как например в США сумма государственного инвестирования составила 4,5 млрд долл. [7].

## Основная часть

По оценкам экспертов, в ближайшие 20 лет ВИЭ будут самым быстрорастущим сегментом мировой энергетики. Специалисты прогнозируют, что к 2035 году их доля в мировом объеме электрогенерации существенно вырастет - примерно в полтора раза. Хотя некоторые эксперты утверждают, что альтернативная энергия никогда не сможет заменить традиционные источники энергии, нельзя отрицать того, что наличие альтернативы всегда необходимо, и для обеспечения этого преимущества необходимо подготовиться заранее, особенно при наличии всех условий и возможностей для развития данной перспективной сферы. По оценкам экспертов за последние годы энергетические источники снизились на 28% в то время, как спрос мирового населения на энергию увеличивается день за днем.

Учитывая сегодняшнее потребление энергии запасы нефти, составляющие 35% мирового энергоснабжения, иссякнут примерно через 40–45 лет, запасы газа (20%) – через 60 лет, а запасы угля (26%) – через 130 лет [2, с.12-13]. Из-за этой тенденции потребления, большинство стран пришли к пониманию, что экономические и экологические соображения требуют всемерной и повсеместной экономии энергоресурсов. Такая экономия позволит уменьшить расходы на производство продукции, сохранит энергоресурсы для будущих поколений, уменьшит загрязнение окружающей среды. Для решения этой проблемы можно предпринять:

– использование ресурсосберегающие промышленные технологии;

– полное извлечение полезных ископаемых из недр Земли;

– использование вторичного сырья;

– перенаправление часть прибыли от нефтяного сектора в пользу развития нетрадиционных источников энергии [1, с.8].

Развитие альтернативных и возобновляемых источников в нашей стране является важным шагом для дальнейшего улучшения и диверсификации энергетического баланса страны и национальной экономики, снижения ее зависимости от углеводородов, повышения энергетической безопасности, развития устойчивых и экологически чистых источников энергии, обеспечения населения доступной энергией и содействия мировым усилиям по борьбе с изменением климата.

На современном этапе в Азербайджане существует и практикуется 5 из 6-ти источников альтернативной энергии, принятые и используемые во многих развитых странах. К ним относятся ветровая энергия, солнечная энергия, гидроэнергия, геотермальная энергия и биоэнергетика. Следует отметить, что потенциал экономически выгодных и технически доступных возобновляемых источников энергии страны оценивается в объеме 26 940 МВт, в том числе 3 000 МВт по ветряной энергии, 23 040 МВт по солнечной энергии, 380 МВт по биоэнергетическому потенциалу, 520 МВт по потенциалу горных рек [5]. При правиль-

ном распределении и эффективном использовании данного потенциала, страна уменьшит зависимость от традиционных источников энергии, уменьшится их добыча и соответственно потребление, увеличится охрана окружающей среды.

На основе стратегии «Использование альтернативных и возобновляемых источников энергии 2015-2020 г.» предпологалось увеличение доли альтернативной и возобновляемой энергетики до 20% [3]. В настоящее время доля производства электроэнергии в Азербайджане за счет традиционных источников энергии (природного газа) оставляет 91,9%, производство же электроэнергии за счет альтернативных и возобновляемых источников составляет 8,1%. А если учитывать мощности крупных гидроэлектростанций, то доля возобновляемых источников энергии в производстве электроэнергии на сегодня составляет 17%, что соответствует генерирующим мощностям в 1,276 тыс. МВт [6].

В соответствии с законопроектом «Об использовании восстанавливаемых источников в производстве электроэнергии» доля «зеленой энергии» в общем производстве электроэнергии страны до 2030 года должна составить 30%. Производство 1 млрд кВт/час электроэнергии за счет возобновляемых источников энергии позволит сэкономить 200 млн кубометров природного газа [5].

Несмотря на то, что Азербайджан является мощным региональным центром традиционных запасов энергии, стоит развивать также и альтернативную энергию, учитывая весь ее потенциал. С этой точки зрения, освобожденный от врага Карабахский регион с одной стороны достаточно богат данными запасами для развития альтернативной энергетической инфраструктуры, с другой стороны благоприятен для осуществления зеленой политики с целью превращения Карабаха в экологически чистый регион на Кавказе. Такой экологичный подход наряду с плюсами охраны окружающей среды, также послужит привлечению туристов.

В соответствии с требованиями Парижского соглашения по климату Азербайджан стремится к 2030 году сократить выбросы парниковых газов на 35%. Поскольку возобновляемая энергетика является экологически чистой, она внесет важный вклад в выполнение обязательств Азербайджана по Парижскому соглашению, а также в дальнейшее улучшение экологической ситуации в стране.

Президент Азербайджана Ильхам Алиев 3 мая 2021 года подписал Распоряжение о мерах по созданию зоны «зеленой энергии» на освобожденных территориях, согласно которому Министерство энергетики получит из госбюджета $1,4 млн на работы по созданию зоны «зеленой энергии» в Карабахе. Также начались работы по привлечению иностранных инвестиций. Во время встречи Президента Ильхама Алиева с министром экспорта Великобритании Грэхэмом Стюартом отмечалось, что Великобритания является стратегический партнером Азербайджана в течение 30 лет и как минимум на протяжении еще 30-ти лет будет им оставаться, потому что имеются новые перспективы и подписаны новые контракты. Далее Министерство энергетики Азербайджанской Республики и BP подписали Исполнительное соглашение о сотрудничестве в области оценки и реализации проекта строительства солнечной электростанции мощностью 240 МВт в Зангиланской/Джебраильской зоне. Следует отметить, что данное соглашение имеет особое значение с точки зрения привлечения иностранных инвестиций в Карабах, а также создания новых рабочих мест в регионе. Так, в 2019 году в сфере возобновляемой энергетики по всему миру работало 11,5 млн людей. Только в ЕС этот показатель составляет 1,2 миллиона, а в Германии в этом секторе работает около 300 000 человек. Производя солнечные батареи и ветряные турбины, Германия не только производит более дешевую возобновляемую энергию, но и укрепляет свою экономику, продавая это оборудование на внешнем рынке. Стоит перенять этот опыт у развитых стран и учитывая, что создание зоны зеленой энергии в Карабахе в настоящее время является приоритетом, производство оборудования и объектов альтернативной энергетики в Карабахе может внести ценный вклад в устойчивое экономическое развитие Карабаха. Таким образом, поскольку эти устройства будут производиться внутри страны, возобновляемые источники энергии в стране могут производиться по более доступным ценам.

Экспортный потенциал страны может быть увеличен за счет экспорта в соседние страны объектов альтернативной энергетики, которые будут производиться в Карабахе. Потому что большинство стран вокруг Азербайджана чрезмерно зависят от потребления нефти и природного газа. Фактически доля природного газа в общем энергопотреблении Узбекистана и Туркменистана составляет 88% и 79% соответственно. Эти страны

заинтересованы в снижении своей зависимости от нефти и природного газа за счет использования альтернативных источников энергии в среднесрочной и долгосрочной перспективе.

Кроме BP в регион также привлеклись такие мировые компании как ACWA Power (Саудовская Аравия) и Masdar (ОАЭ). По условиям договоров, подписанных с этими компаниями, ACWA Power построит ветряную электростанцию мощностью 240 МВт, а Masdar - солнечную электростанцию мощностью 200 МВт в нашей стране. Эти крупнейшие в регионе станции обеспечат в стране ежегодное производство 1,4 млрд квт/ч электроэнергии.

К компаниям, для которых Карабахская зона является привлекательной можно еще отнести и японскую компанию Tepsco, с которым Министерство энергетики Азербайджана подписало соглашение об использовании потенциала возобновляемых источников энергии на освобожденных территориях. В рамках создания здесь «зеленой энергетической зоны» будут задействованы энергоэффективные технологии для эффективного использования существующего потенциала, а также использованы современные подходы к управлению энергетикой.

Также по словам директора департамента энергетики и природных ресурсов по России, Кавказу и Центральной Азии ЕБРР Аиды Ситдиковой Карабахский регион представляет интерес и для ЕБРР, и что ведутся переговоры по проектам ветряной и солнечной энергетики. Стоит отметить, что на начало 2022 года портфель проектов ЕБРР в Азербайджане оценивался в 801 миллион евро, а целом банк инвестировал в Азербайджан свыше 3,17 миллиарда евро по 178 проектам. ЕБРР сотрудничает с Азербайджаном с 1992 года и является ведущим инвестором страны и роль ЕБРР в Карабахе как инвестора также важна.

Была произведена оценка потенциала альтернативной и возобновляемой энергии на освобожденных территориях со стороны Министерства энергетики страны. В Кельбаджарском, Физулинском, Лачинском, Зангиланском, Джебраильском районах были определены территории для выработки электричества на солнечных электростанциях. Согласно оценкам экспертов, общий потенциал производства солнечной энергии в перечисленных районах оценивается более чем в 7200 мегаватт на площади более 14,4 тысячи гектаров. Но если говорить о реальном потенциале солнечных электростанций, то он составит порядка 4000 мегаватт с учетом использования части этих земель как сельского хозяйства.

Энергия ветра является наиболее выгодным и экологически чистым источником энергии среди других альтернативных источников энергии. Выработка ветряной электроэнергии в горных областях освобожденных территорий составляет согласно расчетам более 500 мегаватт.

Основной проблемой в использовании энергии рек и водотоков является необходимость затопления большой площади земли при сооружении плотин. В последние годы во многих странах развиваются технологии создания средних, малых и мини-ГЭС, в которых эта проблема до некоторой степени преодолевается [4, с.10]. Стоит отметить, что 25% запасов водных ресурсов нашей страны приходится именно на Карабахский регион, следовательно большие перспективы и в выработке электроэнергии за счет использования рек находятся на этой территории. После деоккупации сотрудники Министерства обороны и BOEMDA провели тщательный анализ по перспективам водных источников региона. Такие главные реки, как Тертер, Базарчай, Хакари и их притоки наиболее благоприятны для выработки электроэнергии, существуют гидроэлектростанции на территории Тертерского, Лачинского и Кельбаджарского районов, а также уже введена в эксплуатацию 8-мегаваттная гидроэлектростанция «Гулаберд», расположенная на реке Хакари в Лачинском районе [5].

## СПИСОК ЛИТЕРАТУРЫ

*1. Родионов, В.Г. Энергетика: проблемы настоящего и возможности будущего / М.:ЭНАС, 2010 .— 344 с.*

*2. Возобновляемая энергетика / В. В. Елистратов. — Санкт-Петербург: 2016 — 421 с.*

*3. Государственная стратегия «Использование альтернативных и возобновляемых источников энергии на 2015-2020 годы»*

*4. Альтернативные источники сырья и топлива / сборник трудов под ред. Т. С. Климовича. — РУП «Издательский дом «Беларуская наука», Минск, 2016 — 144 с.*

*5. https://minenergy.gov.az/*

*6. https://www.stat.gov.az/source/balance_fuel/*

*http://files.preslib.az/projects/azerbaijan/rus/gl7.pdf*

*7. Recovery Act Smart Grid Program https://www.smartgrid.gov/recovery_act/*

**РЕЗЮМЕ**

Для развития альтернативной и возобновляемой энергетики в Карабахском регионе существует огромный потенциал, с помощью которого его можно превратить в экологически чистый регион, что послужит, наряду с плюсами охраны окружающей среды, также привлечению туристов. Для возобновления инфраструктуры Карабаха, создания благоприятных условий для возвращения местного населения, развития зеленой экономики, создания «умного города» нужно системно и комплексно работать, необходимо разработать соответствующую денежно-кредитную политику для прироста инвестиций в эту сферу (как местных так и зарубежных) и эффективный контроль над расходованием финансовых средств, направляемых на развитие альтернативной энергетики, также создать соответствующие институты для развития данной сферы в регионе и осуществлять централизованный контроль.

Кроме этого, Азербайджан может сделать внутреннее производство альтернативной энергии более коммерчески выгодным, производя оборудование, используемое в основном для производства солнечной и ветровой энергии, тем самым увеличить экспортную выручку, продавая его зарубежным странам. Все это, в свою очередь, может стимулировать развитию малого и среднего бизнеса в регионе, созданию новых рабочих мест и увеличению занятости.


**Ключевые слова:** *энергетика, энергетический комплекс, альтернативная энергия, возобновляемая энергия, неисчерпаемые источники, геотермальная энергия, солнечная энергия, ветровая энергия, биотопливо.*

**Qarabağ regionunda alternativ və bərpa olunan enerji mənbələrinin mövcud vəziyyətinin təhlili**


**XÜLASƏ**

Qarabağ regionunda alternativ və bərpa olunan enerjinin inkişafı üçün böyük potensial mövcuddur, onun köməyi ilə bu bölgəni ekoloji cəhətdən təmiz regiona çevirmək olar ki, bu da ətraf mühitin mühafizəsinin üstünlükləri ilə yanaşı, turistləri də cəlb edəcək. Qarabağın infrastrukturunu yeniləmək və yerli əhalinin qayıtması üçün əlverişli şərait yaratmaq, həmçinin yaşıl iqtisadiyyatı inkişaf etdirmək üçün sistemli və kompleks şəkildə işləmək vacibdir, bu sahəyə investisiyaların (həm yerli, həm də xarici) artırılması üçün müvafiq pul-kredit siyasətinin hazırlanması və alternativ energetikanın inkişafına yönəldilmiş maliyyə vəsaitlərinin xərclənməsinə səmərəli nəzarət etmək mütləqdir, həmçinin regionda bu sahənin inkişafı üçün müvafiq qurumlar yaratmaq və mərkəzləşdirilmiş nəzarəti həyata keçirmək lazımdır.

Bundan əlavə, Azərbaycan əsasən günəş və külək enerjisi istehsalı üçün istifadə olunan avadanlıqlar istehsal etməklə alternativ enerjinin yerli istehsalını kommersiya baxımından daha səmərəli edə, bununla da onu xarici ölkələrə satmaqla ixrac gəlirlərini artıra bilər. Bütün bunlar öz növbəsində regionda kiçik və orta sahibkarlığın inkişafına təkan verə, yeni iş yerlərinin açılmasına və əhalinin məşğulluğunun artırılmasına xidmət edə bilər.


**Açar sözlər:** *enerji, energetika, energetika kompleksi, alternativ enerji, bərpa olunan enerji, tükənməz enerji resursları, geotermal enerji, günəş enerjisi, külək enerjisi, bioyanacaq.*

**Analysis of the current state of alternative and renewable energy in Karabakh region**


**SUMMARY**

There is a huge potential for the development of alternative and renewable energy in the Karabakh region, with the help of which it can be turned into an ecologically clean region, which, along with the advantages of environmental protection, will also attract tourists.

To renew the infrastructure of Karabakh, create favorable conditions for the return of the local population, develop a green economy, it is necessary to work systematically and comprehensively, develop an appropriate monetary policy to increase investment in this area (both local and foreign) and effective control over the spending of financial resources, directed to the development of alternative energy, also create appropriate institutions for the development of this area in the region and realize centralized control.

In addition, Azerbaijan can make domestic production of alternative energy more commercially viable by producing equipment used mainly for the production of solar and wind energy, thereby increasing export earnings by selling it to foreign countries. All this, in turn, can stimulate the development of small and medium-sized businesses in the region, create new work places and increase employment.


**Key words:** *energy, energy complex, alternative energy, renewable energy, inexhaustible sources, geothermal energy, solar energy, wind energy, biofuel.*

UOT 658.152/.153

# AZƏRBAYCANDA FOND BAZARININ PROBLEMLƏRİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

**ƏLİ HƏSƏNOV NAZİM o.**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi, magistr*

*E-mail: ali.h_1999@mail.ru*

## GİRİŞ

Hər zaman olduğu kimi, bu gün də fond bazarı diqqət mərkəzindədir. Fond bazarlarının inkişafı ölkənin biznes mühitini də formalaşdırır. ABŞ, Britaniya, Fransa kimi inkişaf etmiş ölkələr güclü fond bazarları, çoxsaylı fond birjaları, investisiya bankları və çoxşaxəli maliyyə alətləri ilə güclü maliyyə sisteminə malikdirlər. Eyni zamanda da, bu çoxəsrlik fond bazarı tarixindən çıxarılası çoxlu nəticələr vardır. Ölkəmizdə bu sahə üzrə beynəlxalq təcrübələrin öyrənilməsi və tətbiqi biznes mühiti və iqtisadi inkişaf üçün əvəzsiz rola malik ola bilər. Əlbəttə ki, ölkəmiz bu sahədə müəyyən inkişaf yolu keçmişdir. Lakin mövcud şərait və yeni reallıqlar yeniliklərin ölkəmizin fond bazarında tətbiqini zəruri edir.

## ANALİZ

Azərbaycanın fond bazarındakı inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün ilkin olaraq ümumi anlayışları xatırlatmaq, daha sonra isə cari problemlərin səbəblərini analiz etmək lazımdır. Fond bazarlarında iştirakçılar əsasən aşağıdakı kimidir:

- İnvestor
- Emmitent
- Broker və ya diler
- Alqı-satqını təşkil edən qurum
- Nəzarət qurumu

İnvestorlar potensial investisiya etməyə hazır hüquqi və fiziki şəxslərdir. İnvestorların sayı ölkənin iqtisadi durumundan asılıdır. Əlbəttə ki, iqtisadi inkişaf şəraitində qənaət edilmiş vəsait şəxslər tərəfindən müəyyən formada investisiyaya yönəldilir. Lakin, hüquqi və fiziki şəxslərin artıq vəsaitlərinin yatırım istiqamətləri fond bazarlarının inkişafı ilə birbaşa əlaqəlidir. Məsələn, Dünya Bankının yaydığı məlumata görə ABŞ-ın 2020 ildəki ÜDM-i 20.936.600 milyon ABŞ dolları, fond birjalarında listinqdə olan şirkətlərin ümumi bazar kapitalizasiyası isə 40.719.661,40 dollar təşkil etmişdir [1]. Azərbaycan üçün bu rəqəm ÜDM-də 42.607,18 milyon ABŞ dolları [2], Bakı Fond Birjasındakı səhm bazar kapitalizasiyasında isə 4.320,72 milyon dollardır [3]. Beləliklə, ABŞ-da listinqdəki şirkətlərin bazar dəyəri ABŞ ÜDM-indən təqribən iki dəfə çox olsa da, Azərbaycanda bu rəqəm ÜDM-dən təxminən 10 dəfə azdır. Bu da fond bazarının investorlar üçün cəlbedici olmadığını göstərir və artıq maliyyə vəsaitinin iqtisadiyyatda səmərəli dövriyyəsinin təmin olunmadığına dair əsaslı şübhələr yaradır. Məsələnin başqa bir tərəfi alqı-satqını həyata keçirən qurumdur. Ölkəmizdə fond bazarında cəmi bir fond birjası fəaliyyət göstərir [4]. Bu da anlaşılandır. Çünki fond bazarına tələbin aşağı olduğu bir şəraitdə çoxlu fond birjasının mövcudluğu qeyri-mümkündür və səmərəsizdir. Daha bir məsələ isə emmitentlərin məhdud sayının olmasıdır. Bazarda mövcud olan şirkətlər üçün fond bazarlarında səhm emissiyası heç də cəlbedici görünmür. Bakı Fond Birjasının yaydığı rəsmi məlumata əsasən, 8.3 mlrd manat həcmində olan ümumi ticarət dövriyyəsinin 62 faizi dövlət qiymətli kağızlarının payına düşür. Repo əməliyyatları 35 faizi, korporativ qiymətli kağızlar isə 2.5 faizi əhatə edir (qrafik 1). Yəni, fond bazarını əsasən dövlət formalaşdırır. Beləliklə, bazardakı investorlar da əsasən dövlət qiymətli kağızlarının alqı-satqısı ilə məşğuldurlar. Öz növbəsində Bakı Fond Birjasının üzvlərində də ciddi qeyri-bərabərlik vardır. Ümumi əməliyyatların həcminə görə Paşa Kapital (75.7 %), BTB Kapital (10.3 %) və Unicapital (14 %) ön sıralardadır [3] (qrafik 2). Bunun da əsas səbəbi fond bazarındakı maliyyə alətlərinin qıtlığıdır. Belə ki, maliyyə alətlərinin sayının azlığı portfel diversifikasiyasının effektivliyini aşağı salır, nəticədə investisiya şirkətlərinin əksəriyyəti fond bazarlarından yayınır. Bununla da fond bazarında əməliyyatların həcmi azsaylı üzvlər arasında bölünür.




**Mənbə:** *Bakı Fond Birjası, https://www.bfb.az/az (2020)*




**Mənbə:** *Bakı Fond Birjası, https://www.bfb.az/az (2020)*

Hazırda dünya bazarlarında çoxsaylı maliyyə alətləri ilə ticarət əməliyyatları aparılır. Bunlardan bəzilərini misal çəkmək olar. Derivativ (Derivative) –ingilis dilindən törəmə mənasını verir. Baza aktivindən (qiymətli kağız, əmtəə və s.) törəyən və ya baza aktivinin qiymətinə bağlı olan qiymətli kağız anlamına gəlir. Bunların aşağıdakı növləri var. Opsion (option) – opsion sahibinə müəyyən edilmiş tarixdə müəyyən baza aktivinin əvvəlcədən razılaşdırılmış qiymətlərlə almaq və ya satmaq hüququnu ifadə edən qiymətli kağızdır. Bununla da risk sevməyən investor riski müəyyən qədər risk sevən investora ötürür. Opsionların müxtəlif növləri var. "Call" opsion sahibinə müəyyən edilmiş tarixdə müəyyən baza aktivinin əvvəlcədən razılaşdırılmış qiymətlərlə almaq hüququnu ifadə edən qiymətli kağızdır. "Put" opsion isə opsion sahibinə müəyyən edilmiş tarixdə müəyyən baza aktivinin əvvəlcədən razılaşdırılmış qiymətlərlə almaq hüququnu ifadə edən qiymətli kağızdır. Bundan əlavə, Amerika opsionu (opsionun icrası bitmə müddətinə qədər istənilən vaxt həyata keçirilə bilən) Avropa opsionu (opsionun icrası yalnız bitmə müddətində həyata keçirilə bilən), Asiya opsionu (opsion gəlirinin hesablanması zamanı baza aktivinin müəyyən dövr çərçivəsindəki orta qiyməti nəzərə alınır) və digər ekzotik opsionlar da mövcuddur. Fyuçers müqaviləsi (qısaca fyuçers) müəyyən edilmiş tarixdə müəyyən baza aktivinin əvvəlcədən razılaşdırılmış qiymətlərlə alınması və ya satılması haqqında öhdəliyi təsbit edən standartlaşdırılmış birja müqaviləsini ifadə edən qiymətli kağızdır [5, s. 38]. Opsiondan fərqli olaraq fyuçersin icrası hüquq deyil, məcburiyyətdir. Azərbaycan fond bazarında bu cür risk ötürmə alətlərinin olmaması bir çoxlarını birjadan kənar saxlayır və portfel diversifikasiyası üçün əngəllər yaradır. Hedcinq vasitəsilə risklərin azaldılması imkanı investorlar üçün yaradılmalıdır. Məsələn, əgər baza aktivin qiyməti dervativdəki qiymətin əksi istiqamətində hərəkət edirsə, investor bu fərq vasitəsilə pul itkisindən yayına bilər. Buna görə də ölkəmizdə bu cür maliyyə alətlərinin tətbiqi fond bazarının inkişafına böyük təkan verə bilər və bazarda volatilliyin azalmasına səbəb olar [6], [7]. Məlumat üçün qeyd etmək lazımdır ki, Azərbaycan da dünya birjalarında "Azeri Light" markalı neftin ticarətini fyuçers kontraktlar vasitəsilə həyata keçirir.

Azərbaycan fond bazarları problemlərindən biri də maliyyə savadlılığı ilə bağlıdır. Doğrudur, ölkəmizdə bu sahədə işlər görülür və müəyyən layihələr var. Lakin, bu sahəyə güclü dövlət dəstəyi veriləcəyi təqdirdə insanlar artıq vəsaitlərini fond bazarlarına yönəldə bilərlər. Bu gün vətəndaşlar artıq vəsaitlərini daşınmaz əmlaka və ya banklarda depozit hesablarına yönəldirlər. Halbuki, bugünkü yüksək inflyasiya şəraitində bank depoziti heç də yaxşı seçim deyil. Məsələn, 8 faizlik depozit hesabından gəlir əldə edən vətəndaş 10 faizlik inflyasiyaya məruz qaldıqda, yatırım etdiyi məbləği illik 2 faizlə itirir. Daşınmaz əmlaka qoyulan investisiyalar isə likvid deyil. Bundan əlavə, fond bazarı ilə bağlı məlumatsızlıq və qeyri-müəyyənlik insanların daşınmaz əmlak bazarına kəskin yönəlməsinə səbəb olur ki, bu da öz növbəsində daşınmaz əmlak bazarında qiymətin yüksək tələbə müvafiq olaraq artmasına və qeyri-real rəqəmlərə çatmasına şərait yaradır. Məhz bu səbəbdən, Azərbaycanda fond bazarının inkişafı əmlak bazarında qiymətlərin daha əlçatan olmasına gətirib çıxara bilər.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Nəticə etibarilə qeyd etmək lazımdır ki, Azərbaycanda biznes mühiti üçün geniş perspektivlər var. Bu imkanların və resursların düzgün istifadəsi maliyyə sisteminin inkişafına, maliyyə sisteminin inkişafı isə fond bazarının dirçəldilməsinə qarşılıqlı şəkildə bağlıdır. Bütün bu inkişaf isə mövcud sahədə daha çox təcrübəsi olan dövlətlərin səhvlərinin öyrənilməsi və nəticə çıxarılması ilə vəhdət təşkil etməlidir. Beləliklə, yuxarıda aparılan analizdən aşağıdakı nəticələrə gəlmək olar:

• Azərbaycan fond bazarında əməliyyatların həcmi aşağıdır

• Əsas alqı-satqı əməliyyatları dövlət qiymətli kağızları və Repoların payına düşür

• Əsas maliyyə aləti istiqrazlardır (qismən də səhmlər) və maliyyə alətlərinin fərqliliyi müşahidə edilmir

• Diversifikasiya imkanları məhduddur

• Maliyyə savadlılığı artırılmalıdır

• Daha çox investorun fond bazarlarına yönəlməsi istiqamətində işlər görülməlidir

Maliyyə savadlılığı istiqamətindəki işlər fond bazarlarında ticarət xidməti təklif edən diler və broker fəaliyyətlərinin dövlət tərəfindən stimullaşdırılması sayəsində həyata keçirilə bilər. Belə ki, bu sahəyə yönəlik startaplara güzəştlərin tətbiqi və ya subsidiyaların ayrılması ilə dövlət broker və dilerlərin sayını artıra bilər. Daha sonra bu diler və broker xidmətini təqdim edən hüquqi və fiziki şəxslər öz biznes maraqlarından çıxış edərək Azərbaycanda maliyyə savadlılığının artırılmasına yönəlik addımlar ata bilərlər.

The global pandemic has revealed fundamental inequalities and significant gaps in the scope, inclusion and adequacy of social protection around the world. Common problems such as high levels of economic uncertainty, persistent poverty, growing inequality, widespread informality, and fragile social contracting have been exacerbated by COVID-19. In addition, the crisis has exposed the vulnerabilities of billions of people who are relatively well understood but not adequately protected from the socio-economic shock waves of COVID-19. The socio-economic effects of the global pandemic have made it difficult for politicians to ignore certain social groups, including children, the elderly, unpaid caregivers, women and men working in various forms, with existing social protection measures that are either inadequate or not covered. or in the informal economy. In addition to revealing these shortcomings, the report shows that the global epidemic has prompted countries to take unprecedented political measures to prioritize social protection.

**Keywords:** *COVID-19, pandemic, social protection.*

UOT 33:005

# ÇEVİK (AGİLE) İDARƏETMƏNİN TƏTBİQ MEXANİZMLƏRİ VƏ METODOLOJİ ASPEKTLƏR

**ELÇİN NAĞIZADƏ**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*

*E-mail: elcinnagizade518@gmail.com*

## GİRİŞ

Layihənin idarə edilməsinə bir çox yanaşma və alətlər daxildir. Layihənin idarə edilməsi layihənin həyat dövrünün mərhələlərinə və idarəetmə mərhələlərinə uyğun olaraq inteqrasiya olunmuş şəkildə həyata keçirilir. Layihə idarəetmə sahələrinə təşkilatın maliyyə, kadr, struktur sahələri daxildir. Və bütün bu sahələrin geniş və düzgün şəkildə əhatə olunması üçün layihə üzərində işləyən komanda çevik layihə idarəetməsinin çevik manifest metodologiyası ilə asanlaşdırılan vəzifələrini düzgün bölüşdürməlidir.

Son illərdə təşkilatlar sürətlə dəyişən biznes mühiti səbəbindən bazarın böyük təzyiqinə məruz qalıblar. Təşkilatlar artan bazar tələblərinə cavab verməli, müştərilərin ehtiyaclarını ödəməli və onların rəqabət qabiliyyətini artırmalıdır. Bütün bu dəyişikliklər həyatımıza dərindən daxil olmuş, insanların daha sürətli, daha asan və daha ucuz qarşılıqlı əlaqə yaratmasına imkan verən texnika ilə bağlıdır. Effektivliyini itirməmək üçün şirkətlər ənənəvi idarəetmə üsullarından çevik olanlara keçməlidirlər. Agile çevik idarəetmə metodologiyasıdır. İlk olaraq proqram təminatının hazırlanmasında İT-də tətbiq edilmişdir. İT-də Agile metodologiyasının istifadəsindən əldə edilən üstünlüklər onu müxtəlif sənaye sahələrindəki şirkətlər və ya dövlət qurumları üçün cəlbedici etmişdir. Hər keçən gün bu metodologiyanın yanaşmaları getdikcə populyarlaşır və bununla əlaqədar olaraq maliyyə sektorunda da tətbiq olunmağa başlayır.

Ənənəvi metodlarda rast gəlinən problemlər əsasında 1970-ci illərdən başlayaraq müxtəlif yanaşmalar işlənib hazırlanmışdır. 1990-cı illərin sonlarına doğru çevik idarəetmə yanaşmaları sürət qazandı və bir çox proqram layihələrində istifadə olunmağa başladı. Agile manifestinin nəşri ilə onun məlumatlılığı artdı və proqram dünyasına böyük təsir göstərdi. Çevik idarəetmənin nə demək olduğunu müəyyənləşdirməyə çalışmaq əvəzinə, Agile manifestinin müəllifləri çevikliyin nəyə diqqət yetirdiyini müəyyən edərək 12 prinsip və 4 dəyər müəyyənləşdirmişlər. Bu dəyərlər aşağıdakılardan ibarətdir:

- ✓ İstifadə olunan alətlər və proseslərdən fərdlər və onlar arasında qarşılıqlı əlaqələr;
- ✓ İşləyən proqram təminatının təfərrüatlı sənədlərindən;
- ✓ Müştəri ilə əməkdaşlıq, müqavilədə dəqiq qaydalar;
- ✓ Dəyişikliklərə uyğunlaşmağın cari plana əməl etməkdən daha vacib və prioritet olduğunu bildirdi.

Çevik idarəetmə prinsipləri aşağıda verilmişdir:

- ✓ Prioritet müştəri məmnuniyyətini təmin etməkdir. Buna görə də ilk növbədə davamlı keyfiyyətli proqram təminatı təmin edilməlidir;
- ✓ Layihənin mərhələsindən asılı olmayaraq bütün dəyişikliklər qəbul edilir. Çevik proqram prosesləri dəyişiklikləri müştəri faydalarına çevirir. Layihənin növünə uyğun olaraq keyfiyyətli proqram təminatı ən qısa vaxt intervallarında çatdırılır;
- ✓ Analitiklər, ekspertlər, proqramçılar, testçilər və s. bütün komanda üzvləri ünsiyyət qurur və birlikdə işləyirlər;
- ✓ Komanda üzvlərinə lazımi dəstək verilməli, ehtiyacları ödənilməli və onlara etibar edilməlidir. Uğurlu layihələr yüksək motivasiyalı şəxslər tərəfindən qurulur;
- ✓ Düzgün məlumat axını üçün üz-üzə ünsiyyət vacibdir;
- ✓ İşləyən proqram təminatı layihənin ilkin inkişaf meyarıdır;
- ✓ Çevik proseslər mümkün qədər sabit sürətə və davamlı inkişafa önəm verir;
- ✓ Güclü texniki infrastruktur və dizayn çevikliyi artırır;
- ✓ Ən yaxşı memarlıqlar, tələblər və dizaynlar özünü təşkil edən komandalar tərəfindən yaradılır;
- ✓ Mütəmadi olaraq komandalar öz metodlarını nəzərdən keçirir və səmərəliliyi artırmaq üçün lazımi təkmilləşdirmələr aparırlar (Eren, 2020).

Bu gün dünyanın hər yerindən çoxlu sayda komanda öz fəaliyyətlərində sxem 1.1-də göstərilən çevik idarəetmə prinsiplərini tətbiq edir.

**Sxem 1: Çevik idarəetmənin əsas prinsipləri**




**Mənbə:** *Чуланова О.Л., 2018: s.2 məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Çevik manifest geniş yayıldıqdan və çevik üsullar haqqında məlumatlılıq artdıqdan sonra şirkətlər çevik üsullara müraciət etməyə başladılar. Bu oriyentasiyanın bəzi səbəbləri- məqsəd keyfiyyəti artırmaq, dəyişikliklərə daha tez reaksiya vermək, çatdırılma müddətlərini qısaltmaq, yeni məhsul növlərini daha tez-tez nəşr etmək, maya dəyərini azaltmaqdır.

Çevik üsulların faydalarını aşağıdakı kimi sıralamaq olar:

1. Çevik manifestə əsasən, layihə boyu dəyişiklikləri qəbul etmək və hətta təşviq etmək vacibdir. Çevik metodların çevikliyi də təkrarlanan proses strukturu sayəsində yüksəkdir və ənənəvi üsullarla müqayisədə dəyişən şərtləri idarə etmək daha asandır;

2. Gündəlik görüşmələr və üz-üzə ünsiyyət üsulu ilə çevik üsullarla həyata keçirilən insan və ünsiyyət mərkəzli proseslər sayəsində layihə komandasının motivasiyası yüksəlir, dəyərli məlumat və fikirlərin paylaşma səviyyəsi yüksəlir;

3. Artan iterasiyalar və iterasiya nəticəsində çatdırılan iş məhsulu sayəsində layihənin gedişatı daha sağlam şəkildə izlənilir və layihə riski azalır. Layihə xətaları daha tez aşkar edilir, çatdırılma dəqiqliyi artır və məhsul daha tez bazara çıxarılır;

4. Layihə prosesi zamanı müştəri layihə üzvləri ilə üz-üzə ünsiyyət qura bildiyi üçün biznes prosesləri və proqram təminatının hazırlanması proseslərinin inteqrasiya səviyyəsi yüksəlir. İstənilən xüsusiyyətləri heç bir təbəqə olmadan birbaşa ifadə edərək proqram təminatının funksional keyfiyyəti və müştəri məmnuniyyəti artır;

5. Artan iterasiya nəticəsində təhvil verilən işlək məhsuldan əldə edilən geri bildirimlər vasitəsilə aşkar edilən problemlər növbəti iterasiyalarda həll edilir, bu da proqram təminatının texniki xidmət prosesini asanlaşdırır və texniki xidmət xərclərini azaldır.

Çevik üsullarda tətbiq edilən iterasiyalar əvvəlki iterasiyalarda əldə edilən təcrübələrə və aşkar edilmiş nasazlıqlara uyğun formalaşdırılır. Görülməsi lazım olan vəzifələr daşıdıqları iş dəyərinə görə prioritetləşdirilir. Layihə komandası mövcud resurslar və məhdudiyyətlər çərçivəsində işi ən yaxşı şəkildə necə yerinə yetirəcəyini müəyyən edir. Komanda müəyyən vaxt ərzində müəyyən tapşırıqları yerinə yetirməlidir (iterasiya müddəti ərzində). Güclü və zəif tərəfləri ilə iterasiyanın sonunda çatdırılacaq məhsulun yaradılmasına cavabdeh olan komandadır. Buna görə komanda əməkdaşlığı vacibdir. Bu kontekstdə çevik metodların əsaslandığı əsas prinsipləri təcrübə, prioritetləşdirmə, özünütəşkil etmə, vaxt çərçivəsi və əməkdaşlıq kimi qeyd etmək olar (Fair, 2012). Çevik metodlarda proqram təminatının hazırlanması fəaliyyətləri iterativ mərhələlərdə həyata keçirilir. Bu təkrarlamalar nəticəsində müştəri və ya istifadəçi rəyi əsasında və əgər varsa, dəyişən tələblərə uyğun olaraq istifadəyə yararlı məhsul üzə çıxarılır və inkişaf prosesləri təkrarlanır. Bu təkrarlanan proseslər müştərinin tam olaraq istədiyi məhsul istehsal olunana qədər davam edir (Harleen, 2014).

Ən çox istifadə edilən çevik proqram təminatının inkişafı çərçivəsi Ken Schwaber və Jeff Sutherland tərəfindən hazırlanmış Scrum-dur. Ədəbiyyatda və praktikada tez-tez bir-birini əvəz edən mənada istifadə olunduğundan, bu araşdırma boyunca scrum əvəzinə çevik termininin istifadə edilməsi məqsədəuyğun hesab edilmişdir. Çevik model iterativ və komanda əsaslı layihə idarəetmə yanaşmasıdır. Bu yanaşma müştəriyə tam funksional proqramın mümkün qədər tez çatdırılmasına diqqət yetirir. Tapşırıqlar və hərtərəfli layihə planları yaratmaq əvəzinə, bütün vaxt qrafiki Sprintlər adlı iki həftəlik mərhələlərə bölünür. Hər iki həftənin əvvəlində prioritet vəzifələr məhsul sahibi tərəfindən müəyyən edilir. Bu planlaşdırılan iş siyahısı iki həftənin sonunda tamamlanır və istehsal mühitinə köçürülür və tətbiqin yeni versiyası qiymətləndirmə üçün məhsul sahibinə təqdim olunur. Bu proses məhsul kifayət qədər yetkinliyə çatana qədər davam edir. Bu üsul iki həftəlik inkişaf dövrlərində biznes tələblərini nəzərdən keçirmək və prioritetləri dəyişdirmək imkanı verdiyi üçün mümkün olan ən yüksək dəyərə malik məhsul hazırlana bilər. Eyni zamanda, komanda işi ilə təmin edilən şəffaflıq və gündəlik məlumat mübadiləsi sayəsində istehsalın keyfiyyəti və sürəti artır (Schwaber, and Sutherland, 2012).

Hazırda informasiya cəmiyyətin əsas resursuna çevrilib. Bir çox şirkətlərin fəaliyyəti onun emalı,

saxlanması, istehsalı və istifadəsi ilə bağlıdır. Mövcud həyatın tempi, ətraf mühitimizin şərtlərindəki dəyişikliklər artdı və buna görə də ətraf mühitdəki dəyişikliklərin öhdəsindən gəlmək zərurəti yarandı. Və bu baxımdan, ətraf mühitdəki dəyişikliklərə vaxtında reaksiya verməyə və müştəri tələblərinə cavab verməyə imkan verən çevik idarəetmə metodologiyası meydana çıxdı. Çevik müxtəlif profilli mütəxəssislərdən ibarət özünütəşkil edən işçi qrupları daxilində daimi qarşılıqlı əlaqə nəticəsində tələblərin dinamik formalaşmasına və onların həyata keçirilməsini təmin etməyə yönəlmiş layihə və məhsulun idarə edilməsinə çevik, iterativ-artan yanaşmadır (Жамбалов, 2018).

Bundan əlavə, çevik idarəetmə bir dünyagörüşüdür, çünki bu, düzgün düşüncə tərzidir və prosedurların mənimsənilməsinin effektivliyinə böyük təsir göstərə bilər. Bu dünyagörüşü komanda üzvlərinə məlumatı bir-biri ilə paylaşmağa və bu məlumatlara əsaslanaraq, yalnız menecerə güvənməklə deyil, layihə haqqında qərarlar qəbul etməyə kömək edir. Çevik komanda, bütün üzvlərinin eyni məlumata malik olduğu və bu metodların tətbiqi ilə bağlı müzakirələr zamanı hər kəsin söz sahibi olduğu üsullardan istifadə edir (Стеллман, Грин и Постигая, 2017).

Layihənin idarə edilməsinə ənənəvi yanaşma xəttidir, burada hər şey bir dövrədə edilir. Bütün tədbirlər təfərrüatlı şəkildə planlaşdırılır və hər şey hazır və işlənib hazır olan kimi bütün layihə təhvil verilir. Layihənin idarə edilməsinin çevik metodunda isə tam olaraq lazım olan qədər planlaşdırılır. Müştəri nə edildiyini görəcək və tələblərini yenidən müəyyənləşdirəcək, ehtiyac duyduğu şeyi təsvir edəcəkdir. Çevik, xərcləri azaldan dəyərli dəyişiklikdir, çünki sistemin bir hissəsinin dəyişdirilməsi bütövlükdə layihənin sistemini dəyişdirməkdən daha ucuz başa gələcək.

Çevik Manifestin hazırlanmasından bəri Agile populyarlıq qazandı və onun istifadəsi daha böyük təşkilatlara və daha mürəkkəb layihələrə yayıldı. Müəssisələr daha sürətli hərəkət edə və dəyişə bilərək daha böyük rəqabət üstünlüyü əldə etməyə başladıqca, çevik yanaşmalar veb proqramlar, mobil proqramlar, biznes kəşfiyyat sistemləri, həyat üçün kritik sistemlər və quraşdırılmış sistemlər də daxil olmaqla bir çox sistem növlərini inkişaf etdirmək üçün istifadə olunmağa başladı (Cevriye, 2019).

Çevik metodologiya ağıllı obyektlərin istifadəsini nəzərdə tutur. Bundan əlavə, komandalar ünsiyyəti, əməkdaşlığı və daha vizual iş üsulunu inkişaf etdirən vidjetlərdən istifadə edirlər. Vidjetlər yeni axtarış nəticələri formatı ilə diqqətinizi cəmləməyə kömək edir və həmçinin diqqət yetirmək istədiyiniz məlumatı prioritetləşdirməyə imkan verir. Sizə lazım olan tək şey istədiyiniz məlumatı lentə sürükləyib buraxmaqdır və bu barədə bütün komanda məlumatlandırılacaq. Beləliklə, çevik metodologiyası vaxtın idarə edilməsi və s. prinsipləri uğurla birləşdirir. Çevik metodologiya konkret layihənin hazırlanmasında iştirak edən hər kəsin iştirakını nəzərdə tutan yanaşmadır. Üstəlik, hər bir mütəxəssis öz işini görür. Çevik metodologiya prosesin bütün iştirakçılarını bir məqsəd - öz istehlakçıları üçün keyfiyyətli layihə yaratmaqla birləşdirdiyini görməyə imkan verir. Bir çox uğurlu layihələr yalnız onların üzərində işləyən komandaların xarici dəyişikliklərə reaksiya vermək və planlarını dəyişdirmək üçün kifayət qədər çevik olmaları sayəsində uğur qazanmışdır (Чуланова, 2018).

**Açar sözlər:** *agile, idarəetmə, proqram inkişafı.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Eren, Ö. (2020). Büyük ölçekli firmalarda proje yönetiminde çevik yaklaşımlar. Yüksek Lisans Tezi Tezi Hazırlayan: Istanbul, 71.*

*2. Cevriye, G. ve Ali, K. (2017). Yazılım Proje Yönetimi: Şelale Modeli ve Çevik Yöntemlerin Karşılaştırılması. Bilişim teknolojileri dergisi, CİLT, 10, SAYI, 3 335-352.*

*3. Coplien, J. O. ve Harrison, N. B. (2004). Organisational patterns of agile software development. Upper Saddle River, NJ, USA: Pearson Prentice Hall, 432.*

*4. Harleen, F. ve Chande, S. A. (2014). Systematic Study on Agile Software Development Methodologies and Practices, International Journal of Computer Science and Information Technologies, Vol. 5(3), 3626-3637.*

*5. Fair, J. (2012). "Agile versus Waterfall:approach is right for my ERP Project?", PMI® Global Congress EMEA , Marsilya, Fransa. 412.*

*6. Schwaber, K. ve Sutherland, J. (2012). "Software in 30 days: how agile managers beat the odds, delight their customers, and leave competitors in the dust", NJ: John Wiley & Sons, 364.*

*7. Чуланова, О.Л. (2018). Технология управления проектами и проектными командами на основе методологии гибкого управления проектами Agile // Вестник*

*Евразийской науки, №1, 11.*

*8. Стеллман, Э. (2017). Грин Дж. Постигая Agile : пер. с англ. Пасерба, С. М. Манн, Иванов и Фербер, 16–17.*

*9. Сабадаш, Ф.А., Толмачев, О.М. ve Запускалов, Н.М. (2016). Модернизация машиностроительных предприятий на основе логистических систем kanban и Just-in-Time Вестник МГТУ им. Г.И. Носова. №1. 130-136.*

*10. Морозова, О.А. ve Овсянникова П.А. (2017). Проблемы применения гибких методологий управления портфелем ИТ-проектов крупной организации. Проблемы современной науки и образования. 17(99). 34-39.*

*11. Сергеевна, Т.З. ve Хализова, И.А. (2019). Гибкие методы управления проектами, анализ и сравнение. Azimuth of Scientific Research: Economics and Administration. T. 8. № 1(26), 374-376.*

*12. Жамбалов, Е.Д. (2018), Гибкая методология управления проектами agile: сущность, преимущества и недостатки актуальные проблемы авиации и космонавтики, 68-69.*

*13. https://nt-csm.ru/az/metodologii-razrabotki-po-agile-chto-takoe-agile-perevod-sfery.html*

## МЕХАНИЗМЫ ПРИМЕНЕНИЯ И МЕТОДОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ГИБКОГО УПРАВЛЕНИЯ

Гибкая разработка ПО — это разработка манифеста (фреймворков, фреймворков, фреймворков), определяющего образ мышления и содержащего основные ценности и принципы нескольких подходов (хотя совсем недавно гибкие методологии разработки разрабатывались не только в плане информационные технологии., есть тенденции и попытки применить ее к другим сферам деятельности), интерактивное развитие, периодическое (динамическое) обеспечение (обновление). Реализация требований заказчика и их реализация через самоорганизованные рабочие группы специалистов разного профиля (разработчики, тестировщики, исполнители и т.д.). С тех пор перевод Agile «методологии гибкой разработки» не совсем корректен. В настоящее время существует множество фреймворков (методологий), основанных на гибких методологиях разработки, например: Scrum, Экстремальное программирование, FDD, DSDM и др.

Одна из ключевых идей Agile — командная работа и взаимодействие с клиентом лицом к лицу, что позволяет быстро принимать решения и минимизировать риски разработки программного обеспечения, поэтому команда территориально находится вместе. Кроме того, в состав команды входит представитель заказчика (по-английски, product owner — уполномоченный представитель заказчика или заказчик сам представляет требования к продукту; эту роль выполняет руководитель проекта заказчика или бизнес-аналитик).

**Ключевые слова:** *agile, управление, разработка программного обеспечения.*

## APPLICATION MECHANISMS AND METHODOLOGICAL ASPECTS OF FLEXIBLE MANAGEMENT

Flexible software development is the development of a manifesto (frameworks, frameworks, frameworks) that defines a way of thinking and contains the core values and principles of several approaches (although more recently, flexible development methodologies have been developed not only in terms of information technology. , there is a tendency and attempts to apply it to other areas of activity), interactive development, periodic (dynamic) provision (renewal). Implementation of customer requirements and their implementation through self-organized working groups of experts of different profiles (developers, testers, executors, etc.). Since then, Agile's translation of "agile development methodology" is not entirely correct. Currently, there are many frameworks (methodologies) based on flexible development methodologies, for example: Scrum, Extreme programming, FDD, DSDM, etc.

One of Agile's key ideas is teamwork and face-to-face interaction with the client, which allows for quick decision-making and minimizes software development risks, so the team is geographically located together. In addition, the team includes the customer's representative (in English, the product owner - the customer's authorized representative or the customer himself represents the requirements for the product; this role is played by the customer's project manager or business analyst).

**Keywords:** *agile, management, software development.*

UOT 33

# KORONAVİRUS PANDEMİYASININ QİDA SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İSTEHSAL-SATIŞ FƏALİYYƏTİNƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**ƏLİ HƏSƏNOV AZƏR o.**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*
*E-mail: h.ali_85@mail.ru*

## GİRİŞ

Qida sənayesində istehsal olunan məhsulun keyfiyyətinin qiymətləndirilməsi, qiymətləndirilən məhsul üçün keyfiyyət göstəricilərinin siyahısının seçilməsini, bu göstəricilərin əhəmiyyətini və onların əsas göstəricilərlə müqayisəsini əhatə edən bir sıra əməliyyatlardır. Məhsulların keyfiyyəti ekspertlər tərəfindən qiymətləndirildikdə, onlar laylı struktur (sadə struktur) şəklində təsəvvür edilir.

COVID-19, yeni kəşf edilən SARS-CoV-2 virusunun səbəb olduğu yoluxucu bir xəstəlikdir. Bu virusa yoluxmuş insanların əksəriyyəti yüngül və ya orta dərəcədə tənəffüs xəstəliklərindən sağalarkən, yaşlılar və ürək - damar xəstəlikləri, şəkərli diabet, xroniki tənəffüs xəstəlikləri və xərçəng kimi digər xəstəlikləri olan insanlar daha ciddi simptomlar göstərə bilərlər.

Xəstəliyin insandan insana asanlıqla keçə biləcəyi sübut edilmişdir. Virusun əsas ötürülmə yolu xəstə bir insan öskürən və ya asqıran zaman hava damcılarıdır. Bu səbəbdən xəstəliyin yayılmasının qarşısının alınmasında ilk addım bu damcıların yayılmasının qarşısını almaqdır.

Maska taxmaq, əl gigiyenasına diqqət yetirmək və başqalarından 2 metr məsafə saxlamaq tətbiq olunan tədbirlər sırasındadır. Hal-hazırda xəstəliyə qarşı xüsusi peyvəndlər hazırlanmışdır.

Bununla belə, potensial müalicələrin klinik sınaqları sürətlə gedir. İlk dəfə 13 yanvar 2020-ci ildə Wuhan əyalətində tənəffüs simptomları (qızdırma, öskürək, nəfəs darlığı) inkişaf edən bir qrup xəstədə aparılan araşdırmalar nəticəsində müəyyən edilən COVID-19 Qlobal Epidemik Yeni Koronavirus Xəstəliyi (COVID-19) bir çox ölkələrə yayılmışdır.

COVID-19 pandemiyası və ona qarşı alınan tədbirlər qlobal ticarətdən fərdlərin həyatına qədər gözlənilməz bir şəkildə təsir etmişdir. Yüngül soyuqdəymədən ölümcül pnevmoniyaya qədər dəyişən mənzərəni ortaya qoyan SARS-CoV-2 adlı virusun səbəb olduğu xəstəliyin nəzarətsiz yayılması bizə əsas ehtiyaclarımıza çatmaq qabiliyyətimizin əslində nə qədər həssas olduğunu göstərmişdir (Jack, 2019). Qida sektoru pandemiya dövründən ən çox təsirlənən sektorlardan biridir. Kütləvi qida istehsalı müəssisələri, restoranlar, hazır qida şirkətləri ümumilikdə koronavirus epidemiyasından təsirlənmiş və hələ də bu mənfi təsirlərə məruz qalmaqdadır.

Qida sektorunda istehlakçıların tələbləri dəyişməyə və artmağa başlayıb. Bu vəziyyət qida təhlükəsizliyi və keyfiyyəti baxımından yeni qaydaların formalaşmasını tələb edir. Avropa Qida Təhlükəsizliyi Agentliyi (EFSA) qidanın koronavirus üçün mümkün bir mənbə və ya ötürülmə yolu olduğuna dair heç bir aydın sübut olmadığını vurğulasa da, xüsusilə istehlakçılar epidemiyadan qorunmaq üçün hazır qida konsepsiyasından uzaqlaşmağın vacibliyini vurğulayıb. Bu vəziyyət istehsalçıların yeni qaydalara riayət etməsinə səbəb olmuşdur.

Sağlamlıq tədbirləri kənd təsərrüfatında və ərzaqda məhsuldarlığı azaltsa da, xammal tədarükündəki fasilələr istehsalı çətinləşdirmişdir. Evdənkənar istehlak və ixrac kanallarından gəlir axınının kəsilməsi büdcələri alt-üst etmişdir. Buna baxmayaraq, qida təchizatı zəncirimizin güclü infrastrukturu sayəsində istehsalımızı davam etdirdik və bu müddətdə həm ölkəmizi, həm də dünyanı qidalandırmağa davam edə bildik.

Bu gün virusun təsirləri azalsa da, epidemiyanın təkrar baş verməsi və ya digər oxşar böhranların yaranması ehtimalı istehsalçıdan istehlakçıya, dövlətdən özəl sektora qədər qida tədarükü zəncirinin hər bir halqasını ən çox narahat edən məsələdir.

Yaşadığımız pandemiya prosesini və qarşıdakı dövrü işıqlandırmaq üçün təşkil edilən bir sıra COVID-19 konfransları, pandemiyanı, alt sektorları, xarici bazarları, idarəetmə və hüquq problemlərini mütəxəssislərlə birlikdə araşdırmağa kömək etmişdir.

Ümid edirik ki, tarixin mürəkkəb bir dönəmini qeyd etmək üçün etdiyimiz bu araşdırma, qida təchizatı zəncirinin bütün maraqlı tərəflərinə bu günümüzü anlamağa və gələcəyimizi planlaşdırmağa kömək edəcək.

Qida təchizatı zənciri dünyaya təsir edən böhran dövründə çox vacib bir sınaq vermiş və sınaqdan uğurla çıxmışdır. Ölkəmizdə qida əldə etməkdə heç bir problem olmamış və bazar rəfləri və masaları heç vaxt boş qalmamışdır. Azərbaycan qida sənayesi, epidemiya ilə bağlı ilk xəbərin Çindən gəlməyə başladığı günlərdə tədarük zəncirinin şaxələndirilməsi üçün addımlar atmağa başlamışdır (Jack, 2019).

Ölkəmizdə xəstəliyin yayılması ilə işçilərin və istehlakçıların sağlamlığı ön plana çıxmış, epidemiyanın qida tədarükü zəncirinin davamlılığına təsir göstərməməsi üçün lazımi tədbirlər görülmüşdür. Bir çox məhsulun yığım vaxtına təsadüf edən bu dövrdə sənaye, fermerlə əməkdaşlıq edərək xammal axınının davamlılığını təmin etməyə diqqət yetirmiş və buna nail olmuşdur.

Rəqəmsal infrastruktura, marka şüuruna, təchizatçıya və bazar müxtəlifliyinə yönəlmiş şirkətlər, bu prosesi olduqca zərərli dəyərləndirmişdirlər (Jack, 2019).

Bununla belə, gələcəkdə oxşar vəziyyətlərə hazırlaşmaq üçün müqaviləli istehsalın hüquqi infrastrukturunun qurulması, məhsul çeşidinin şaxələndirilməsi, qida təhlükəsizliyi çərçivəsində istehlakçı ilə ünsiyyətin qurulması və problemlərin həlli istiqamətində təşəbbüslər irəli sürülmüşdür.

Azərbaycan qida və içki sənayesi, gələcəkdə vətəndaşlarımıza və dünyaya davamlı, keyfiyyətli və sərfəli məhsullar təqdim etməyə davam etmək əzmindədir. Biz tam əminik ki, sənayemiz bu böhrandan daha güclü çıxacaq və gələcəkdə dünyanın ən mühüm qida və içki təchizatçılarından birinə çevriləcək (Burhan, 2019).

Qida məhsullarının satışı zamanı profilaktik tədbirlərə əl gigiyenası, sosial məsafə, göz, ağız, burun və tənəffüs yollarının gigiyenası ilə təmas daxildir. İctimai yerlərdə müntəzəm səthlərin müntəzəm təmizlənməsi və dezinfeksiya edilməsi infeksiya riskini azaldır.

Qida məhsullarının satışıyla bağlı pandemiya dövründə mövcud vəziyyət (Burhan S.A,2019):

- İstehlakçıları xəbərdar etmək üçün müəssisələrin giriş-çıxışlarında, soyuducularda, mağaza daxilində göstərişlərin asılması, həmçinin ödəniş edərkən hər bir istehlakçıya paylanması olduqca təqdirəlayiqdir.
- Ərzaq mağazasında insanların əksəriyyətinin kassa qarşısında olduğunu nəzərə alsaq, hər bir kassa koronavirus aradan qalxana qədər iş zamanı açıq olmalıdır. Qeydiyyatçılar arasında 2 metr məsafə saxlanılmalıdır. Məsafə məsələsinə bəzi insanlar riayət etsə də çoxusu bu vəziyyətdən narazıdır.
- Qida şirkətlərinin işçiləri birdəfəlik maskalardan, əlcəklərdən (müxtəlif qida məhsulları ilə təmasda olduqda və hər hansı səbəbdən çirkləndikdə dəyişdirilməlidir), həmçinin dezinfeksiyaedici vasitələrdən istifadə edirlər.
- Açıq satışda olan çörəklər, bulkalar, quru meyvələr və digər qablaşdırılmamış qidalar istehlak edilməzdən əvvəl heç bir istilik müalicəsi və təmizlənmədən keçməmiş qidalar xüsusi rəf qutusunun arxasında saxlanmalı və xüsusi təmizləyici vasitələrlə (əlcək, maska) istehlakçılardan ayrılır və işçilər tərəfindən istehlakçılara təqdim edilir.
- Təmizlik obyektləri, soyunub-geyinmə otaqları, mexaniki və təbii ventilyasiya, işıqlandırma, su təchizatı və kanalizasiya sistemləri, təmizlik və dezinfeksiya üçün istifadə olunan vasitələrin mühafizəsi, işçilərin şəxsi gigiyenasına dair ümumi qaydalara riayət edilməsi bütün market və qida müəssisələrində yerinə yetirilən tədbirdir.
- Zalların və otaqların tez-tez havalandırılması olduqca vacib bir məsələdir. Lakin bu tədbirin yerinə yetirilib - yetirilməməsiylə bağlı dəqiq bir məlumat aşkar edilməmişdir.
- Soyuducunun temperatur sisteminin və soyuq zəncirinin davamlılığının müntəzəm monitorinqinin keçirilməsi.
- Həşərat və siçanlara qarşı mübarizə tədbirlərini gücləndirmək (dezinfeksiya və məhvetmə).
- Bu təlimatlara uyğun olaraq təmizləmə və dezinfeksiya işlərini təşkili.
- Hiper marketlərdə dezinfeksiyaedici maddələrin istifadəsi üçün qurğular yerləşdirilmişdir.
- Bu sahədə lisenziyası və xüsusi xidmətləri olan xidmət müəssisələrinin qida müəssisələrinin (topdan və pərakəndə satış məntəqələri, bazarlar, yarmarkalar və s.) fəaliyyət növünə görə dezinfeksiya edilməsi;
- İşçi heyətinin müntəzəm təlimi, həmçinin infeksiyanın qarşısının alınması ilə bağlı ən son məlumatların izlənilməsi.
- Tullantıların vaxtında atılması, həmçinin zibil qablarının təmiz saxlanılması;
- Heyətin sağlamlığının təmin edilməsi və evdə qalan xəstələrin personalı arasında maarifləndirmə işinin aparılması.
- Qida satıcılarının daxili qaydalara riayət etməsi;
- Simptomları olan insanların müəssisəyə daxil olması qadağan edilir.

Qida sektorunda istehsal-satış fəaliyyətiylə bağlı əsas tədbir sektorlararası və transsərhəd, COVID-19-un təsirinin azaldılması və qida sisteminin yenidən təşkili, hər kəs üçün sağlam qidalanmanın təmin edilməsi, eləcə də qida istehsalı və istehlakının davamlı inkişaf prinsiplərinə uyğunlaşdırılmasıdır (Burhan, 2019).

Təchizat zəncirinin pozulması və istehlakçı tələbatının azalması səbəbindən fermerlər çürüməyən məhsulları basdırıb parçalayırlar. Nəticədə şəhərin mərkəzində çoxları təzə meyvə-tərəvəz, süd və süd məhsulları, ət və balıq məhsulları əldə etməkdə çətinlik çəkirlər.

Dünyanın əsas ərzaq bazarları hələ də pandemiyaya

qarşı davamlıdır, bol məhsul səbəbiylə 2019-cu ildə ərzaq mallarının çoxu demək olar ki, yığılıb. Bununla belə, dünya əhalisinin böyük əksəriyyəti ərzaqları yerli bazarlardan alır, ona görə də qida təhlükəsizliyi məsələləri hələ də pozuntulara qarşı həssasdır.

Yüksək işsizlik, gəlir itkiləri və qida istehsalı xərclərinin artması da bir çox insanın ərzaq almasını çətinləşdirir. Bəzi ölkələrdə, hətta Azərbaycanda belə son aylarda ərzaq məhsullarının qiymətləri kəskin artıb.

Epidemiyadan əvvəl dünyanın ən yavaş qida təhlükəsizliyində yaşayan insanların sayı təxminən 820 milyon nəfər olaraq təxmin edilmişdir. Son məlumatlar göstərir ki, 135 milyon insan hazırda böhran səviyyəsində və ya ondan aşağı səviyyədə yaşayır. Bu ilin sonuna kimi bu insanların sayının iki dəfə artacağı gözlənilir.

COVID-19-un dərin iqtisadi təsiri (məhdud istehsal, bazara çıxış məhdudiyyəti, valyuta itkiləri, işsizlik və gözlənilməz tibbi xərclər) kiçik və orta kənd təsərrüfatı istehsalçılarından maliyyə qurumlarına qədər bütün sahələrə pul axınına və maliyyə dövriyyəsinə təsir göstərmişdir.

Bu baxımdan, xalqı ərzaqla təmin etməklə yanaşı, qida sistemindəki oyunçulara da diqqət yetirmək lazımdır. Həssas müəssisələrin və ev təsərrüfatlarının hərəkətlilik problemlərinin azaldılması istehsal prosesinin davamlılığının təmin edilməsi və insanların kifayət qədər qidayla təmin edilməsi baxımından çox vacibdir (Burhan, 2019). Bununla belə, bütün tədbirlər yerli şəraitə uyğun həyata keçirilməlidir: bir çox ərzaq təminatı problemlərini təkcə sosial təminatla həll etmək olmaz (Burhan, 2019).

Dövlət alqı - satqısı və ictimaiyyətə paylanması, qida sisteminin fəaliyyətinin təmin edilməsi və ərzaq qiymətlərinin inflyasiyadan qorunmasının vacib bir vasitəsi olaraq qəbul edilə bilər.

Sosial təminat 2 milyarddan çox kiçik fermerləri və onların ailələrini, dünyanın ən yoxsul və ən həssas qruplarını, eləcə də cəmiyyətin bütün təbəqələrindən olan qida işçilərini əhatə etməlidir. Bu səbəbdən, inkişaf etməkdə olan ölkələrdə qida məhsullarına çıxış və hərəkətliliyin aradan qaldırılması baxımından beynəlxalq maliyyə resurslarının sürətli səfərbərliyi çox vacibdir. Bununla əlaqədar olaraq, BMT baş katibi inkişaf etməkdə olan ölkələrdə (əsasən iqtisadi xammal və turizmə güvənən ölkələrdə) borcların yenidən qurulmasını tələb etmişdir. Bundan əlavə, qida təhlükəsizliyi və qida sisteminə (münaqişə, təbii fəlakətlər, iqlim dəyişikliyi və zərərvericilərin qitələrarası genişlənməsi kimi səbəblər) pandemiyanın təsirləri 2020 -ci ilin may aylarında daha da şiddətlənmişdir.

**Sxem 1: Böhran dövründə və ondan sonrakı dövrdə insanları qorumaq üçün həyata keçirilməsi vacib olan tədbirlər**




**Mənbə:** *https://atm.gov.az/az/news/198/covid-19-un-qida-tehlukesizliyine-ve-qidalanmaya-t/ - Qida təhlükəsizliyi 2021.*

Böhran dövründə və ondan sonrakı dövrdə insanları qorumaq üçün üç sahədə bir sıra tədbirlər, nəticədə qida sisteminin yenidən qurulmasını tələb edir (Burhan, 2019).

Yuxarıda qeyd etdiyimiz bütün nüanslara diqqət edilməsi gələcək növbəti illərdə qida sektorunda müəyyən irəliləyişlərə səbəb ola bilər. Bu məqamda ən vacib məsələ sektorun düzgün və vaxtında monitorinqidir.

**Açar sözlər:** *koronovirus pandemiyası, qida sənaye müəssisələri, istehsal-satış, qiymətləndirmə.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Burhan, S.A. (2019). Economic problems experienced during the pandemic period, London, TT, 454.*

*2. Corc, D.İ. (2019). The impact of coronavirus in the food industry, Birmingham, UN publication, 411.*

*3. Henry, A.A. (2019). Economic impacts of the pandemic, London, Theta, 253.*

*4. Jack, Z.L. (2019). The effects of the pandemic process on the foreign sector: economic reflections,*

*London, GERT, 312.*

*5. Əyyubov, V.S. və Tağıyev, A.M. (2019). Pandemiya dövründə iqtisadiyyatın tənzimlənməsi, Bakı, Elm, 511.*

*6. Əzizova, R.A. (2015). Azərbaycanda istehsal-satış fəaliyyətində mövcud problemlər. Bakı, Şərq, 387.*

*7. Hüseynova, X.M. (2018). Azərbaycanda iqtisadiyyatın idarə olunması problemləri, Bakı, Azərnəşr, 388.*

*8. İsmixanov, H.S. (2014). Qida sənaye müəssisələrində satış strategiyaları. Bakı, Azərnəşr, 361.*

*9. Məmmədov, M.A. (2019). Qida sektorunun tənzimlənməsinin əsasları. Bakı, Şərq və Qərb, 342.*

*10. Miriyev, A.S. (2017). Qida sənaye müəssisələrinin istehsal-satış fəaliyyətinin mövcud vəziyyəti. Bakı, Qanun, 348.*

*11. Səmədov, A.S. (2015). Qida müəssisələrinin marketinq fəaliyyətinə dair araşdırma. Bakı, Elm, 98.*

*12. http://idp.gov.az/az/news/1103 - Coronavirus (COVID-19) salgını 2021 ile mücadele.*

*13. https://aqreqator.az/az/iqtisadiyyat/910548 - AİİB pandmeiya ilə mübarizə üçün Pakistana kredit ayırıb- 250 milyon dollar 2021.*

*14. https://dergipark.org.tr/en/download/article-file/1321929 - Covid-19-un İqtisadi Təsirləri və 2021-ci il Epidemiyası ilə Mübarizə İqtisadi Tədbirlərinin Qiymətləndirilməsi 2021.*

*15. https://ena.az/az/news/id-29035 - Qida sektoru pandemiya dövründə 2021.*

*16. https://medipol.com.tr/bilgi-kosesi/bunlari-biliyor-musunuz/pandemi-nedir-corona-virusu-neden-pandemi-ilan-edildi - Pandemi hakkında 2021.*

*17. https://mida.gov.az/documents/strateji_yol_xeritesi_kend_teserrufati_mehsullarinin_istehsalina_ve_emalina_dair.pdf - SYX 2021.*

*18. https://www.bloomberght.com/gida-sektorunun-yarisi-2020-de-sektorel-daralma-bekliyor-2259494 - Gıda sektorunda daralma 2021.*

*19. https://www.jotags.org/2017/vol5_special_issue2_article27.pdf - Pandemi ve Qıda sektoru 2021.*

## ОЦЕНКА ВЛИЯНИЯ ПАНДЕМИИ КООРОНАВИРУСА НА ПРОИЗВОДСТВО И РЕАЛИЗУЮЩИЕ ПРЕДПРИЯТИЯ ПИЩЕВОЙ ПРОМЫШЛЕННОСТИ

**РЕЗЮМЕ**

В статье представлен анализ оценки влияния пандемии коронавируса на производственно-сбытовую деятельность предприятий пищевой промышленности. Как известно, коронавирусная инфекция, охватившая весь мир, затронула практически все отрасли как в Азербайджане, так и во всем мире; пищевой сектор, банковский сектор, туристический сектор и др. С этой точки зрения можно сказать, что все негативные последствия вируса в сфере экономики очень актуальны для нашего времени. Продовольствие и продовольственная безопасность всегда были стратегическим вопросом в истории человечества. До последних 20 лет, когда все страны стремились к самообеспечению продовольствием, особенно основными продуктами питания, цель продовольственной безопасности и самообеспечения начала меняться в 1990-х годах. Самодостаточность показывает, насколько национальное потребление продуктов питания оплачивается за счет национального производства. Однако эта цифра не отражает того факта, что все лица в стране имеют адекватную и сбалансированную систему, даже если страна самодостаточна в потреблении продуктов питания и даже является экспортером.

**Ключевые слова:** *пандемия коронавируса, предприятия пищевой промышленности, производство-сбыт, оценка.*

## ASSESSMENT OF THE EFFECT OF THE COORONAVIRUS PANDEMY ON THE PRODUCTION AND SALES OF FOOD INDUSTRIAL ENTERPRISES

**SUMMARY**

The article provides an analysis of the assessment of the impact of the coronavirus pandemic on the production and sales activities of food industry enterprises. As it is known, coronavirus infection, which has plagued the whole world, has affected almost all sectors in Azerbaijan as well as all over the world; food sector, banking sector, tourism sector, etc. From this point of view, it can be said that all the negative effects of the virus in the economic sector are very relevant for our time. Food and food security has always been a strategic issue in human history. Until the last 20 years, while all countries aimed at self-sufficiency in food, and especially basic food, the goal of food security and self-sufficiency began to change in the 1990s. Self-sufficiency shows how much national food consumption is paid for by national production. However, this figure does not reflect the fact that all individuals in the country have an adequate and balanced system, even if the country is self-sufficient in food consumption and even an exporter.

**Keywords:** *coronavirus pandemic, food industry enterprises, production-sales, evaluation.*

UOT 332.122

# AĞDAM RAYONUNUN SOSİAL-İQTİSADİ İNKİŞAF AMİLLƏRİNİN TƏHLİLİ

**ƏLİ ŞİXƏLİYEV**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*

*E-mail: ali.shikhaliyev99@gmail.com*

## GİRİŞ

Ölkəmiz 2020-ci ildə ikinci böyük ağır sınaqdan keçmiş və qalibiyyət əldə edərək torpaqlarımız düşməndən xilas edilmişdir. 30 ilə yaxındır ki düşmən işğalında olan ərazilərimizin torpaq ehtiyatları, bitki örtüyü, suvarma sistemləri dağıdılmış, abidələr məhv edilmiş, iqtisadi fəaliyyət dayanmışdır. İşğaldan azad edilmiş ərazilər SSRİ dövründən bəri diqqət mərkəzində olmuş, iqlim şəraiti, təbii ehtiyatları, sahibkarlıq fəaliyyəti, kənd təsərrüfatındakı perspektivliyi və sosial-iqtisadi amilləri ilə digər ərazilərdən seçilmişdir.

Sosial-iqtisadi inkişaf amilləri dedikdə, ölkənin bütövlükdə iqtisadiyyatının bütün sahələrini özündə birləşdirir və həmin sahələrin ayrı-ayrılıqda təhlilini və qiymətləndirilməsini tələb edir. Bu sahələrin inkişaf səviyyəsini iqtisadiyyatın inkişaf tempi ilə, başqa bir sözlə, ÜDM-dəki payı ilə müəyyən edilir.

İkinci Qarabağ müharibəsinin bitməsi ilə işğaldan azad olunmuş ərazilərdə yeni bir dövr başlamış, bir-birinin ardınca uzunmüddətli yenidənqurma layihələri işlənib hazırlanmışdır və bu gün həmin layihələr məqsədəuyğun formada ardıcıllıqla yerinə yetirilir.

2021-ci ildə işğaldan azad edilmiş ərazilər yenidən iqtisadi rayonlara bölünmüş, Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonları ləğv edilmiş, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonu yaradılmışdır. Qarabağ iqtisadi rayonuna aid olan Ağdam ərazisinə görə ikinci ən böyük rayondur. Birinci Qarabağ müharibəsində Ağdamın 77,4 faiz torpağı işğal olunmuş, ən böyük insan itkisini də bu rayon vermişdir.

Ağdam rayonu sürətli inkişaf edən kənd təsərrüfatına, ağır yeyinti və yüngül sənayeyə malik olan bir rayondur. Ağdamda traktor və avtomobil təmiri, asfalt, konserv, yağ – pendir, barama toxumu, pambıq, şərab və mexanikləşdirilmiş çörək zavodları, xalça fabriki, taxıl məhsulları istehsalçısı olmuşdur. İşğaldan öncə rayonda tikinti materialları və ət kombinatları, iki dəmir yolu vağzalı və aeroport, avtomobillərə texniki xidmət stansiyaları, məişət – xidməti kombinatı, elektrik şəbəkəsi, kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsi mövcud idi. Rayon ərazisinin 1700 hektarı meşəlik, 91,3 hektarı isə kənd təsərrüfatına yararlı torpaqlardan ibarət idi. Kənd təsərrüfatının istiqaməti isə əsasən pambıqçılıq, üzümçülük və heyvandarlıqdır [6].

**Şəkil 1. Qarabağ: İnzibati rayonlar üzrə mineral resurslar**




**Mənbə:** *Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (2021) "Azərbaycanin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları" https://ereforms.gov.az/files/review/pdf/az/50106b9302c648fb32645cc9493f2dad.pdf*

**Sahibkarlıq.** Sosial-iqtisadi inkişafda sahibkarlığın rolu qiymətləndirilərkən sahələr kompleks şəklində götürülür. Kompleks qiymətləndirmə metodu dedikdə, ayrı-ayrılıqda amillərin birbaşa olaraq ən son nəticəyə təsiri və bu amillərin bir-biri arasındakı əlaqəni rəhbər tutaraq sahibkarlıq amillərinin seçilməsi və tənzimlənməsinə sistemli şəkildə yanaşmaqdır [4].

Aparılmış tədqiqatlara görə makroiqtisadi artım və sahibkarlığın qarşılıqlı əlaqəsi iqtisadi göstəricilərin bütün səviyyəsində özünü göstərir. Ümumi Daxili Məhsulun artımı bilavasitə məşğulluğun sə-

viyyəsinə təsir edir. Başqa bir tərəfdən də ÜDM-nın artım tempi ayrı iqtisadi sahələrin kompleks inkişafı və əlaqəli sahələrin maliyyəşməsində mənbə rolunu oynayır. Xarici və daxili investisiyaların artımı, investisiya qoyuluşunda qeyri-neft sektorunun xüsusi çəkisinin artması nəzəri baxımdan konseptual inkişafa, maliyyə inkişafına təsir edir. Buna görə də, Ağdam rayonunun sosial-iqtisadi amillərini qiymətləndirərkən sahibkarlığın və onunla bağlı digər sahələrin və amillərin tədqiqi və qiymətləndirilməsi məqsədə uyğundur.

**Cədvəl 1. Əsas kapitala yönəldilmiş investisiyaların, o cümlədən tikinti-quraşdırma işlərinə yönəldilmiş investisiyaların regionlar üzrə bölüşdürülməsi**

| İllər | Məhsul istehsalı sahələrinə | Xidmət sahələrinə | Yaşayış evlərinin tikintisinə |
|---|---|---|---|
| **2020** | 3812,5 | 9624,4 | 789,6 |
| **2019** | 5587,2 | 9577,8 | 5420,1 |
| **2018** | 8133,6 | 5986,4 | 462,0 |
| **2017** | 3814,7 | 6457,6 | 454,0 |
| **2016** | 4686,2 | 2133,4 | 589,6 |
| **2015** | 4703,6 | 2958,6 | 609,0 |
| **2003-2014** | 21749,7 | 13358,9 | 32204,8 |

**Mənbə:** *Statistika Komitəsi, sənaye https://www.stat.gov.az/source/industry/*

**Cədvəl 2. 2020-ci ildə Ağdam rayonu üzrə hüquqi şəxslərdə və digər tədbirlər üzrə yeni açılmış iş yerlərinin sayı**

| Yeni iş yerlərinin sayı, cəmi | O cümlədən: | | | Yeni yaradılmış fərdi sahibkarlıq subyektlərinin sayı |
|---|---|---|---|---|
| | Yeni yaradılmış müəssisə və təşkilatlarda | Mövcud müəssisə və təşkilatlarda | Digər tədbirlər üzrə | |
| 1044 | --- | 15 | 1029 | 2400 |

**Mənbə:** *Statistika Komitəsi, sənaye https://www.stat.gov.az/source/industry/*

Yuxarıdakı cədvəllərdən də göründüyü kimi, dövlətin diqqəti hər zaman Ağdam rayonunun üzərində olmuşdur. İnvestisiya həcmi hər il artmaqda davam etmişdir. Təkcə 2020-ci ildə həm pandemiya şəraiti, həm də 44 günlük müharibə investisiya həcminə təsir göstərmişdir.

Bunlara əsasən, Ağdam rayonunda müəssisələrin sayı, qeyri- dövlət sektorunun çəkisi, investisiyaların bu ərazilərdə çoxluq təşkil etməsi, bu ərazilərdə sosial-iqtisadi potensialın səviyyəsini göstərir və bu ölkənin ÜDM-dəki payının artmasına gətirib çıxarır.

**Cədvəl 3. Regionlar üzrə sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi, faizlə**
**Mənbə:** *Statistika Komitəsi, sənaye https://www.*

| Rayon | 2006 | 2007 | 2008 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ağdam | 41,0 | 3,7 | 10,0 | 1,7 | 1,6 | 1,2 | 1,4 | 1,4 | 1,5 | 2,0 | 3,1 | 5,2 |
| Fizuli | --- | 2,8 | 2,0 | 4,3 | 2,2 | 9,2 | 10,8 | 18,6 | 20,1 | 20,8 | 31,3 | 31,3 |

*stat.gov.az/source/industry/*

Statistik məlumatlara əsasən, 2020-ci ildən bəri Qarabağ iqtisadi zonasında, xüsusən də Ağdam rayonunda sosial-iqtisadi göstəriciləri yüksəlməyə başlayıb. Bunun əsas səbəbi, Ağdam rayonunun ərazisinin müəyyən bir həssəsinin düşmən nəzarətinə keçməməsi və orada məhdud şəraitdə də olsa, iqtisadi sahələrin fəaliyyətinin davam etməsidir.

**Cədvəl 4. 2020-ci ildə Qarabağ iqtisadi rayonunun əsas sosial-iqtisadi göstəriciləri (1-ci hissə)**
**Mənbə:** *Statistika Komitəsi, sənaye https://www.*

| Qarabağ iqtisadi rayonu | Ərazi min kv. Km. | Əhalinin sayı | Kənd təsərrüfatı subyeklərinin sayı | Muzdlu işçilərin sayı | Muzdlu işçilərin orta aylıq nominal əmək haqqı, manatla | Əhalinin nominal gəlirləri |
|---|---|---|---|---|---|---|
| Ağdam | 1,15 | 205,1 | 10666 | 14,1 | 396,5 | 59316,2 |
| Fizuli | 1,39 | 134,7 | 7526 | 9,5 | 440,7 | 80060,0 |
| Şuşa | 0,31 | 34,9 | 112 | 3,3 | 410,2 | .... |

*stat.gov.az/source/industry/*

Cədvəl 4 və 5-də Ağdam, Fizuli, Şuşa şəhərinin 2020-ci il üzrə sosial-iqtisadi göstəriciləri verilmişdir. Buradan da göründüyü kimi, Fizuli də Ağdam kimi Birinci Qarabağ müharibəsində ərazisini tamamiylə itirməyən rayonlarımızdandır və Şuşadan fərqli olaraq sosial-iqtisadi göstəriciləri olduqca yüksəkdir. Bu da onu göstərir ki, Ağdamda mövcud olan sosial-iqtisadi potensialı, sahibkarlığın, aqrar sahənin və digər prioritet sahələrin fəaliyyətinin davam etməsi rayonun digər ərazilərinə öz müsbət təsirini göstərəcək və yenidənqurma işləri daha sürətlə irəliləyəcəkdir.

**Cədvəl 5. 2020-ci ildə Qarabağ iqtisadi rayonunun əsas sosial-iqtisadi göstəriciləri (2-ci hissə)**

| Qarabağ iqtisadi rayonu | Əsas sahələr üzrə məhsulun ümumi buraxılışı, milyon manat | Sənaye məhsulu min manat | Kənd təsərrüfatı məhsulu, min manat | O cümlədən: | | Pərakəndə ticarət dövriyyəsi, min manat | Əsas kapitala yönəldilmiş vəsaitlər, min manat |
|---|---|---|---|---|---|---|---|
| | | | | Bitkiçilik | Heyvandarlıq | | |
| Ağdam | 177,3 | 13104,8 | 132260,2 | 79461,3 | 52798,9 | 45930,8 | 14226,5 |
| Fizuli | 191,0 | 18224,9 | 87872,3 | 52411,2 | 35461,1 | 57814,6 | 74387,6 |
| Şuşa | 18,6 | 15,1 | 5391,9 | 2208,2 | 3183,7 | ..... | 12500,0 |

**Mənbə:** *Statistika Komitəsi, sənaye https://www.stat.gov.az/source/industry/*

**Cədvəl 6. Regionlar üzrə sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, faktiki qiymətlərlə, min manat**

| Rayon | 2006 | 2007 | 2008 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ağdam | 2855 | 3048 | 2605 | 5049 | 6389 | 6841 | 7111 | 12693 | 12609 | 13731 | 13101 |
| Fizuli | 401 | 2594 | 2252 | 5352 | 10247 | 10298 | 11726 | 17323 | 16494 | 19575 | 18225 |

**Mənbə:** *Statistika Komitəsi, sənaye https://www.stat.gov.az/source/industry/*

Sosial-iqtisadi inkişaf göstəricisi olan, kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatının başlıca sahələrindən biri kimi ÜDM-nin istehsalında və əhalinin istehlak olan tələbatın tədarük edilməsində əvəzedilməz yer tutur. Çünki bir iqtisadiyyatın güclü olması üçün kənd təsərrüfatının inkişaf etmiş olması əsasdır. Kənd təsərrüfatı zəif inkişaf etmiş ölkələr iqtisadi dayanıqlılığa nail ola bilməzlər.

Sahibkarlığın heyvandarlıq sahəsində inkişafı əhalinin məşğuliyyətini və yeni təsərrüfat formalarının meydana gəlməsini zəruriləşdirir. Heyvandarlığın inkişafında fiziki şəxslərin sahibkarlıq fəaliyyəti daha üstün artma meyilinə malikdir [4].

Regionun sosial-iqtisadi inkişafının əsas istiqamətləri çərçivəsində sahibkarlığın ərazi üzrə yerləşməsinin proqnozu verilir. Belə ki, tələblə-təklif tarazlığını təmin edən eyni amillərin təsirini nəzərə almaqla ixtisaslaşma və marketinq quruluşu müəyyənləşdirilir.

Ərazi sosial-iqtisadi inkişaf proqramı ümumi strateji aspektlərlə yanaşı, sahə proqramları kontekstində vəzifələrə, məqsədlərə və onların həlli yollarına bölünür. Hər bir ərazidə istehsal sahələri, sosial sahələr üzrə proqramlar öz vəzifəli məqsədinə görə yerli tələbatı təmin etdikdə maliyyə və təşkilati idarəetmə strukturu baxımından sahənin imkanları və mənafeyindən asılı olaraq formalaşır və inkişaf edir [4].

Ağdamın həm strateji əhəmiyyətinin böyük olması, həm də ərazinin ermənilər tərəfindən böyük bir qisminin tamamilə dağıdılması bərpa-quruculuq işlərinin ilkin olaraq bu ərazidən başlanmasına səbəb oldu.

2021-ci ilin may ayının 28-də Ağdamın Baş Planı qəbul olundu. Bununla da, Ağdamda 125 hektar sahəni əhatə edən meşə-parkında ağacların əkilməsi, Bərdə-Ağdam yolunun tikilməsi, yeni yaşayış binalarının inşaası, açıq hava şəraitində İşğal muzeyi və Zəfər muzeyi, 140 illik tarixə malik olan q saylı Ağdam məktəbinin yenidən bərpası işlərinə başlanmışdır [2].

Baş planda göstərildiyi kimi, Ağdam şəhərinin ərazisi 1750 hektar, şəhərətrafı bağların 2450 hektar olması nəzərdə tutulmuşdur. Burada əsas məqsəd Ağdamda sosial infrastrukturun dayanıqlı olmasına nail olmaqdır. Fərdi evlərin səviyyəsi 30 faiz olması planlaşdırılmışdır. Yüksəkmərtəbəli evlər də Ağdamın 30 faizini əhatə edəcək və əhalinin 70 faizi bu binalarda yaşayacaq. Yüksəkmərtəbəli binalar isə Ağdam şəhərinin ərazisinin 30 faizini,

əhalinin 70 faizini əhatə edəcək.

Ağdam şəhərində 15 məktəb və uşaq bağçasının tikintisi nəzərdə tutulmuşdur. Nəqliyyat infrastrukturu əhalinin yaşayış mərkəzlərinə, rahatlığına uyğun layihələndirilmişdir. Küçələrdə və yollarda piyada keçidləri, ictimai nəqliyyat xətləri və elektriklə işləyən tramvay zolaqları layihə planlarına daxil edilmişdir [5].

Rayon daxilində 23 ədəd şəhər parkının salınması, bununla şəhərin 20 faizinin yaşıllandırılması planlaşdırılmışdır. Bu da həm ekologiyanın təmizlənməsinə, həm də şəhərin dağıdılmış ərazilərin görünüşünə töhfə verəcəkdir.

İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilən layihələrdən biri və ən önəmli olan, əlbəttə, ki, elektrik təchizatıdır. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq "Azərenerji" ASC tərəfindən artıq hər biri 110/35/10 kilovoltluq "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının tikintisi yekunlaşıb. "Ağdam-1" yarımstansiyası rayon mərkəzinin girişində, keçmiş avtovağzalın yanında, "Ağdam-2" yarımstansiyası isə rayonun Əsgərana yaxın, Şelli kəndi istiqamətində inşa edilmişdir. Bu yarımstansiyalarda rəqəmsal idarəetmə mərkəzi yaradılmış, skada sisteminə qoşulmuşdur. Paralel olaraq fiberoptik kabellərin çəkilişi təmin edilib ki, bu da Ağdam şəhərinin gələcəkdə yüksəksürətli internet ilə təchiz olunmasına şərait yaradacaq.

Ağdamda iqtisadiyyatın yenidən bərpası, məşğulluğun təmin edilməsi, sənayenin yenidən ölkə iqtisadiyyatına qazandırılması məqsədi ilə layihələr icra olunmağa başlanmışdır. Bunlardan biri də Ağdam Sənaye Parkıdır.

Sənaye Parkında İqtisadi Zonaların İnkişafı Agentliyi üçün mobilizasiya, Qida sənayesi şirkətləri, kiçik istehsal və xidmət sahələri, geniş potensial istiqaməti olan tikinti materiallarının satışı, TIR parkı, texnikaların təmiri və iri sənaye müəssisələri üçün nəzərdə tutulmuşdur. Burada həmçinin tikinti materiallarının istehsalı firmalarının qurulması, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, şərab, yem, gübrə istehsalı və emalının, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların təşkili planlaşdırılır (Ağaməmmədov T., 2021).

Yaradılan Sənaye Parkında kiçik və orta istehsalat və xidmət firmaları, qida və sənaye sahəsi ilə bağlı iri müəssisələr fəaliyyətə başlayacaqdır.

**Açar sözlər:** *Sosial-iqtisadi inkişaf, Ümumi Daxili Məhsul (ÜDM).*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Ağaməmmədov T., (20.11.2021). "Bir il əvvəl işğaldan azad olunmuş Ağdama həyat yenidən qayıdır" https://azertag.az/xeber/Bir_il_evvel_isgaldan_azad_olunmus_Agdama_heyat_yeniden_qayidir_FOTO-1930840*

*2. Allahverdiyeva V., (18.02.2022). "Ağdam – inkişaf və quruculuq məkanına çevrilən doğma diyar" https://muallim.edu.az/news.php?id=19367#prettyPhoto*

*3. Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (2021). "Azərbaycanin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları" https://ereforms.gov.az/files/review/pdf/az/50106b9302c648fb32645cc9493f2dad.pdf*

*4. Əliyev K., (2009). "Aqrar sahədə sahibkarlığın inkişafının regional problemləri" Bakı, "NurlanNPM" səh.160 https://www.ebooks.az/view/GsKJlhM9.pdf*

*5. http://kurdemir-ih.gov.az/news/1225.html 2020-11-24, 2020*

*6. http://ryl.az/muharibe/agdam.pdf – Ağdam, 2018*

*7. https://www.stat.gov.az/source/agriculture/ Statistika Komitəsi, kənd təsərrüfatı, 2022*

*8. https://www.stat.gov.az/source/industry/ Statistika Komitəsi, sənaye, 2022*

## АНАЛИЗ ФАКТОРОВ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ АГДАМСКОГО РАЙОНА

### РЕЗЮМЕ

Прошел год со дня освобождения Агдама. В течение этого года было запущено много проектов по экономическому развитию и восстановлению жизни в Агдаме. Агдам обладает большим социально-экономическим потенциалом, что обусловило начало восстановительных работ в районе.

Между развитием предпринимательства и экономическим развитием региона, его социальной защищенностью, решением проблемы бедности региона, его масштабной интеграцией и качественным изменением его интеграции в мировую интеграционную

систему существует системная и сложная взаимосвязь.

Динамика, структура и направления предпринимательства изменяются и развиваются в зависимости от динамики общего экономического роста и микроэкономического и сбалансированного развития государства.

Рост валового внутреннего продукта, изменение его состава, динамика и структура регионов в регионах на основе рыночной экономики, эффективность и развитие предпринимательства, развитие и размещение регионов.

Открытие новых предприятий, продолжение государственной поддержки в этих сферах в период оккупации, разработка и реализация проектов, большой объем инвестиций еще больше увеличивают имеющийся экономический потенциал Агдама.

**Ключевые слова:** *Социально-экономическое развитие, Валовый Внутренний Продукт (ВВП).*

## ANALYSIS OF SOCIO-ECONOMIC DEVELOPMENT FACTORS OF AGDAM DISTRICT

### SUMMARY

One year has passed since the liberation of Aghdam. During this year, many projects have been launched for the economic development and restoration of life in Agdam. Aghdam has a great socio-economic potential, which led to the start of restoration work in the region.

There is a systematic and complex relationship between the development of entrepreneurship and the economic development of the region, its social security, the solution of the problem of poverty in the region, its scale integration and qualitative change in its integration into the world integration system.

The dynamics, structure and trends of entrepreneurship change and develop depending on the dynamics of overall economic growth and microeconomic and balanced development of the state.

The growth of the Gross Domestic Product, the change in its composition, the dynamics and structure of the regions in the regions through a market economy, the efficiency and development of entrepreneurship and the development and location of regions.

The opening of new enterprises, the continuation of state support in these areas during the occupation, the development and implementation of projects, the large amount of investment further increase the existing economic potential of Agdam.

**Keywords:** *Socio-economic development, Gross Domestic Product (GDP).*

UOT 332.122

# İŞĞALDAN AZAD EDİLMİŞ RAYONLARDA PEŞƏ TƏHSİLİNİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ

**ƏLİHÜSEYN İBRAHİMOV**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*

*E-mail: ibrahimov.alihuseyn@gmail.com*

## GİRİŞ

Müasir dövrdə iqtisadiyyatın müxtəlif sahələrinin kadrlarla tam təmin edilməsinə hazırda mövcud olan peşə məktəblərinin səmərəli yerləşdirilməsi də əhəmiyyətli təsir göstərir. Buna görə də əsas vəzifələrdən biri də kadr hazırlığı ilə mövcud iş yerlərinin sayı arasında tarazlığı təmin edən şərait yaradılmasına xüsusi diqqət yetirilməlidir.

Hazırda peşə-ixtisas təhsili sisteminin daha da genişləndirilməsi və onların işğaldan azad edilmiş rayonlarda məqsədə uyğun yerləşdirilməsi, bununla bərabər mövcud əmək ehtiyatlarından səmərəli istifadə edilməsi üzrə bir sıra məsələlərin həllində, xüsusilə, azad əmək ehtiyatlarının ictimai istehsala cəlb edilməsində əhəmiyyətli rol oynayır. Həmçinin, qeyd etməliyik ki, yeni texnikanın və müasir texnologiyanın tətbiqi işçilərin işçi keyfiyyətinin yüksəldilməsini tələb edir. Belə keyfiyyətə yüksək peşə ustalığı, texnikanı, texnologiyanı yaxşı bilmək, yaradıcı yeniliklərə malik olmaq daxildir. Müasir texnikanın və texnologiyanın əsas xarakterik xüsusiyyətlərindən biri onun işçi qüvvəsinin keyfiyyətindən asılı olması, ondan istifadə forması və istehsala daxil olması səviyyəsidir.

Müasir zamanda peşə məktəblərinin şəhər, rayonlar və kənd yerləri üzrə təşkilində və onların yerləşdirilməsində yol verilən çatışmazlıqlar bir tərəfdən, mövcud əmək ehtiyatlarının sürətlə artdığı bölgələrdə ixtisaslı işçi qüvvəsinin çatışmazlığına, digər tərəfdən isə əhalinin bir rayondan digər rayon və şəhərə həddindən artıq hərəkət etməsinə səbəb olur.

Hazırda işğaldan azad edilmiş rayonlarda yeni istehsal sahələrinin yaradılması, müəssisələrdə əmək bölgüsünün təkmilləşdirilməsi, elmi-texniki tərəqqinin yeni nailiyyətlərinin istehsala tətbiq edilməsi kadrların hazırlanmasını, kadr hazırlığının sistemlərinin daimi olaraq təkmilləşdirilməsini tələb edir və bu prosesi müntəzəm olaraq inkişaf etdirilməli və həmişə istehsalın müvafiq tələblərinə uyğun gəlməsinə nail olunmalıdır.

Müasir şəraitdə işğaldan azad edilmiş rayonlarda kadrların hazırlanması sahəsində aşağıdakı əsas vəzifələr var:

- Peşə təhsili müəssisələrində kadr hazırlığını ölkə iqtisadiyyatının inkişafına və əmək bazarının tələblərinə uyğun yüksək texnologiyalı istehsal və xidmət sahələrinə istiqamətləndirmək;
- Mütərəqqi təhsil formalarından istifadə etməklə fasiləsiz peşə təhsili sistemini daha da təkmilləşdirmək və bu istiqamətdə işçilərin iş yerində təhsilini davam etdirmək üçün lazımı şərait yaratmaq:
- Gələcək kadrların ümumi mədəni və texniki səviyyəsinin vəhdətliyinin təmin edilməsi nəticəsində mürəkkəb maşınları idarə edə bilən kadrların hazırlanması;
- Əmək bazarının tələblərinə müvafiq olaraq işsiz əhaliyə peşə öyrədilməsinə və yenidən hazırlanmalarına peşə təhsili müəssisələrində mümkün şərait yaratmaq;
- Bir neçə müasir maşın və avadanlığa xidmət edə bilən geniş profilli fəhlə kadrların hazırlığı;
- Peşə təhsilinin müəssisələrinin rəhbər mühəndis-pedaqoji işçilərinin ixtisasının artırılması və yenidən hazırlanması kadrları inkişaf etdirmək üçün əlavə tədbirlər həyata keçirmək. Respublikanın peşə məktəbi və peşə liseylərində çalışan ixtisas fənn müəllimləri arasında mühəndis pedaqoqların sayı kifayət qədər deyil;
- Peşə texniki müəssisələrində və firmalarda ixtisaslı kadrların hazırlığının səmərəsini artırmaq;
- Təhsil sahəsində islahat proqramına uyğun olaraq peşə təhsilini müasir tələblər baxımından inkişaf etdirmək, xidmət sahələri üçün yüksək ixtisaslı kadrlar hazırlamaq. Bu göstərilənləri həyata keçirmək üçün təhsil sistemində əsas istiqamət dərin biliyə, yüksək peşə hazırlığına, məsuliyyət hissinə, bacarığa, yüksək dünyagörüşünə malik olan vətəndaşlar tərbiyə etməkdən ibarət olmalıdır. (5)

Müasir dövrdə iqtisadiyyatın müxtəlif sahələri və qeyri-maddi istehsal sahələri üçün ixtisaslı fəhlə kadrlar hazırlığı əsasən iki formada həyata keçirilir.

Peşə məktəblərində ixtisaslı fəhlələrin hazırlanmasının gələcəkdə daha da inkişaf etdirilməsi tədrisin təşkilindən, mühəndis-pedaqoji kadrların və istehsal təlimi ustalarının düzgün seçilməsindən və hazırlanmasından əhəmiyyətli dərəcədə asılıdır. Orta təhsilli ixtisaslı fəhlə hazırlayan texniki-peşə təhsili bazasının genişləndirilməsi, onların müasir dövrə uyğun laboratoriyalarla və avadanlıqlarla təmin edilməsi və s. təkcə tədris plan-proqramının deyil, həmçinin mühəndis pedaqoji kadrların və istehsal təlimi ustalarının hazırlanmasının yenidən təşkil edilməsini və daha da təkmilləşdirilməsini tələb edir.

İşğaldan azad edilmiş rayonlarda peşə təhsilinin ictimai statusunun yüksəldilməsi, Milli İxtisas Çərçivəsinin hazırlanması, milli peşə kurikulumunun yaradılması, qeyri-normal peşə təhsili sisteminin inkişaf etdirilməsi, özəl peşə təhsili şəbəkəsinin yaradılması və digər bu kimi məsələlər peşə təhsili sisteminin inkişaf etdirilməsi, özəl peşə təhsili şəbəkəsinin yaradılması və digər bu kimi məsələlər peşə təhsili sisteminin gələcək inkişaf istiqamətlərini təşkil edəcək.

Respublikanın işğaldan azad edilmiş rayonlarında ixtisaslı fəhlə kadrların hazırlanmasında ən başlıca məsələlərdən biri texniki peşə məktəblərində kadr hazırlığının ümumi sayının və peşələr üzrə sayının düzgün proqnozlaşdırılmasıdır. Texniki peşə məktəblərdə ixtisaslı fəhlə kadrların sayı respublika şəhər və kənd məktəbləri üzrə hesablanır.

Müasir dövrdə peşə məktəblərilə yanaşı firmalar, ilk öncə sənaye müəssisələri kütləvi peşələr üzrə fəhlə kadrlar hazırlığının əsasını təşkil edir. Firmalarda fərdi, briqada və qrup formasında istehsalat təlimi ilə bərabər xüsusi təşkil edilmiş məktəb və kurs formasında da kadrlar hazırlığı həyata keçirilməlidir. Belə məktəb və kurslarda fəhlələrin istehsalat təlim istehsalatdan ayrılmaq və ayrılmamaq şərtilə təşkil olunur. Kurs və məktəblərdə daha mürəkkəb ixtisaslar üzrə hazırlanır. Məsələn, belə kurs və məktəblərdə ocaqçılar, elektrik və qaz qaynaqçıları, maşinistlər, sazlayıcılar, briqadirlər, ustalar hazırlanmalıdır. İstehsalatdan ayrılmadan təşkil olunan kurs və məktəblər bir müəssisədaxili təşkil edilir və həmin müəssisənin gücü ilə aparılır. İstehsalatdan ayrılmaqla təşkil olunan kurs və məktəblər isə daimi müəssisələrarası daha mürəkkəb peşələr üzrə kadrlar hazırlığı üzrə təşkil olunmalıdır.

Hal-hazırda qeyd etdiklərimiz istehsalatda məhsul istehsalı ilə yanaşı kadrlar hazırlığını da mühüm bir iqtisadi göstərici kimi tələb edir. İşğaldan azad edilmiş rayonlarda ixtisaslı fəhlələrin hazırlıq planını tərtib edərkən aşağıdakılar əsas götürülməlidir:

- həmin planların tərtib olunduğu dövrün axırında işçilərin peşə-texniki tərkibində baş verəcək dəyişikliklərin proqonozunun müəyyən edilməsi;
- buraxılış ilinin axırına işçilərin peşə üzrə sayı;
- müəssisələrin ayrı-ayrı peşələr üzrə əlavə işçi qüvvəsinə olan tələbatı, daha sonra firma yuxarıda qeyd olunan formalarda öz gücü ilə ixtisaslı fəhlə kadrları hazırlığı planını tərtib edir, bəzi peşələr üzrə firma özü fəhlə kadrları hazırlamaq iqtidarına olmadıqda texniki peşə məktəblərdə həmin kadraların hazırlanması üçün sifariş planı tərtib edir.

İşğaldan azad edilmiş rayonlarda müəssisələrin kadr hazırlığı planı həmin müəssisənin real tələbatı və elmi-texniki tərəqqinin müasir tələblərinə uyğun olaraq tərtib olunmalıdır.

Peşə təhsili məzunlarının iş tapması ali və orta ixtisas təhsili məzunları ilə nisbətdə daha çətindir. Halbuki, yaxşı təhsil görmüş texniki peşə təhsilli mütəxssis əmək bazarında özünə daha tez iş tapmalıdır. Çünki onun təklifi biznes strukturlarına daha əlverişlidir. Bunun da səbəbi peşə təhsilinin səmərəli təşkil olunmamasındadır. 1-si, Azərbaycanda işləyənlərin peşə və ixtisasları üzrə statistika aparılmır. Belə statistika aparılsaydı, hər il texniki peşə üzrə ixtisaslı məzunların iş tapma dinamikasının necə dəyişdiyini görmək olardı. Buna görə də işğaldan azad edilmiş rayonlarda bu sahə üzrə düzgün və ardıcıl statistikalar aparılsa eyni problemlərlə qarşılaşmarıq. Texniki-peşə təhsil sisteminin düzgün qurulmasında ən birinci şərt kimi əmək bazarını öyrənmək və bu sahənin inkişafı üçün sahibkarlıq subyektləriylə əlaqəli işləmək vacib sayılır. Texniki peşə təhsilinin keyfiyyətini, orada öyrədilən biliklərin nə dərəcədə mənimsənilməsinin ölçü kriteriyası isə məzunların iş tapma tezliyini göstərən statistika ola bilərdi. Təəssüf ki, Azərbaycanda nə peşə məktəbləri, nə nazirlik, nə də Dövlət Statistika Komitəsi belə bir təhlili aparır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını təhlil edərkən bu rayonlarda hazırda mövcud olan 7 peşə məktəbi görürük. Bu tədris müəssisələrində insanların peşə bacarığına uyğun hazırlıqların keçirilməsi sistemləşdirilməyib. (1)

Bu peşə məktəbləri aşağıdakılardır:

1. Laçın peşə məktəbi
2. 1 nömrəli Füzuli peşə məktəbi
3. 2 nömrəli Füzuli peşə məktəbi
4. Kəlbəcər peşə məktəbi
5. Cəbrayıl peşə məktəbi
6. 4 nömrəli Ağdam peşə məktəbi
7. 2 nömrəli Ağdam peşə məktəbi

Laçın peşə məktəbində təmirçi-çilingər, dərzi və heyvandarlıq mütəxəssisi, 1 nömrəli Füzuli peşə məktəbində əməliyyatçı-mühasib, üzüm ustası, geniş profilli traktorçu-maşinist, təmirçi-çilingər, kimyəvi-bakterioloji analiz laborantı, bənna, elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru, 2 nömrəli Füzuli Peşə məktəbində bədii tikmə ustası, qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər, traktorçu-maşinist, elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru, Kəlbəcər peşə məktəbində elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru, bitkiçilik mütəxəssisi(pambıqçılıq), Cəbrayıl peşə məktəbində çilingər-santexnik, bitkiçilik mütəxəssisi(pambıqçılıq), 4 nömrəli Ağdam peşə məktəbində traktorçu-maşinist, kənd təsərrüfatı maşın və avadanlıqlarının təmiri üzrə çilingər, elektrik avadanlıqlarının təmiri üzrə çilingər-elektrik, avtomobillərin təmiri çilingəri, 2 nömrəli Ağdam peşə məktəbində xalçaçı, pampıqçı, baramaçı, kənd təsərrüfatı məhsullarının istehsalı üzrə fermer, avtomobil sürücüsü (BC), kəndin elektrikləşdirilməsi və rabitəsi üzrə elektrik montyoru, avtomobil sürücüsü, traktorçu-maşinist, kənd təsərrüfatı maşın və avadanlıqlarının təmiri üzrə çilingər, tikiş avadanlıqlarının operatoru, tikişçi ixtisasları üzrə peşə təhsili tədris olunur. (2)

Apardığımız təhlil nəticəsində müşahidə olunur ki, rayonlar üzrə peşə təhsili ixtisasları bəzi məktəblərdə düzgün yerləşdirilməyib. Məsələn, Kəlbəcər rayonunda əhalinin əksəriyyəti kənd təsərrüfatının heyvandarlıq sahəsi ilə məşğul olurlar. Kəlbəcər peşə məktəbində bitkiçiliyin pamqıçılıq üzrə peşə məktəbində tədrisi zəruri deyil. Bunun əvəzində sağıcılıq, baytarlıq və digər heyvandarlıq üzrə ixtisasların tədrisi daha effektiv ola bilər.

Burada əsas fəaliyyət rayonlar üzrə düzgün təhlil aparmaqdan ibarətdir. Laçın və Kəlbəcər peşə məktələrində kənd təsərrüfatının heyvandarlıq üzrə, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarında bitkiçilik, xüsusilə pampıqçılıq, üzümçülük üzrə, Ağdam rayonunda ağıllı şəhər layihəsinə uyğun olaraq təmirçi, elektrik və digər ixtisasların tədrisinin səmərəli olacağı görünür.

Tədqiqatın əsas məqsədi olan işğaldan azad edilmiş rayonlarda peşə təhsili standartlarının iqtisadiyyatın inkişafına təsiri diqqət mərkəzində olmalıdır. İqtisadiyyatın inkişafı üçün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında hər inzibati rayonun əhalisinin ənənəvi məşğuliyyətləri nəzərə alınmalı, həmçinin ərazinin iqlim tipi və fiziki yerləşməsi də analiz olunmalıdır. Laçın və Kəlbəcər rayonu üzrə ərazinin 1500 metrdən yuxarı hissəsində subalp və alp çəmənliklərinin olması, bu ərazinin 1500-2000 metr hündürlüyündə dəmyə əkinçiliyin, ondan yuxarı olan hissəsində isə ətlik, ətlik-südlük və südlük heyvandarlığın inkişaf etdirilməsini zəruri edir. Terras əkinçiliyinin yaradılması məhsuldarlıq faizini yüksəldəcək və nəticədə əmək ehtiyatlarına ehtiyac yarandığı üçün əhalinin məşğulluq faizi artacaq. (3)

Statistika komitəsinin məlumatlarına əsasən tərtib olunmuş aşağıdakı cədvəldə işğaldan azad edilmiş rayonlarda ayrı-ayrı inzibati vahidlərdə əhalinin məşğulluq növü min nəfərlə göstərilir:

| **İqtisadi rayonlar (şəhər və rayonlar) üzrə** | **Cəmi** | **Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq** | **Mədənçıxarma sənayesi** | **Emal sənayesi** | **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | **Tikinti** | **Ticarət; nəqliyyat vasitələrinin təmiri** |
|---|---|---|---|---|---|---|---|---|
| **Qarabağ iqtisadi rayonu - cəmi** | **392,0** | **191,0** | **0,2** | **12,4** | **1,1** | **0,8** | **29,3** | **53,4** |
| **Xankəndi şəhəri** | **-** | **-** | **-** | **-** | **-** | **-** | **-** | **-** |
| **Ağdam rayonu** | **92,7** | **47,6** | **0,0** | **1,7** | **0,1** | **0,2** | **7,4** | **14,4** |
| **Füzuli rayonu** | **60,2** | **31,1** | **0,0** | **1,8** | **0,2** | **0,2** | **3,8** | **7,1** |
| **Xocalı rayonu** | **14,0** | **4,4** | **0,0** | **0,7** | **0,0** | **0,0** | **1,5** | **3,5** |
| **Xocavənd rayonu** | **22,1** | **11,2** | **0,0** | **0,5** | **0,0** | **0,1** | **2,1** | **3,8** |
| **Şuşa rayonu** | **15,8** | **0,7** | **0,0** | **1,1** | **0,0** | **0,0** | **3,0** | **4,7** |

*(www.stat.gov.az)*

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Şərqi zəngəzur iqtisadi rayonu - cəmi** | **157,0** | **68,7** | **0,0** | **4,7** | **0,0** | **0,3** | **13,6** | **28,0** |
| **Cəbrayıl rayonu** | **36,9** | **12,9** | **0,0** | **1,4** | **0,0** | **0,1** | **4,4** | **9,6** |
| **Kəlbəcər rayonu** | **42,9** | **25,5** | **0,0** | **0,8** | **0,0** | **0,0** | **2,6** | **4,5** |
| **Qubadlı rayonu** | **19,3** | **5,6** | **0,0** | **0,9** | **0,0** | **0,1** | **1,9** | **3,6** |
| **Laçın rayonu** | **36,2** | **17,5** | **0,0** | **0,7** | **0,0** | **0,1** | **2,2** | **6,3** |
| **Zəngilan rayonu** | **21,7** | **7,2** | **0,0** | **0,9** | **0,0** | **0,0** | **2,5** | **4,0** |

*(www.stat.gov.az)*

Bu məlumatlara əsasən belə nəticəyə gəlirik ki, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında insanların əmək fəaliyyəti əsasən kənd təsərrüfatı və meşəçilik üzrə ixtisaslaşıb. Buna görə də peşə məktəblərində əsasən kənd təsərrüfatı sahəsi üzrə ixtisasların tədrisi məqbul hesab edilir.

Tədqiqatın əsas araşdırılan hissəsi olan peşə təhsilinin iqtisadiyyata təsirini təhlil edərkən bir sıra məhdudiyyətlərlə qarşılaşırıq. Bunlar ilk olaraq işğaldan azad edilmiş rayonlarda vahid sistemin hələ qurulmamasıdır. Şəhərləşmə, insanların sosial-psixoloji hazırlığı burada əsas rol oynayır. İqtisadi bölgüyə əsasən işağldan azad edilmiş rayonlar iki- Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarına bölünmüşdür. Bu yeni dəyişiklik artıq həmin ərazilərdə fiziki, demoqrafik xüsusiyyətlərə görə peşə təhsili siyasətini həyata keçirməyə imkan verəcək. Lakin bunun plana uyğun yerinə yetirilməsi üçün uzun zaman kəsiyi tələb olunur. Zaman burada əsas məhdudiyyətlərdən biridir. Həmçinin bu rayon və şəhərlərin sakinləri 30 il digər bölgələrimizdə yaşadıqları üçün öz ənənəvi məşğulluq formaları assimiliyasiyaya uğrayıb. Əvvəllər Laçın rayonunun əhalisinin əsas məşğulluğu heyvandarlıq idi. Buna görə də onlar heyvan məhsullarından gündəlik həyatlarında istifadə edirdilər. Yunu emal edib ip hazırlayırdılar və onunla da müxtəlif xalçalar, kilimlər, yəhərlər, paltarlar tikirdilər. Lakin keçən 30 il ərzində onların bu məşğuliyyəti azalmağa başlayıb. Nisbətən dağlıq ərazilərdə yaşayan insanlar bu ənənəni qoruyub saxlaya biliblər. Buna misal olaraq, Şəkidə, İsmayıllıda və s. yaşayan Laçın sakinlərini nümunə göstərə bilərik. Onlar hələ də, öz heyvandarlıq məşğuliyyətini qoruyub saxlayırlar. Lakin nisbətən düzən ərazilərdə məskunlaşmış insanlar (Ağcabədi, Biləsuvar, Abşeron yarımadası və s.) şəhərləşmənin təsiri ilə məşğuliyyət növünü dəyişiblər. Onların öz vətənlərinə geri döndükdən sonra hansı əmək fəaliyyətilə məşğul olacaqları faizi dəyişkəndir. Statistika komitəsinin məlumatlarına əsasən işğala qədər Laçın rayonunun iqtisadi fəal əhalisinin 80 faizi kənd təsərrüfatı ilə məşğul olurdusa, 2021-ci ildə bu rəqəm 48.3 faizdir (3).

Nəticə olaraq qeyd etmək lazımdır ki, həm inkişaf etmiş ölkələrin təcrübəsi, həm də yeni ideyaların tətbiqi ilə işğaldan azad edilmiş rayonlarda peşə təhsilinin bərpa edilməsi və bununla da iqtisadiyyatın inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir.

**Açar sözlər:** *peşə-ixtisas, kənd təsərrüfatı, iqtisadiyyat, işğal, Qarabağ.*

## ƏDƏBİYYAT SİYAHISI

*1) "Peşə təhsili" haqqında Azərbaycan Respublikasının qanunu*

*2) "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunu. 2018*

*3) A.Mehrabov, Azərbaycanda ilkin peşə-ixtisas təhsilinin inkişaf istiqamətləri, Xalq qəzeti- 2009, s-7*

*4) Ş.Ağayev, A.Əliyeva, peşə təhsilində pedaqoji prosesin mərhələlər üzrə idarə edilməsi - peşə təhsili və insan kapitalı jurnalı, cild 2, №2, 2019, s-25-30*

*5) "Peşə təhsili pilləsinin bir səviyyəsindən növbəti səviyyəsinə keçid Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı. Bakı-2019.*

*6) https://edu.gov.az/*

*7) https://vet.edu.gov.az/az/centers/109*

*8) www.stat.gov.az*

## ПОВЫШЕНИЕ КАЧЕСТВА ПРОФЕССИОНАЛЬНОГО ОБРАЗОВАНИЯ В ОККУПИРОВАННЫХ РЕГИОНАХ

Развитие профессионального образования на освобожденных территориях после победы во Второй карабахской войне является сегодня одним из самых актуальных вопросов. Освобожденные территории имели самый низкий показатель профессионального

образования в период до 2020 года, но теперь ожидается рост этого показателя развития с мерами, предпринятыми республикой, с окончанием оккупации и процветанием нынешних территорий. В диссертации отражен процесс расселения в этих районах, приобретения профессиональных знаний населением в соответствии с экономическим положением этих районов, его влияние на экономику и другие вопросы. Созданием конкретных профессий в этих областях и совершенствованием существующих профессий должно эффективно управлять наше государство. Для этого должны быть выбраны эффективные методы и приемы управления.

**Ключевые слова:** *профессия, сельское хозяйство, хозяйство, занятие, Карабах.*

**IMPROVING THE QUALITY OF VOCATIONAL EDUCATION IN THE OCCUPYED REGIONS**

The development of vocational education in the liberated territories after the victory in the Second Karabakh War is one of the most pressing issues today. The liberated territories had the lowest rate of vocational education in the period before 2020, but now this development index is expected to increase with the measures taken by the Republic with the end of the occupation and the prosperity of the current territories. The process of settlement in these areas, the acquisition of professional knowledge of the population in accordance with the economic situation of these areas, its impact on the economy and other issues are reflected in the dissertation. The creation of specific professions in these areas and the improvement of existing professions must be effectively managed by our state. For this, effective management methods and techniques must be selected.

**Keywords:** *profession, agriculture, economy, occupation, Karabakh.*

UOT 338.32

# TƏŞKİLATLARDA MATERİAL AKTİVLƏRİNİN UÇOTU VƏ TƏHLİLİ METODLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

**NURİYYƏ ƏLİZADƏ**
*Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant*

*E-mail: aliyeva.nuriyya@mail.ru*

## GİRİŞ

Kommersiya təşkilatının əsas məqsədi mənfəət əldə etməkdir. Bu tip biznes qurumu dövlət və ya özəl sektorda birlikdə işləyən və eyni missiya və məqsədləri paylaşan bir və ya daha çox insan və ya şirkətdən ibarətdir. Pepsi, Coca-Cola, Walmart, Target, McDonald's, Dell, HP və Google kommersiya təşkilatlarıdır. Onların məqsədi son müştəriyə dəyər verən və gəlir gətirən məhsul və ya xidmətləri inkişaf etdirmək və satmaqdır. Bu kateqoriyaya aid olan bütün şirkətlər kommersiya fəaliyyəti ilə məşğul olurlar. Bunlara pərakəndə satış fəaliyyəti, françayzinq əməliyyatları, reklam və tanıtım, bank işi və maliyyə, xarici ticarət, kənd təsərrüfatı, əyləncə sektoru, elektron ticarət daxil ola bilər, lakin bunlarla da məhdudlaşmır [1].

Material ehtiyatlar adətən xammal və komponentlər, tamamlanmamış istehsal (WIP), hazır məhsullar və texniki xidmət, təmir və istismar (MRO) malları kimi təsnif edilir. Bir çox şirkətlər, onların istifadəsindən, bizneslərinin xarakterindən və ya anbar əməliyyatlarının əhatə dairəsindən asılı olaraq ehtiyatları aşağıdakı kimi sıralaya bilər:

Xammal: Məhsul yaratmaq üçün istifadə olunan resurslardır.

Komponentlər: Xammala bənzəyir, lakin onlar hazır məhsula çevrildikdə orijinal formasından tanınır.

Hazır istehsalat (WIP): İstehsalda istifadə olunan resursları (xammal və ya komponentlər, əmək və qablaşdırma materialları daxil olmaqla) əhatə edən inventar və ya texnoloji inventar kimi də tanınır.

Hazır məhsullar: İstehsal prosesini tamamlamış və satış və paylama üçün hazır olan məhsullar.

MRO malları: İstehsal prosesini dəstəkləyən və ya işin davamlılığını təmin edən resurslardır.

Dövr ehtiyatı: Minimum istehsal kvotalarını yerinə yetirmək və ya satış sifarişlərini dərhal yerinə yetirmək üçün qorunan məhsullar, xammallar və komponentlərdir [5].

**Material aktivlərinin uçotu.** Ehtiyatların uçotu həm satılan malların dəyəri, həm də inventarların qiymətləndirilməsi üçün vacibdir. Ehtiyatların uçotu, bir qayda olaraq, hər bir hesabat dövrünün sonunda satılan malların dəyərini və inventarların qiymətləndirilməsini müəyyən etmək üçün istifadə olunur.

İstehsalçılar, topdansatışçılar və pərakəndə satıcılar üçün inventar uçotu mühüm iş təcrübəsidir. Eyni əmtəələrin zaman keçdikcə fərqli qiymətləri olduğundan, bu məhsula əsaslanan təşkilatların bir çoxu satılan inventarla müqayisədə əldə olan inventarın dəyərini təyin etməkdə çətinliklərlə üzləşirlər [4].

Material ehtiyatların qiymətləndirilməsi üçün istifadə ediləcək birdən çox inventar uçotu metodu var. Ümumiyyətlə, istifadə olunan inventar uçotu metodunun bəzi növləri aşağıda verilmişdir.

**First-In, First-Out (FIFO).** FIFO metodu inventar daxil olan ilk vahidin və ya ən köhnə inventarın ilk satıldığını nəzərdə tutur. Məsələn, deyək ki, çörək zavodu bazar ertəsi günü hər biri 1 dollara 200, çərşənbə axşamı isə hər biri 1,25 dollara 200 çörək istehsal edir. FIFO bildirir ki, əgər çörək çərşənbə günü 200 çörək satıbsa, COGS (gəlir hesabatında) hər çörək üçün 1 dollar təşkil edir [2].

**Last-In, First-Out (LIFO).** LIFO metodu inventar daxil olan sonuncu və ya daha çox vahidin əvvəlcə satıldığını nəzərdə tutur. Beləliklə, köhnə inventar hesabat dövrünün sonunda qalır. Çərşənbə günü satılan 200 çörək üçün COGS-ə 1,25 dollar təyin edir, qalan 1 dollarlıq çörəklər isə dövrün sonunda inventarın dəyərini hesablamaq üçün istifadə edilir [7].

**Orta xərc.** Orta maya dəyəri metodu hesabat dövrü ərzində satış üçün mövcud olan bütün vahidlərin orta çəkili dəyərini götürür və sonra COGS və son inventarın dəyərini müəyyən etmək üçün həmin orta maya dəyərindən istifadə edir. Bizim çörək nümunəmizdə inventarın orta dəyəri [(200 x 1 ABŞ dolları) + (200 x 1.25 ABŞ dolları)]/400 kimi

hesablanan vahid üçün 1.125 ABŞ dolları olacaqdır.

**LIFO və FIFO: ehtiyatların qiymətləndirilməsi.** Bir şirkətin istifadə etdiyi qiymətləndirmə metodu müxtəlif sənaye sahələrinə görə dəyişə bilər. Aşağıda inventarın qiymətləndirilməsi və onun COGS və mənfəətə təsirini nəzərdən keçirərkən LIFO və FIFO arasındakı bəzi fərqlər verilmişdir.

**LİFO.** LIFO COGS-i qiymətləndirmək üçün ən son əldə edilmiş inventardan istifadə etdiyinə görə, qalıq inventar çox köhnə və ya köhnəlmiş ola bilər. Nəticədə, LIFO inventarın dəqiq və ya aktual dəyərini təmin etmir, çünki qiymətləndirmə bugünkü qiymətlərlə inventar maddələrindən xeyli aşağıdır. Həmçinin, LIFO bir çox şirkətlər üçün real deyil.

Məsələn, dəniz məhsulları satan bir şirkət, məhsullarını satmaq və göndərmək üçün, ilk növbədə, yeni əldə etdiyi inventardan real şəkildə istifadə etməz. Başqa sözlə, dəniz məhsulları şirkəti ən köhnə inventarlarını heç bir zaman nəzərdən qaçırmır, çünki məhsulun xarab olma müddəti çox qısa bir müddət çəkir

Nəticədə, LIFO tez xarab olan mallar satan bir çox şirkətlər üçün praktik deyil və ilk növbədə, ən əvvəlki inventardan istifadənin məntiqi istehsal prosesini dəqiq əks etdirmir.

**FİFO.** FIFO inventarın başa çatması üçün dəyərin daha yaxşı göstəricisi ola bilər, çünki ən son alınan əşyalar cari bazar qiymətlərini əks etdirərkən köhnə əşyalar tükənmişdir. Əksər şirkətlər üçün FIFO ən məntiqli seçimdir, çünki onlar adətən öz mallarının istehsalında ilk növbədə öz köhnə inventarlarından istifadə edirlər, yəni COGS-in qiymətləndirilməsi onların istehsal cədvəlini əks etdirir.

Aşağıdakı cədvəllərdə qiymətləndirmə üsullarının şirkətin maliyyə təhlilinin nəticələrinə necə təsir edə biləcəyini görmək üçün ABC Bottling Company adlı bir içki istehsalçısının inventarından istifadə edək.

Şirkət hər ay birinci rüb üçün cəmi 3000 ədəd inventar alışı həyata keçirdi. Bununla belə, şirkətin hər biri 8 dollardan 8000 dollar dəyərində alınmış 1000 ədəd köhnə inventarı var idi. Başqa sözlə, ilkin inventar dövr üçün 4000 ədəd idi. Şirkət birinci rübdə 3000 ədəd satdı, bu da 1000 ədədi isə (4000 ədəd - 3000 ədəd satılan = 1000 ədəd) inventar balansını tərk etdi.

**Cədvəl 1. ABC CO. - Aylıq inventarların satın alınması**

| Ay | Alınan Vahidlər | Xərc | Dəyər |
|---|---|---|---|
| Yanvar | 1,000 | 10 | 10,000 |
| Fevral | 1,000 | 12 | 12,000 |
| Mart | 1,000 | 15 | 15,000 |

**Mənbə:** *Tardi C. (25.04.2021)"How LIFO and FIFO affect a company's inventory outlook" https:// www.investopedia.com/articles/02/060502.asp*

**Cədvəl 2. ABC CO - Gəlir hesabatı (sadələşdirilmiş), yanvar-mart**

| Element | LIFO | FIFO | Orta xərc |
|---|---|---|---|
| Satış = 3000 ədəd (hər biri $20) | $60,000 | $60,000 | $60,000 |
| Başlanğıc inventar | 8,000 | 8,000 | 8,000 |
| Alışlar | 37.000 | 37.000 | 37.000 |
| Son inventar | 8,000 | 15,000 | 11,250 |
| COGS | $37,000 | $30,000 | $33,750 |
| Xərclər | 10,000 | 10,000 | 10,000 |
| Xalis gəlir | $13,000 | $20,000 | $16,250 |

**Mənbə:** *Tardi C. (25.04.2021) "How LIFO and FIFO affect a company's inventory outlook" https:// www.investopedia.com/articles/02/060502.asp*

**COGS qiymətləndirilməsi.** LIFO çərçivəsində COGS 37 000 ABŞ dolları dəyərində qiymətləndirilirdi, çünki ən son alınmış 3 000 vahid hesablamada və ya yanvar, fevral və mart alışlarında (10 000 dollar + 12 000 + 15 000 dollar) istifadə edilmişdir.

FIFO çərçivəsində COGS 30.000 ABŞ dolları dəyərində qiymətləndirilirdi, çünki FIFO əvvəlcə ən köhnə inventardan, sonra isə yanvar və fevral inventar alışlarından istifadə edir. Başqa sözlə, 3000 ədəd (8000$ üçün 1000 ədəd) + (10000$ və ya yanvar üçün 1000 ədəd) + (12000$ və ya fevral üçün 1000 ədəd) ibarətdir.

Beləliklə, orta məsrəf metodu 11,250 ABŞ dollarlıq ((8,000 ABŞ dolları + 10,000 ABŞ dolları + 12,000 dollar + 15,000 dollar) / 4) qiymətləndirmə ilə nəticələndi.

Son inventar qiymətləndirmələri: 8 000, 15 000 və 11 250 dollar arasında fərq kifayət qədərdir. ABC şirkətinin tam fundamental təhlilində biz bu

**Cədvəl 3. İnventar təhlili metodları**

| Ehtiyatların təhlili və idarəetmə yanaşığı | Bu necə işləyir? | İstifadə halları və xəbərdarlıqlar |
|---|---|---|
| **ABC analizi** | 1. Elementləri biznes dəyərinə əsasən bölür, A ən vacib, C isə ən az əhəmiyyət kəsb edir.<br>2. Dəyər və əhəmiyyət illik, rüblük və ya aylıq satışlar, mənfəət marjası və istehlak həcmi kimi müxtəlif meyarlarla ölçülə bilər.<br>3.Şirkətlərə xərclərin azaldılmasına kömək edən şirkətə ən çox biznes yaradan maddələrə nəzarət etməyə və diqqəti cəmləməyə imkan verir. | 1. Ehtiyatlar və onların dəyəri haqqında strukturlaşdırılmış, asanlıqla həzm olunan bir görünüş verir.<br>2. Yeni məhsul təqdimatları və ya mövsümilik və məhsulların yeniliyi ilə bağlı məhdud perspektivə malik ola bilər<br>3. Çox vaxt aparan və resurs tələb edən standartlaşdırma tələb edir; optimal nəticələr əldə etmək üçün müəyyən səviyyədə avtomatlaşdırma tələb olunur. |
| **VED təhlili** | 1.Əşyaları funksional əhəmiyyətinə və dəyərinə görə kateqoriyalara ayırır.<br>2.Əşyaların həyati (məcburi), vacib (minimum məbləğ kifayətdir) və ya arzuolunan (istəyə bağlı) olub-olmamasından asılı olmayaraq bölür və adətən çatışmazlıq xərcləri ilə ölçülür. | 1.Menecerlərə kritik elementlərin mövcudluğunu təmin etmək imkanı verir.<br>2.Hissələri və komponentləri istehsal edən və ehtiyat edən şirkətlər və ya xəstəxanalar və tibbi və ya əczaçılıq məhsulları təchizatçıları üçün ən faydalıdır. |
| **HML analizi** | Məhsul vahidinin qiymətinə əsasən inventar təsnif edir (yüksək, orta, aşağı)<br>Adətən ABC və ya VED analizi və ya hər ikisi ilə birlikdə istifadə olunur. | Menecerlərə yüksək qiymətli əşyalar üçün təhlükəsizlik və saxlama tələblərini qiymətləndirməyə kömək edir.<br>1.Şirkətə materialların alışına və istehlakına nəzarət etmək imkanı verir.<br>2.Məhsulların ROI-si ilə bağlı məhdud perspektivə malik ola bilər. |
| **SDE təhlili** | Elementləri mövcudluq və tədarük əsasında kateqoriyalara ayırır (qıt, çətin, asan)<br>Qıt məhsullar ən uzun çatdırılma müddətinə malikdir və tez-tez idxal olunur; çətin materialların istehsal müddəti altı aydan azdır; asanlıqla əldə edilə bilən əşyalar yerli olaraq alınır və tez bir zamanda əldə edilir. | Səhmlərin satın alınmasını planlaşdırmaq üçün faydalıdır və menecerlərə problemli və ya daha uzun çatdırılma müddəti olan maddələrə diqqət yetirməyə kömək edir.<br>Eyni əlçatanlığı olan, lakin fərqli satınalma xüsusiyyətlərinə malik məhsullar üzrə məhdud perspektivə malik ola bilər. |

**Mənbə:** *Mateusz P., Mikulski L. (07.12.2021), "Warehouse Management: Inventory Analysis Approaches and Best Practices" https://lingarogroup.com/blog/warehouse-management-inventory-analysis-approaches-and-best-practices/*

inventar rəqəmlərindən digər ölçüləri hesablamaq üçün istifadə edə bilərik - məsələn, şirkətin cari maliyyə sağlamlığını ifşa edən və məsələn, onun gələcəyi ilə bağlı proqnozlar verməyə imkan verən amillər. Beləliklə, bir şirkətin inventarının uçotunu apararkən hansı inventar rəqəmindən başlaması həqiqətən vacibdir ki, bu da, şirkətlərin qanunla dərc edilmiş maliyyə hesabatlarında hansı uçot metodundan istifadə etdiklərini bildirmələrini tələb edir.

Əksinə, inventardan öz xeyrinə necə istifadə edəcəyini bilməmək şirkətin səmərəli fəaliyyət göstərməsinə mane ola bilər. İnvestorlar üçün inventar təhlil edilməli olan ən vacib maddələrdən biri ola bilər, çünki o, şirkətin əsas biznesində baş verənlər haqqında fikir yürütməyə imkan verir [8].

**Material aktivlərinin (inventarların) təhlili.** İnventarın təhlili və idarə olunması üçün hər kəsə uyğun gələn bir yanaşma yoxdur. İnventar təhlilinin arxasında duran prinsiplər tələb və təklifi ayırmaq, kənar göstəricilərdən qorunmaq və əməliyyatları davam etdirərkən gələcək tendensiyaları təxmin etməkdir. Ehtiyatlar biznes üzrə mürəkkəb proseslərdən keçir və müxtəlif formalarda, səviyyələrdə və tamamlanma mərhələlərində olur. Anbar menecerləri üçün əvvəlcə onların mürəkkəbliklərini başa düşmələri vacibdir. Bu mürəkkəbliklər inventar idarəçiliyini çoxşaxəli edən amildir– bir gözdən qaçan detal və ya kənar hadisə tədarük zəncirini yarada və ya poza bilər ki, bu da öz növbəsində bütün şirkətdə domino effektinə malikdir. İnventarın təhlili və idarə edilməsi üçün hər kəsə uyğun bir yanaşma yoxdur: Məsələn, bir marka və ya istehsalçının hər bir məhsulunun özünəməxsus biznes modeli və fərqli şəkildə idarə olunma forması ola bilər [5].

Çalışdığınız biznesdən və daşıdığınız inventar növlərindən asılı olaraq bir neçə inventar təhlili metodundan istifadə edilir. Budur bir neçə nümunə:

1. ABC analizi. ABC analizi ən məşhur inventar təhlili üsullarından biridir. O, Pareto Prinsipinə əsaslanır ki, bir çox hadisələr üçün təsirlərin təxminən 80%-i səbəblərin 20%-dən irəli gəlir. ABC "Həmişə daha yaxşı nəzarət" deməkdir [3].

2. VED təhlili. VED Təhlili inventar dəyərinə və bir maddənin anbarda olmasının nə qədər kritik olduğuna əsaslanır. Bu üsul bir çox komponent və hissələri saxlayan istehsal şirkətləri üçün faydalıdır. ABC təhlilindən fərqli olaraq o, yalnız bir maddənin biznesin davamlı fəaliyyəti üçün nə qədər zəruri olduğunu nəzərə alır.

3. HML təhlili. HML analizi bir maddənin vahid qiymətinə görə ölçülür. O, ABC təhlilindən fərqlidir, çünki o, yalnız dəyəri nəzərə alır və əşyaların satış dəyərini daxil etmir. HML təhlili xərclərə nəzarət etmək və büdcədə qalmaq üçün faydalıdır.

4. SDE təhlili. Bu inventar təhlili metodu bazarda malların azlığına və ya onları nə qədər tez əldə edə bildiyinizə əsaslanır. O, adətən xammal və ya əldə etmək üçün uzun müddətə mallarla məşğul olan müəssisələrdə istifadə olunur [6].

**Açar sözlər:** *Material aktivləri, inventar (material ehtiyatı).*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Andra P., (09.11.2018). "Definition of Commercial Organization", Bizfluent https://bizfluent.com/how-6727050-fill-ii-michigan-articles-organization.html*

*2. https://www.accountingtools.com/articles/2017/5/13/first-in-first-out-method-fifo FIFO) definition June 26, 2021*

*3. Jenkins A., (28.10.2020). "ABC Analysis in Inventory Management: Benefits & Best Practices" https://www.netsuite.com/portal/resource/articles/inventory-management/abc-inventory-analysis.shtml#:~:text=ABC%20analysis%20is%20an%20inventory,classes%20based%20on%20those%20criteria*

*4. Jurnal Enterpreneur (2021). "Inventory Accounting, What Are The 4 Different Methods?" https://www.jurnal.id/en/blog/types-of-inventory-accounting/*

*5. Mateusz P., Mikulski L., (07.12.2021). "Warehouse Management: Inventory Analysis Approaches and Best Practices" https://lingarogroup.com/blog/warehouse-management-inventory-analysis-approaches-and-best-practices/*

*6. Michael T., (06.01.2022). "How you can use inventory analysis to optimize your operations" https://quickbooks.intuit.com/r/midsize-business/inventory-analysis-methods-strategies-and-procedures/*

*7. Smith T., (29.09.2020). "Last In, First Out (LIFO)" https://www.investopedia.com/terms/l/lifo.asp#:~:text=Key%20Takeaways-,Last%20in%2C%20first%20out%20(LIFO)%20is%20a%20*

*method%20used,accepted%20accounting%20principles%20(GAAP)*

*8. Tardi C., (25.04.2021). "How LIFO and FIFO affect a company's inventory outlook" https://www.investopedia.com/articles/02/060502.asp*

**СОВЕРШЕНСТВОВАНИЕ УЧЕТА И АНАЛИЗА ОБОРОТНЫХ МАТЕРИАЛЬНЫХ АКТИВОВ В КОММЕРЧЕСКИХ ОРГАНИЗАЦИЯХ**

**РЕЗЮМЕ**

Развитие коммерческих организаций зависит не только от применения новых стратегий, но и от правильного анализа и учета товаров и материалов.

Поэтому каждая коммерческая компания должна уметь применять наиболее подходящую модель учета.Изобретатели также имеют в виду эти оборотные материальные активы. И эти активы классифицируются по-разному в каждой компании.

Товарно-материальные запасы являются одним из наиболее важных компонентов отчета о прибылях и убытках (торговых операций), а также оборотным активом бухгалтерского баланса. Управление запасами может определить успех и неудачу предприятий. Инвентарь — это два пути, по которым избыточный складированный инвентарь блокирует финансовую кровь организации и повышает стоимость хранения инвентаря, в то время как минимальный запас может препятствовать производственному процессу из-за нехватки сырья и может вынудить закупать дорогостоящее сырье в случае кризиса. Поэтому очень важно иметь эффективную систему учета запасов и оптимальный уровень товарных запасов.

**Ключевые слова:** *Материальные ценности, инвентарь.*

**IMPROVING ACCOUNTING AND ANALYSIS OF CIRCULAR MATERIAL ASSETS IN COMMERCIAL ORGANIZATIONS**

**SUMMARY**

The development of commercial organizations depends not only on the application of new strategies, but also on the analysis and accounting of goods and materials in the right ways.

Therefore, every commercial company must be able to apply the most appropriate accounting model. Inventors also mean these current tangible assets. And these assets are classified differently in each company.

Inventory is one of the most important components of Profit and Loss (trading) account as well as current asset of Balance Sheet. Handling inventory can define the success and failure of the enterprises. Inventory is two ways sword excess piled inventory block the financial blood of the organization and raise the carrying cost of the inventory whereas minimal stock may hamper the production process due to paucity of raw material and it may force to procure costly raw material in case of crisis. Therefore, it is very important to have effective inventory accounting system and optimum level of inventory.

**Keywords:** *Material assets, inventory.*

UOT 336.71

# BANK MƏHSULLARI BAZARININ MARKETİNQİNİN İDARƏ EDİLMƏSİNİN NƏZƏRİ ƏSASLARI

**ELLADA ƏLİYEVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*

*E-mail: ellada306@gmail.com*

## GİRİŞ

Bank xidməti müştərinin tələblərinin optimal yerinə yetirilməsinə və bazarda həyata keçirilməsinə və mənfəət əldə etmək məqsədilə yaradılmış bir sıra bank əməliyyatlarından ibarət olan peşəkar intellektual məhsuldur.

Bank xidmətlərinin çeşidi o qədər heterogendir və onların fərqləndirilməsi üçün meyarlar o qədər müxtəlifdir ki, bank xidmətlərinin bütün xüsusiyyətlərini nəzərə alan hərtərəfli təsnifata ehtiyac duyulur. Təsnifat xidmətlərin bütün sinfinə xas olan xassələrə (qeyri-obyektivlik, təchizat mənbəyindən ayrılmaz, saxlamaq mümkünsüzlüyü) və yalnız bank xidmətlərinə xas olan xüsusiyyətlərə əsaslanır. Birbaşa və dolayı xidmətləri nəzərdən keçirək. Müştərinin birbaşa istəklərini (ödəniş, kommersiya, investisiya xidmətləri) təmin edən birbaşa xidmətlər. Əlavə gəlir almadan birbaşa xidmətləri təmin etmək üçün dolayı və ya birgə, asanlaşdırmaq və ya daha rahat etmək (klirinq xidmətləri, telefonla hesabın idarə edilməsi (ev bankı), konsaltinq xidmətləri, depozit hesabı əsasında plastik kartın verilməsi).

Bank xidmətləri, ilk növbədə, spesifik və qeyri-spesifik xidmətlərə bölünə bilər. Bankın fəaliyyətinin spesifikasından xüsusi bir müəssisə kimi irəli gələn hər şey spesifik xidmətlərdir. Spesifik xidmətlər yerinə yetirilən əməliyyatlara əsasən üç növdən ibarətdir:

1. depozit əməliyyatları;
2. kredit əməliyyatları;
3. hesab əməliyyatları.

**Depozit əməliyyatları.** Depozit – bəzi məqsədlə ya da saxlanılmaq məqsədilə kredit təşkilatına verilmiş pul vəsaiti, ya da qiymətli kağızlardır. Depozit əməliyyatlarının obyekti borcalan vəzifəsində çıxış etmiş banklar ilə kreditor vəzifəsində olan büdcə ehtiyatlarının sahibdirlər. Depozit əməliyyatlarının obyekti də banklara saxlanmaq və başqa məqsədlər üçün verilən pul vəsaitləridir. Həmin vasitələr bank işinin əlamətlərinə və depozitin mənasına əsasən müəyyən vaxt ərzində banklardakı hesablarda hərəkət edir, banka, həmçinin də kreditora müəyyən məbləğdə gəlir qazandırır və o cümlədən ona müəyyən bank xidmətlərindən pulsuz istifadə hüququ verməkdədir (1).

Depozit prosesində bankın qazancı borcalanlardan aldığı % məbləğiylə kreditorların verdiyi % məbləğlərinin müxtəlifliyindən yaranır.

İqtisadi məzmun ilə istifadə zamanlarına əsasən depozitlər iki qrupa bölünürlər:

1. Müddətli depozitlər;
2. Tələbolunanadək depozitlər.

Tələbolunanadək depozit onun sahibinin bank hesablarına verilən və onun sahibinin ehtiyac yarandığı zaman tələb etdiyi depozit şəklidir. Həmin ehtiyatlar cari depozit hesablarında saxlanılmaqdadır. Depozitə qoyulmuş resurlar sənədləşmə aparılmış və vəsaitlər hesabına köçürülmüş gündən bankın sərəncamına keçir və sahibinin tələb edəcəyi zaman qədər bank tərəfindən istifadə olunur.

Müddətli depozitlər hesablara köçürülən zaman müəyyən olunmuş vaxt ərzində bank hesablarında saxlanılmış vəsaitlərdir. Müddətli depozitlər üçün hesablara veksellər, sertifikatlar, vətəndaşların məqsədli və müddətli əmanət hesabları, eyni zamanda öncədən aşkar edilmədən ancaq asanlıqla təyin oluna bilən hesablar daxildir. Müddətli depozitlərin əksər parametrləri, eyni zamanda subyektləri, vaxtları, məbləğləri, qəbulu ilə qaytarılma qaydaları, istifadə metodları kommersiya banklarının durumundan asılı olaraq xeyli fərqli və müxtəlif olması mümkündür.

**Kredit əməliyyatları.** Kommersiya banklarının inkişaf göstəricilərinin sübut yetirdiyi kimi, bankların apardığı aktiv işlər içərisindəki xüsusi çəki etibarıyla əsas yeri kredit əməliyyatları tutmaqdadır. Kredit – ssudanın pul ya da əmtəə şəklidir. Kreditor vasitəsilə borcalana qaytarılmaq və istifadəsinə əsasən faiz ödəmək şərti ilə verilmiş borcdur. Kredit təkrar istehsal zamanı iştirak etməklə iki mühim funksiyanı yerinə yetirir (2):

Banklar müəssisə ilə təşkilatlara istehsal fondlarının, yəni əsas, eyni zamanda da dövriyyə fondlarının çoxaldılması məqsədi ilə kreditlər verir. Həmin kreditlər uzunmüddətli, eyni zamanda da qısamüddətli ola bilər. Bu cür kreditlərin məbləği bankda toplanan kredit resurslarının məbləği boyda ola bilər. İstehsal

fondlarının yaradılmasına sərf edilən xərclərin kreditləşdirilməsi banklarda öncədən resursların toplanmasını istəyir və bu, bir iqtisadi vacibiyyətdir.

Hesablaşma əməliyyatları aktiv prosesdir. Pul hesablaşmaları əsasən iki şəkildə reallaşdırılır:

- nağdsız pul hesablaşmaları.
- nağd pul hesablaşmaları;

Nağd hesablaşma – pul hərəkətinin bir şəklidir, alınmış məhsulların, görülmüş işlərin və ya göstərilmiş xidmətlərin haqqının alıcı ya da sifarişçi tərəfindən nağd pulla ödənilməsidir. Həmin hesablaşma sayəsində nağd pullar tərəflərdən birisinin kassasından o birinin kassasına keçməkdədir.

Bank sektorunda marketinq kredit resursları bazarlarını öyrənmək, müştərilərin maliyyə vəziyyətini təhlil etmək və bunun əsasında banklara depozitlərin cəlb edilməsi, bankın fəaliyyətində dəyişikliklərin edilməsi imkanlarını proqnozlaşdırmaqdır. Marketinq, yeni müştərilərin cəlb edilməsinə kömək edən şəraitin təmin edilməsini, öz müştərilərinin bu banka sərmayə yatırmaqda olan bank xidmətlərinin əhatəsini genişləndirməyi nəzərdə tutur (3).

Son vaxtlara qədər müştərilərin pulları çox olduqda (inflyasiyaya görə) və banklar az olduqda bank xidmətləri bazarı satıcı bazarı olmuşdu. Ancaq son zamanlar inflyasiyanın sabitləşməsi, yenidən maliyyələşdirmə nisbətinin artması və bank müəssisələrinin əsas müştərilərindəki pul ehtiyatlarının xronik çatışmazlığı ilə bank xidmətləri bazarları alıcı bazarına çevrildi. O vaxtdan etibarən, əksər banklar müştəriləri cəlb etmək üçün yeni yollar axtarmağa başladı. Bu məqsədlə onlar uğurlu marketinq tətbiq edə bilərlər (4).

Bank marketinqi müştərilərin real ehtiyaclarını nəzərə alaraq, bankın bank məhsulları üçün ən sərfəli bazarlarının axtarışı və istifadəsi kimi müəyyən edilə bilər. Bu, bankın məqsədlərinin dəqiqləşdirilməsi, onlara nail olmaq üçün yolların və vasitələrin formalaşdırılmasını və planların həyata keçirilməsi üçün konkret tədbirlərin hazırlanmasını nəzərdə tutur.

Gəlirliliyi təmin etmək üçün bank yeni müştərilərin cəlb edilməsinə ehtiyac duyur. Qərbin inkişaf etmiş ölkələrində ev təsərrüfatlarının təxminən 80% -i bank xidmətlərini istehlak edir. Banklar tərəfindən təklif edilən xidmətlərin keyfiyyətinə və diversifikasiyasına diqqət yetirilməlidir: cari və əmanət hesabları, kredit və hesab kartları, uzunmüddətli bank kreditləri, ev və ya avtomobilin alınması üçün təcili kredit, zinət əşyalarının saxlanılması üçün depozit seyflərinin kirayəsi və s. Ölkəmizdə ev təsərrüfatlarına göstərilən bank xidmətlərinin əksəriyyəti əsasən hesaba pul qoymaq, qısamüddətli kreditlər və debet plastik kartlarının xidmət göstərilməsi ilə məhdudlaşır. Buna görə, banklar strategiyalarında mövcud müştərilərə yeni xidmət növləri təklif edirlər. Bir növ əməliyyat üçün banka müraciət edən insanlar tamamlayıcı və əlaqəli xidmətlərin potensial alıcılarıdır. Məsələn, bir müştəri yol çeklərini və ya xarici valyutanı alırsa, ona xaricdə gəzinti zamanı qəza sığortası xidməti verməlidir. Bu satış üsulu müasir marketinq təcrübəsində istifadə olunur (5).

Banklarda, inteqrasiya olunmuş marketinq yalnız müştərilərin cəlb edilməsinə deyil, həm də xidmətlərin keyfiyyətini daim artırmağa yönəlib. İnteqrasiya olunmuş marketinqin spesifikliyi kommersiya banklarının nağd pulların cəlb edilməsinə deyil, müəssisələrə, dövlətə, əhaliyə effektiv borc verilməsi yolu ilə aktiv istifadə olunmasında maraqlıdır. Bu, həm bankın əmanətçilərlə əlaqəsi, həm də kredit qoyuluşu sahəsində hərtərəfli marketinq inkişafına vacibliyi şərtləndirir. Bankın bu iki sahədəki məqsədləri fərqlidir: birincisi, əhalini pul vəsaitlərinin əmanətçiləri kimi cəlb etmək, ikincisi bankın kredit resurslarını ən böyük fayda verən və krediti vaxtında ödəyə biləcək müəssisələrə yönəltmək.

Bankçılıq sektorunda marketinq anlayışı xidmət bazarının rolu altında. İstifadə olunan marketinq strategiyaları maliyyə qurumlarının ağıl və zehinlərində yerlərinin müəyyənləşdirilməsidir. Bankın marketinqi yalnız bank xidmətinin satışı deyil, həm də müştəriyə bankın şəxsiyyət şəkli kimi xidmət edir. Başqa sözlə, maliyyə marketinqi müəssisələr arasında uyğunsuzluqlar qoyur, müştəri dəyərləri nəzərə alınmaqla təşkilatlar arasında paralel olmayan praktikaları birləşdirir.

Marketinqin müxtəlif məsələlərinin tədqiqinin qarışıqlığı bankın fəaliyyətinin səviyyəsində, onun inkişafının ümumi strategiyası ilə marketinq məsələlərilə məşğul olmuş mütəxəssislərin peşəkarlığı ilə əlaqədar olaraq fərqli ola bilər. Ümumi olaraq, marketinq məsələləri bank fəaliyyətində, ən çox da, əsas qərarlarının qəbul olunmasında daha dolğun formada işlənilib hazırlanmalıdır. Həmin məsələlərə nizamnamə kapitalının planlı çoxaldılması, fəaliyyətin coğrafiyası ilə miqyaslarının zəruri genişlənməyi, eyni zamanda nümayəndəlik ilə filialların açılması aiddir. Həmçinin, bankın daxili təşkili ilə xarici mühit şəraitində faydalı dəyişiklikləri nəzərə alan başqa qərarların qəbulu da çox vacibdir.

Bankda marketinqin müvəffəqiyyətlə fəaliyyətdə olan sistemin vacib elementləri isə şəkil 1-də verildiyi kimi təsvir edilə bilər.

Marketinq prosesi, bazarın tələbləri ilə imkanlarına müvafiq olaraq, bankın mənfəəti üzrə maliyyə və başqa bütün resurslarının səfərbər edilməsidir. Banka qoyulmuş tələblər həmin iqtisadi tapşırığın həllinin nə cür olacağından asılıdır, yəni bank məsrəfləri əhəmiyyətli gerçəkləşdirilə biləcək müəyyən xidmət təklif etməlidir.

Bank xidmətləri bazarları marketinq şöbəsinin rəhbərləri tərəfindən formalaşdırılmaqdadır. Bu, alıcılara təklif edilən xidmətlərin rəqiblərin təklif etdiyi bənzər xidmətlərdən onların spesifik ehtiyaclarına və istəklərinə lap uyğun olduqlarını (reklam və alıcılarla əlaqə saxlayan bankın konkret işçiləri tərəfindən), həmçinin də gəlirli satış imkanlarını açan ənənəvi və qeyri-ənənəvi bank xidmətlərinin təkrar işlənib hazırlanması (elmi-texniki tədqiqat ilə bazar tədqiqatları sayəsində) və forma, qiymət, yer və vaxt cəhətdən alıcıların əksəriyyətinə sərf olunan xidmətlərin yardımı ilə müştəriləri inandırmaq vasitəsilə gerçəkləşdirilir (ibar.az).

**Şəkil 1: Marketinqin əsas elementləri**




**Mənbə:** *Əhmədov, 2015*

Xidmət sənayesində xeyli müxtəlif müəssisələr var. Onlar müxtəlif xüsusiyyətlərə görə təsnif edilə bilər. Onlardan biri mülkiyyət növüdür: özəl təşkilatlar olub (anbarlar, distribütor firmaları, banklar) və ya dövlət (polis, dövlət xəstəxanaları) sektorlarıdır. Digər əlamət firmanın fəaliyyət göstərdiyi bazardır: istehlakçı (məişət sığortası, pərakəndə satış) və ya müəssisə bazarı (kompüter şöbələrinə xidmət göstərən) daxildir. Xidmətlər insanla təmas dərəcəsinə görə də təsnif edilə bilər: xidmətlərin göstərilməsi obyektlərə yönəldildiyi yüksək (bərbər, tibbi xidmət) və aşağı kontaktlı xidmətlər (quru təmizləmə, avtomatlaşdırılmış avtomobil yuma) daxildir.

Xidmətlər insanlar (müxtəlif məsləhətlər, təhsil) və ya avtomatlaşdırılmış qurğular (avtomatlar, bankomatlar) tərəfindən təmin edilə bilər. Birincilər, öz növbəsində, yüksək ixtisaslı mütəxəssislər (hüquq firmaları və xəstəxanalar) tərəfindən göstərilən xidmətlərə bölünür və xüsusi bacarıq tələb etmir. Təqdim olunan xidmətlərin geniş çeşidi o deməkdir ki, rəqabət üstünlüyü yaratmaq və saxlamaq üçün xidmət təminatçıları konkret biznesə xas olan problemləri müəyyənləşdirməli və həll etməlidirlər. Təsnifatdakı bu cür uyğunsuzluqlara baxmayaraq, bütün xidmətlərə xas olan bir sıra xüsusiyyətlər var.

İstehsal məhsulu kimi xidmət altı əsas xüsusiyyətə malikdir (Хорнгрен и Фостер, 2005):

• qeyri-əlaqə (və ya qeyri-maddi);

• bölünməzlik (və ya istehsal və istehlak proseslərinin sinxronluğu);

• dəyişkənlik (və ya xidmət keyfiyyətinin sabitlik);

• qeyri-uyğunluq (və ya sonrakı satış və istehlak üçün göstərilən xidmətin yığılmasının mümkünsüzlüyü);

• xidmətin yaradılması prosesində istehlakçının bilavasitə iştirakı;

• göstərilən xidmətlərin yüksək diversifikasiyası.

Xidmətlər üçün yuxarıda göstərilən xüsusiyyətləri sənaye məhsulları ilə müqayisə etmək üçün cədvələ nəzər salaq.

**Cədvəl 3: Sənaye məhsul və xidmətlərinin müqayisəli xüsusiyyətləri**

| Sənaye məhsullarının xüsusiyyətləri | Xidmət xüsusiyyətləri |
|---|---|
| Məhsulun toxunulmazlığı | Xidmətin qeyri-maddiliyi (qeyri-maddi). |
| Məhsulların istehsalı, saxlanması və istehlakı müstəqil proseslərdir | Bölünməzlik (və ya istehsal və istehlak proseslərinin eyni vaxtda olması) |
| Məhsulun keyfiyyətinin yüksək sabitliyi, onun istehlak risklərini azaldır | Xidmətin keyfiyyətinin bir çox subyektiv amillərdən asılılığı onun istehlak riskini artırır |
| Hazır məhsulların saxlanması imkanı | Anbar xidmətlərinin qeyri-mümkün olması |
| Məhsulun istehlakçısı istehsal prosesində iştirak etmir | Xidmətin istehlakçısı onun göstərilməsi prosesində birbaşa iştirak edir |
| İstehsal olunan məhsulların çeşidinin yenilənməsinin aşağı intensivliyi | Göstərilən xidmətlərin yüksək diversifikasiyası |

**Mənbə:** *Соколов, Я.В. 2003: с.272.*

Qeyri-maddi: Xidmət görülə bilməz, dadına bilməz, hiss edilə bilməz, eşidilməz və ya iyi hiss edilə bilməz. Xidmətin istehlakçısı ona xidmət göstərildikdən əvvəl, bəzən hətta sonra da onu qiymətləndirə bilmir. Xidmətin qeyri-maddi olması istehlakçı üçün ciddi problemdir. Nə aldığını müəyyən etmək onun üçün çətindir. Xidmət mülkiyyətin ötürülməsi ilə nəticələnmir.

Xidmət istehlakçısının bilavasitə onun yaradılması prosesində iştirakı yuxarıda qeyd edildiyi kimi, bir çox xidmətlərin göstərilməsi yalnız sifarişçinin iştirakı ilə mümkündür. Digər xidmətlər (məişət texnikasının, avtomobillərin, kimyəvi təmizləmə və s. təmiri) müştərinin iştirakını tələb etmir. Lakin istənilən halda istehsal və istehlakın qeyri-bərabərliyi şərti yerinə yetirilir (5).

Göstərilən xidmətlərin yüksək şaxələndirilməsi - Eyni istehsal vasitələrindən istifadə etməklə istehsalda müəyyən məhsul çeşidi yaradıla bilər, xidmətlər isə daha çox şaxələndirilə bilər. Məsələn, bir bərbər öz texnikası ilə müştəri üçün bir çox saç düzümü edə bilər. Yaxud usta istənilən avtomobil modelini və ya istənilən hissəsini təmir edə bilər. Beləliklə, göstərilən xidmətlərin

şaxələndirilməsi yüksəkdir (6).

Xidmətin göstərilməsi aşağıdakıları əhatə edir: işçilər tərəfindən xidmətin göstərilməsi üçün zəruri olan müəyyən hərəkətlərin həyata keçirilməsi, istehlak materiallarının (xammal, əsas və köməkçi materiallar, komponentlər) istehlakı, əmək alətlərindən (istehsalat və ofis binaları, xüsusi texniki avadanlıq, ofis avadanlığı), xidmətin müştəriyə çatdırılması üçün lazım olan müəyyən tədbirlərin həyata keçirilməsidir. Sonunculara misal olaraq ustanın avtomobil təmiri üçün müştəriyə getməsi, pərdələr üçün pərdə çubuqlarının quraşdırılması və s. Bundan əlavə, xidmətin göstərilməsi prosesi, öz növbəsində, digər xidmətlərin, xüsusən də kommunal xidmətlərin istehlakını tələb edə bilər. Bu o deməkdir ki, xidmətlərin uçotunun təşkili üçün istehsalda olduğu kimi, eyni istehsal hesablarından istifadə olunacaqdır (2).

Müxtəlif xidmət növlərinin istehsal məsrəflərinin özünəməxsus strukturu vardır ki, bu da mühasibat uçotu metodlarının seçilməsi və xidmətlərin dəyərinin hesablanması zamanı nəzərə alınmalıdır. Yəni, xidmət sektorunun bir sıra sahələri madditutumludur. Bu, ilk növbədə, topdan və pərakəndə ticarətə, nəqliyyat vasitələrinin, motosikletlərin, məişət əşyalarının və şəxsi əşyaların təmirinə aiddir. Onların ümumi məbləğində maddi məsrəflərin xüsusi çəkisi 49,5%-i təşkil edir. Mehmanxana və restoran biznesinin (38,1%), nəqliyyat və rabitənin (39,7%), səhiyyənin (33,8%) xidmətləri madditutumludur.

Xidmət sahəsi yuxarıda göstərilənlərə əlavə olaraq aşağıdakı xüsusiyyətlərə malikdir: (9).

• Xidmət sektorunda təşkilatların resurs potensialında “insan amili”nin artan rolu. Əmək resurslarının “dəyəri” resurs potensialının qeyri-formal tərkib hissəsidir və müəssisənin ümumi aktivlərinə daxil edilmir;

• Xidmət göstərən müəssisələr üçün “tamamlanmış istehsalat” və “hazır məhsul” kimi dövriyyə vəsaitləri spesifik xarakter daşıyır. Burada bitməmiş istehsal davam edən xidmətdir, hazır məhsul isə artıq göstərilən xidmətdir;

• Maliyyə dövrünün spesifik mərhələsi kimi “hazır məhsul” anlayışı mövcud deyil, bitməmiş iş birbaşa satılan məhsullar (debitor borcları) mərhələsinə “axır”;

• Xidmət sektorunda istehsal dövrünün müddəti bir neçə saatdan (bərbər salonları, fotoqrafiya, kinoteatrlar, digər istehlak və mədəni-kütləvi xidmət təşkilatları) bir neçə aya (böyük fərdi sifarişlər üzrə işləyən podratçılar) qədər dəyişə bilər;

• Bütövlükdə dövriyyə aktivlərinin strukturunun özünəməxsus xüsusiyyətləri vardır. Dövriyyə vəsaitlərinin əsas payını aktiv hesablaşmalar (debitor borcları) tutur və göstərilmiş xidmətlərə görə yüz faiz qabaqcadan ödəniş alan bəzi müəssisələrdə dövriyyə vəsaiti əsasən cari hesabda və kassada olan vəsaitlərin cari qalığıdır;

• Öhdəliklərin strukturunun özünəməxsus xüsusiyyətləri vardır. Xidmət sektorunda uzunmüddətli öhdəliklər (kreditlər və borclar), bir qayda olaraq, yoxdur. Qısamüddətli öhdəliklərdə tədarükçülərə və podratçılara borc müştərilərdən alınan avanslar və digər kreditor borcları hesabına formalaşır və iri təşkilatlar üçün bunlar əsasən subpodratçılar qarşısında öhdəliklərdir. Nəticə etibarı ilə, xidmət sektorundakı müəssisələr az miqdarda passiv hesablaşmalara malikdirlər;

• Xidmət müəssisələri çox vaxt mühasibat uçotunun sadələşdirilmiş formalarını rəhbər tuturlar.

Xidmət göstərən müəssisələrdə formalaşan uçot siyasəti mühasibat uçotunun təşkilinin bütün aspektlərini - metodik, təşkilati, texniki istiqamətləri əhatə edir. Xidmət göstərən müəssisələrdə (baş mühasib, mühasib) uçot siyasətinin düzgün hazırlanması üçün mövcud qaydaların məqbul uçot variantları baxımından hərtərəfli öyrənilməsi tələb olunur.

Əgər normativ sənədlərdə konkret məsələnin uçotu metodu nəzərdə tutulmayıbsa, o zaman müəssisə müstəqil olaraq və ya məsləhətçi müəssisənin köməyi ilə mühasibat uçotu üzrə normativ sənədlər əsasında müvafiq metod hazırlayır (4).

**Açar sözlər:** *Rəqabətqabiliyyətlilik, sənaye, inkişaf prioritetləri, elmtutumlu sahələr, sənaye siyasəti.*

## ƏDƏBİYYAT SİYAHISI


*1. Salahov, Ə.S. (2000). Mühasibat uçotunun kompüterləşdirilməsi, Windows versiyalı mühasibat proqramına dair elmi-praktiki vəsait, Bakı, 123.*

*2. Salahov, Ə.S. (2008). Mühasibat uçotunun kompüterləşdirilməsi: "Azmühasib" mühasibat uçotu proqramları paketinin tətbiqi xüsusiyyətləri. Dərs vəsaiti. Bakı, "Kooperasiya" Nəşriyyatı, 23.*

*3. Gronroos, C. (2000). Service management and marketing.West Sussex, 657.*

*4. Peter, A. (2001). Accounting and finance for non-specialists / Pearson education Limited, Third edition, 461.*

*5. Астахов, В П. (2001). Теория бухгалтерского учета, В.П. Астахов. М. Издательский центр "МарТ", 397.*

*6. Друри, К. (2003). Введение в управленческий и производственный учет, Пер. С англ. Под ред. С.А. Табалиной. М. Аудит, ЮНИТИ, 568.*

*7. Коростелева, Л.А. (2010). Документация и документооборот в судебнобухгалтерской экспертизе, Вектор науки Тольяттинского государственного университета, 564.*

*8. Кузнецова, С. (2008). Технология организации бухгалтерского учета с учетом специфики субъектов хозяйствования, Бухгалтерский учет и аудит, 654.*

*9. Соколов, Я.В. (2003). История бухгалтерского учета. Я.В. Соколов, В.Я. Соколов. М.: Финансы и статистика, 272.*

*10. Сио К. К. (2002), Управленческая экономика, пер. с анг. К.К. Сио. М. Инфра-М, 477 стр.*

*11. Ткач, В.И. (2004). Управленческий учет на предприятиях сферы услуг. В.И. Ткач, О.Н. Гончаренко.- Москва-Ростов-на-Дону, ИЦ Март, 160.*

*12. Хорнгрен, Ч. Т. и Фостер, Дж. (2005). Бухгалтерский учет, управленческий аспект: пер. с анг. Ч.Т. Хорнгрен, Дж. Фостер; под ред. Я. В. Соколова. М.: Финансы и статистика, 442.*

*15. www.stat.gov.az*


## ХАРАКТЕРИСТИКИ И ПРИМЕНЕНИЕ УЧЕТНЫХ СИСТЕМ НА ПРЕДПРИЯТИЯХ ОБСЛУЖИВАНИЯ

## РЕЗЮМЕ


Сфера услуг является одной из важнейших сфер общественной жизни и оказывает существенное влияние на все аспекты нашей деятельности. С этой точки зрения определенную роль в обеспечении материальной жизни людей играет служебная деятельность, где они осуществляют различные виды своей духовной деятельности. Сфера услуг представляет собой, с одной стороны, совокупность услуг, оказываемых населению, а, с другой стороны, совокупность организаций и отдельных исполнителей, оказывающих материальные и социально-культурные услуги потребителям в рамках сервисной деятельности.

Особое место в бухгалтерском учете предприятий сферы услуг занимает автоматизированная форма учета. Использование автоматизации бухгалтерского учета не приводит к формированию новой формы бухгалтерского учета. По сути, автоматизированная форма представляет собой целый набор различных видов учета.

Использование компьютеров привело к созданию и распространению различных бухгалтерских программ. В настоящее время используются комплексные учетные программы, а также программы учета отдельных объектов. Современные рабочие места бухгалтеров оборудуются персональными компьютерами и на их базе создаются автоматизированные рабочие места бухгалтеров. Они позволяют автоматически формировать первичные документы и машинные графики по разным направлениям учета и передавать результаты в вычислительный центр для составления сводных регистров учета и отчетности. Их внедрение помогает решить задачу полной и комплексной автоматизации бухгалтерского учета.

Значительный оборот учетных данных в любой сфере услуг может быть достигнут за

счет использования новых информационных технологий. При этом следует отметить, что ни одна система автоматизации бухгалтерского учета не может полностью заменить профессионального бухгалтера. Она может повлиять на стиль и качество выполняемых ею функций, только освободившись от рутинных задач.

**Ключевые слова:** *конкурентоспособность, промышленность, приоритеты развития, научные направления, промышленная политика.*

## CHARACTERISTICS AND APPLICATIONS OF ACCOUNTING SYSTEMS IN SERVICE ENTERPRISES

**SUMMARY**

The service sector is one of the most important areas of social life and has a significant impact on all aspects of our activities. From this point of view, service activity plays a certain role in the provision of material life of people, where they carry out various types of their spiritual activities. The service sector is, on the one hand, a set of services provided to the population, and, on the other hand, a set of organizations and individual executors that provide material and socio-cultural services to consumers in the framework of service activities.

Automated form of accounting has a special place in the accounting of service sector enterprises. The use of automation of accounting does not lead to the formation of a new form of accounting. In fact, the automated form is a whole set of different types of accounting.

The use of computers has led to the creation and distribution of various accounting programs. Currently, complex accounting programs are used, as well as programs for accounting of individual objects. Modern workplaces of accountants are equipped with personal computers and automated workplaces of accountants are created on their basis. They allow you to automatically create source documents and machine schedules for different areas of accounting and transfer the results to the computing center to compile consolidated accounting and reporting registers. Their implementation helps to solve the problem of complete and complex automation of accounting.

Significant turnover of accounting data in any service sector can be achieved by taking advantage of new information technologies. At the same time, it should be noted that no accounting automation system can completely replace a professional accountant. It can only affect the style and quality of the functions it performs by freeing itself from routine tasks.

**Keywords:** *Competitiveness, industry, development priorities, scientific fields, industrial policy.*

UOT 332.122

# İŞĞALDAN AZAD OLUNMUŞ REGİONLARIN İNKİŞAFI ÜÇÜN TƏKLİF EDİLƏN LAYİHƏLƏR

**ƏSLİ XATUN MANAFLI**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*

*E-mail: manafli17@mail.ru*

## GİRİŞ

Bu gün "Azərenerji" və "Azərişıq" ASC-lərin birgə fəaliyyəti nəticəsində azad olunmuş torpaqlarımız ən müasir texnologiyalardan istifadə edilərək dayanıqlı və keyfıyyətli elektrik enerjisi ilə təmin edilir. Belə ki, "Azərişıq" ASC Qarabağda-işğaldan azad olunmuş ərazilərimizdə postsovet məkanında ilk olaraq, "ağıllı şəbəkə" konsepsiyası çərçivəsində izolyasiyalı kabel sistemi tətbiq edir ki, bu, hətta qeyri-sabit hava şəraitində belə əhalinin elektrik enerjisi ilə təmin edilməsinə imkan verəcək.

"Azərişıq Qarabağda" layihəsi çərçivəsində Cəbrayıl rayonunun elektrik enerjisi ilə təminatından sonra Füzulinin Şükürbəyli stansiyasından Hadruta ikidövrəli xətlər çəkilib. Ən mühüm istiqamət Hadrutdan Çanaqçıya, ordan isə Daşaltıya qədər olan məsafəyə xəttin çəkilməsidir. Şuşaya isə cəmi 37 gün ərzində elektrik enerjisi verilib.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində elektroenergetika infrastrukturunun yaradılması məqsədilə "Azərenerji" ASC ilə İtaliyanın "Ansaldo Energia" şirkəti arasında bağlanmış qarşılıqlı əməkdaşlıq sahəsində təchizat müqaviləsinə əsasən Ağdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa olunacaq 4 ədəd 110 kilovoltluq yarımstansiyanın avadanlıqlarla təchizatı İtaliya şirkəti tərəfındən reallaşdırılır.

Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın nüfuzlu "Nasionalnaya oborona" jurnalına müsahibəsi zamanı azad olunmuş ərazilərimizin elektrik enerjisi ilə təmin edilməsi barədə deyib: "İndi bölgədə genişmiqyaslı işlər aparılır, ilk növbədə, elektrikləşmə işləri. Biz azad olunmuş bütün əraziləri artıq bu ilin sonuna qədər elektrik enerjisi ilə tam təmin edəcəyik. Laçında, Kəlbəcərdə və Suqovuşanda gücü 20 meqavat olan su elektrik stansiyaları bərpa olunub, artıq onlar enerji verir. Bir neçə yardımçı stansiya tikilib. Bütün istiqamətlərdə yollar çəkilir. Şuşaya Zəfər yolu, eləcə də Füzuli-Şuşa ikinci magistral avtomobil yolu çəkilir, bu yol daha qısa olacaq. Zəngilanda, Qubadlıda Ermənistan sərhədinə qədər yollar, Göygöldən Kəlbəcərə tunel yolu çəkilir. Bu yaxınlarda orda olmuşam, yoxlama aparılıb. Üstəgəl Füzulidən Ağdama, Füzulidən Hadruta, Cəbrayıla gedən yollar. Yəni, bu şəhərlər arasında əlaqə yaradılacaq. Bu il biz təkcə azad olunmuş ərazilərin bərpa edilməsi proqramına 1,3 milyard dollar vəsait ayırmışıq".

İlkin infrastruktur layihələrinin icrasında Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa yolu, Toğanalı - Kəlbəcər yolu, eyni zamanda, Horadizdən Zəngilana, Qubadlıya və Laçın rayonuna qədər yol çəkilişi, Horadiz-Füzuli və Füzuli-Şuşa dəmir yolunun tikintisi, Horadiz-Ağbənd dəmir yolunun çəkilişi uğurla reallaşdırılır (11).

"Ağıllı kənd", "Ağıllı şəhər" layihələri azad olunmuş ərazilərdə bərpa işləri istiqamətində atılan ilk addımlardan biri və eyni zamanda, Böyük Qayıdışın başlanğıcı oldu. Kənddən şəhərə axının qarşısını almaq, əhalinin şəhərdə əldə edə biləcəyi bütün xidmətləri kəndlərdə təşkil etmək, eyni zamanda, insanlara kənddə daha çox gəlir əldə etmək və məşğulluq imkanı yaratmaq, kənd sakinlərinə dövlət xidmətlərindən yararlanmaq şəraitini formalaşdırmaq kimi üstünlüklərə sahib olan, ən müasir texnologiyalara əsaslanan "Ağıllı kənd" layihəsi kəndlərimizə qayıdacaq insanların həyat şəraitinin yaxşılaşmasında, aqrar sahə ilə məşğul olacaq fermerlərimizin "ağıllı kənd təsərrüfatı" sisteminə keçməsində vacib rol oynayacaq. Prezident İlham Əliyevin təşəbbüsü ilə işğaldan azad olunmuş ərazilərdə tətbiqinə start verilən bu layihələrin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edəcəklər.

Türkiyədə fəaliyyət göstərən, 130 texnologiya şirkətinə dəstək verən "GOSB" texnoparkı ilə Azərbaycan İnnovasiyalar Agentliyi arasında imzalanmış "Mədəni və Elmi Əməkdaşlıq" memorandumuna əsasən Qarabağda Yüksək Texnologiyalar Parkı yaradılacaq. Parkda ən son "soft" və "hard" elmi

araşdırmaların aparılması, eyni zamanda, yüksək texnoloji cihazların istehsalı planlaşdırılır.

Prezident İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli Fərmanı ilə işğaldan azad olunmuş ərazilərdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, həmçinin təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə yaradılan "Qarabağ Dirçəliş Fondu" işğaldan azad olunmuş ərazilərinin bərpa edilməsi və yenidən qurulması, həmçinin dayanıqlı iqtisadiyyata və yüksək rifaha sahib regiona çevrilməsi istiqamətində reallaşdırılan tədbirlərə maliyyə dəstəyi göstərilməsi və sərmayələrin cəlb edilməsində əhəmiyyətli rol oynayır (11).

Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan ərazilərin azad edilməsi, işğalçı Ermənistan üzərində qazanılan tarixi qələbə Azərbaycanın gücünü bütün dünyaya göstərdi. Bu gün işğaldan azad edilən ərazilərdə bərpa və yenidənqurma işlərinin aparılması, lazımi infrastrukturun yaradılması, öz doğma yurdlarına qayıtmaq istəyən vətəndaşlarımızın yaşayışı və işgüzar fəaliyyəti üçün şəraitin təşkil edilməsi dövlət siyasətinin prioritetidir. İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin edilməsi, erməni vandalları tərəfindən dağıdılmış şəhər və kəndlərimizdə bərpa, yenidənqurma və quruculuq işlərinin aparılması, həmin ərazilərin ölkə iqtisadiyyatına inteqrasiyası və müasir nəqliyyat infrastrukturunun yaradılması, öz doğma yurdlarına qayıdacaq vətəndaşlarımızın yaşayışı və işgüzar fəaliyyətini yüksək səviyyədə təmin edəcək. Azərbaycanın dilbər guşəsi Qarabağda yeni müasir şəhərlər, kəndlər salınacaq. Yeni mədəniyyət sarayları, idman arenaları, sanatoriyalar, təhsil və səhiyyə müəssisələri yaradılacaq. Qarabağ nəinki Azərbaycanın, dünyanın ən gözəl məkanlarından birinə çevriləcək (11).

Ölkə Prezidenti öz çıxışında bildirmişdi ki, ölkəmizin gələcəyi elə planlaşdırılmalıdır ki, uzunmüddətli dayanıqlı inkişaf təmin edilsin, müstəqillik əbədi olsun, ölkəmizin qüdrəti artsın və Azərbaycan xalqı təhlükəsiz şəraitdə öz dədə- baba torpağında yaşasın. Dayanıqlı inkişafın təmin edilməsi istiqamətində ölkəmizdə əhəmiyyətli islahatlar aparılır. Sağlam düşüncəli, bacarıqlı gənc kadrların önə çəkilməsinə şərait yaradılır. Ölkə rəhbərinin çıxışından irəli gələn müəyyən məqamlar onu deməyə əsas verir ki, biz Cənubi Qafqazda sağlam mühitin dərinləşməsi üçün çalışacağıq, daxili siyasətdə xalq-iqtidar birliyi dərinləşən islahatlarla möhkəmlənir, xarici siyasətdə isə strateji müttəfiqlərin düzgün seçilməsi, tərəfdaşlarla da milli maraqlarımıza müvafiq siyasətin müəyyənləşdirilməsi bizi dünyanın aparıcı dövləti sırasında öz mövqeyimizdə sabit edəcəkdir (12).

Qarabağ bölgəsinin iqtisadi potensialı müəyənləşdirilərkən, qeyd etmək yerində olardı ki, münbit torpaqlara sahib ərazilərdə kənd təsərrüfatının – maldarlığın, əkinçiliyin inkişafı üçün əlverişli şərait vardır. Görüləcək işlərin sürətinin artırılması və şəraitin yaxşılaşdırılması üçün beynəlxalq miqyaslı bir neçə aeroportun tikilməsi, ilkin icra olunacaq layihələrdəndir. Hər bir rayonun coğrafı mövqeyinə müvafiq işlərin görülməsi diqqətdə tutulmuşdur. İlkin olaraq layihələrin icrası üçün təyin edilən investisiyalara müvafiq artıq bir çox beynəlxalq şirkətlərlə müqavilələrin bağlanması bölgəyə və bu bölgədə görüləcək işlərə olan marağın böyüklüyündən irəli gəlir. Beynəlxalq təcrübədən istifadə edilərək bölgədə ilk dəfə olaraq eksperimental layihələrin icrası həyata keçiriləcək. "Yaşıl enerji" zonası, "Ağıllı kənd" pilot layihəsi bu layihələr sırasındadır.

Görüləcək işlərin Baş Planının hazırlanması və bir sıra infrastruktur layihələrin icrasına başlanması artıq arzularımızın tezliklə reallaşdırılacağından xəbər verir. Görülən işlər zamanı müasir texnologiyalardan istifadə edilməsi görüləcək işlərin, həyata keçiriləcək layihələrin həcminin və keyfıyyətinin yüksək olacağını sübut edir.

İşğaldan azad olunmuş ərazilərimizin böyük iqtisadi potensialı və təbii ehtiyatları var: bu ərazilər həm yerli və xarici investisiyaların cəlbi, həm də əhalinin məşğulluğunun təmin edilməsi baxımından dövlət siyasətinin bir parçası olacaq. 2016-cı il aprel döyüşlərindən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi qısa müddətdə yenidən qurulmuşdur. Bu baxımdan, qeyd etməliyik ki, işğaldan azad edilən torpaqların az müddətdə inkişafının uğurlu təcrübələri vardır. Azad edilən rayonlar işğaldan əvvəl üzümçülük, pambıqçılıq, taxılçılıq, heyvandarlıq sahəsində məxsusi paya sahib idi. Bu ərazilərin aqrar istehsal və ixrac potensialı kifayət qədər bö-

yükdür. Şuşa, Füzuli, Kəlbəcər və Zəngilan əraziləri böyük turizm potensialına sahibdir. Dünyanın ən qədim insan məskənlərindən olan Azıx mağarası Füzuli rayonu ərazisində yerləşir. Bu rayonlarda daxili və xarici turizm imkanları kifayət qədər böyükdür. İsti su mənbələri ilə zəngin Kəlbəcərdə sağlamlıq turizminin inkişaf etdirilməsi, mədəniyyət turizm marşrutlarının bərpa edilməsi ptioritet istiqamətdir (12).

Prezident İlham Əliyev: "Biz böyük layihə olan Cənub Qaz Dəhlizini tamamlamağa çox şadıq. BP əvvəldən strateji tərəfdaşımızdır, Azərbaycanda reallaşdırılan əsas layihələrdə investor qismində çıxış edib. İşğaldan azad olunmuş ərazilərdə böyük potensialımız var. Britaniya şirkətləri buna maraq göstərir. Regionun çox yaxşı günəş, külək, su potensialı var". Qarabağın inkişafı ilə bağlı, eləcə də alternativ enerji mənbəyinə çevrilməsi prioritet məsələlər sırasındadır. Hələ müharibədən əvvəl Azərbaycan bərpa edilən enerjiyə investisiyalar cəlb etməyə nail olmuşdu. İki iri beynəlxalq şirkət ümumi həcmi 440 meqavata bərabər günəş və külək elektrik stansiyaları tikintisinə sərmayə yatırmaq arzusunda olduqlarını bildirmişlər. Dünyanın aparıcı enerji şirkətləri arasında tender keçirilib və iki şirkət ən yaxşı təkliflər irəli sürmüşdür. Yaxın vaxtlarda Araz çayı üzərində "Xudafərin" və "Qız qalası" adlı iki su elektrik stansiyasının inşa edilməsi planlaşdırılıb və bununla işğaldan azad edilən ərazilərin elektrik enerjisi ilə fasiləsiz təminatına imkan yaranacaqdır. Yerli enerji tələbatının ödənilməsi və ölkənin enerji ixrac potensialının artması baxımından hər iki stansiyanın əhəmiyyətli yeri olacağına ümid edirik. Məhz azad olunmuş ərazilərdə yaxşı imkanlar mövcuddur. Kəlbəcər- Laçın zonasında külək stansiyalarının yaradılması diqqətdə tutulub, çünki orda çox güclü küləklər olur, Zəngilan-Cəbrayıl zonasında isə günəş stansiyaları diqqətdə tutulub, çünki orda günəş şüalarının il ərzində miqdarı da çox böyükdür və əgər belə demək olarsa, günəş şüalarının keyfıyyəti də buna imkan verir. Ölkə rəhbəri tərəfindən Azərbaycanın müvafiq strukturlarına əcnəbi tərəfdaşlarla bu məsələlər üzərində işləmək tapşırığı verilmişdir. Cənab Prezident işğaldan azad olunmuş əraziləri "Yaşıl enerji" zonası elan etdiyini və bunun üçün, ilk növbədə, bərpa və quruculuq işlərində investorlar gözlədiyini vurğulayıb (11).

Təbii sərvətlərin, faydalı qazıntıların işlənilməsi investisiyaların qoyuluşu baxımından böyük perspektiv vəd edir. Son illərdə Azərbaycanın qeyri- neft ixracında qızıl vacib yer tutur. Həm dünya bazarlarında qızılın qiymətinin yüksəlməsi, həm də bu sahədəki şirkətlərin müasir istehsal texnologiyalarına sahib olması onu deməyə əsas verir ki, işğaldan azad olunmuş ərazilərdə qızıl yataqlarının istismarı yaxın illərdə Azərbaycan iqtisadiyyatına böyük töhfə verəcəkdir (12).

Heyvandarlıq fermalarının qurulması. Torpaqlar bərpa olunub təsərrüfatların istifadəsinə verildikdən sonra növbəti mərhələdə heyvandarlıq fermalarının qurulması və təsərrüfatlarının heyvanlarla təmin edilməsi istiqamətində tədbirlər görülməlidir. Heyvandarlığın intensiv amillər hesabına inkişafı imkanları nəzərə alınmaqla fermaların qurulması və təsərrüfatların məhsuldar heyvanlarla təmin edilməsi məsələsi aktuallıq kəsb edir. Heyvandarlıq fermalarının qurulması tədbirləri həm də iqtisadi səmərəliliyinin artırılması baxımdan fermaların optimal ölçüsü nəzərə alınmaqla təşkil edilməsini əhatə edir (14).

Aqrotexniki xidmətlər, toxum, gübrə və pestisidlərlə təchizat bazasının yaradılması. Əkinçilik istiqamətli təsərrüfatların fəaliyyət göstərməsi üçün onların istehsal vasitələri ilə təmin edilməsi vacibdir. İşğaldan azad olunmuş bu ərazilərdə məskunlaşan təsərrüfatların əkin-biçin işləri ilə məşğul olması üçün onların toxum, gübrə və pestisidlərə çıxışının asanlaşdırılması və bu ərazilərdə aqrotexniki xidmətlərin təşkili ilə əlaqədar bərpa tədbirləri ilkin mərhələdə daha çox dövlətə məxsus "Aqroservis" ASC tərəfindən həyata keçirilə bilər. Tədricən bu istiqamətdə özəl təsərrüfatların da stimullaşdırılması vacib şərtdir (11).

Kənd təsərrüfatı mütəxəssislərinin hazırlanması və informasiya-məsləhət xidmətinin təşkili. Azad edilən ərazilərdə məskunlaşan fermerlər üçün məsləhət-informasiya xidmətlərinin təşkili bu bölgədə kənd təsərrüfatının bərpa edilməsi və inkişafı baxımından vacib faktorlardandır. Belə ki, işğal olunmuş rayonların əhalisinin kənd yerlərində qeydiyyatda olanlarının əksəriyyəti uzun müddətdir kənd təsərrüfatı fəaliyyətindən uzaq düşüblər, yaxud da işğaldan sonra şəhər və qəsəbələrdə doğulan və yaxud yetişən yeni nəsil, ümumiyyətlə, kənd

təsərrüfatı fəaliyyətində iştirak təcrübəsinə sahib deyillər, eləcə də müasir dövrdə artıq təsərrüfatların texnologiyası yenilənib, yeni və daha məhsuldar təsərrüfatçılıq üsulları formalaşıb. Buna əsasən də həmin ərazilərdə məsləhət-informasiya xidmətlərinin təşkil edilməsi və modul peşə təlimi sisteminin yaradılması çox zəruridir.

**Açar sözlər:** *işğaldan azad olunmuş ərazilər, regionların inkişafı, layihələr.*

## ƏDƏBİYYAT SİYAHISI


*1. AR-nın işğaldan azad olunmuş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi ilə əlaqədar Əlaqələndirmə Qərargahının yaradılması barəsində Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı.*

*2. "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması barəsində Azərbaycan Respublikası Prezidentinin 202l-ci il 04 yanvar tarixli Fərmanı.*

*3. Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib.*

*4. https://azertag.az/xeber/Prezident_Ilham_Aliyevin_sedrliyi_ile_2020_ci_ilin_yekunlarina_hesr_olunmus_videoformatda_musavire_kechirilib_YENIlANIB_VIDEO-1682565*

*5. Səmədzadə Z., "Dağlıq Qarabağ: naməlum həqiqətlər", Bakı, "Vətən" nəşriyyatı, 1995.*

*6. https://www.respublica-news.az/news/isgaldan-azad-olunmus-erazilerde-muasir-infrastruktur-layiheler-heyata-kecirilir*

*7. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü barəsində" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli l386 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə "Bakı şəhəri, 10 iyul 2021-ci il. https://nk.gov.az/az/document/5457/print/.*

*8. Eyyubova, G. İqtisadi rayonların sayının artması Vətən müharibəsində qazandığımız Zəfərdən sonra formalaşmış yeni reallıqlara tam uyğundur. 09 iyul 2021. https://ikisahil.az/post/233l56-iqtisadi-rayonlarin-sayinin-artmasi-veten-muharibesinde-qazandigimiz-zeferden-sonra-formalashmish-yeni-realliqlara-tam-uygundur.*

*9. İqtisadi rayonlaşdırma. https://www.azerbaijans.com/content_464_az.html.*

*10. Azərbaycan Respublikası Sahibkarlığın İnkişafi Fondunun vəsaitinin səmərəli yerləşdirilməsi məqsədilə iqtisadi rayonlar üzrə prioritet istiqamətlər. http://edf.gov.az/az/content/l05#.*

*11. Qurbanlı, T. Yeni iqtisadi rayonlar: siyasi və milli təhlükəsizlik prinsipləri. L2.07.2021. https://teleqraf.com/news/siyaset/294486.html.*

*12. Nəcəfxanlı, Ə. İqtisadi rayonlar üzrə yeni bölgü faydalı iş əmsalını daha çox artıracaq. L1.07.2021. https://xalqqazeti.com/mobile/az/news/80407.*

*13. Sadıqlı, F. Yeni iqtisadi rayonlar ölkəmizin gələcək inkişafi üçün yeni imkanlar açır. 09.07.2021. https://azerbaijan-news.az/posts/detail/yeni-iqtisadi-rayonlar-olkemizin-gelecek-inkisafi-u-cun-yeni-imkanlar-acir-1625780115.*

*14. https://report.az/ask/isgal-olunmus-erazilerimizin-azad-edilmesi-milli-iqtisadiyyata-ne-ved-edir/*


## ПРЕДЛАГАЕМЫЕ ПРОЕКТЫ ДЛЯ РАЗВИТИЯ ВЫПУСКАЕМЫХ РЕГИОНАЛОВ

## РЕЗЮМЕ


Вторая карабахская война закончилась поражением Азербайджана. Наш народ освободил свои земли от армянской оккупации. Однако уже почти тридцать лет наши освобожденные земли разграблены, разрушены и почти укрыты армянскими захватчиками. Оживить, построить и восстановить эту землю так же трудно, как и обустроить. Таким образом, реализация инфраструктурных, транспортных, логистических проектов, создание рабочих мест в агропромышленном комплексе и сфере обслуживания, восстановление экономики, возвращение бывших переселенцев на родные земли.В истинном смысле этого слова великая держава, великая потенциал.

Благодаря решительности и решительности Президента Ильхама Алиева и его дальновидной политике в скором времени будут восстановлены разрушенные армянскими фашистами наши города и села, исторические, культурные и религиозные памятники, а люди вернутся на земли своих предков. После возвращения местного населения на родные земли уже началась масштабная работа по

обеспечению их постоянного расселения и превращению этой территории в здоровую, современную и благополучную среду обитания общества. Обеспечение Великого возвращения на оккупированные территории, восстановление и реконструкция городов и сел, восстановление электроснабжения, природного газа, воды, связи, дорог, образования, здравоохранения, культуры, жилищно-коммунального хозяйства и других необходимых объектов инфраструктуры и культурно-исторических памятников и реконструкция, строительство жилья и т.д. На программу восстановления освобожденных территорий из госбюджета на 2021 год выделено 2,2 миллиарда манатов.

**Ключевые слова:** *освобожденные территории, региональное развитие, планирование.*

## PROPOSED PROJECTS FOR THE DEVELOPMENT OF RELEASED REGIONALS
## SUMMARY

The Second Karabakh War ended with the defeat of Azerbaijan. Our people liberated their lands from Armenian occupation. However, our liberated lands have been plundered, destroyed and almost taken refuge by the Armenian invaders for almost thirty years. It is as difficult to revitalize, rebuild and restore this land as it is to conquer it. Thus, the implementation of infrastructure, transport, logistics projects, construction of jobs in the agricultural and service sectors, the restoration of the economy, the return of former IDPs to their native lands. In the true sense of the word, great power, great potential.

Thanks to the determination and determination of President Ilham Aliyev and his far-sighted policy, our cities and villages, historical, cultural and religious monuments destroyed by the Armenian fascists will soon be restored, and people will return to their ancestral lands. After the return of the local population to their native lands, large-scale work has already begun to ensure their permanent settlement and to turn this area into a healthy, modern and prosperous living environment of the society. Ensuring the Great Return to the Occupied Territories, Rehabilitation and Reconstruction of Towns and Villages, Restoration of Electricity, Natural Gas, Water, Communications, Roads, Education, Health, Culture, Housing and Communal Services and Other Necessary Infrastructures and Cultural and Historical Monuments and reconstruction, construction of housing, etc. 2.2 billion manat has been allocated from the state budget for 2021 for the program of restoring the liberated territories.

**Keywords:** *liberated territories, regional development, planning.*

UOT 336.1/02; 339.7.01

# 2020: DÜNYA BÖHRANI VƏ MALİYYƏ SABİTLİYİ

**MƏHƏMMƏD MUXTAROV**
*UNEC-in Zaqatala filialında müəllim, doktorant*
*E-mail: muxtarov.mehemmed93@gmail.com*

## GİRİŞ

Böhran bütün dövlətlər üçün təhlükəli bir vəziyyət yaratmaqla bərabər, həm də təcrübə əhəmiyyəti daşımaqdadır. Hazırda dünyada böhranın meydana gəlmə səbəbini bir çox mütəxəssislər baş vermiş COVID-19 pandemiyası ilə əlaqələndirirlər. Bu məqaləmizdə tarixə qısa bir baxış həyata keçirərək dünyanın daha öncə bu kimi bir vəziyyətlə qarşılaşıb-qarşılaşmadığını araşdıracaq, bu kimi vəziyyət qarşısında dünya iqtisadiyyatının necə dəyişdiyinə nəzər yetirəcək və fəsadları minimuma endirərək gələcəkdə bu vəziyyətdən qurtulmaq üçün strateji yollar axtarılacaqdır.

Tarixə qısa bir baxış etsək, dünyanın daha öncə belə bir vəziyyətlə qarşılaşdığını görmək mümkündür. 1918-1919-cu illərdə meydana gələn və "İspanya qripi" olaraq adlandırılan pandemiya buna misal göstərilə bilər. İspaniyada meydana gələn və o zaman dünya əhalisinin üçdə birinin yoluxmasına səbəb olan bu pandemiya bütün dövrlər üçün pandemiyaların anası olaraq adlandırılmaqdadır. Eyni günümüzdəki COVID-19 virusu kimi mərhələləri olan bu virusda toplam ölü sayısı 50 milyon, bəzi mənbələrə görə bu rəqəm 100 milyona qədər yüksəlməkdədir (1, səh 15).

İspaniya qripinin fəsadlarının qarşısının alınması üçün atılan addımlara baxdığımız zaman qarşımıza günümüzün bənzər vəziyyəti çıxmaqdadır. O zaman üçün qəzetlərdə və yerli nəşriyyatda yazılan məlumatlara əsasən insanlar iş yerlərinə getməkdən çəkinir, sosial məsafə saxlama qaydaları tətbiq olunur, təhsil ocaqları fəaliyyətini dayandırır, yük daşımaları da daxil olmaqla bütün nəqliyyat sistemlərinə məhdudiyyətlər gətirilir, hətta o zaman üçün kritik dərəcədə lazımı olan mədənlərin istehsalı azaldılır və bağlanma təhlükəsi ilə qarşı-qarşıya qalır. (2, səh 20).

1918-ci ildə meydana gələn bu pandemiyanın iqtisadiyyata necə təsir etdiyinə nəzər yetirək.

**Şəkil 1. Dow Jones İndeksi (1918-1934)**




**Mənbə:** *https://www.macrotrends.net/1319/dow-jones-100-year-historical-chart*

Şəkil 1-dən göründüyü kimi, 1918-ci ildə yaranan pandemiyanın birinci dalğası ilə birlikdə iyul ayından etibarən iqtisadiyyatda daralma meydana gəlməyə başlayıb, lakin bununla birlikdə 1919-cu ilin aprelində üçüncü dalğa ilə birlikdə fəsadlar aradan qalxır. Gözləniləninin əksinə birjada kəskin bir azalma yaranmır və əksinə artış trendinə girir.

Dow Jones İndeksinə daha yaxından baxdığımız zaman 1918-ci il yanvar ayında dəyər 79.8 olmuşdur, aprel 1919-cu ildə isə 92.88, aradakı artım fərqini hesablasaq, +16.39% bir artış qarşımıza çıxmaqdadır. Eyni tarixlər arası inflyasiyanı hesaba qataraq hesablama aparsaq, bu zaman -2.4% çox zəif bir enmə qarşımıza çıxmaqdadır. Bu dəyərləri günümüzün dəyərləri ilə müqayisə edək. 2020-ci ilin fevral ayının 12-sində Dow Jones İndeksi 29551 və sadəcə bir ay sonra isə 23 mart tarixində 18591 olmuşdur. Aradakı -37% ilə çox böyük bir enmə yaşanmışdır.

**Şəkil 2. Əsas mərkəzi bankların pul emissiyası**




**Mənbə:** *https://www.investing.com/analysis/global-quantitative-tightening-in-pictures-200339990*

Şəkil 2-də biz dünyanın qabaqcıl mərkəzi banklarının həyata keçirdikləri pul emissiyasını görürük. Hər bir mərkəzi bank təqribən 6 trilyon dollar məbləğində pul emissiyasını həyata keçirmişdir. Lakin buna baxmayaraq, bazarda inflyasiya müşahidə olunmamışdır. Bunun səbəbi kimi isə həyata keçirilən pul emissiyalarının real iqtisadiyyata deyil, birja sektoruna doğru hərəkət etməsi idi. Şəkil 3-dən göründüyü kimi, S&P 500 indeksindəki 5 ən böyük şirkət, mərkəzi bankların həyata keçirdikləri pul emissiyaları vasitəsilə öz şirkətlərinin qiymətli kağızlarını aldılar. Birjadakı en böyük 5 şirkət 2000-ci ildə birjanın 17%-ni özündə birləşdirdiyi halda, 2020-ci ildə bu göstərici 22%-ə yaxınlaşmaqda idi.

**Şəkil 3. S&P 500 indeksindəki 5 ən böyük şirkət**




**Mənbə:** *https://beaconinvesting.com/beacon-capital-investment-email-june-2020-newsletter/*

Birjanın bu qədər böyük ölçüdə şişməsi istehsala, məşğulluğa, ticarətə ciddi şəkildə öz mənfi təsirini göstərmişdir. Şəkil 4-də biz tarixsəl olaraq birjada meydana gələn partlamaları görürük. 2020-ci ildə birjada meydana gələn bu cür şişmə iqtisadi ədəbiyyata "Hər şey partlayır" adı altında düşdü və 2020-ci ildə birja kəskin dəyər itkisi yaşadı.

**Şəkil 4. ABŞ-ın ümümi bazar dəyərinin ÜDM-ə nisbəti**




**Mənbə:** *https://www.crescat.net/crescat-capital-quarterly-investor-letter-q1-2020/*

**Şəkil 5. 2020 Böhranının işsizliyə təsiri**




**Mənbə:** *https://www.cnbc.com/2020/04/23/the-us-economy-has-now-erased-all-job-gains-since-the-gre-at-recession.html*

Şəkil 5-də 2020 böhranının ABŞ-da işsizliyə təsirini görə bilərik. Amerikada son verilən məlumatlara əsasən, sadəcə 6 həftə ərzində işsiz kimi qeydiyyata alınanların sayı 30.3 milyon nəfər olmuşdur. Tarixin ən böyük böhranı sayılan 1929-cu il böhranında isə işsiz kimi qeydə alınanlar 22.4 milyon, 2008 böhranında isə sadəcə 8.7 milyon nəfər olmuşdu. Sadəcə, cəmi 6 həftə ərzində meydana gələn bu səviyyədə işsizlik bizə pandemiya bitdikdən sonrakı dövrdə hər şeyin bir anda əvvəlki vəziyyətinə qayıda bilməyəcəyi haqda məlumat verir.

**Şəkil 6. Amerikada toplam kreditlərin ÜDM-dəki payı**




**Mənbə:** *http://www.ftense.com/2013/04/using-common-sense-instead-of-economic.html*

1913-cü ildə Amerikada Federal Ehtiyatlar Departamenti (FED) yaradılır. Qurulduğu dövrlərdə FED güclü bir pul siyasəti həyata keçirir və mərkəzi banklar pul emissiyasını 100% qızıl ehtiyatlarına uyğun həyata keçirir. Daha sonra bu faiz dərəcəsi FED yaradılması ilə 40%-a qədər azaldılır və beləliklə, Federal Ehtiyatlar Departamenti daha çox pul emissiya etmək icazəsi əldə edir. Şəkil 2-dən göründüyü kimi, 1920-ci illərdən etibarən daha çox pul emissiyası ilə yaranan kreditlər iqtisadiyatı şişirtməkdə davam edir və 1929-cu ildə böyük böhranın meydana gəlməsinə səbəb olur. Eyni zamanda Şəkil 1-dən 1929-cu ildə yaranan krizis zamanı Dow Jones İndeksindəki düşüşü görə bilərik.

1971-ci ildə isə Bretton-Woods sisteminin çökməsi nəticəsində Amerika dollar emisyasında müstəqillik qazanır və qızıl ehtiyatlarından asılı olmadan istənilən qədər pul emisya etmək ixtiyarına sahib olur. 1971-ci ildən etibarən artan kreditlər və bu kreditlərin real iqtisadiyyata yönəlməməsi nəticəsində birjaların həddindən artıq şişməsi sonda bu böhranın meydana gəlməsi ilə nəticələndi.

## NƏTİCƏ VƏ ÇIXIŞ YOLLARI

COVID-19 pandemiyasının 2020 krizinə təsiri olsa da bu krizisin meydana gəlməsinin əsas səbəbi bu pandemiyadan daha çox dünya birjalarının həddindən artıq şişməsi və dünya mərkəz banklarının limitsiz bir şəkildə iqtisadiyyata pul emissiya etmə-

sidir. Belə bir vəziyyətdən çıxış strategiyası olaraq Amerikanın və dünya ölkələrinin emisya etdikləri pulu real iqtisadiyyata yönləndirmə yolları araşdırılmalıdır. Eyni zamanda, yenidən dünya gündəmində olan bir məsələ kimi pul emissiyasını sabitləmək və ya qızıl standartlarına dönmək düşünülən ehtimallar arasında öz aktuallığını qorumaqdadır.

**Açar sözlər:** *COVİD-19, Pandemiya, Dünya böhranı.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Jeffery K. Taubenberger* and David M. Morens. (2006). 1918 Influenza: The Mother of All Pandemics, Emerging Infectious Diseases Vol. 12, No. 1, 15.*

*2. Thomas A. Garrett. (2007). Economic Effects of the 1918 Influenza Pandemic, Federal Reserve Bank of St. Louis, 20.*

*3. https://www.macrotrends.net/1319/dow-jones-100-year-historical-chart*

*4. https://www.investing.com/analysis/global-quantitative-tightening-in-pictures-200339990*

*5. Bloomberg LP, Bank of America, & Horsesmouth "Equal Weighting: The Powerful Impact of a Simple Strategy" September 19, 2019.*

*6. https://beaconinvesting.com/beacon-capital-investment-email-june-2020-newsletter/*

*7. https://www.crescat.net/crescat-capital-quarterly-investor-letter-q1-2020/*

*8. https://www.cnbc.com/2020/04/23/the-us-economy-has-now-erased-all-job-gains-since-the-great-recession.html*

*9. http://www.ftense.com/2013/04/using-common-sense-instead-of-economic.html*

## МИРОВОЙ КРИЗИС 2020 И ФИНАНСОВАЯ СТАБИЛЬНОСТЬ

### РЕЗЮМЕ

В декабре 2019 г. пандемия была объявлена Всемирной организацией здравоохранения (ВОЗ) 11 марта 2020 г. в результате эпидемии коронавируса, произошедшей в провинции Ухань, Китай. В условиях стремительного распространения эпидемии COVID-19 до сих пор неизвестно, как долго продлятся негативные последствия для мировой экономики. Экономические обозреватели и авторитетные компании считают, что вирус вызовет крупнейший кризис в мировой истории. В нашей статье мы рассмотрим, действительно ли нынешний кризис вызван вирусом COVID-19.

**Ключевые слова:** *COVID-19, пандемия, мировой кризис.*

## 2020: WORLD CRISIS AND FINANCIAL STABILITY

### SUMMARY

In December 2019, a pandemic was declared by the World Health Organization (WHO) on March 11, 2020 as a result of a coronavirus epidemic that occurred in Wuhan Province, China. With the rapid spread of the COVID-19 epidemic, it is still unknown how long the negative effects on the world economy will last. Economic commentators and reputable companies believe that the virus will cause the biggest crisis in world history. Our article will examine whether the current crisis is actually caused by the COVID-19 virus.

**Keywords:** *COVID-19, Pandemic, World Crisis.*

UOT 332.122

# QARABAĞ İQTİSADİYYATININ BƏRPASI VƏ İNKİŞAFI PROSESİNDƏ YENİ İQTİSADİ RAYONLARIN YARADILMASININ ƏHƏMİYYƏTİ VƏ GƏLƏCƏKDƏ GƏTİRƏCƏYİ İQTİSADİ SƏMƏRƏNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**MURAD MUSTAFAYEV**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*
*E-mail: mustafayev.murad@list.ru*

## ƏSAS HİSSƏ

İşğaldan azad edilmiş ərazilərin bərpası və həmçinin həmin ərazilərin gələcəkdə iqtisadi səmərə gətirə bilməsi, inkişaf etməsi üçün büdcədən vəsaitlər ayrılması mütləqdir. Büdcədən vəsaitlərin ayrılması və effektiv idarəsinin əhəmiyyətini başa düşmək üçün, ilk öncə büdcə haqqında ilkin və ümumi məlumatları bilmək vacibdir. Dövlət tənzimlənməsinin cəmiyyətin sosial və həmçinin iqtisadi-siyasi strukturunun formalaşmasında əhəmiyyətli yeri vardır. Büdcə sistemi maliyyə sisteminin tərkib hissəsidir və iqtisadi-sosial dövlət siyasətinin əsas mexanizmidir. Dövlətin mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş pul vəsaiti fondlarının istifadəsi elə məhz büdcə vasitəsilə həyata keçirilir. Dövlət büdcəsi bütün ölkələr üçün çox vacib bir maliyyə sənədidir.Dövlət, büdcə vasitəsilə əsas funksiyalarının icrasını maliyyələşdirir.

Büdcə-Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədidir (10).

Qarabağın bərpası prosesi fonunda tarixi abidələr bərpa olunur, yol-nəqliyyat və digər yaşamaq üçün əhəmiyyətli olan infrastrukturlar qurulur, elektrik xətləri çəkilir. Bu genişmiqyaslı bərpa prosesində xarici ölkələrin şirkətləri də yaxından iştirak edirlər.Qarabağın bərpası təkcə Azərbaycanın deyil, bütün regionun iqtisadiyyatının inkişafına mühüm töhfə verəcək, regional əməkdaşlığın daha da güclənməsinə təkan verəcək (1).

İşğaldan azad edilmiş ərazilərin bərpası Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də öz əksini tapmışdır. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də, işğaldan azad edilmiş ərazilərin bərpası, növbəti illərdə ölkənin sosial-iqtisadi inkişafına dair beş milli prioritetdən biri olaraq müəyyən edilməsi də məsələnin nə qədər əhəmiyyətli olduğunu bir daha sübut edir.

İşğaldan azad edilmiş ərazilərin bərpası və yerli əhalinin həmin ərazilərə geri qayıtması prosesinin sürətləndirilməsi fonunda, Qarabağ Dirçəliş Fondu yaradıldı. Fondun yaradılmasınının əsas səbəbi işğaldan azad olunmuş əraziləri bərpa etmək, həmin ərazilərdə dayanıqlı məskunlaşma yaratmaq, təhlükəsiz və yüksək rifahlı yaşayışı təmin etməkdir. Torpaqlarımız, 30 il ərzində, işğal altında qaldığı müddətdə, düşmən tərəfindən dağıdılmışdır. Belə ki, bütün yaşayış və ictimai binalar, abidələr, nəqliyyat yolları və yaşayış üçün mühüm olan infrastrukturlar dağıdılmış, yeraltı sərvətlər talan edilmiş və əraziyə yerləşdirilən mina və partlayıcı silah-sursatlar torpaq örtüyünə zərər vermişdir. Elə bu səbəblərə görə də, həmin ərazilərin bərpası böyük vəsait və vaxt tələb edən bir prosesdir. İşğaldan azad edilmiş ərazilərin bərpasına çəkiləcək olan böyük xərc və vaxtı azaltmağın bir çox yolu vardır. Belə ki, bərpa və yenidənqurma işlərinə yerli və xarici investorlar, kommersiya bankları və xarici dost ölkələrin yardımlarından istifadə mümkündür. Bütün belə proseslərin idarə olunması və bir yerdə toplanmasında Qarabağ Dirçəliş Fondunun da rolu vardır. Həmçinin, Qarabağ Dirçəliş Fondu fiziki və hüquqi şəxslərin ianəsi əsasında da formalaşır.

İşğaldan azad olunmuş ərazilərin bərpa prosesində, "Ağıllı şəhər", "Ağıllı kənd" konsepsiyalarından istifadə olunur. Artıq Zəngilan rayonu ərazisində, birinci belə, "Ağıllı kənd"in inşası başa çatmışdır. Həmçinin, Füzuli rayonu ərazisində də "Ağıllı kənd" inşasına başlanılıb (3).

"Ağıllı şəhər" və ağıllı kənd layihəsinin əsas məqsədi, həmin ərazilərdə yaşayan insanlar üçün yüksək rifahlı yaşayış, sosial xidmətlər, istehsal, alternativ enerjinin tətbiqi və s. kimi sahələrin tətbiqi və qurulmasıdır. "Ağıllı kənd"lərdə, məktəblər, bağçalar, xəstəxanalar və s. kimi yaşayış üçün mühüm olan obyektlər inşa olunacaq və həmçinin, turizm infrastrukturları da yaradılacaqdır.

İnşa edilmiş və inşa prosesində olan "Ağıllı kənd" ərazilərində yaşayış evləri, inzibati binalar, kənd təsərrüfatı məhsullarının istehsal əraziləri və bir sözlə, özü-özünü təmin edə biləcək bir ərazi formalaşdırılacaq.

Azərbaycan Respublikasının Prezidenti mühüm bir fərman imzalayaraq iqtisadi rayonların yeni bölgüsünü təsdiq etmiş və ölkə iqtisadiyyatının idarə edilməsinin strateji mexanizmlərinin yenilənməsi prosesini başlatmışdır. Ölkə Prezidentinin 7 iyul 2021-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü təsdiq olunmuşdur. 7 iyul 2021-ci il tarixli fərmanda qeyd edilir ki, işğaldan azad olunmuş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Yeni iqtisadi rayonların, xarici investisiyaların daha intensiv cəlb olunmasında, daxili investisiyaların məqsədli və həmçinin səmərəli şəkildə yönəldilməsində, yeni maliyyə mənbələrinin yaradılmasında rolu və əhəmiyyəti böyük olacaqdır. Nazirlər Kabinetinin 10 iyul 2021-ci il tarixli qərarı ilə "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli Fərmanının icrasının təmin edilməsi istiqamətində zəruri tədbirlər görülməkdədir (6).

Beləliklə, iqtisadi diversifikasiya iki əsas növə ayrılır: iqtisadi (məhsulun) diversifikasiyası və ixracın diversifikasiyası. İqtisadiyyatın şaxələndirilməsi ümumiyyətlə iqtisadiyyatın istehsal etdiyi mal və xidmətlər baxımından daha müxtəlif olması prosesi kimi müəyyən edilir. İxracın diversifikasiyası mövcud ixrac kompleksində əmtəələrin paylarını dəyişdirmək, ixrac portfelinə yeni məhsullar təqdim etmək və/və ya yeni coğrafi bazarlara çıxmaq məqsədi daşıyan düşünülmüş siyasətlərə aiddir. Hər iki növün iqtisadi artıma təkan verəcəyinə, məhsuldar investisiyalar üçün əlverişli mühitin yaradılmasına və qısamüddətli makroiqtisadi dəyişkənliyi azaldacağına inanılır.

Milli səviyyədə iqtisadiyyatın diversifikasiyası ölkənin dar iqtisadi bazadan həddən artıq asılılığını azaltmaqla nəticələnir. Resursdan asılı olan ölkələrdə bu proses istehsal və digər qeyri-resurs sektorlarını dəstəkləməklə istehsal bazasının hasilat sektorundan uzaqlaşdırılmasını nəzərdə tutur. Bu prosesi geniş mənada sənayeləşmə kimi təyin etmək olar. (7)

Praktikada ölkələrin iqtisadi şaxələndirilmə səviyyəsini 2 əsas göstərici vasitəsilə qiymətləndirirlər. Birinci üsül əlavə emal dəyərinin ÜDM-də xüsusi çəkisi əsasında, ikinci üsul isə ixracın diversifikasiyasının Herfindal Hirşman İndeksi vasitəsilə hesablanmasıdır. Hər bir üsulu Azərbaycan Respublikası çərçivəsində ayrılıqda nəzərdən keçirək. (5)

**Əlavə emal dəyərinin ÜDM-də xüsusi çəkisi.** Qrafik 1-dən də, aydın olduğu kimi, Azərbaycan Respublikasında emalın ÜDM-dəkı ümumi payı 2010-cu ildə 4.73%-dən 2020-ci ildə 5.76%-dək yüksəlmişdir. Bu göstərici iqtisadiyyatın məhsul üzrə şaxələnməsini əks etdirən əsas göstəricidir və ölkədə sənayeləşmə dərəcəsində müəyyən edir. Respublikamızda illər üzrə sənayeləşmə dərəcəsində müsbət irəliləyişə nail olunduğu görünsə də, sözügedən göstərici ümumi dünya göstəricisindən kifayət qədər aşağıdır (təqribən 10%).

Sənayeləşmə baş verdikcə, iqtisadiyyatın strukturu dəyişir və ölkələrin gəlirləri artır, bu da həyat standartlarının yaxşılaşmasına səbəb olur. Yüksək gəlirli ölkələr daha çox sənayeləşmişdir və istehsal sektorunun ÜDM-də payı bu ölkələrdə az inkişaf etmiş ölkələrlə müqayisədə daha yüksəkdir. Ölkələr inkişaf etdikcə, istehsal və xidmət sektorları ilkin sektorlarla müqayisədə daha sürətlə inkişaf edir.

**Qrafik 1. Azərbaycan Respublikasında və ümumi dünyada əlavə emal dəyərinin ÜDM-də payı 2010-2020-ci illər üzrə**




**Mənbə:** *Dünya Bankı https://data.worldbank.org/indicator/NV.IND.MANF.ZS?end=2020&locations=AZ&start=2010&view=chart*

Bundan əlavə, iqtisadiyyatın şaxələndirilməsindən bəhs edərkən respublikamız üçün kənd təsərrüfatı, sənaye, xidmət sahəsinin də rolunu qeyd etmək çox vacibdir. Cədvəl 1-də respublikamızda 2010 və 2020-ci illər ərzində iqtisadiyyatın müvafiq sahələrinin ÜDM-dəki payı qeyd olunur.

**Cədvəl 1. Azərbaycan Respublikasında ÜDM-in strukturu 2010-2020-ci illər müqayisəsi faizlə.**

| İqtisadiyyatın sektorları | 2010 | 2020 | Tendensiya |
|---|---|---|---|
| Kənd təsərrüfatı | 5.5 | 6.9 | ▲ 1.4 |
| İstehsal | 59.8 | 41.4 | ▼18.4 |
| Emal | 4.7 | 5.8 | ▲ 1.1 |
| Xidmət | 27.9 | 42 | ▲ 14.1 |

**Mənbə:** *Dünya Bankı*

**Herfindal indeksi - ixracın diversifikasiyası göstəricisi.** Hirschman Herfindahl indeksi ticarət dəyərinin ixracatçının tərəfdaşları arasında yayılmasının ölçüsüdür. Çox az bazarda cəmləşmiş ticarəti (ixrac və ya idxal) olan bir ölkənin indeks dəyəri 1-ə yaxın olacaqdır. Eynilə, mükəmməl diversifikasiya olunmuş ticarət portfelinə malik bir ölkənin indeksi sıfıra yaxın olacaqdır.

**Cədvəl 2. Azərbaycan Respublikası üçün ixracın diversifikasiyasının Herfindal hirşman indeksi 2015-2019-cu illər üzrə.**

| Tarix | Herfindal indeksi |
|---|---|
| 2015 | 0.118228081 |
| 2016 | 0.097839834 |
| 2017 | 0.110231242 |
| 2018 | 0.117610975 |
| 2019 | 0.131431806 |

**Mənbə:** *World Integrated trade solution https://wits.worldbank.org/CountryProfile/en/Country/AZE/Year/LTST/*

Cədvəl 2 Azərbaycan Respublikası üçün 2015-2019-cu illər arasında ixracın təkmilləşməsi indeksinin zaman tendensiyasını göstərir. Sözügedən indeks ölkənin ixrac etdiyi məhsulların texnoloji təkmilliyini ölçür. İndeksin daha böyük dəyərləri daha mürəkkəbliyi göstərir. Qabaqcıl iqtisadiyyatların ixrac etdiyi məhsulların daha az inkişaf etmiş ölkələrin ixrac etdiyi məhsullardan daha mürəkkəb olduğu güman edilir. Beləliklə, indeksin zaman üzrə tendensiyası bunu deməyə əsas verir ki, ölkəmiz ixracda hər hansısa bir ölkənin xarici bazarından asılı deyil və bu, ölkəmiz üçün müsbət nəticədir.

Yuxarıda qeyd olunanlardan əlavə, hazırda respublikamızda investisiya fəaliyyətinin inkişaf etdirilməsi, biznes mühitinin təkmilləşdirilməsi, qeyri-neft sektorunun, o cümlədən sənaye istehsalının inkişafına xüsusi diqqət yetirilmişdir. Bundan əlavə, ölkənin ixrac potensialının artırılması, məhsulların rəqabətqabiliyyətinin artırılması və xarici investisiyaların cəlb edilməsi diqqət mərkəzində idi. Bu istiqamətdə atılan əsas addımlardan biri də, sənaye parklarının yaradılmasıdır. Belə ki, sənaye parklarında 2021-ci ildə 2020-ci illə müqayisədə 49% daha çox məhsul istehsal edərək 47% daha çox məhsul ixracı həyata keçirilmişdir. (4)

**İqtisadi azadlıq indeksi iqtisadiyyatın şaxələndirilməsinin əsas göstəricisi kimi.** İqtisadiyyatın şaxələndirilməsinə təsir edən bəzi amillər ixracın diversifikasiyasına, bu isə öz növbəsində ixrac potensialının artırılmasına təsir edir. Məsələn, ticarət və investisiya azadlığı kimi iqtisadi azadlıq göstəriciləri ixracın diversifikasiyası ilə düz mütənasib asılılıq əks etdirsə də, həmin göstərici iqtisadi şaxələnmədə o qədər də vacib amil deyil. Beləliklə, iqtisadi azadlıq indeksi iqtisadiyyatın şaxələndirilməsinin əsas göstəricilərindən biri olmaqla hər il

Vaşinqton Heritage Foundation təşkilatı tərəfindən qiymətləndirilməsi aparılır. Sözügedən indeks 4 qrupda yerləşən 12 indikatordan ibarətdir.

**Cədvəl 3. Azərbaycan Respublikasının 2022-ci ildə iqtisadi azadlıq indeksi**

| İndikator adı | Ümumi göstərici |
|---|---|
| **İqtisadi azadlıq indeksi** | **61.5** |
| **Qanunvericilik** | |
| 1. Mülkiyyət hüquqları | 53.5 |
| 2. Məhkəmənin effektivliyi | 15.9 |
| 3. Hökumətin dürüstlüyü | 28.6 |
| **İslahatların effektivliyi** | |
| 4. Biznesin azadlığı | 64.5 |
| 5. İşçi qüvvəsi azadlığı | 55.9 |
| 6. Pul azadlığı | 74.5 |
| **Hökumətin ölçüsü** | |
| 7. Vergi yükü | 87.7 |
| 8. Dövlət xərcləri | 62.7 |
| 9. Maliyyə sağlamlığı | 99.1 |
| **Bazarların açıqlığı** | |
| 10. Ticarət azadlığı | 66.6 |
| 11. İnvestisiya azadlığı | 70 |
| 12. Maliyyə azadlığı | 60 |

**Mənbə:** *2022 index of economic freedom of Azerbaijan, The Heritage Foundation, https://www.heritage.org/index/country/azerbaijan#rule-of-law*

Azərbaycanın iqtisadi azadlıq indeksi üzrə balı 61,6 olmaqla, 2022-ci ildə dünya ölkələri arasında 75-ci yerdədir. Azərbaycan Avropa regionunda 45 ölkə arasında 37-ci yerdədir və onun ümumi balı regional orta göstəricidən aşağı olsa da, lakin dünya orta göstəricisindən yüksəkdir. Azərbaycanın iqtisadi artımı 2017-ci ildən 2019-cu ilə qədər sürətli olmuş, 2020-ci ildə mənfi olmaqla 2021-ci ildə yenidən yüksəlmişdi. Beləliklə, 2020-ci ildə iqtisadi azadlığın genişləndirilməsi üzrə beşillik tendensiya pozulmuş 2021-ci ildən yenidən bərpa olunmuşdur. Məhkəmə fəaliyyətinin effektivliyi, hökumətin dürüstlüyü və əmək azadlığı üzrə xallarının aşağı düşməsi nəticəsində Azərbaycan 2017-ci ildən bəri iqtisadi azadlığın 2,0 ballıq ümumi itkisini qeydə alıb və "Əsasən Azad" kateqoriyasından "Orta Azad" kateqoriyasına düşüb. Vergi yükü və fiskal sağlamlıq güclüdür, lakin qanunun aliliyi və biznes azadlığı nisbətən zəifdir. Sözügedən hesabatda ticarətin azadlığı ilə bağlı qeyd olunan məsələlər xüsusilə diqqəti cəlb etməkdədir. Belə ki, hesabatda qeyd olur ki, Azərbaycanda beş güzəştli ticarət sazişi qüvvədədir, ticarət üzrə tarif dərəcəsi 9,2 faiz təşkil edir və qeyri-tarif maneələri ticarətin ümumi axınına mane olur. Azərbaycan hələ Ümumdünya Ticarət Təşkilatının üzvü deyil. Neft-qaz sektoru xarici sərmayələrin əksəriyyətini cəlb edib, lakin ölkə iqtisadiyyatının şaxələndirilməsinə doğru irəliləyib. Maliyyə sektorunda banklar üstünlük təşkil edir və sabit qalır.

Azərbaycan Respublikasının son dövrdə dinamik inkişafının əsas səbəblərindən biri iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən iqtisadi islahatlardır. Sözügedən islahatlarda da əsas prioritet istiqamət kimi iqtisadiyyatın neft sektorundan asılılığının azaldılması, istehsal sahələrinin uzlaşdırılması və dövlət-özəl sektor əməkdaşlığının artırılması müəyyən edilmişdir (3).

**Açar sözlər:** *İqtisadiyyatın şaxələndirilməsi, horizontal şaxələndirmə, vertikal şaxələndirmə, ixracın diversifikasiyası, əlavə emal dəyəri, Herfindal Hirşman indeksi.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. "Azərbaycan Respublikasının milli iqtisadiyyatının perspektivi üzrə strateji yol xəritəsi" İlham Əliyevin 06 dekabr 2016-cı il tarixli sərəncamı.*

*2. Atakişiyev M.C, 2012, Azərbaycan 2020: milli iqtisadi inkişaf və səmərəli yüksəlişin problemləri// Azərbaycanın vergi jurnalı, № 4.*

*3. S. Elmanoğlu., 2019, İqtisadiyyatın şaxələndirilməsi siyasəti neft amilindən asılılığı azaldır. http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_aprel2009/75214.htm*

*4. V.Bayramov., 2021, Prezidentin İslahatları iqtisadiyyatın şaxələndirilməsinə xidmət edir. Xalq qəzeti. https://xalqqazeti.com/az/news/85584*

*5. Auty, Richard M. 2001. Resource Abundance and Economic Development, Oxford University Press.*

*6. Hesse, Heiko, 2008, Export Diversification and Economic Growth. Commission on Growth and Development.*

*7. Sachs, Jeffrey D. and Andrew M. Warner, 2011, Natural Resources and Economic Development: the Curse of Natural Resources.*

*8. Akram Esanov. 2010, Economic diversification: Dynamics, determinants and policy implications*

*9. R. J. Barry Jones, 2001, Routledge Encyclopedia of International Political Economy,*

*10. The Heritage Foundation, 2022 index of economic freedom of Azerbaijan. https://www.heritage.org/index/country/azerbaijan#rule-of-law*

*11. The world bank, Manufacturing, value added (% of GDP) – Azerbaijan.*

*https://data.worldbank.org/indicator/NV.IND.MANF.ZS?end=2020&locations=AZ&start=2010&view=chart*

## РОЛЬ ЭКСПОРТА В ДИВЕРСИФИКАЦИИ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ

## РЕЗЮМЕ

В этом исследовании мы рассмотрели детерминанты экономической диверсификации в Азербайджанской Республике. Анализ временного тренда для Азербайджанской Республики и мира в целом показал, что хотя продуктовая диверсификация экономики развивается в нашей стране уже не первый год, она все еще намного ниже среднемирового уровня. Хотя доля сферы услуг в ВВП увеличилась вдвое, основное место в структуре экономики нашей страны по-прежнему занимает промышленность.

Еще одним способом определения уровня диверсификации экономики является определение диверсификации экспорта. С этой целью в нашем исследовании мы использовали индекс Херфиндаля Хиршмана для диверсификации экспорта. Динамика индекса во времени дает основание говорить о том, что уровень зависимости нашей страны от внешних рынков менялся в пределах 0,13. Этот показатель показывает, что наш экспорт не так сильно зависит от внешних рынков.

Недавно Индекс экономической свободы использовался для определения диверсификации экономики и связанной с ней торговли. В ходе исследования был изучен индекс экономической свободы Азербайджанской Республики и определено, что в 2022 году она займет 75-е место среди стран мира по этому показателю. Анализ показывает, что экономический рост Азербайджана был быстрым с 2017 по 2019 год, отрицательным в 2020 году и снова нарастающим в 2021 году.

**Ключевые слова:** *Экономическая диверсификация, горизонтальная диверсификация, вертикальная диверсификация, диверсификация экспорта, добавленная стоимость в обрабатывающей промышленности, индекс Херфиндаля Хиршмана.*

## THE ROLE OF EXPORTS IN THE DIVERSIFICATION OF THE NATIONAL ECONOMY

## SUMMARY

In this study, we examined the determinants of economic diversification in the Republic of Azerbaijan. Analysis of the time trend for the Republic of Azerbaijan and the world as a whole has shown that although the product diversification of the economy has been developing in our country for years, it is still far below the world average. Although the share of the service sector in GDP has doubled, the main place in the structure of the economy in our country is still occupied by industry.

Another way to determine the level of diversification of the economy is to determine the diversification of exports. To this end, we have referred to the Herfindal Hirschman Index for export diversification in our research. The trend of the index over time gives grounds to say that the level of dependence of our country on foreign markets has changed in the range of 0.13. This indicator shows that our exports are not so dependent on foreign markets.

Recently, the Index of Economic Freedom has been used to determine the diversification of the economy and related trade. The study examined the index of economic freedom for the Republic of Azerbaijan and determined that in 2022 it will rank 75th among the countries of the world on this indicator. The analysis shows that Azerbaijan's economic growth was rapid from 2017 to 2019, negative in 2020 and rising again in 2021.

**Keywords:** *Economic diversification, horizontal diversification, vertical diversification, export diversification, manufacturing value added, Herfindal Hirschman index.*

UOT 33

# LOGİSTİK İNFORMASİYA SİSTEMLƏRİNİN METODOLOGİYASI VƏ TƏDARÜK ZƏNCİRİNİN İDARƏ EDİLMƏSİ

**ORXAN PƏNAH**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*

*E-mail: orkanpanah@gmail.com*

## GİRİŞ

Logistika bu gün iqtisadiyyatın vacib bir hissəsinə çevrilib. Logistika sahəsindəki fəaliyyətlər çoxşaxəlidir. Bura nəqliyyat idarəçiliyi, anbar idarəçiliyi, inventar idarəçiliyi, kadr idarəçiliyi, informasiya sistemlərinin təşkili, kommersiya fəaliyyəti və daha çox şey daxildir. Bununla birlikdə, maddi istehsalın və əlaqəli maliyyə və informasiya axınının logistik optimallaşdırılması, tam istehsal və ticarət dövrü olan sənaye müəssisələri çərçivəsində ən aydın şəkildə özünü göstərir. Ticarət təşkilatlarında maddi axınlar da baş verir, ehtiyatlar yaradılır, anbar və daşınma aparılır. Eyni zamanda, dövrünün istehsal mərhələsi yoxdur. İqtisadiyyatın bəzi sahələrində (bankçılıq, sığorta, rabitə, tibb və s.) logistika prinsiplərinin tətbiqi onların fəaliyyət xüsusiyyətlərinə görə məhduddur.

Mikro səviyyədə informasiya sistemləri artıq planlı, dispozitiv və icraçı sistemlərə bölünür. Bu üç qrupa daxil olan bütün sistemlərin öz alt-sistemləri var. Əslində komponentlər, alt-sistemlər, informasiya sistemləri müxtəlif növ dəstəklərdir. Bu növlərə daxildir (5):

-texniki dəstək (informasiya axınının işlənməsini təşkil edən texniki vasitələr);

- informasiya dəstəyi (arayış kitabları, təsnifatçılar və s.);

-riyazi dəstək (funksional problemlərin həlli üçün metodlar toplusu).

Beləliklə, logistika sistemindəki yuxarıdakı məlumatlara əsasən iki alt-sistemi ayırmaq olar. Məhz funksional və dəstəkləyici alt sistemlər. Əlavə olaraq, informasiya sistemlərinin öz əsası, yəni quruldugu müəyyən prinsiplər var.

Birinci prinsip, texnologiya və proqram təminatının müəssisə səviyyəsində uyğunluğunu təmin etməyə, bütövlükdə sistemlərin fəaliyyətinin səmərəliliyini artırmağa, eyni zamanda xərclərini azaltmağa yönəlikdir. Bu nümunədə bir hardware modulu bir elektron avadanlıq vahididir və bir proqram modulu müstəqil bir proqram elementidir. Aşağıdakı prinsiplərə əməl olunur:

• sistemin addım-addım, ardıcıl yaradılması imkanı;

• müəyyən bir tətbiqin xüsusi tələbləri baxımından sistemin elastikliyi;

• sistemin "insan-maşın" dialoqunun istifadəçisi üçün məqbulluğu;

• məlumat və material axınlarının qovuşduğu yerin və onların qarşılıqlı təsir prinsipinin dəqiq tərifi;

• yerli həllərin uyğunluğu;

• müxtəlif alt-sistemlər üçün əlaqələndirilmiş interfeyslərin qurulması;

• şəbəkələrin özlərinin inteqrasiyası yolu ilə sinerji effektləri əldə etmək.

Bu prinsiplərə tabe olaraq, informasiya logistika şəbəkələrinin mahiyyətini, onlardan istifadəyə düzgün yanaşmanı anlayaraq, təşkilat müxtəlif mürəkkəbliyə malik olan hər hansı bir funksional vəzifənin tez və keyfiyyətli həllini təmin edir.

Lazımi xüsusiyyətləri sistemin ilkin şərtləri, parametrləri və dəyişənləri ilə əlaqələndirən açıq asılılıqlar məlum olarsa, sistemin işləmə prosesinin ən tam tədqiqi aparıla bilər. Ancaq praktikada belə asılılıqlar yalnız nisbətən sadə sistemlər üçün əldə edilə bilər. Bunları aradan qaldırmaq üçün orijinal modeli sadələşdirmək lazımdır. Analitik modelləşdirmənin üstünlükləri arasında ümumiləşdirmə və təkrar istifadənin böyük gücü var.

Logistika sistemləri xarici mühitdəki qeyri -müəyyənlik şəraitində fəaliyyət göstərir. Xarici mühit, qeyri -müəyyənliyə əlavə olaraq, dinamizmlə xarakterizə olunur: müəssisənin fəaliyyətinin bir çox göstəriciləri tez -tez dəyişir. Bundan əlavə, maddi axınları idarə edərkən, bir çoxu təsadüfi xarakter daşıyan amillər nəzərə alınmalıdır. Bu şəraitdə, logistika proseslərinin müxtəlif komponentləri arasında kəmiyyət əlaqələrini quran analitik modelin yaradılması ya qeyri -mümkün, ya da çox bahalı ola bilər (11).

Təqlid modelləşdirmədə, logistik proseslərdəki kəmiyyət əlaqələrinin mahiyyətini təyin edən nümunələr naməlum olaraq qalır. Simulyasiya zamanı yalnız girişdəki proseslərin şərtləri və bundan asılı olaraq simulyasiya modelinin çıxışında əldə edilən nəticələr dəyişir (3).

Ümumi halda informasiya axınının hərəkət etdiyi yol maddi axının hərəkət marşrutu ilə üst -üstə düşə bilməz. Maddi axın bir neçə informasiya axını ilə müşayiət oluna bilər. Məlumat axınının ölçülməsinin kəmiyyət göstəricisi, vaxt vahidi ərzində verilən və ya işlənən məlumatların miqdarıdır. Məlumat axını kağız və ya elektron sənədlərin hərəkətinə əsaslanır.

Bundan asılı olaraq, ya işlənmiş və ötürülən kağız sənəd vahidlərinin sayı, ya da bu sənədlərdəki sənədlərin ümumi sayı və ya müəyyən bir mesajdakı məlumatların miqdarı ilə ölçülə bilər. Elektron kompüterlərdən istifadə edərkən məlumat baytlarla ölçülür. Bir bayt, ümumiyyətlə 8 bitdən ibarət olan və kompüterdə məlumat işlənərkən bütövlükdə istifadə olunan maşın sözünün bir hissəsidir. Məlumat miqdarının əldə edilmiş vahidləri də istifadə olunur: kilobayt və meqabayt.

Məlumat gündəlik əməliyyatların koordinasiyasını, planlaşdırılmasını və nəzarətini asanlaşdırır. Bir qayda olaraq, informasiya axınının məzmunu materialın məzmununu əks etdirir. Qeyri-dəqiq və ya işləməyən məlumatlar və ya olmaması logistika sistemində fasilələrə və müxtəlif səviyyələrdə səhvlərin ortaya çıxmasına səbəb ola bilər. Məsələn, ticarət müəssisəsinə çatdırılan mallar haqqında məlumatların qəbulunun və ya işlənməsinin gecikməsi qəbul şöbəsinin normal fəaliyyətini, nəqliyyat vasitələrinin dayanmasını poza və nəticədə tədarük zəncirində məhsulların hərəkətini ləngidə bilər.

**Cədvəl 1. Logistika məlumat axınlarının təsnifatı**

| Təsnifat atributu | Məlumat axınının növü |
|---|---|
| Logistika sisteminə və əlaqələrinə münasibət | - Daxili və xarici<br>- Şaquli və üfüqi<br>- Giriş və həftə sonu |
| Məlumat daşıyıcısının növü | kağız, maqnit daşıyıcıları, elektron |
| Məlumat vermə tezliyi | müntəzəm, dövri, işlək |
| Məlumatın məqsədi | direktiv, tənzimləyici, istinad, mühasibat və analitik, köməkçi |
| Açıqlıq dərəcəsi | açıq, qapalı, gizli |
| Çatdırılma üsul | kuryer, poçt, teleqraf; telefon, faks, radio-televiziya, e-poçt, telekommunikasiya, İnternet |

**Mənbə:** *https://studbooks.net/68003/logistika/informatsionnye_potoki_klassifikatsiya*

Əlbəttə ki, material axını müvafiq məlumat axınından qabaqda olmamalıdır. Məhsullarla işi səmərəli təşkil etməyə imkan verən məlumat axınının qabaqda olması daha yaxşı bir vəziyyətdir.

Logistika məlumatı iki əsas axından ibarətdir: koordinasiya və əməliyyat. Planlaşdırma və koordinasiya məlumat axınının ümumi məqsədi firma daxilində ayrı -ayrı əməliyyatları birləşdirmək və bütövlükdə inteqrasiya olunmuş fəaliyyətləri asanlaşdırmaqdır. Əməliyyat məlumat axınının məqsədi fiziki bölgü, istehsal və təchizat logistikası sahələrində hərəkətlərin inteqrasiyasını dəstəkləməkdir. Gündəlik işi idarə etmək üçün əməliyyat axını lazımdır. Koordinasiya axını, fəaliyyətin planlaşdırılan parametrləri haqqında məlumatın verilməsidir.

İnformasiya logistikası məlumat axınlarını və logistika idarəçiliyində necə istifadə edildiyini öyrənir. İnformasiya logistikası tərəfindən hazırlanan praktiki fəaliyyətlərdə informasiya axınının optimallaşdırılması üçün metod və metodların istifadəsi, informasiya istehsalını, onun hərəkətini və istehlakçılara çatdırılmasını ən az xərclə idarə edən informasiya logistika sistemlərinin yaradılmasını və işləməsini təmin etməlidir.

Logistika İnformasiya Sistemi (LIS), maddi axınların idarə edilməsi üçün müəyyən funksional vəzifələrin həllini təmin edən müəyyən bir şəkildə təşkil edilmiş bir-biri ilə əlaqəli kompüter qurğuları, müxtəlif istinad kitabları və zəruri proqramlaşdırma vasitələridir. Müasir informasiya sistemləri logistika proseslərinin davamlılığını real vaxt rejimində izləməyə imkan verir ki, bu da nəqliyyat axınlarında mövcud və potensial uğursuzluqları tez bir zamanda müəyyənləşdirməyə və idarə etməyə, onları düzəltməyə və bununla da müştəri xidmətinin keyfiyyətini artırmağa imkan verir. İnformasiya logistikası, logistika proseslərinin idarə olunmasının bütün səviyyələrində məhsul hərəkətinin logistika zəncirinin bütün iştirakçılarına lazımi və kifayət qədər məlumat axını təmin edir. Eyni zamanda, məlumatların hərəkəti əməliyyatlarının sadələşdirilməsini və birləşdirilməsini təmin etmək lazımdır ki, bu da xərcləri azaldaraq onların həyata keçirilməsini sürətləndirməyə imkan verir (10).

EDI -nin istifadəsi logistika məlumatlarının düzgünlüyünü, vaxtında ötürülməsini və keyfiyyətini artırır. EDI üçün ünsiyyət və məlumat standartları vacibdir. Məlumat standartları,

köçürülməli olan sənədlərin quruluşunu və növünü təyin edir. Rabitə standartları qəbul, dönüşüm və məlumat ötürmə nisbətlərinin texniki xüsusiyyətlərini təyin edir. Dinamik bir logistika sistemini səmərəli şəkildə idarə etmək üçün hər zaman logistika prosesinin istənilən mərhələsində ətraflı çeşid və maddi axınların vəziyyəti haqqında məlumatlara sahib olmaq lazımdır. Bu problem müxtəlif barkodları oxuya bilən bir kompüter və avadanlıqdan istifadə etməklə həll edilir (9).

GDSN, bütün ölkələrin şirkətlərinə ticarət tərəfdaşları ilə standartlaşdırılmış və sinxron təchizat zənciri məlumatlarını mübadilə etməyə imkan verən kataloqların (və ya məlumat kataloqlarının) və GS1 Qlobal Reyestrinin qarşılıqlı əlaqəsi üçün İnternet texnologiyalarına əsaslanır.

GDSN konsepsiyası, ticarət tərəfdaşları arasındakı qarşılıqlı əlaqənin müxtəlif mərhələlərində hər zaman malların təsvirindəki səhvlərə görə problemlərin ortaya çıxması səbəbindən ortaya çıxdı. Bu konsepsiya, istehsalçı malları haqqında məlumatların yerləşdirildiyi və malların təsvirinin müəyyən edilmiş standarta uyğun olduğu malların kataloqlarının olduğunu ehtimal edir. Kataloqlar qlobal bir şəbəkəyə bağlanır və Qlobal Reyestr bu kataloqların şəbəkəsi üçün məzmun rolunu oynayır. GDSN şəbəkəsi ticarət tərəfdaşlarından (təchizatçılar və pərakəndə satıcılar), kataloqlardan (ticarət tərəfdaşlarının saxlanması və emalı xidmətləri haqqında məlumatlar) və GS1 Qlobal Reyestrdən (GDSN -in məlumat mənbələrini tapmasına və ticarət tərəfdaşları arasında məlumatların sinxronizasiyasını təmin edən qlobal bir kataloqdan ibarətdir).

Qlobal Məlumat Sinxronizasiya Şəbəkəsinə GS1 Qlobal Reyestri və Sertifikatlaşdırılmış Məhsul Kataloqu, eləcə də Məlumat Keyfiyyətinin Təminatı Sistemi və Qlobal Məhsul Təsnifatçısı (GS1 OPC) daxildir. Bu komponentlər, dəqiq və etibarlı məhsul məlumatlarının təhlükəsiz və hər zaman sinxronlaşdırılmasını təsirli bir şəkildə təmin edəcək bir mühit yaradır (4).

Elektron Məhsul Kodu (EPC), xüsusi bir oxucunun siqnalına cavab olaraq məlumat ötürən bir radio tezliyi (RFID) etiketində saxlanılır. EPC və RFID bir-birini əvəz edə bilməz.

Malların hərəkətinə nəzarət etmək üçün monitorinq sistemlərində elektron məlumat axınları getdikcə daha çox istifadə olunur. Xüsusilə, ekspress çatdırılma şirkətləri müştərilərə açıq olan İnternet vasitəsi ilə göndərmə sənədlərinin sayına görə malların hərəkətini izləmək üçün texnologiyalardan istifadə edir (Novaya Pochta, Intime və s.) İnformasiya texnologiyalarından turizm, otelçilik sahəsində geniş istifadə olunur, xidmət və sərnişin daşınması (8).

Logistikanın əsas vəzifələrindən biri maddi və informasiya axınının əlaqələndirilməsidir. Logistika proseslərinin yüksək keyfiyyətli informasiya dəstəyi maddi və digər resursların ehtiyatlarını etibarlı və vaxtında məlumatla əvəz etməyə imkan verir. Məsələn, EDI vasitəsi ilə müştəri sifarişlərinin alınması ümumi çatdırılma müddətini azaldır, hətta yavaş nəqliyyatdan istifadə etməklə ümumi xərclərin azalmasına kömək edir.

**Açar sözlər:** *logistika, tədarük zənciri, informasiya.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi, 2016.*

*2. İmanov, T.İ. (2005). Logistikanın əsasları, Bakı, "Tİ-Media", 473.*

*3. Chopra, S. and Meindl, P. (2007). Supply Chain Management, New Jersey. "Prentice Hall", 544.*

*4. Rushton, A., Croucher, P. and Baker, P. (2014). Logistics and Distribution Management, London, Philadelphia, New Dehli. "Kogan Page", 721.*

*5. "Lojistik ve Lojistik Yönetimi", Bartın Üniversitesi İ.İ.B.F Dergisi, 47-81.*

*6. Daşkan, E. S. (2016). Türkiyede lojistik hizmetlerdeki gelişimin dış ticaret üzerine yansımaları, İstanbul Ticaret Üniversitesi, İstanbul. 213.*

*7. Yılmaz, F. (2019). "Mekânsal Anlamda Lojistik Merkez Kavramı ve Hadımköy Lojistik Merkezi", Kent Kültürü ve Yönetimi Hakemli Elektronik Dergi, 186-199.*

*8. Hüseyin, H. Ö. (2010). Lojistikte toplam kalite yönetimi, Kadir Has Üniversitesi, İstanbul 211.*

*9. Mahmut, N. E. (2011). Uluslararası taşıma ve ticarette lojistik köylerin sağladığı rekabet avantajları: Bir model önerisi, Afyon Kocatepe Üniversitesi, Afyonkarahisar. 278.*

*10. Bay, M. ve Erol, F. (2016). "Lojistik Köylerin Önemi ve İntermodal Taşımacılık Faaliyetleriyle Desteklenmesi: Karaman İlinde Bir Uygulama", KMÜ Sosyal ve Ekonomik Araştırmalar Dergisi, 124-134.*

*11. Gümüş, S. (2013). "Lojistik sektörünün Türk ekonomisine katkıları ve bir araştırma", Uluslararası İşletme ve Yönetim Dergisi, 302-324.*
*12. Karadeniz, V. ve Akpınar, E. "Türkiyede lojistik köy uygulamaları ve yeni bir lojistik köy önerisi", Marmara Coğrafya Dergisi, 49-71.*
*13. http://bilingumruk.com/antrepo-nedir/*
*14. https://studbooks.net/68003/logistika/informatsionnye_potoki_klassifikatsiya*
*15.http://eborsahaber.com/97350/2019/haberler/cin-lojistik-sektoru-buyumeyedevam-ediyor/*

## МЕТОДОЛОГИЯ ЛОГИСТИЧЕСКИХ ИНФОРМАЦИОННЫХ СИСТЕМ И УПРАВЛЕНИЯ ЦЕПЯМИ ПОСТАВОК

Одним из важнейших инструментов развития и функционирования рыночного механизма является логистика, которая охватывает весь комплекс взаимосвязанных отношений в сфере материальных, товарных, финансовых и информационных потоков. Логистика помогает участникам рынка разработать эффективную стратегию обеспечения конкурентного преимущества за счет повышения эффективности распределения товаров и сопутствующих услуг, что позволяет им более полно удовлетворять потребности потребителя. В современной экономической науке выделяют информационную логистику, получившую дополнительный импульс к развитию с появлением принципиально новых средств коммуникации, их широким проникновением в различные отрасли экономики и потребительскую аудиторию. Обмен информацией играет важную роль в оптовой и розничной торговле, так как значительно расширяет спектр качественных услуг, необходимых покупателям.

В последние годы Интернет активно используется на внутреннем и международном рынке информационных услуг промышленно развитых стран, где Интернет превратился в мощную индустрию, стремительно проникающую во все сферы человеческой деятельности. В настоящее время отрасль стремительно развивается, и это продолжится в ближайшие годы. Многие компании по всему миру видят в Интернете большой коммерческий потенциал и возможность поднять свой бизнес на качественно новый уровень. Поэтому Интернет является объектом исследования многих консалтинговых компаний, изучающих динамику его развития, состав пользователей Интернета, рынок электронных услуг и многие другие параметры и процессы. Информационные технологии предлагают больше возможностей, чем традиционные средства передачи данных.

**Ключевые слова:** *логистика, цепь поставок, информация.*

## METHODOLOGY OF LOGISTIC INFORMATION SYSTEMS AND SUPPLY CHAIN MANAGEMENT

One of the most important tools for the development and operation of the market mechanism is logistics, which covers the entire range of interconnected relations in the field of material, commodity, financial and information flows. Logistics helps market participants develop an effective strategy to ensure a competitive advantage by increasing the efficiency of distribution of goods and related services, which allows them to better meet the needs of the consumer. In modern economics, experts emphasize the information logistics, which has received additional impetus for development with the emergence of fundamentally new means of communication, their widespread penetration into various sectors of the economy and the consumer audience. The exchange of information plays an important role in the wholesale and retail trade, as it significantly expands the range of quality services required by customers.

In recent years, the Internet has been actively used in the domestic and international information services market of industrialized countries, where the Internet has become a powerful industry that is rapidly penetrating all areas of human activity. Currently, the industry is developing rapidly, and this will continue in the coming years. Many companies around the world see the Internet as a great commercial potential and an opportunity to raise their business to a qualitatively new level. Therefore, the Internet is the object of research of many consulting companies that study the dynamics of its development, the composition of Internet users, the market of electronic services and many other parameters and processes. Information technology offers greater opportunities than traditional means of data transmission.

**Keywords:** *logistics, supply chain, information.*

**UOT 336.1; 336.22**

# MALİYYƏ-VERGİ NƏZARƏTİNİN ZƏRURİLİYİ VƏ DÖVLƏT İDARƏETMƏSİNDƏ ROLU

**RUSLAN DADAŞZADƏ**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*

*E-mail: ruslan.dadaszade1@gmail.com*

## GİRİŞ

Məqalədə respublikamızda səmərəli maliyyə-vergi nəzarətinin təşkilinin əsas xüsusiyyətləri ilə bağlı məsələlər nəzərdən keçirilmişdir. Maliyyə-vergi nəzarəti məlumatın dinamik, qabaqlayıcı və real vaxt rejimində çatdırılmasına xidmət edir və qərarların keyfiyyətini artırır. O, hadisələrin mahiyyətinə varır, mənfi cəhətləri aşkarlayır, meyl kimi göründükdə və səbəblərin qarşısını almaq və ləğv etmək üçün operativ müdaxilə edir. Nəzarət nəticələri müəyyən edilmiş norma və məqsədlərlə müqayisədə qiymətləndirir, eyni zamanda düzəldici qərarlar tələb edən meyil və hadisələrin qarşısını almağa kömək edir. Son illər Azərbaycanda beynəlxalq təcrübəyə əsaslanan müasir maliyyə-vergi nəzarəti sahəsində aparılan davamlı iqtisadi islahatlar çox məqsədəuyğundur. Məqalədə eyni zamanda təhlil nəticəsində tədqiq olunan sahə üzrə mövcud problemlər təyin edilmişdir. Bundan başqa, məqalə üzrə onların aradan qaldırılması yönümündə zəruri təklif və tövsiyələr verilmişdir.

Hər bir cəmiyyətdə daim müxtəlif və ciddi təsirlərə məruz qalan iqtisadiyyatda baş verən arzuolunmaz proseslər öz-özünə tənzimlənmədiyi üçün, cəmiyyətin iqtisadi – sosial həyatında bir çox problemlər meydana çıxır və belə olan tərzdə dövlətin gördüyü qabaqlayıcı iqtisadi tənzimləmə mexanizminin həyata keçirilməsi çətinləşir. Bununla əlaqədar olaraq həmin problemləri, yəni cəmiyyətin iqtisadi-sosial inkişafına maneçilik törədən təsirləri vaxtında aradan qaldıra bilən iqtisadyönlü nəzarət sisteminin təşəkkül tapması zərurəti yaradır.

Dövlətin iqtisadiyyata təsiretmə qüvvəsinə malik nəzarət sisteminin ən mühümü sayılan maliyyə nəzarətinin məqsədi dövlətin maliyyə siyasətinin uğurla həyata keçirilməsini xalq təsərrüfatının bütün sahələrində maliyyə ehtiyatlarının formalaşdırılması və səmərəli istifadəsi prosesinin layiqincə görülməsini təmin etməkdən ibarətdir.

Pandemiya şəraitində maliyyənin rolu və vəzifəsinin daha da artdığı üçün maliyyə nəzarətinin əhəmiyyəti də xeyli artır. Belə ki, inzibati amilliyə əsaslanan iqtisadi sistemdən fərqli olaraq demokratik idarəçilik prinsiplərinə əsaslanan bazar iqtisadiyyatı sistemində dövlətin iqtisadi funksiyaları xeyli məhdudlaşır, dövlət iqtisadiyyata sərbəstlik verir. Yeni iqtisadi münasibətlər şəraitində isə nəzarət mexanizminin əhəmiyyəti artır, bu isə xüsusən indiki şəraitdə əsasən maliyyə keçirməklə mümkündür.

Maliyyə nəzarəti anlayışının şərhində alimlər arasında yekdillik yoxdur. U.Y.Danilevski maliyyə-vergi nəzarətinin tərifini bu cür açıqlamışdır: "İqtisadiyyatın, istehsalın idarə edilməsinin ümumi mexanizminin vacib funksiyalarından hesab edilən və ayrılmaz tərkib hissəsi olmaqla, maliyyə-vergi nəzarəti maliyyə, kredit göstəricilərini özündə cəmləşdirir. Nəzarət sferasına əsasən pul, istehsal, bölgü, mal-material dəyərlərinin pulla ifadəsində dövriyyəsi və istehlakı aid edilir". Belə olan durumda nəticəyə gəlmək olur ki, maliyyə-vergi nəzarəti təsərrüfatçlıq mexanizminin vacib ünsürü sayılmaqla dəyər xarakterinə malikdir.[5,s.76]

K.S.Belskinin təbirincə, vergi sistemi - vergitutma sferasında müəyyən prinsiplərə əsaslanan qarşılıqlı əlaqədar hissələrin (elementlərin), vətəndaşların vergiödəmə qabiliyyətinin, vergi və yığımların qanunla müəyyənləşdirilmiş sisteminin, vergi inzibatçılığının və dövlət tərəfindən tətbiq edilən vergitutma metodlarının məcmusudur [6, s. 55].

M.V.Karaseva vergi sistemi dedikdə, dövlətdə vergitutma sferasında yaranan və iqtisadi, siyasi, təşkilati və hüquqi xarakterə malik olan bütün mövcud ictimai münasibətlərin məcmusunu başa düşür [7, s.324].

Maliyyə-vergi nəzarəti dedikdə-müəyyən metoddan istifadə etməklə geniş əhatə sferasında qanun və icraedici hakimiyyəti orqanlarının, o cümlədən bunun üçün təsis edilmiş orqan, tam iqtisadi subyektlərin maliyə-təsərrüfat fəaliyyətinə nəzarət etmək anlamı başa düşülür. Maliyyə-vergi nəzarəti əsasən dövlətin maliyyə siyasətini uğurla reallaşdırmağa, maliyyə sabitliyindən ötrü əlverişli mühit formalaşdırmaga istiqamətlənib. Maliyyə-vergi nəzarəti müəssisələrin iş fəaliyyətində maliyyə-vergi və onunla sıx bağlı məsələlərin işlənməsi, habelə onun təşkili prosesinin özünəxas, təsir və metodların cəmidir. Bu reallaşdırma maliyyə-vergi nəzarətinin hədəflərini, mahiyyətini müəyyənləşdirir. Bir faktı da qeyd etməyə lüzum var

ki, nəzarət həmçinin də dövlət idarəetməsi elementlərindən sayılır. Məqalənin yazılışında belə nəticəyə gəlirəm ki, maliyyə-vergi nəzarəti - təsərrüfat subyektlərinin fəaliyyətlərində maliyyə və onunla bağlı olan məsələlərin işlənməsi, habelə onun təşkilinin özünə xas metodlarının və təsirlərinin məcmusudur. Maliyyə-vergi nəzarəti iqtisadiyyatda da milli məhsulun natural və dəyər göstəriciləri arasında tarazlığındakı kənarlaşmaları, makro və mikro iqtisadi sahədə tənzimləmə proseslərindəki uyğunsuzluqları aşkarlamaqdan ötrü alət kimi istifadə edilir.

Maliyyə-vergi nəzarətinin başlıca hədəfi - ölkənin maliyyə siyasətinin uğurla reallaşdırmaq, iqtisadiyyatın hər bir sferasında maliyyə vəsaitlərinin formalaşdırılması və məqsədəuyğun istifadəsi prosesinin reallaşdırılmasınıdan ibarətdir. Nəzarət funksiyası mühasibat uçotu köməkliyi ilə onun tam metod hissələrində: sənədləşdirmə, inventarlaşdırma, qiymət və kalkulyasiya hesablama sistemi və ikiqat qeydə alma, balans və hesab sənədlərinin yardımından yararlanmaq ilə reallaşır.

Dövlət büdcəsinin gəlirlərinin formalaşmasının başlıca mənbəyi olan vergi yığımlarının xeyli dərəcədə vergi ödəyicilərinin intizamlı olmasından, onların qanunvericiliyin tələblərinə ciddi riayət etməsi səviyyəsindən bilavasitə asılıdır. Vergi nəzarətinin səmərəlilik səviyyəsinin aşağı olması durumunda vergi ödəyiciləri tərəfindən vergi öhdəliklərinə tam həcmdə və vaxtlı-vaxtında əməl edəcəkləri heç də inandırıcı görünmür. Beləliklə, vergi nəzarəti bir tərəfdən, zəruri maliyyə vəsaitlərinin dövlət büdcəsinə vaxtında daxil olmasını təmin edir, digər istiqamətdən isə vergi ödəyicilərinin intizamlılığına nəzarəti həyata keçirir.

Vergi nəzarəti dövlətin səlahiyyətli orqanlarının kompleks və məqsədyönlü fəaliyyətini əks etdirməklə, vergitutma sahəsində mövcud olan qanunvericiliyə əsaslanır və vergi ödəyicilərinin vergini ödəmək vəzifələrinin yerinə yetirilməsi ilə bağlı məlumatların toplanması və təhlilinə yönəlmişdir. Bu nəzarətin əsas məqsədi vergi qanunvericiliyinin pozulması hallarının aşkar edilməsi, onların qarşısının alınması, beləliklə də sahibkarlıq fəaliyyətinin bütün subyektləri üçün bərabər və ədalətli vergi mühitinin yaradılmasıdır.

Mövcud durumda Azərbaycanın maliyyə təşkilatlarının beynəlxalq kapital bazarına qoşulması, xarici investorlar üçün cazibədar investisiya mühitinin yaradılması, ölkəmizdə mövcud olan maliyyə sisteminin beynəlxalq aləmdə qəbulolunan şərtlərə uyğunlaşdırılması nöqteyi-nəzərindən nəzarət və audit sisteminin mütərəqqi şərtlər səviyyəsində yenidən qurulması ən aktual problemlər kimi qarşıya çıxmışdır. Hal-hazırda da gündəlik həyatımızda rast gəldiyimiz iqtisadi cinayətlərin və dövlət vəsaitlərindən qanunsuz istifadə hallarının minimallaşdırılmasında dövlətin maliyyə nəzarətinin daha da gücləndirilməsi mühüm rol oynayır. Pul vəsaitindən istifadə edilən və bəzi hallarda onsuz baş verən bütün əməliyyatlar maliyyə nəzarətinin sahəsi hesab edilir. Bununla bərabər maliyyə ehtiyatlarından və pul vəsaiti fondlarından hər hansı qaydada olursa-olsun, istər birbaşa, istərsə də qarşılıqlı vasitəçilik formasında istifadə edilməsi halları baş verir.

Araşdırmalar nəticəsində qətiyyətlə söyləmək olar ki, eynilə bu obyektlər maliyyə nəzarətindən başqa digər növ nəzarətə də məruz qala bilərlər, hətta müəyyən sahənin gözlənilmədən yoxlanması və təhlili zamanı obyektin vəziyyətinə qiymət verilməsi onun təyinatına uyğun olub-olmaması maliyyə nəzarətinə məxsusdur. Maliyyə resurslarına ehtiyac duyulan son dövrlərdə dövlət sektorunda həyata keçirilən iqtisadi islahatlar maliyyə sektorunda da ciddi islahatların həyata keçirilməsini zərurətə çevirir. Bunun nəticəsi olaraq bazar münasibətlərinin formalaşması zamanı dövlətin iqtisadiyyata bilavasitə təsir mexanizminin təkmilləşdirilməsini, səmərəli və tarazlaşdırılmış büdcə siyasətinin hazırlanmasını şərtləndirir. Yalnız sağlam və şəffaf büdcə siyasəti nəticəsində ölkənin maliyyə resurslarından qənaətlə istifadə edilməsinə təsir etmək, büdcə xərclərində dövlət gəlirlərini artırmaqla ÜDM artımına yiyələnmək iqtisadiyyatda və cəmiyyətdə ədalətli bölgü və nəzarət funksiyalarını layiqincə görmək mümkündür.

Vergi nəzarəti sistemi iqtisadi sistemin vacib tərkib hissəsidir və dövlətin sosial, iqtisadi və siyasi məqsədlərini əks etdirir. Vergi sisteminin konseptual modelləri dövlətin iqtisadi siyasətindən asılı olaraq dəyişir. Uzun müddət iqtisadiyyatda vergilərin rolu haqqında klassik təsəvvür mövcud idi. Dövlət vergi sistemini müstəqil təsərrüfat subyektlərinin gəlirinin az və ya çox hissəsinin müntəzəm qaydaya salınmış şəkildə tutulması kimi təyin etmişdir və vergi qoyuluşunda dörd prinsipi irəli sürmüşdür: müntəzəmlik (bərabərlik), müəyyənlik, ödəmənin rahatlığı və ucuzluğu. Amma bunların hər hansı birinin artıq olması zamanı təsərrüfatın kəsirli sahələrində istehsalçıların özünü tənzimləməsi baş verirdi. Vergilər yalnız dövlət büdcəsinin gəlir mənbəyi rolunu oynayırdı. Mübahisələr isə fiskal tələbat prinsipi əsasında şərtləşdirilmiş qaydada vergilərin yığılması və ya ləğv olunması ətrafında gedirdi.

Büdcə-maliyyə sisteminin əsasını vergi sistemi təşkil edir. Vergi ödəmələrinin mahiyyətini dərindən öyrənmək üçün vergiqoymanın əsas prinsiplərini nəzərdən keçirmək lazımdır. İqtisadi nöqteyi nəzərdən

vergiqoyma sisteminin keyfiyyəti A.Smit tərəfindən dörd əsas klassik prinsiplər şəklində ifadə olunmuşdur:

- ölkə vətəndaşları hökumətin xərclərinin ödənməsində iştirak etməlidirlər. Bu qaydaya riayət olunması və ya inkar edilməsi vergiqoymada bərabərliyə və ya bərabərsizliyə gətirir;
- hər bir vətəndaşın ödədiyi vergi dəqiq müəyyən edilməlidir. Verginin həcmi, ödənilmə vaxtı və qaydası həm vergi ödəyənə, həm də ixtiyari bir vətəndaşa aydın olmalıdır;
- vergi onu ödəyəndən ötrü rahat olan zamanda və onun üçün münasib üsula əsasən tutulmalıdır;
- vergilər elə müəyyən edilməlidir ki, dövlətin xəzinəsinə daxil olan ümumi daxilolmalardan aşağı məbləğdə tutulsun.

Hazırda Adam Smitin irəli sürdüyü prinsiplər müasir dövrün tələblərinə uyğun genişləndirilmişdir. Bunlar sadaladığımızlardır:

- vergi dərəcəsinin səviyyəsi vergini ödəyənin imkanlarına, yəni gəlirlərinə uyğun müəyyən olunmalıdır. Bu prinsipə çox zaman riayət olunmur və bir çox ölkələrdə vergilər mütənasiblik prinsipinə görə hesablanır;
- bütün qüvvələri sərf etmək lazımdır ki, gəlirlərdən vergitutma birdəfəlik xarakter daşısın. Gəlirlərin və kapitalın çoxqat vergiyə məruz qalmasına yol vermək olmaz;
- vergilərin hökmən ödənməsi. Vergi sistemi elə olmalıdır ki, vergi ödəyicisində onun mütləq ödənməsinin zəruriliyinə şübhə yeri qalmasın;
- verginin tutulması sistemi və proseduru sadə, aydın və rahat olmaqla, vergini yığan təşkilat üçün səmərəli olmalıdır;
- vergi sistemi çevik olmaqla dəyişən iqtisadi tələblərə asan uyğunlaşan olmalıdır;
- vergi sistemi, yaradılan ÜDM-in bölgüsünü təmin etməli və dövlətin iqtisadi siyasətinin səmərəli aləti olmalıdır.

Sahibkarlığın hərtərəfli və çoxşaxəli inkişafının təmin edilməsinin başlıca amillərindən biri də müvafiq fəaliyyət sahəsində əlverişli və münbit, təkmilləşdirilmiş, müasir beynəlxalq standartlara uyğun vergi sisteminin mövcudluğu və ədalətli vergiqoyma ilə bərabər vergi nəzarəti mexanizminin tətbiqidir. Dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi vergi nəzarətinin əsas vəzifələrindən biridir. Odur ki, ölkəmizin vergi sistemində həyata keçirilən islahatların əsas istiqamətlərindən biri məhz vergi nəzarətini təkmilləşdirməkdən ibarətdir. Ölkəmizdə vergi nəzarətini təkmilləşdirməyə yönəlik tədbirlər öz ifadəsini daha çox daim yenilənməkdə olan Vergi Məcəlləsində tapmışdır. Xüsusilə, son vaxtlar dövlətin iqtisadiyyatın ümumi inkişafında prioritet istiqamətlərdən biri kimi ölkədə azad sahibkarlığın davamlı inkişafı üçün hər cür zəruri şəraitin yaradılmasını elan etdiyini nəzərə alsaq, bu amilin əhəmiyyəti daha da artmış olur. Həmçinin, iqtisadiyyatda, xüsusilə də qeyri-neft sektoru istiqamətində nəhəng perspektivli infrastruktur layihələrinin reallaşdırılması məqsədilə maliyyə mənbəyi olan dövlət büdcəsinin gəlirlərində vergi daxilolmalarının tam üstunlük təşkil etdiyini hesaba almaqla vergi nəzarəti işinin düzgün və səmərəli təşkili olduqca vacib məsələdir.

Hər bir təsərrüfat subyekti vergi ödənişini azaltmaqda maraqlıdır ki, bu da vergi davranışının müxtəlif modellərinin seçilməsini müəyyənləşdirir. Hazırkı vaxtda müəssisə və təşkilatların vergi davranışında əsasən üç modeli ayırmaq olar:

* vergi ödənişindən yayınmaq;
* vergilərin azaldılmasının xüsusi metodlarından istifadə etmədən qanunvericiliyə uyğun olaraq onların ödənilməsi;
* vergilərin ödənilməsinin optimallaşdırılmasını təmin edən vergi siyasətinin işlənib hazırlanması.

Şirkətin vergi siyasəti onun maliyyə siyasətinin ayrılmaz tərkib hissəsi kimi qarşıya qoyulan məqsədlərə nail olunmasını təmin edən vergilərin ödənilməsi sisteminin əsaslandırılmasını nəzərdə tutur.

Vergi siyasətinin əsas məqsədi vergi ödənişi daxil olmaqla minimum xərclə maksimum mənfəət almaqdan ibarətdir. Vergi siyasətinə şirkətin maliyyə vəziyyətinin yaxşılaşdırılmasının və investisiya cəlbediciliyinin yüksəldilməsinin üsulu kimi baxmaq lazımdır. Ona görə də mövcud qanunveriçilik çərçivəsində verginin azaldılmasının yalnız o halda mənası vardır ki, əgər bu mənfəət vergisindən azad olduqda artım verirsə.

Milli iqtisadi strategiyanın mühüm istiqaməti sabitliyə və iqtisadi yüksəlişə yiyələnmək, sosial rifahın yüksəldilməsi, iqtisadi sahədə təhlükəsizliyə nail olmaqdır. Haqqında bəhs edilən aspektlərin həyata keçirilməsi özəl sahənin inkişafı, haqsız rəqabətin qarşısının alınması, azad sahibkarlığa hüquqi təminatın yaradılması, daxili bazarın yüksəlişinə çatmaqdan ötrü çevik infrastrukturun formalaşdırılması, özəlləşdirmə proqramının sürətləndirilməsi və dərinləşdirilməsi, xarici iqtisadi əlaqələrin genişləndirilməsi, digər mühüm tənzimləyici tədbirlərin reallaşması ilə sıx tərzdə əlaqədardır. Şübhəsiz bu tədbirlər iqtisadiyyatın müxtəlif sferalarını özündə cəmləşdirir və bilavasitə iqtisadi siyasətin məqsədyönlü təşkilindən asılıdır.

Müasir dövrdə maliyyə-vergi nəzarəti dövlət idarəetməsinin ən vacib funksiyalarından biri olub,

dövlət mülkiyyətinin idarə edilməsinin qanuniliyi, məqsədəuyğunluğu və səmərəliliyi məsələlərində qəbul edilmiş standartlardan yayınma hallarının aşkar edilməsinə, bu cür meyillər yarandıqda isə uyğun tədbirlərin vaxtında həyata keçirilməsinə yönəlmişdir. Ölkənin maliyyə siyasətini uğurla həyata keçirmək, maliyyə ehtiyatlarından effektiv surətdə istifadəsinə nail olmaqda maliyyə nəzarətinin rolu olduqca vacibdir. Maliyyə mexanizminin idarəedilməsi sisteminin təzədən yaradılması maliyyə resurslarından istifadənin səmərəliliyinin artırılması, dövlət xərclərinin şəffaf tənzimlənməsi mexanizminin formalaşdırılması qarşıya qoyulan strateji vəzifələrdəndir.

**Açar sözlər:** *maliyyə nəzarəti, vergi daxilolmaları, maliyyə nəzarətinin metodologiyasını,nəzarət sistemi; nəzarət texnikaları.*

### ƏDƏBİYYAT SİYAHISI

*1. Qəzənfər Abbasov.Maliyyə nəzarəti növlərinin təsnifati və onun başlıca istiqamətləri maliyyə və uçot.-2010.*

*2. Musayev A.F., Kəlbiyev Y.A., AR vergi xidməti: islahatlar və nəticələr. Bakı, «Təfəkkür», 2002. – 324 s.*

*3. "Vergi Məcəlləsində edilmiş dəyişikliklər suallar və cavablarda" Bakı, 2019.*

*4.R. Atakişiyev, R. Fətullayev (2016) "Kiçik sahibkarlıq subyektlərində könüllü vergi ödəmə mədəniyyəti (təlim materialı), Bakı, "QHT Nəşriyyatı". – 48 səh.*

*5. Данилевский Ю.А. Финансовый контроль и пути его совершенствования. Мос, 2015.*

*6. Бельский К.С. Налоговая система: основные элементы, принципы Государства и права. – 2006. - №9. С. 55. Адамс Р. Основы аудита М.: Аудит, ЮНИТИ, 2015.*

*7. Карасева.М. Финансовое право Учебник - Москва, 2011. – 617 с.*

### НЕОБХОДИМОСТЬ ФИНАНСОВОГО И НАЛОГОВОГО КОНТРОЛЯ И ЕГО РОЛЬ В ГОСУДАРСТВЕННОМ УПРАВЛЕНИИ
### РЕЗЮМЕ

В статье рассматриваются вопросы, связанные с основными особенностями организации эффективного финансового и налогового контроля в стране. Финансовый и налоговый контроль служит для предоставления информации в динамичной, прогностической форме в режиме реального времени и повышает качество принимаемых решений. Он проникает в суть дела, выявляет недостатки и быстро вмешивается, когда это кажется тенденцией, а также предотвращает и устраняет причины. Мониторинг оценивает результаты в сравнении с установленными нормами и целями, а также помогает предотвращать тенденции и события, требующие принятия корректирующих решений. Очень целесообразны устойчивые экономические реформы в Азербайджане в последние годы в области современного финансового и налогового контроля, основанные на международном опыте. В статье также выявляются существующие проблемы в изучаемой области в результате проведенного анализа. Кроме того, в статье даны необходимые предложения и рекомендации по их устранению.

**Ключевые слова:** *финансовый контроль, налоговые поступления, методология финансового контроля, система контроля; методы контроля.*

### THE NEED FOR FİNANCİAL AND TAX CONTROL AND İTS ROLE İN PUBLİC ADMİNİSTRATİON
### SUMMARY

2019-2023-cü illər üzrə Dövlət Proqramının əsas məqsədi Azərbaycanın ətraf mühitinin müsbət transformasiyasıdır ki, regionlar inkişafın təmin etdiyi həm davamlılıqdan, həm də dayanıqlılıqdan faydalana bilsinlər. Bu yeni dövlət proqramının digər mühüm məqsədləri dayanıqlı inkişaf hədəfləri, səmərəli sosial rifah sistemləri, təbii ehtiyatların səmərəli bölüşdürülməsi, eləcə də yerli ekosistemlərin və ətraf mühitin mühafizəsi əsasında qurulmuş güclü iqtisadiyyatın qurulmasıdır. Yeni proqramın gələcək məqsədləri aşağıdakı kimi sadalanır (5):

1. İnnovasiya və investisiyaları əhatə edən fəaliyyətlərin artırılmasının davam etdirilməsi.
2. Qabaqcıl texnologiya və texniki avadanlıqların tətbiqi.
3. Daha rəqabətqabiliyyətli və effektiv iqtisadiyyata doğru diversifikasiya və böyümə.
4. Həyati vacib ərzaq ehtiyatlarının özünü təmin edən ekoloji cəhətdən təmiz istehsalı siyasəti.
5. Regionlarda məşğulluq imkanlarının və işəgötürənlərin ümumi sayının yaxşılaşdırılması.
6. Yoxsulluğun azaldılması, həyat səviyyəsinin yüksəldilməsi və cəmiyyətin rifahının gücləndirilməsi.
7. Təhsil və səhiyyə kimi keyfiyyətli sosial xidmətlərə çıxışın yaxşılaşdırılması.
8. Alternativ enerji mənbələrinin təmin edilməsi.
9. Şəhərətrafı ərazilərdə nəqliyyat və yol infrastrukturunun təkmilləşdirilməsi.
10. Su ehtiyatları üçün idarəetmə və təchizat strategiyalarının işlənib hazırlanması.
11. Maliyyə institutlarında qanunvericiliyin və digər sistemlərin təkmilləşdirilməsi.
12. Regionlarda özəl və dövlət yardımının bərpası və rolunun sürətləndirilməsi.
13. Mövcud infrastrukturun genişləndirilməsi üçün müasir texnologiyalardan istifadə.
14. Elmi tədqiqatların və innovasiyaların səviyyəsinin yüksəldilməsi.
15. Tədqiqat və innovasiyaya əsaslanan fəaliyyətlərə dövlət və özəl dəstəyin əldə edilməsi.
16. Ciddi və effektiv sığorta sistemlərinin inkişafı.
17. Təbii ehtiyatlardan səmərəli istifadə və ətraf mühitin mühafizəsi.

Yuxarıda göstərilən məqsədlərin uğurla həyata keçirilməsi maliyyə dəstəyi tələb edir. Dövlət proqramı olmaqla, o, büdcədənkənar vəsaitlərlə yanaşı, həm xarici, həm də daxili investisiyalar hesabına Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına maliyyələşdirilməlidir (5): Aşağıdakı cədvəldə ekoloji sosial-iqtisadi fəaliyyətə dair 2019-2023-cü illər Dövlət Proqramı üzrə fəaliyyət planlarının və hər bir fəaliyyətə rəhbərlik edən icra hakimiyyəti orqanlarının təqribi konturları verilmişdir.

Sosial-iqtisadi inkişaf proqramlarının hazırlanması zamanı aşağıdakı addımlar həyata keçirilir:

**Şəkil 1: Sosial-iqtisadi inkişaf proqramlarının hazırlanması üçün həyata keçirilən addımlar.**




***Mənbə:** “Regionların sosial-iqtisadi inkişafı - 2019-2023-cü illərdə Dövlət Proqramı”.*

**Açar sözlər:** *sosial, iqtisadi, regional.*


## ƏDƏBİYYAT SİYAHISI

*1. Əhmədov, E., Xəlilov, T., Azərbaycan inklüziv və innovativ idarəçilikdən yaşıl iqtisadiyyata, iqtisadi və sosial inkişafa: Proseslər kitabı, 2019, səh.988-1001.*

*2. Sərdarov, T. İnkişaf etməkdə olan İqtisadiyyatda Tənzimlənən Sosial İnfrastruktur, "Academy of Strategic Management Journal" 2018, №17, (3), səh. 1-12.*

*3. İmrani, Z.T., Musayeva, M.R. Azərbaycan Respublikasında Dayanıqlı inkişaf konsepsiyasının sosial-iqtisadi aspektləri, "Üg Rossii: Ekologiya, Razvitie" 2016, №11 (2), səh.42-49, DOI: 10.18470/1992-1098-2016-2-42-49*

*https://www.economy.gov.az/az/article/state-program/21450 [23-08-2019]*

*4. Dergunova, Y., Smaqulova, N. Dövlət proqramlarının ölkənin rəqabətqabiliyyətlilik reytinqinə təsiri, "Elm və təcrübə bülleteni" 2018, №4(3), s.211-216. DOI: 10.5281/zenodo.1198718*

*5. İqtisadiyyat Nazirliyi (2004), Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı - 2004-2008, Bakı.*

*http://unpan1.un.org/intradoc/groups/public/document/untc/unpan016803.pdf [23- 08-2019]*

*6. Kelman, I., İqlim dəyişikliyi və fəlakət riskinin azaldılması üçün Sendai Çərçivəsi. Beynəlxalq Fəlakət Riski Elmi Jurnalı, "International Journal of Disaster Risk Science" 2015, №6, (2), səh.117-127, DOI: 10.1007/s13753-015-0046-5*

*7. UNDRR (Birləşmiş Millətlər Təşkilatının Fəlakətlərin Azaldılması üzrə Beynəlxalq Strategiyası) (2015), Fəlakət riskinin azaldılması üçün Sendai çərçivəsi, 2015-2030, Cenevrə, https://www.pre-ventionweb.net/files/43291_sendaiframeworkfordrren.pdf-[23-80] 2019]*

*8. Kinley, R., Parisdən sonra iqlim dəyişikliyi: Dönüş nöqtəsindən transformasiyaya, "İqlim siyasəti" 2017, №17, (1), səh.9-15. DOI: 10.1080/14693062.2016.1191009*

*9. Əliyev, S. Azərbaycanda Şirvan düzünün suvarılan torpaqlarında nəzarət edilən hidroloji-meliorativ vəziyyətin qiymətləndirilməsi, "Elm və təcrübə bülleteni", 2018, №4(4), s.102-108., DOI: 10.5281/zenodo.1218269*


## РОЛЬ «ГОСУДАРСТВЕННЫХ ПРОГРАММ» В ОБЕСПЕЧЕНИИ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ В АЗЕРБАЙДЖАНЕ


## РЕЗЮМЕ

В любом случае под «развитием» понимаются прежде всего прогрессивные изменения в экономической сфере. Если есть количественные изменения, то речь идет об экономическом росте. Качественными изменениями могут быть структурные изменения или изменения в содержании развития или приобретение новых черт экономической системы. Помимо чисто экономических характеристик часто учитываются и социальные параметры развития. Социальные особенности уже давно стали полноценным индикатором уровня развития каждого региона.

Развитие всегда имеет цель или направление, определяющее систему целей. Если это направление положительное, то можно говорить о прогрессе, если отрицательное, то можно говорить о постепенности или упадке. Иными словами, характер регионального развития всегда имеет одну или несколько целей.

К целям социально-экономического развития региона относятся повышение доходов населения, улучшение образования, питания и здоровья, сокращение бедности, улучшение состояния окружающей среды, обеспечение равных возможностей, расширение личной свободы, обогащение культурной жизни. Некоторые из этих целей похожи. Однако при определенных условиях они могут кардинально отличаться.

Выход из кризиса как краткосрочные цели, так и на следующий год, квартал, месяц и т.д. можно добиться конкретных объемов роста ВВП и посмотреть на другие. Долгосрочные и краткосрочные цели сильно различаются, и меры по их достижению неодинаковы.

Высокий экономический рост создает основу для экономического развития государства. Концепция экономического развития включает в себя такие категории, как человеческий капитал, капитальная инфраструктура, региональная конкурентоспособность, экономическая устойчивость, социальное участие, образование, здоровье, грамотность. Существуют принципи-

альные различия между концепцией экономического развития и концепцией экономического роста. Таким образом, если экономический рост является количественным показателем, то экономическое развитие является категорией, отражающей как количественные, так и качественные показатели.

**Ключевые слова:** *социальный, экономический, региональный.*

## THE ROLE OF "GOVERNMENT PROGRAMS" IN ENSURING SOCIO-ECONOMIC DEVELOPMENT IN AZERBAIJAN

### SUMMARY

In any case, "development" means, first of all, progressive changes in the economic sphere. If there are quantitative changes, then we are talking about economic growth. Qualitative changes can be structural changes or changes in the content of development or the acquisition of new features of the economic system. In addition to the net economic characteristics, the social parameters of development are often taken into account. Social features have long been a full-fledged indicator of the level of development of each region.

Development always has a goal or direction that defines a system of goals. If this direction is positive, then we can talk about progress, if it is negative, then we can talk about gradualism or decline. In other words, the nature of regional development always has one or more goals.

The goals of the region's socio-economic development include increasing the income of the population, improving education, nutrition and health, reducing poverty, improving the environment, equal opportunities, expanding personal freedom, enriching cultural life. Some of these goals are similar. However, under certain conditions they may be radically different.

Exit the crisis as short-term goals and the next year, quarter, month, etc. it is possible to achieve concrete volumes of GDP growth and look at others. Long-term and short-term goals are very different, and the measures to achieve them are not the same.

High economic growth creates the basis for economic development of the state. The concept of economic development includes such categories as human capital, capital infrastructure, regional competitiveness, economic sustainability, social participation, education, health, literacy. There are fundamental differences between the concept of economic development and the concept of economic growth. Thus, while economic growth is a quantitative indicator, economic development is a category that reflects both quantitative and qualitative indicators.

**Keywords:** *social, economic, regional.*

UOT 336; 336.11

# KORONAVİRUS PANDEMİYASI ŞƏRAİTİNDƏ DÖVLƏT MALİYYƏ NƏZARƏTİNİN VƏZİYYƏTİ

**İLKİN ŞİRİNZADƏ**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*

*E-mail: ilkinshirinzada9@gmail.com*

## GİRİŞ

Dövlət maliyyə nəzarətinin (DMN) əsas ünsürlərinin elmi cəhətdən əsaslandırılmış təsnifatı dövlət idarəetməsinin çox mühüm tərkib hissələrindən biri olmaq etibarilə onun mahiyyətini dərindən anlamağa, ifadə etdiyi münasibətlərin fəaliyyət göstərməsi mexanizmini açıqlamağa, müxtəlif tərkib hissələrinin spesifik xüsusiyyətlərini aşkara çıxarmağa imkan verir.

Bazar təsərrüfatçılığı şəraitində yeni nəzarət sisteminin təşəkkül tapması nəzarətin növləri məsələsinin mahiyyətinin aydınlaşdırılmasını və bundan çıxış edərək, onun subyektlərinin və nəzarət fəaliyyətinin xarakterinin müəyyənləşdirilməsini nəzəri və praktik baxımdan zəruri edir.

Son dövrlər koronavirus (COVID-19) infeksiyasının əhatə dairəsinin və coğrafiyasının genişlənməsi müşahidə olunur. Yeni infeksiyanın, eyni zamanda, qlobal iqtisadiyyata, beynəlxalq maliyyə və əmtəə bazarlarına, o cümlədən neftin qiymətinə mənfi təsirləri də artmaqdadır.

Ölkəmizdə koronavirus xəstəliyinin yayılmasının qarşısını almaq məqsədilə ticarət, turizm, ictimai iaşə və s. sahələrdə xüsusi iş rejimləri tətbiq olunmuş və əhalinin sosial təcrid olunması təmin edilmişdir. Həyata keçirilən bütün bu tədbirlər təbii olaraq ölkədə işgüzar fəallığı zəiflədə və iqtisadiyyatın əksər sahələrinin inkişafına mənfi təsirlər göstərə bilər (8).

Mövcud vəziyyətdə iqtisadiyyatın sabitliyinə olan mümkün təsirlər aradan qaldırılmalı, əhalinin sosial rifahı qorunmalı və iqtisadi inkişafın davamlılığı təmin edilməlidir. Qoyulmuş bu məqsədlərə nail olmaq üçün ölkədə bütün səylərin və təşəbbüslərin birləşdirilməsi tələb olunur.

Azərbaycan dövləti iqtisadiyyatda baş verə biləcək neqativ tendensiyaları layiqli qarşılamaq üçün zəruri iqtisadi və maliyyə imkanlarına malikdir. Bu imkanlara arxalanaraq dövlət daim ən çətin vaxtlarda xalqın rifahının qorunmasına və özəl sektorun inkişafına öz dəstəyini göstərmişdir (9).

Eyni zamanda, özəl sektorun sosial məsuliyyət təşəbbüsləri ölkəmizin dayanıqlı inkişafının və cəmiyyətimizin rifahının qorunması üçün önəmlidir.

İqtisadi sahədə dövlətin tənzimləyici funksiyasının effektiv həyata keçirilməsi maliyyə resurslarının düzgün idarə edilməsi, səmərəli və effektiv istifadəsi, eyni zamanda, maliyyə pozuntularının vaxtında aşkar edilməsini, aradan qaldırılmasını və gələcəkdə bu cür nöqsanların qarşısının alınmasını ehtiva edir. Dövlətin nəzarət mexanizminin tərkib hissəsi olan effektiv dövlət maliyyə nəzarəti sistemi hər bir ölkənin iqtisadi və maliyyə sabitliyinin və davamlı inkişafının mütləq şərtidir. Dövlət maliyyəsi üzərində effektiv nəzarət vətəndaşlardan toplanan vergilərdən və digər ictimai mənbələrdən formalaşan dövlətin maliyyə fondlarının düzgün idarəedilməsi və xərclənməsinin təminatıdır və sosial-iqtisadi inkişaf hədəflərinə daha qısa müddətdə çatmaq üçün çox önəmlidir (9).

Dövlət maliyyə nəzarəti sisteminin mühüm tərkib elementlərindən biri də kənar dövlət maliyyə nəzarətidir. Kənar dövlət maliyyə nəzarəti dövlətin bütün subyektləri tərəfindən (dövlət orqanları, dövlətin payı olan və ya dövlət tərəfindən maliyyə vəsaiti ayrılan təşkilatlar, qurumlar və sair) dövlətin maddi və qeyri-maddi resurslarının formalaşması və idarəedilməsi, onların istifadəsi zamanı qanunilik, səmərəlilik, qənaətlilik və effektivlik prinsiplərinin gözlənilməsi məqsədilə qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində ali audit orqanları tərəfindən xüsusi metod və üsulların tətbiq edilməsi yolu ilə həyata keçirilən fəaliyyətdir. Bu institutun əsas məqsədi dövlətin stabilliyi və inkişafı üçün cəmiyyətin adından yuxarıda qeyd edilən subyektlər tərəfindən düzgün maliyyə idarəetməsinin və inzibati fəaliyyətin təşkili, dövlət vəsaitlərindən qanunvericiliyin tələblərinə uyğun şəkildə səmərəli istifadə edilməsi üzərində obyektiv ictimai nəzarətin həyata keçirilməsidir (6).

Kənar dövlət maliyyə nəzarəti fəaliyyəti aşağıda göstərilən üç istiqamət üzrə həyata keçirilir (14):

– dövlətin maliyyə və iqtisadi siyasətini həyata keçirən subyektlər tərəfindən maliyyə intizamına

və maliyyə qanunvericiliyinə riayət edilməsi vəziyyətinin yoxlanılması;

– qeyd edilən subyektlər tərəfindən həyata keçirilən iqtisadi və maliyyə-təsərrüfat fəaliyyətinin səmərəlilik, qənaətlilik və nəticəlilik prinsiplərinə uyğunluğunun qiymətləndirilməsi;

– bu subyektlərin fəaliyyətində yol verilmiş pozuntuları aşkara çıxararaq müvafiq təshihedici tədbirlərin görülməsi, günahkar şəxslərin məsuliyyətə cəlb edilməsi və gələcəkdə bu cür pozuntuların qarşısının alınması üçün müvafiq təklif və tövsiyələrin verilməsi.

Dövlətin əsas məqsədlərindən biri ictimai resurslardan – büdcə, mülkiyyət, təbii ehtiyatlar və digər maddi və qeyri-maddi resurslardan qənaətli və rasional istifadənin təmin edilməsidir. Dünyada baş verən iqtisadi böhranlar, maddi resursların tükənməsi, risklərin artması, eləcə də müşahidə edilən iqtisadi təlatümlər qeyd edilən mövzunu daha da aktuallaşdırmışdır. Bütün bunlar kənar dövlət maliyyə nəzarəti orqanlarının dövlət vəsaitlərinin daha səmərəli istifadə edilməsi, başqa sözlə, vəsaitlərin istifadəsində qənaətlilik, səmərəlilik və effektivlik prinsiplərinin təmin edilməsi, uğurlu sosial və iqtisadi islahatların aparılması sahəsində məsuliyyətinin və vəzifələrinin artmasına səbəb olmuşdur. Bu gün kənar dövlət maliyyə nəzarəti orqanlarının vəzifələri siyahısına təkcə maliyyə nəzarətinin həyata keçirilməsi deyil, həmçinin dövlət xərclərinin optimallaşdırılması, təkmilləşdirilməsi, hesabatlılığın artırılması, eyni zamanda, dünyada tükənən təbii resursların israf risklərini aradan qaldırmaqla gələcək üçün qorunub saxlanılması sahəsində tövsiyələrin verilməsi də aid edilmişdir (5).

Kənar dövlət maliyyə nəzarətinin artan əhəmiyyəti Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 66-cı sessiyasında qəbul edilmiş “Ali Audit qurumlarının gücləndirilməsi vasitəsilə dövlət idarəçiliyinin səmərəliliyinin, cavabdehliyinin, effektivliyinin və şəffaflığının artırılması haqqında” 2011-ci il 22 dekabr tarixli və 69-cu sessiyasında qəbul edilmiş “Ali Audit qurumlarının gücləndirilməsi yolu ilə dövlət idarəetməsində səmərəliliyin, nəticəliliyin və şəffaflığın təmin edilməsi haqqında” 2014-cü il 19 dekabr tarixli qətnamələrlə bir daha təsdiq edilmişdir (2).

Qeyd edilən sənədlərdə kənar dövlət maliyyə nəzarətini həyata keçirən Ali Audit qurumlarının (AAQ) inkişaf sahəsində milli, eyni zamanda, beynəlxalq səviyyədə razılaşdırılmış məqsədlərə nail olunmasını dəstəkləyən dövlət idarəetməsinin səmərəliliyinin, hesabatlılığının, nəticəliliyinin və şəffaflığının inkişaf etdirilməsində və vətəndaşların mənafeyi naminə dövlət vəsaitlərinin effektiv yığılması və istifadəsində əsas rol oynadığı qeyd edilməklə, Ali Audit qurumlarının öz funksiyalarını hərtərəfli yerinə yetirməsinin təmin olunmasının vacibliyi və onların gücləndirilməsi zərurəti vurğulanmışdır.

Beynəlxalq səviyyədə qəbul edilmiş təcrübəyə əsasən kənar dövlət maliyyə nəzarəti orqanının fəaliyyətinin effektivliyinin və nəticəliliyinin təmin edilməsi üçün mütləq şərt onların fəaliyyətinin müstəqillik, obyektivlik, peşəkarlıq və şəffaflıq prinsiplərinə uyğun həyata keçirilməsidir. Lima Bəyannaməsində qeyd edilir ki, kənar dövlət maliyyə nəzarəti orqanı olan Ali Audit Qurumu yalnız yoxlanılan qurumdan asılı olmadıqda, kənar müdaxilələrdən mühafizə olunduqda və onun üzərinə qoyulmuş məsələləri həll etmək üçün tələb olunan funksional və təşkilati müstəqilliyə malik olduqda qarşısına qoyulmuş vəzifələri obyektiv və səmərəli yerinə yetirə bilər. Ali Audit qurumlarının müstəqilliyi maliyyə müstəqilliyini və bu qurumların əməkdaşlarının və üzvlərinin müstəqilliyini də ehtiva edir. Lima Bəyannaməsinə əsasən, audit qurumunun müstəqilliyi onun üzvlərinin müstəqilliyi ilə ayrılmaz surətdə bağlıdır və üzvlərin müstəqilliyinə konstitusiya ilə təminat verilməlidir, xüsusilə, onların işdən azad olunması proseduru da konstitusiyada əks edilməli və onların müstəqilliyinə xələl gətirilməməlidir. Eyni zamanda, qeyd edilir ki, Ali Audit qurumlarının peşəkar fəaliyyətlərində Ali Audit Qurumunun audit heyəti yoxlanılan təşkilatların təsirinə məruz qalmamalı və belə təşkilatlardan asılı olmamalıdırlar (7).

Azərbaycan Respublikasında kənar dövlət maliyyə nəzarətini Azərbaycan Respublikası Hesablama Palatası həyata keçirir. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasından irəli gələn, səlahiyyətləri 1999-cu ildə qüvvəyə minmiş “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilən Azərbaycan Respublikası Hesablama Palatasının fəaliyyətə başlaması

ilə ölkəmizdə kənar dövlət maliyyə nəzarəti institutunun əsası qoyulmuş və bununla da respublikada səmərəli maliyyə nəzarəti sisteminin təşəkkül tapması istiqamətində mühüm addımlar atılmışdır (1).

Hesablama Palatası qanunvericiliklə müəyyən edilmiş hüquqi səlahiyyətlərinə görə Milli Məclisə hesabat verən, daimi fəaliyyət göstərən dövlət büdcə-maliyyə nəzarəti orqanıdır. Palata funksional və təşkilati müstəqilliyə malikdir. Hesablama Palatası öz fəaliyyətini qanunçuluq, sərbəstlik, obyektivlik, kollegiallıq, aşkarlıq və ədalətlilik prinsipləri əsasında qurur, özünün illik fəaliyyəti barədə Azərbaycan Respublikasının Milli Məclisinə hesabat təqdim edir. Göründüyü kimi, qanunvericiliyimizdə Hesablama Palatasının fəaliyyəti beynəlxalq təcrübəyə və Beynəlxalq Ali Audit Təşkilatı olan INTOSAI-nın beynəlxalq audit standartlarına uyğun tənzimlənsə də, bir sıra məsələlərdə müəyyən çatışmazlıq və boşluqlar qalmaqdadır. Belə ki, Azərbaycan Respublikasının qüvvədə olan qanunvericilik aktlarında Hesablama Palatasının statusu, təşkilati və funksional müstəqilliyinin təminatı, fəaliyyətinin təşkili, audit mandatı, hüquq və vəzifələri, məlumatların əldə edilməsi və məlumatlara çıxış imkanı, auditlərin spesifikasiyası, maliyyə- büdcə nəzarətinin və obyektlərinin əhatəliliyi, kənar və daxili nəzarət arasında qarşılıqlı əlaqələr və bir sıra digər mühüm əhəmiyyətli məsələlərlə bağlı INTOSAI-nın təməl prinsipləri, AAQ-nin fəaliyyətinin ilkin şərtləri və auditin fundamental prinsipləri ilə əlaqədar bir sıra məsələlər tam tənzimlənmir.

Büdcə gəlirlərinin formalaşmasında vergi siyasətinin əhəmiyyəti böyükdür və Azərbaycanda vergi daxilolmaları büdcə gəlirlərinin əsas hissəsini təşkil edir. Ümumiyyətlə, səmərəli vergi siyasəti dedikdə nə başa düşülməlidir. Qeyd etdiyimiz kimi, vergi daxilolmaları büdcə gəlirlərinin tərkib elementidir. Deməli, daha çox vergi daxilolmaları daha çox büdcə gəlirləri deməkdir. Lakin nəzərə almaq lazımdır ki, vergilərin müəyyən həddən sonra yüksəlməsi əks effekt verərək həm iqtisadi artıma, həm də biznes mühitinə mənfi təsir göstərə bilir. Məhz səmərəli vergi siyasəti elə siyasət tədbirlərini nəzərdə tutur ki, bu zaman büdcə gəlirlərini təmin etməklə yanaşı, iqtisadi inkişafa kəskin neqativ təsir göstərilməsin. Dövlət maliyyələşməsinin tərkibi kimi, artan borclar iqtisadiyyat üçün daha çox artan yükdən başqa bir şey deyil. Problemin yumşaldılmasının bir yolu vergi sistemini iqtisadiyyata daraldıcı təsir göstərmədən elə tənzimləməkdir ki, bu zaman tətbiq edilən vergi dərəcələri mümkün olan ən yüksək dövlət gəlirlərini təmin etmiş olsun (10).

İqtisadiyyatın dayanıqlılığının möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edən dövlət büdcəsinin qeyri-neft sektoru üzrə gəlirlərinin əvvəlki illərdəki artım tempi 2020-ci ilin nəticələri üzrə də müşahidə olunmuşdur (4).

Belə ki, 2020-ci ildə dövlət büdcəsinin gəlirlərinin tərkibində neft sektorundan daxilolmalar 14002120,5 min manat, qeyri-neft sektorundan daxilolmalar isə 10679614,1 min manat təşkil etmişdir. 2019-cu ilə nisbətən nominal artımlar neft sektoru üzrə 397538,9 min manat və ya 2,9%, qeyri-neft sektoru üzrə isə 66134,0 min manat və ya 0,6% səviyyəsində olmuşdur. Bu artımlar həmin ilə nisbətən ÜDM-in 11,6%-lik nominal azalması, o cümlədən qeyri-neft sektoru üzrə ÜDM-in 0,8%-lik nominal artımı şəraitində baş vermişdir.

Xüsusi çəkilərin artım templərinin əvvəlki illərlə müqayisəsi gəlirlərin ÜDM-ə qarşı nisbətinin 2020-ci ildə daha üstün mövqeyə yüksəldiyini göstərir ki, bu da əsasən ÜDM-in mütləq həcminin azalması ilə əlaqədardır.

**Şəkil 1. Dövlət büdcəsinin gəlirlərinin ÜDM-ə nisbəti, %-lə**




**Mənbə:** *Şəkil müvafiq illər üzrə DSK və dövlət büdcəsinin icrası ilə bağlı hesabatlar əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Dövlət büdcəsinin neft və qeyri-neft sektorunun əsas mənbələrdən daxilolmalarının tərkibindəki kəsirlər proqnozların neft sektorunda Dövlət Neft Şirkətinin xətti ilə konsolidə edilmiş vergilər və

digər ödənişlər (Azəriqaz və Azərkimya dövlət müəssisələri ilə birlikdə, fiziki şəxslərin gəlir vergisi və yol vergisi istisna olmaqla) üzrə 96,6% (1240,0 mln. manata qarşı 1198,4 mln. manat), qeyri-neft sektorunda isə büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar üzrə 74,1% (804,0 mln. manata qarşı 596,1 mln. manat) səviyyəsində icra olunması ilə əlaqədar olmuşdur.

Dövlət Statistika Komitəsinin və Dövlət Neft Şirkətinin (rəsmi internet səhifəsində yerləşdirilmiş) məlumatları nəzərə alınmaqla 2020-ci ildə ölkə üzrə faktiki həcmlər neft hasilatı üzrə 34,5 mln. ton (ilkin proqnozun 91,5%-i), əmtəəlik təbii qaz hasilatı üzrə isə 26,1 mlrd. $m^3$ (ilkin proqnozun 96,7%-i) təşkil etmişdir. O cümlədən Dövlət Neft Şirkəti üzrə neft hasilatı 7,4 mln. ton, ümumi qaz hasilatı isə 7,3 mlrd. $m^3$ həcmində olmuşdur.

**Açar sözlər:** *pandemiya, koronavirus, maliyyə.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnamə, Bakı, 1995.*

*2. Azərbaycan Respublikasının Auditorlar Palatası - Azərbaycan Respublikasında Auditor xidmətinin inkişaf Konsepsiyası (2012-2020-ci illər), Bakı 2013.*

*3. "Azərbaycan Respublikası Auditorlar Palatasının 20-2020-cu illər üzrə fəaliyyətinin yekunlarına dair icmal-hesabat".*

*4. Agnoletto, R. and Queiroz, V. (2020), Covıd-19 and the challenges in Education. Brazil: Universidade de São Paulo, 100 p.*

*5. Alea, L. A., Fabre, M. F., Roldan, R. D. A. and Farooqi, A. Z. Teachers' Covid-19 awareness, distance learning education experiences and perceptions towards institutional readiness and challenges. International Journal of Learning, Teaching and Educational Research, 2020, 19 (6), p. 127-144.*

*6. Almanthari, A., Maulana S. and Bruce S. Secondary school mathematics teachers' views on e-learning ımplementation barriers during the Covıd- 19 pandemic The Case of Indonesia. Eurasia Journal of Mathematics, Science and Technology Education, 2020, 16 (7), p. 18-60.*

*7. Chao, T., Saj T. and Tessier F. Establishing a quality review for online courses. Educause Quarterly, 2006, 29(3), 32 p.*

*8. Eastin, M. S. and LaRose R. Internet self-efficacy and the psychology of the digital divide. Journal of Computer-Mediated Communication, 2016, 6 (1), 145 p.*

*9. Hair, J. F., Black W. C., Babin B. J., Anderson R. E. and Tatham R. L. (2017), Análise multivariate de dados, Bookman editor, 366 p.*

*10. Hammond, T., Watson K., Brumbelow K., Fields S., Shryock K., Chamberland J. F. and Herbert B. (2020), a survey to measure the effects of forced transition to 100% online learning on community sharing, feelings of social ısolation, equity, resilience, and learning content during the Covıd-19 pandemic, 222 p.*

*11. Alakoç, Z. (2011), Genel olarak uzaktan öğretim ve konuya öğretim üyelerinin bakış açıları, Sakarya Üniversitesi Eğitim Fakültesi Dergisi, s. 403-413.*

*12. Alper, A. A. Pandemi sürecinde k-12 düzeyinde uzaktan eğitim: durum çalışması, Milli Eğitim Dergisi, 2020, 49(1), s. 45-67.*

*13. Çetin, O., ve Güngör B. İlköğretim öğretmenlerinin bilgisayar öz-yeterlik inançları ve bilgisayar destekli öğretime yönelik tutumları. Ondokuz Mayıs Üniversitesi Eğitim Fakültesi Dergisi, 2014, 33 (1), s. 55-77, doi:10.7822/egt206.*

*14. Xankişiyev, B.A. "Maliyyə nəzarəti". Bakı, 2012.*

*15. https://sai.gov.az/musahibeler/4*

## СОСТОЯНИЕ ГОСУДАРСТВЕННОГО ФИНАНСОВОГО КОНТРОЛЯ В УСЛОВИЯХ ПАНДЕМИИ КОРОНАВИРУСА

## РЕЗЮМЕ

Всемирная Организация Здравоохранения признала коронавирусную инфекцию пандемией («пандемией») в марте 2020 года, в связи с чем в большинстве стран мира введены особые режимы, карантины, чрезвычайные ситуации и так далее. Была вынуждена пойти на столь серьезные меры. В таких условиях, как и в ряде передовых стран, в целях предотвращения возможных экономических потерь и поддержки бизнеса в нашей стране Кабинет Министров издал постановление о реализации пункта 10.2 Указа Президента № 1950 от 19 марта, 2020 «Коронавирус Утвержден План мероприятий по ряду мер по снижению негативного влияния

пандемии (COVID-19) и вызванных ею резких колебаний мировых энергетических и фондовых рынков на экономику, макроэкономическую стабильность, занятость и предпринимательство в стране .

Этот план предусматривает меры поддержки по 3 основным направлениям:

Поддержка экономического роста и предпринимательства, в том числе выплата части заработной платы работникам, работающим в районах, пострадавших от пандемии, оказание финансовой поддержки индивидуальным предпринимателям, осуществляющим деятельность в районах, пострадавших от пандемии, перечисление налога на банковские счета этих предприятия.

В рамках вышеупомянутого Плана действий Центральный Банк Азербайджана 25 апреля 2020 года принял соответствующее решение с учетом рекомендаций Совета финансовой стабильности в рамках реализации меры по предоставлению очередного кредитного отпуска. учреждения. В нем также предусмотрены вопросы, связанные с реструктуризацией ипотечных кредитов, выданных физическими лицами за счет Ипотечного и кредитно-гарантийного фонда Азербайджанской Республики, реструктуризацией бизнес-кредитов, выданных за счет государственных средств, а также поддержка страхования и участников рынка капитала.

**Ключевые слова:** *пандемия, коронавирус, финансы.*

## SITUATION OF PUBLIC FINANCIAL CONTROL IN THE CONTEXT OF CORONAVIRUS PANDEMY

## SUMMARY

The World Health Organization recognized the coronavirus infection as a pandemic ("pandemic") in March 2020, and as a result, most countries around the world have adopted special regimes, quarantines, emergencies, and so on. was forced to take such serious measures. In such circumstances, as in a number of advanced countries, in order to prevent possible economic losses and support businesses in our country, the Cabinet of Ministers issued a decree on the implementation of paragraph 10.2 of the Presidential Decree No. 1950 of March 19, 2020 "Coronavirus The Action Plan on a number of measures to reduce the negative impact of the pandemic (COVID-19) and the resulting sharp fluctuations in world energy and stock markets on the economy, macroeconomic stability, employment and entrepreneurship in the country was approved.

This plan envisages support measures in 3 main areas:

Support for economic growth and entrepreneurship, including the payment of part of the salaries of employees working in areas affected by the pandemic, the provision of financial support to individual entrepreneurs operating in areas affected by the pandemic, the transfer of tax to bank accounts of these businesses.

As part of the above-mentioned Action Plan, the Central Bank of Azerbaijan adopted a relevant decision on April 25, 2020, taking into account the recommendations of the Financial Stability Board, as part of the implementation of the measure on granting regular leave to credit institutions. It also envisages issues related to the restructuring of mortgage loans issued by individuals at the expense of the Mortgage and Credit Guarantee Fund of the Republic of Azerbaijan, the restructuring of business loans issued at the expense of state funds, as well as support for insurance and capital market participants.

**Keywords:** *pandemic, coronavirus, finance.*

UOT 339.9

# GÖMRÜK NƏZARƏTİNİN TƏŞKİLİNİN AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAFINA TƏSİRİ

**SÜLEYMAN SÜLEYMANOV**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*

*E-mail: s.suleymanov@gmail.com*

## GİRİŞ

İnkişaf və müasirləşmə yolu ilə irəliləyən Azərbaycan gömrük xidməti öz qanunvericilik bazasını, gömrük nəzarəti sistemini daim təkmilləşdirmişdir. İlk dəfə 1995-ci ildə "Gömrük tarifi haqqında" Qanun və 1997-ci ildə "Gömrük məcəlləsi" Qanunu qəbul edilmiş və bununla da beynəlxalq normalara uyğun normativ-hüquqi baza yaradılmışdır. Gömrük Məcəlləsinin qüvvəyə minməsi ilə gömrük işinin hüquqi və təşkilati əsasları daha aydın şəkildə müəyyən edilmişdir. Bu, Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin, suverenliyinin və maraqlarının müdafiəsi ilə bağlı tədbirləri məqsədyönlü şəkildə həyata keçirməyə imkan verdi, milli iqtisadiyyatın dünya iqtisadi sisteminə daha dərindən inteqrasiyasına gətirib çıxardı və eyni zamanda Azərbaycan Respublikasının maraqlarını daha səmərəli şəkildə müdafiə etməyə imkan verdi.

Gömrük nəzarəti — gömrük işi haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə, həmçinin icrasına nəzarət Azərbaycan Respublikasının gömrük orqanlarına həvalə edilmiş, Azərbaycan Respublikasının digər qanunvericiliyinə və Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrinə riayət edilməsini təmin etmək məqsədi ilə həyata keçirilən tədbirlər toplusudur. Yəni, gömrük nəzarəti fiziki və hüquqi şəxslər tərəfindən yüklərin, nəqliyyat vasitələrinin, valyuta və sərvətlərin idxal və ixracının müəyyən olunmuş qanun və qaydalarla tənzimlənməsi üçün gömrük orqanlarının həyata keçirdiyi lazımi tədbirlərdir. Bu tədbirlər bilavasitə olaraq ölkənin iqtisadi inkişafına təsir edir, onun maraqlarının qorunmasında mühüm rol oynayır. Əvvəllər bu nəzarət sistemi daha çox fiskal aspektlərə fokuslanmış olsa da, son dövrlərdə bu fokusun təhlükəsizlik və ətraf mühitin müdafiəsi sahəsində artdığı görünür. Bu nəzarət sistemi özlüyündə aşağıdakıları ehtiva edir:

1. Ödənməli olan rüsumlar, malların tam və düzgün xarakteristikası, mənşəyi və dəyəri;
2. Təhlükəsizlik tədbirləri (qaçaqmalçılıq, tütün, narkotik, silah, terrorizmə qarşı mübarizə, saxta mallar);
3. Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyə uyğunluq;
4. Sağlamlıq tələbləri, fitosanitar, baytarlıq və keyfiyyət standartları.

Əlavə olaraq gömrük orqanları mütəmadi olaraq polis və miqrasiya orqanlarının işinə dəstəkdir.

Dinamik iqtisadi mühitdə, gömrük nəzarəti də cəld, effektiv və müasir risk idarəetmə texnikalarına əsaslanmalıdır ki, ticarətin dinamik axınını pozmasın. Effektiv nəzarət, lüzumsuz gecikmələr və ya sahibkarlara artıq xərclərdən qaçınmaq üçün aşağıda sadalanan metodlardan istifadə olunur:

1. Məlumatların mübadiləsində sahibkarlarla ilə sıx əməkdaşlıq;
2. Müasir İT texnikaları və alətlərdən istifadə;
3. Yüksək ixtisaslaşdırılmış müayinə və ekspertiza avadanlıqlarından istifadə;
4. Səmərəli şəkildə risklərin idarə olunması.

Respublikamızın iqtisadi maraqlarını qorumaqla, xarici ticarət dövriyyəsini birbaşa tənzimləyən və fiskal funksiyanı həyata keçirən gömrük orqanı, eyni zamanda büdcəni tamamlayır, iqtisadi və sosial problemlərin həllinə kömək edir.

Gömrük orqanının həmçinin iqtisadi rəqabətqabiliyyətliliyə olan töhfəsi da danılmazdır. Lakin, ilk öncə ölkələr arasında rəqabətin nə olduğunu, nəyə əsaslandığını anlamaq vacibdir. Firma səviyyəsində rəqabət dedikdə, iki biznesin eyni sənaye sahəsində bir-birilə yarışı, rəqabəti başa düşülür. Firmalar istehlakçı üçün rəqabət aparır.

Dövlətlər səviyyəsində isə rəqabətin anlamı dəyişir. Dövlətlər istehlakçı axtarışında deyil, onlar, iqtisadi və ticarət siyasətləri ilə öz mənafelərini ən yaxşı şəkildə necə qoruyacaqlarını, buna necə və hansı üsullarla nail olacaqları istiqamətində "rəqabət" aparır. Firmalarda olduğu kimi, bir-biriləri ilə birbaşa rəqabətə girmirlər. Dövlətlər səviyyəsində "rəqabət"də sadəcə "qalib" və ya "məğlub" anlayışı yoxdur. Birinin qalib, digərinin məğlub olmasındansa, müqayisəli üstünlük və qarşılıqlı sərfəli mübadilə, iki və daha artıq ölkənin qazanc əldə etməsinə gətirib çıxarar.

Gömrük orqanı isə, bu rəqabətqabiliyyətliliyə və inkişafa 3 əsas üsulla təsir göstərir:

1. Ticarətin asanlaşdırılması;
2. Gəlirlərin yığılması;
3. Sosial müdafiə.

**Ticarətin asanlaşdırılması.** Ticarətin asanlaşdırılması, biznes üçün transaksiya xərclərini daha aşağı salmaq üçün gömrük prosedurlarını daha səmərəli etmək deməkdir. Ümumdünya Ticarət Təşkilatının ticarətin asanlaşdırılması ilə bağlı açıqlaması isə "beynəlxalq ticarət prosedurlarının sadələşdirilməsi və uyğunlaşdırılması.Ticarət prosedurlarına beynəlxalq ticarətdə malların hərəkəti üçün tələb olunan məlumatların və digər məlumatların toplanması, təqdim edilməsi, ötürülməsi və emalı ilə bağlı fəaliyyətlər, təcrübələr və rəsmiyyətlər daxildir" şəklindədir (2).

**Gəlirlərin yığılması.** İkinci faktor olan gəlirlərin yığılması, daha çox, dolayı yolla təsir göstərir, ancaq olduqca vacibdir. Uzun müddətdir ki, dövlət tərəfindən toplanılan gəlirlər onun hakimiyyətinin, səlahiyyətinin əsas tərkib hissəsi kimi qəbul edilib. Adam Smit isə dövlətin ədalət, müdafiə, sosial xidmət və təhsili təmin etmək üçün mövcud olduğunu deyir (1).

**Sosial müdafiə.** Son faktor olan sosial müdafiə isə, terrorizmlə mübarizə, qanunsuz- narkotik, silah, saxta mallar kimi malların dövriyyəsinin qarşısını alır, onları qadağan edir. Gömrük orqanları cəmiyyəti və milli maraqları qorumaq naminə, istifadəsi təhlükəli malların sərhədi keçməsinin qarşısını almaqla iqtisadi inkişafa dəstək olurlar.

Bu vasitələr xarici ticarət dövriyyəsinin tənzimlənməklə və fiskal funksiya həyata keçirməklə dövlət büdcəsini tamamlayır və bununla da iqtisadi problemin həllinə kömək edir. Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2019-cu ilin yanvar-sentyabr aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 186 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 113 ölkəyə məhsul ixrac olunmuş, 177 ölkədən idxal olunmuşdur. 2019-cu ilin yanvar-sentyabr aylarında ölkənin xarici ticarət dövriyyəsi 24837,2 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 14459,2 milyon dollar, idxalın dəyəri 10378,0 milyon dollar təşkil etmiş, nəticədə 4081,2 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. 2018-ci ilin yanvar-sentyabr ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 7,2 faiz, real ifadədə isə 1,4 faiz, o cümlədən idxal 3,4 faiz, ixrac 0,3 faiz artmışdır. Bu dövr ərzində ölkədən 1413,1 milyon dollar dəyərində qeyri neft-qaz məhsulları ixrac edilmişdir ki, bu da ötən ilin eyni dövrünə nisbətən faktiki qiymətlərlə 17,1 faiz, real ifadədə isə 12,1 faiz çoxdur (10).

**Xarici ticarət dövriyyəsinin dinamikası**

| İllər | Milyon ABŞ dolları ilə | | | | Əvvəlki illərə nisbətən faktiki qiymətlərlə, faizlə *) | | |
|---|---|---|---|---|---|---|---|
| | Ticarət dövriyyəsi | İdxal | İxrac | Saldo | Ticarət dövriyyəsi | İdxal | İxrac |
| 2016 | 21,946.7 | 8489.1 | 13,457.6 | 4,968.5 | 112.9 | 89.6 | 129.7 |
| 2017[2] | 24,263.8 | 8,783.3 | 15,480.5 | 6,697.2 | 89.3 | 83.8 | 92.9 |
| 2017 | 24,103.3 | 8,783.3 | 15,32.0 | 6,536.7 | 85.2 | 83.8 | 86.1 |
| 2018[2] | 31,782.7 | 11,465.9 | 20,316.8 | 8,850.9 | 100.5 | 100.2 | 100.7 |
| 2018 | 30,955.0 | 11,465.9 | 19,489.1 | 8,023.2 | 96.1 | 100.2 | 93.8 |
| 2019[2] | 33,065.3 | 13,667.5 | 19,397.8 | 5,730.3 | 96.1 | 93.5 | 97.6 |
| 2019 | 33,302.7 | 13,665.5 | 19,635.2 | 5,967.7 | 96.8 | 93.5 | 98.8 |
| 2020[2] | 24,201.1 | 10,730.7 | 13,470.4 | 2,739.7 | 78.1 | 64.0 | 88.0 |
| 2020 | 24,471.3 | 10,730.7 | 13,740.6 | 3,009.9 | 72.8 | 64.0 | 78.9 |

**Mənbə:** *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az (10.12.21)*

1 - Dövlət Gömrük Komitəsinin məlumatları

2 - Statistika məlumatı - gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla

*)- 2010-2020-ci illər üzrə indekslər qiymət amili nəzərə alınmaqla hesablanmışdır.

Cədvəldən də göründüyü kimi, COVID-19 pandemiyası bütün dünyada, eləcə də Azərbaycan Respublikasında iqtisadiyyatın kiçilməsinə səbəb olmuş, idxal-ixrac əməliyyatlarına təsir etmişdir. Belə ki, 2020-ci ilin yanvar-iyun aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 167 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 100 ölkəyə məhsul ixrac olunmuş, 155 ölkədən idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2020-

ci ilin yanvar-iyun aylarında ölkənin xarici ticarət dövriyyəsi 11750,2 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 6760,7 milyon dollarını və ya 57,5 faizini ölkədən ixrac olunmuş məhsulların, 4989,5 milyon dollarını (42,5 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 1771,2 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2019-cu ilin yanvar-iyun ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 30,3 faiz, real ifadədə 20,5 faiz, o cümlədən idxal 42,8 faiz, ixrac isə 4,6 faiz azalmışdır.

2020-ci ilin yanvar-iyun aylarında qeyri-neft-qaz məhsullarının ixracı əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 6,9 faiz, real ifadədə isə 14,0 faiz azalaraq 911,9 milyon dollar təşkil etmişdir (10).

**Şəkil 3.1.İxrac**




**Mənbə:** *Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, customs.gov.az*

Gömrük nəzarətinin, ümumilikdə gömrük orqanları və xidmətlərinin iqtisaddiyata müxtəlif təsirləri var. Onlar idxal olunan mallara daha yüksək gömrük rüsumu tətbiq etməklə istehlakçılara zərər vurur, lakin eyni zamanda xaricdən idxal olunan mallara yüksək rüsum tətbiq etməklə ölkənin öz yerli istehsalçılarını qoruyur. Rüsumlar həm də ölkə üçün gəlir yaradır. Bir qayda olaraq, gömrük nəzarətinin rolu malların hərəkətinə nəzarət, idarə etmək, ölkənin maraqlarını qorumaq və gəlirlərinin toplanmasını təmin etməkdir. Eyni zamanda əsas rolları, dövlətin müvafiq qanun və siyasətinə uyğun olaraq malların idxal-ixrac əməliyyatlarını təmin etmək, sərhədləri qorumaq və leqal ticarəti asanlaşdırmaqdır. Gömrüyün qlobal olaraq qəbul olunmuş missiyası, artırılmış təhlükəsizliyi və müdafiəni, həmçinin asanlaşdırılmış ticarəti və gəlirlərin toplanmasını təmin edən qaydalar hazırlaması olmuşdur (5).

Beləliklə, təhlillər gömrük nəzarətinin, rüsum və taariflərin Azərbaycan Respublikasının iqtisadiyyatında, sosial və iqtisadi proqramlarının həyata keçirilməsində, sərhəd təhlükəsizliyinin və ətraf mühitinin qorunmasında mühüm rolu və əhəmiyyətli dərəcədə təsirli olduğunu göstərdi.

**Açar sözlər:** *Gömrük nəzarəti, fiskal funksiya, iqtisadi inkişaf, iqtisadi maraqlar, iqtisadi təhlükəsizlik.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. “Gömrük orqanlarının iqtisadi fəaliyyəti”, Bakı, Azərnəşr, 1999, 392 səh.*

*2. “Azərbaycan Respublikasının Gömrük Məcəlləsi”, Bakı, Qanun, 2012.*

*3. Nuriyev C.Q, Atakişiyev M.C, (2012), Gömrük işinin təşkili və idarə edilməsi. Bakı, “Apostrof”, 332 səh.*

*4. Michael Irvine & Daniel Coombs & Julianne Skarha & Brandon del Pozo & Josiah Rich & Faye Taxman & Traci C. Green , “Modeling COVID-19 and Its Impacts on U.S. Immigration and Customs Enforcement (ICE) Detention Facilities, 2020”, J Urban Health, 2020, vol. 97, 439–447 p.*

*5. Steven Pope, “Covid-19 and its impact on Customs and trade”, WCO News, 2020*

*6. Borrmann A., Fasbender K., Hartel H., Holthus M. Social Market Economy, Experiences in the Federal Republic of Germany and considerations on its transferability to developing countries Hamburg, 2014, p.71-72*

*7. Drobot, E.V.Klevleeva, A.R.Afonin, P.N.Gamidullaev, “Risk Management in Customs Control”, Ekonomika Regiona, 2017, iss.2, 550-558 p.*

*8. Tuccori, M., Convertino, I., Ferraro, S., “The Impact of the COVID-19 “Infodemic” on Drug-Utilization Behaviors: Implications for Pharmacovigilance”, Drug Saf ,2020,vol.43, 699–709 p.*

*9. https://www.customs.gov.az/*

*10. https://www.stat.gov.az/*

*11. http://www.wcoomd.org/*

**ВЛИЯНИЕ ОРГАНИЗАЦИИ ТАМОЖЕННОГО КОНТРОЛЯ НА РАЗВИТИЕ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА**

**РЕЗЮМЕ**

Важным элементом экономики является анализ деятельности таможенной системы и таможенного контроля и превращение таможенной системы в важную часть экономической системы страны, ее оценка с точки зрения ее провайдера. Таможенный контроль – это комплекс мероприятий, проводимых таможенными органами для обеспечения соблюдения таможенного законодательства. Он напрямую влияет на экономику страны, влияя на импортные и экспортные операции страны. Он играет важную роль в защите границ страны и окружающей среды. Защищая экономические интересы страны, таможенный орган, непосредственно регулирующий внешнюю торговлю и выполняющий фискальную функцию, также дополняет бюджет и помогает решать экономические и социальные задачи. Как правило, роль таможенного контроля заключается в контроле за перемещением товаров, управлении, защите интересов страны и обеспечении сбора доходов. При этом их основная роль заключается в обеспечении импорта и экспорта товаров в соответствии с соответствующими законами и политикой государства, в охране границ и содействии легальной торговле. Таможне принадлежит особая роль в развитии и стимулировании экономики.

Одним из важных направлений национальной безопасности нашей страны является экономическая безопасность. Национальная безопасность является более широким понятием, чем экономическая безопасность, и, естественно, экономическая безопасность является ключевым элементом национальной безопасности и зависит от общей стратегии государства. Безопасность должна в первую очередь учитывать интересы гражданина, общества и государства. Таможенная система является важной частью экономической безопасности страны и ключевым фактором защиты ее независимости. Таможенная служба играет ключевую роль в экономическом развитии государства, защите национального рынка от негативного и иностранного влияния, доходной части государственного бюджета и других важных процессах.

**Ключевые слова:** *Таможенный контроль, фискальная функция, экономическое развитие, экономические интересы, экономическая безопасность.*

**THE EFFECT OF CUSTOMS CONTROL ORGANIZATION ON THE DEVELOPMENT OF AZERBAIJAN'S ECONOMY**

**SUMMARY**

An important element of the economy is the analysis of the activities of the customs system and customs control and the transformation of the customs system into an important part of the economic system of the country, its assessment from the point of view of its provider. Customs control is a set of measures taken by the customs authorities to ensure compliance with customs legislation. It directly affects the country's economy by influencing the country's import and export operations. It plays an important role in protecting the country's borders and the environment. Protecting the country's economic interests, the customs authority, which directly regulates foreign trade and performs a fiscal function, also complements the budget and helps solve economic and social problems. As a rule, the role of customs control is to control the movement of goods, to manage, to protect the interests of the country and to ensure the collection of revenues. At the same time, their main role is to ensure the import and export of goods in accordance with the relevant laws and policies of the state, to protect borders and to facilitate legal trade. Customs has a special role in the development and stimulation of the economy.

One of the important directions of national security of our country is economic security. National security is a broader concept than economic security, and naturally economic security is a key element of national security and benefits from the overall strategy of the state. Security must first and foremost take into account the interests of the citizen, society and the state. The customs system is an important part of the country's economic security and a key factor in the protection of its independence. The customs service plays a key role in the economic development of the state, protection of the national market from negative and foreign influences, the revenue side of the state budget and other important processes.

**Keywords:** *Customs control, fiscal function, economic development, economic interests, economic security.*

UOT 338.45:69

# TİKİNTİ-SƏNAYE POTENSİALININ İNKİŞAFI VƏ ONUN GÜCLƏNDİRİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

**ÜLKƏR PİRİYEVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistr*

*E-mail: ulkerpiriyevaa@gmail.com*

## GİRİŞ

İnvestisiya quruculuğu proqram və layihələrini milli və regional maraqlar nəzərə alınmaqla həyata keçirən regional tikinti kompleksinin regionda sosial-iqtisadi vəziyyətin sabitləşməsi və yaxşılaşdırılmasında xüsusi rolu vardır. Regional tikinti kompleksini tikinti məhsullarının istehsalı üçün müəyyən üsulla təşkil edilmiş müəssisə və təşkilatların mürəkkəb sahələrarası ərazi birliyi kimi xarakterizə etmək olar. Tikinti kompleksinin inkişafı bir çox cəhətdən həlli dövlətin ümumi iqtisadi siyasəti çərçivəsində həyata keçirilən və təmin edilən qeyri-sistem problemlərlə və bilavasitə həll edilməli olan sistemdaxili problemlərlə bağlıdır. Hazırda regionun vahid iqtisadi məkanında tikinti kompleksi müəssisələrinin qarşılıqlı əlaqəsi prosesləri kifayət qədər öyrənilməmişdir. Müəyyən bir əlaqə formasının seçilməsinə təsir edən amillər müəyyən edilməmişdir.

Müasir texnologiyalar mövcud tikinti tullantılarından yüksək keyfiyyətli tikinti materiallarının istehsalı üçün səmərəli istifadəyə, sənaye məhsullarının material sərfini azaltmağa, sahibkarlıq subyektləri üçün əhəmiyyətli iqtisadi və ekoloji təsirləri təmin etməyə imkan verir. Tullantıların ikinci dərəcəli xammal kimi istifadəsi idarəetmənin taktiki və əməliyyat səviyyələrini nəzərə almaqla onun fəaliyyətinin səmərəliliyini artırmaqla tikinti kompleksində müəssisənin potensialını artırmaq kimi strateji vəzifəni həll etməyə imkan verir.

O cümlədən, taktiki səviyyədə tikinti materiallarının çeşidinin genişləndirilməsi təmin edilir, tikinti müəssisələrinin ərazi bölgüsü yaxşılaşdırılır, tikinti-quraşdırma işlərinin keyfiyyəti yüksəlir. Əməliyyat səviyyəsi innovativ resursa qənaət edən strukturlardan, məhsul və material texnologiyalarından istifadəni, tikinti üçün material ehtiyatlarının mütərəqqi strukturunun yaradılmasını, tikinti-quraşdırma işlərinin maya dəyərinin azaldılmasını və s.

Fəlsəfə mədəniyyəti bütöv bir hadisə kimi öyrənir, mədəni fəaliyyətin mahiyyəti və mənasını, onun öyrənilməsi üsullarını əks etdirir; mədəniyyətin tipologiyası və onun inkişaf istiqamətləri ilə bağlı variantlar irəli sürür; müəyyən mədəniyyət növünün ayrı-ayrı aspektlərinin əlaqəsi və onun dominant prinsipi problemini həll edir. Fəlsəfədə mədəni hadisələrin izahının ən ümumi sxemləri yaradılır, mədəniyyəti öyrənən digər elmlərin hələ həll edə bilmədiyi problemlər müzakirə olunur.

Mədəniyyət fəlsəfəsinin vəzifələri həllini tələb edən problemlərdir və müxtəlif yaradıcılıq sahələrində mədəniyyət məsələlərinin və münasibətlərin fəlsəfi dərk edilməsi ilə bağlıdır.

Əgər mədəniyyət fəlsəfəsinin yerinə yetirdiyi vəzifələrindən danışırıqsa, onda əsas məsələ insanın öz mahiyyətini təzahür etdirdiyi, özünü idarə etdiyi universal dünyanın, bir növ “vahid məkan”ın yaradılması olmalıdır (2,s.36).

Burada biz bilavasitə sənət əsərlərini və ya zehni və maddi proseslərin hər hansı nəticələrini deyil,

onların yaradılması üçün zəruri olan bilavasitə hərəkətverici qüvvələri və fəaliyyət vəziyyətlərini öyrənirik. Belə hərəkətverici qüvvələrin mənşəyini əsaslandırmaq və dərindən öyrənmək lazımdır. Bundan əlavə, mədəniyyət fəlsəfəsi qarşısına çıxarılan münasibətlərin strukturunu dəstəkləmək vəzifəsini qoyur. Beləliklə, mədəniyyət fəlsəfəsinin əsas vəzifələrini həyata keçirmək üçün aşağıdakı hərəkətləri yerinə yetirmək lazımdır:

- yaradıcılığın hərəkətverici qüvvəsini axtarması;
- hərəkətverici qüvvənin əsaslandırılması və məqsədin öyrənilməsi;
- mədəni münasibətlərin strukturunu, kateqoriyalarını, bölüşdürülməsini və konseptual aparatın qalan hissəsini nəzərə alınması.

Mədəniyyət, insanların həyat və fəaliyyətinin təşkili növləri və formalarında, habelə yaratdıqları maddi və mənəvi dəyərlərdə ifadə olunan cəmiyyətin və insanın tarixən müəyyən olunmuş inkişaf səviyyəsidir (2,s.432).

Mədəniyyətin inkişafı nəticəsində, ilk növbədə, insan varlığının sosial-mədəni tərəfində təbii, keyfiyyətcə yönəldilmiş dəyişməsi kimi dərk edilməsi təhsilin əsas mərhələlərinin mövcudluğunu təsdiq etməyə imkan verir. Bu zaman insanın sosial-mədəni inkişafının əsas mərhələlərini, mədəniyyətin inkişafının əsas mərhələləri ilə əlaqələndirmək olar.

Mədəniyyətin inkişafı mədəni vasitələrinin əsas qruplarından birinin ayrılması ilə əlaqədar mədəni - vasitəçilik münasibətləri formasında təbii, istiqamətlənmiş, keyfiyyət dəyişikliyi kimi qəbul edilir. Bəşər övladının inkişafının ilkin mərhələlərində mədəni vasitəçiliyin əsasını alətlər təşkil edirdi, daha sonra normalar ön plana çıxır və dil müasir insan üçün aparıcı rola çevrilir.

Mədəni vasitəçilik əlaqələrinin təbii dəyişməsini insanın dünyagörüşü imkanları ilə əlaqələndirmək olar. Mədəniyyət dünyanı bir obyekt kimi (metadan əvvəl) universal meta kimi göstərir. İnsan insana dünyanın müvafiq obyektiv üfüqlərini verən və insanın obyektiv varlığının ümumbəşəri varlığının böyüməsi üçün əmrləri təmsil edən dörd vasitəyə (alətlərə, simvollara, işarələrə, son dərəcə universal əlamətlərə) bölünür. İnsanın mədəni vasitələrin əsas qruplarını mənimsəməsi ona bu vasitələrə uyğun gələn obyekt qruplarını kəşf etməyə imkan verir ki, onların köməyi ilə dünyanı bilmək və mənimsəmək mümkün olur. Bir obyekt kimi dünya hər biri ümumi xüsusiyyətlərə malik olan müəyyən mədəni vasitələr (mədəniyyətlər) qrupu ilə fərqlənən aşağıdakı dörd obyektivlik səviyyəsi (qatları) ilə təmsil olunur:

1. mədəniyyət maddi obyektlər aləminin obyektivliyini və bu obyektlərin duyğu qavrayışını vurğulamağa imkan verən alətlərlə təmsil olunur;
2. simvollarla təmsil olunan mədəniyyət, dünyanın obyektləri və hadisələri arasında ünsiyyət formaları ilə təmsil olunan, ümumi fikirlər səviyyəsində sabitlənmiş dünyanın obyektivliyini vurğulamağa imkan verir,
3. simvollarla təmsil olunan mədəniyyət dünyanın obyektivliyini ayırmağa imkan verir, bu nəzəriyyə, ideyadır və s. dilin təmsil etdiyi dünyanı ilk növbədə anlayışlar və kateqoriyalar səviyyəsində işarə sistemləri vasitəsilə təmsil edir;
4. Son dərəcə universal xüsusiyyətlər və kateqoriyalar - insan davranışının "heç nə" və "hər şey" (yoxluq və varlıq) tənzimləyiciləri ilə təmsil olunan mədəniyyət dünyanın obyektivliyini vurğulamağa imkan verir, dünya bütün obyektivliyin vəhdətində təqdim olunur, ümumi ideyalar səviyyəsində sabitləşir. Bu, daim təkrarlanan qarşılıqlı əlaqə yolları dünyası, normalar, davranış qaydaları və insan fəaliyyəti dünyasıdır;

Mədəni vasitələrin əsas qrupları üzrə obyektivlik səviyyələrinin bölüşdürülməsi ilə dünyanın vahid təsviri sübut edir ki, bu vasitələr mədəniyyətin əsas elementlərində bütövlüyü təmsil etməyə imkan verir. Müəyyən bir qrup mədəni vasitələrin insan tərəfindən mənimsənilməsi onun dünyadakı obyektivliyinin müvafiq səviyyələrini ayırmağa və tanımağa imkan verir. Beləliklə, mədəni təhsil, ilk növbədə, insanın dünya ilə mədəni əlaqəsinin tədricən inkişafını təmin etməlidir.

Mədəniyyət vasitəçiliyi əlaqələrinin inkişafı, ilk növbədə, insanın şəxsi təcrübəsinin fəaliyyət tərəfinin bükülməsidir (6).

İnsanın mədəniyyət vasitələrinin yeni qruplarını mənimsəməsi nəticəsində dünyanın yeni obyektləri şüurda formalaşan dünya formasına daxil olur, yəni dünya haqqında bilik keyfiyyətcə dəyişir. İnsanın yeni mədəni vasitələrin qrupları və yeni obyektivlik səviyyələri vasitəsilə dünyanı mənimsəməsi insani dəyərlər aləmində keyfiyyət dəyişikliyinə səbəb olur. Beləliklə, insanın reallıqla bağlı mədəniyyətin bu və ya digər formasına yiyələnməsi onun şəxsi sosial-mədəni təcrübəsini təşkil edir.

Şəxsi təcrübə mahiyyətcə insanın xarici və daxili əlaqələrinin sosial-mədəni müəyyənliyini yaşaması prosesi və nəticəsidir. Daxili münasibətlərdə şəxsi təcrübə xarici münasibətlərdə insanın davranışı və fəaliyyəti kimi təkrarlanan bir-biri ilə əlaqəli və qarşılıqlı təsir göstərən təfəkkür formaları (şüurun məzmunu) ilə təmsil olunur. Şəxsi təcrübə aşağıdakı qarşılıqlı əlaqəli və ardıcıl elementlərdən ibarətdir: 1. şəxsi dəyərlər sistemi (insanın mənalı yaşamaq üçün daimi istəyi); (insanın özündə mənalı olaraq yaşadıqlarına dair sabit istəkləri); 2. onun şüurunda dünyanın vahid bir mənzərəsi (bilik); 3. fəaliyyət növlərini və metodlarını (bacarıq, qabiliyyət) mənimsəmiş (şəxsi təcrübənin aktiv elementi).

Şəxsi təcrübənin inkişafı insanın sosial-mədəni inkişafıdır. İnsan müstəqilliyinin yeni dərəcəsinin yaranmasına səbəb olan bütövlükdə şəxsi təcrübədə keyfiyyət dəyişikliyi bu təcrübəni şəxsiyyət mədəniyyəti kimi xarakterizə etməyə imkan verir. Şəxsi mədəniyyəti insan həyatının ayrılmaz hissəsi kimi başa düşürük, lakin onun reallıqla əlaqəsi mədəni vasitəçilik formalarını dəyişə bilər. Şəxsi mədəniyyət həmişə müstəqil qərarlar kontekstində şəxs tərəfindən daim təkrarlanan şəxsi təcrübənin bir hissəsi ilə təmsil olunur. Şəxsiyyət mədəniyyətinin əsasını insanın şəxsi dəyərlər sistemi təşkil edir. Şəxsiyyət mədəniyyəti pedaqoji fəaliyyətin ayrılmaz məhsulu - təhsil prosesinin əsas nəticəsidir. Şəxsi təcrübənin inkişaf mərhələləri ardıcıl olaraq şəxsi mədəniyyət növlərinin dəyişməsinə uyğundur (şəxsi mədəniyyətin əsasları, ümumi şəxsi mədəniyyət, fərdi səviyyənin şəxsi mədəniyyəti).

Ümumilikdə mədəniyyətin və xüsusən şəxsiyyət mədəniyyətinin inkişaf modelləri belə nəticəyə gəlməyə imkan verir ki, təhsilin mədəni uyğunluğunun ölçülməsi təhsil müəssisələrinin bu nümunələrə uyğunluq dərəcəsinin müəyyən edilməsindən başlayır. Təhsilin mədəni uyğunluğunun ölçülmə üsulu əsasən onun nəticələrinin təsviri ilə müəyyən edilir. Müasir təhsilin nəticələrinin təsviri səriştəyə əsaslanan yanaşmanın tətbiqi əsasında həyata keçirilir. Beləliklə, təhsilin istiqaməti məzunların müəyyən fəaliyyət növləri və metodlarını müstəqil həyata keçirməyə hazırlamaqdır. Bir tərəfdən, bu yanaşma insan inkişafının aparıcı şərti kimi fəaliyyətin mənimsənilməsi vəzifəsini ayırmağa imkan verir ki, bu da yalnız müsbət qiymətləndirilə bilər. Digər tərəfdən, onun həyata keçirilməsi insanı təkcə sosial-mədəni inkişaf qanunlarına deyil, həm də reallıqla münasibətlərin əsas növlərinə, əsas fəaliyyət formalarından asılı olmayaraq seçilmiş müəyyən fəaliyyət növlərinə və metodlarına hazırlamaqla azalda bilər. Eyni zamanda, səriştə əsaslı yanaşmanın tətbiqi insan inkişafına və ümumilikdə sosial-mədəni inkişafa yönəlmiş təhsil modelindən istifadə etməklə həyata keçirilə bilər. Məzunun səriştəsi hər hansı bir fəaliyyəti (o cümlədən peşəni) müstəqil şəkildə tərtib etmək və təşkil etmək bacarığında təzahür edir, lakin insan, ilk növbədə, bir subyekt kimi inkişaf edir və bütövlük qazanaraq fəaliyyət subyektinə çevrilir. Beləliklə, məzunların həm şəxsi təcrübəsi, həm də şəxsi mədəniyyəti nəzərə alınmaqla “səriştə” və “bacarıq” əsasında formalaşır. Bu, həm şəxsi təcrübənin strukturunu, həm də fəaliyyət strukturunu təsvir edən, əsas fəaliyyətlə bağlı yaranan münasibət və bacarıqların daxili və xarici səviyyələrini əks etdirən struktur yaratmaqla həyata keçirilə bilər.

**Açar sözlər:** *təhsil, mədəniyyət, mədəni uyğunluq, mədəniyyət fəlsəfəsi, sosial-mədəni inkişafı.*

## ƏDƏBİYYAT SİYAHISI

*1.Abbasov Ə.F. Milli fenomenlərin dərki və şərhində adekvat epistemologiya zərurəti. Müasir fəlsəfə, elm və mədəniyyət: postqeyri-klassik epistemologiya. Respublika konfransının materialları, 18 may 2011-ci il. Bakı, “Elm” 2011. s.275-282.*

*2. Nəzərov M.H. Təhsil fəlsəfəsi. Dərs vəsaiti. Bakı: ADPU, 2021. 496 s.*

*3. Nəzərov M.H. Müasir cəmiyyətin intellektual inkişafında təhsil fəlsəfəsinin rolu. Geostrategiya jurnalı № 01( 61). Bakı – 2021 s.119-123.*

*Rus dilində*

*4. Гершунский Б.С. Философское образование XXI века, Москва, 2002.s.91*

*5. Гуревич, П. С.Философская антропология: учеб. по-собие для вузов –2-е изд.,стереотип.– М.:Омега-Л, 2010.– 607 с.*

*6. Каган М.С.Философия культуры. Учебное пособие.- М.:Издательство Юрайт - 2019 - 353с*

*7. Nazarov M.H. Sociocultural fundamentals of education Almaniya. Meldrum. LAP. LAMBERT Academic Publishing 2020. 248 p.*

*8. http://www.philsci.univ.kiev.ua/biblio/FIL_XX/12.html*

**М. Г. Назаров**
**Культурная значимость образования в контексте философии культуры**


**РЕЗЮМЕ**

В статье рассматриваются основные философские концепции культуры и создаваемые ими образовательные модели. Философия -это форма знания, теоретического мировоззрения и искусства мысли, непосредственно связанного с культурой. Особое внимание уделено философии культуры, которая позволяет организовать образование в соответствии с социокультурным развитием человека и тем самым создает объективную основу для реализации компетентностного подхода в педагогике. Пути реализации педагогической деятельности на основе концепций, сочетающих в себе принцип культурного разнообразия, а также соответствующее культурное измерение образования, позволяющее представить культуру в целом как развивающееся отношение. На основе концепции возникновения и развития культуры определены основные критерии и показатели измерения и оценки культурной значимости образования. Развитие личного опыта есть социокультурное развитие человека. Изменение качества личного опыта в целом, приведшее к возникновению новой степени самостоятельности человека, характеризуется как культура личности.



**Ключевые слова:** *образование, культура, культурная совместимость, философия культуры, социокультурное развитие.*


**M. H. Nazarov**
**Cultural relevance of education in the context of cultural philosophy**


**SUMMARY**

The article examines the basic philosophical concepts of culture and the educational models they create. Philosophy is a form of knowledge, a theoretical outlook, and an art of thought that is directly related to culture. Particular attention is paid to the philosophy of culture, which allows education to be organized in accordance with the socio-cultural development of a person, and thus creates an objective basis for the implementation of a competency-based approach in pedagogy. Ways to implement pedagogical activity on the basis of concepts that combine the principle of cultural diversity, as well as the relevant cultural dimension of education, which allows to present culture as a whole as a developing relationship. Based on the concept of the emergence and development of culture, the main criteria and indicators for measuring and assessing the cultural relevance of education are identified. The development of personal experience is the socio-cultural development of a person. The change in quality in personal experience as a whole, which led to the emergence of a new degree of human independence, is characterized as a culture of personality.



**Keywords:** *education, culture, cultural compatibility, philosophy of culture, socio-cultural development.*

UOT 1

# MÜASİR ELMİ-TEXNİKİ TƏRƏQQİ DÖVRÜNDƏ İNSANIN ÖZGƏLƏŞMƏSİ FAKTORU

**SEVİNC HUSEYNOVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin müəllimi*

*E-mail: sevinc101578@gmail.com*

Müasir sivilizasiyanın günbəgün artan yenilikləri insan psixikasının deformasiyaya məruz qalmasına şərait yaratdı. Dövrümüz özgələşmə hissinin güclənməsi ilə müşayiət olunmaqla yanaşı, özü ilə yeni təfəkkür və yeni inkişaf tempi gətirdi. Bu əsr bəşər tarixində misli görünməmiş ictimai qarşıdurmalarla, müharibələrlə, texnikinın hökmranlığı ilə xarakterizə olunur. Elm və texnologiyaya əsaslanan müasir dünyamız bir çox suallara cavab tapmağı vacib bilir. Müasir dövrdə özgələşmənin potensial mənbəyi və onu törədə biləcək şəraitin səbəbləri hansılardır? Bəşəriyyəti industriyaya tabe edən düşüncə nəyə xidmət edir? Humanizmin mərkəzində dayanan insan konsepsiyası nə dərəcədə özünü doğrultdu? İnsan dünyanın ən mükəmməl varlıgı hesab edilməklə ona verilən etimadı doğrulda bildimi? İnsanın idrak qabiliyyətləri və bəşəri mövqe möhkəmləndikcə mənəvi ruhi, psixoloji inkişafı enməyə, yaradıcı potensialı sönməyə başlayır. Bəşəriyyət tarixində elmi, texniki gücün yüksəlişi ilə insan probleminə daha cox diqqət yetirilir. Son əsrdə insanların sürətli elmi-texniki tərəqqiyə yiyələnməsinə baxmayaraq dünya üzərində, özü üzərində nəzarəti itirmək qorxusu yaşıyırla r. Filosofları narahat edən insan mahiyyətinin itirilməsi, nüvə müharibəsi qorxusu, bəşəriyyətin məhvi bu faktın bariz nümunəsidir. Hazırda elmi-texniki prosesə nəzarət problemi getdikcə aktuallaşır. **İnsanın sivilizasiyanın yeni sistemlərinə tabe olaraq varlığından uzaqlaşması filosoflar üçün araşdırma predmeti idi. K.Yaspersə görə, biz uzun müddətdir ki, insanın təbiət üzərində hökmranlığının nəticəsi olan texniki bir dünyada yaşayırıq.Texnologiya görünməmiş şəkildə sürətlə inkişaf edərək metatexnika səviyyəsinə (yapon filosofu T.İmamaciyə məxsus termin) qədəm qoyur.**

Bildiyimiz kimi, keçən əsrin 70-ci illərindən sonra dünyanın postindustrial cəmiyyətə qədəm qoyması və informasiyalı texnologiyalar dövrünə keçid alması ilə dünyanın təbii inkişafı qanunauyğunluqlarına müvafiq olaraq yeni sistemlər yarandı. Yeni sistemlərin yaranması ilə üzə çıxan texnologiyalarda və iqtisadi strukturların daxili mahiyyətində bir çox dəyişiliklər baş verdi. Şübhəsiz, mənəvi potensialın və əqli əməyin güclənməsi ilə əlaqədar cəmiyyətin görünən və görünməyən səviyyələrində ciddi keyfiyyət dəyişiklikləri yaranmalıydı. İnsan varlığının yaradıcı zəkaya və əmək qabiliyyətinə malik olması onun təbiətə əsrlər boyunca davam edən təsir gücünün artmasına səbəb oldu. Antropogen sivilizasiyaya malik cəmiyyətlərdə artıq insanlar arasında əlaqənin sosial münasibətlərinin xarakteri dəyişilir ..Texnikanın cəmiyyətə və insan həyatına təsir gücü bütün ictimai elmlərin, o cümlədən fəlsəfənin diqqət mərkəzindədir. Bu kontekstdə onun fəlsəfi aspektlərinin 21-ci əsrdə daha sistemli və əhatəli öyrənilməsi dünyagörüşü əhəmiyyətli məsələlərdən birinə çevrilmişdir. Bununla əlaqədar olaraq texnikanın və texnologiyanın əldə etdiyi nailiyyətlərin elmi biliklərin inkişaf etdirilməsinə təsiri müstəsnadır. 19-cu və 20-ci əsrlərdə qərb cəmiyyətində baş verən təkamül texnogen sivilizasiyalarda fundamental ziddiyyətlərin yaranmasına gətirib çıxarıb. Bu dövrdə maddi zənginliklər içərisində yaşayan insanların texniki sistemlərə tabe olaraq sadəcə onun funksiyasına çevrilməsi ilə cəmiyyətin texnogen sivilizasiyasının tələbləri əsasında yaşayan və özlərinin azadlıq fəaliyyət ilə fərqlənən insanlar arasında bir konflikt müşahidə olunmaqda idi. Elmi-texniki tərəqqinin nailiyyətlərinə böyük etimadla inanan alimlər zəkanın geniş imkanlarının yaratdıgı qeyri-rasionallıq və antihumanist faktlardan məyusluq hissini yaşayırlar. Hal-hazırda elmin tərəqqisi humanizmin təntənəsi və bəşəriyyətin yüksək dəyərlərə söykənəcəyi fikrinin özünü doğrultmadığı bir fakt olaraq qalmaqdadır.

Müasir dövr özü ilə misilsiz əzablar, mənəviyyata zidd insan fəaliyyətləri, totalitar rejimlər, əxlaqsızlıq, texnoloji əsarət əsri kimi nəzərdən keçirilir.Qeyd olunmalıdır ki, ictimai şüur formalarından biri olan elm və onun əldə etdiyi nailiyyətlər sosial həyatı kökündən dəyişdirdi. Elmi biliklər bəşəriyyətin gələcək inkişafını təhlükə altına almaqdadır. Yeni dövrdən başlayaraq alimlər hesab edirdilər ki, bütün gələcək problem və məsələlər elmi prinsiplərə söykənməlidir. Cəmiyyəti elmin nöqteyi nəzərindən çıxış edərək maarifləndirmək və yüksək dəyərlərə yiyələnmək ar-

zusu, təəssüflər olsun ki, özünü doğrultmadı. Müasir dövr həll olunması gərəkən fundamental problemlərin aradan qaldırılmasının gərəkdiyini vacib bilir. Müasir dövrdə texniki sivilizasiya ilə mənəvi mədəniyyət arasında, biliyin indiki səviyyəsi ilə əxlaqi şüur arasında yaranan ziddiyyət bunu deməyə əsas verir. Amma texnikanın inkişafı maddi sərvətlərin artması, hələ sosial, siyasi, iqtisadi sferada yaranan mənəvi problemlərin aradan qaldırılması demək deyil. Əməyin rasionallaşdırılmasının nəticəsi olaraq insan təkmil maşına çevrilir.Texniki şüur və onun dağıdıcı fəaliyyəti özgələşmə faktınının əsas səbəbkarlarından biridir.

XX əsrin inkişaf dinamikasına böyük ümidlə yanaşan alimlər onu elmin tərəqqisi, humanizmin və demokratiyanın qələbəsi əsri, bəşəriyyətin gələcək tərəqqisi və təbiətin kor-təbii qüvvələr üzərində daim artan qüdrət əsri adlandırırdılar. Halbuki, artıq XX əsrin ilk illərində alimlər qarşıdan gələn əsrin insanların getdikcə daha da vəhşiləşməsi, onların əxlaqsızlığının və prinsipsizliyinin artması əsri olacağını görərək məyusluq hissi keçirirdilər. Texnikanın insanı öz quluna çevirəcəyinə heç bir şübhə etməyən filosoflar insanın var-dövlət və bir-birini sonsuza qədər əvəz edən ləzzətlərin arxasınca getməsini əsrin ən ciddi məsələlərindən biri hesab edirdilər. Totalitar rejimlərin təsirinin artması və demokratik azadlıqların məhv edilməsi bəşəriyyəti fəlsəfi refleksiyaya ehtiyacı olmayan itaətkar fərdiyyətçi istehlakçılar sürüsünə çevirəcəyini bildirirdilər.

Müasir dövrün inkişaf dinamikasının bəşəriyyətə nə verdiyi haqqında mübahisələr dayanmır. Bəziləri həmin əsri inteqrasiya etməkdə olan bəşəriyyətin yeni qlobal dövrünün başlanğıcı adlandırırlar. Digərləri qeyd edirlər ki, XX əsr yer üzündə yaşayanların hamısına misilsiz əzablar gətirdi: iki dünya müharibəsi və bir çox lokal müharibələr milyonlarla insanı məhv etdi. Bundan başqa, soyqırım və ölüm düşərgələrini, atom bombalarını və s. də nəzərə almaq xüsusi olaraq lazımdır. Bir sözlə, XX əsrdən bu günə qədər olan əsrin tarixini birmənalı qiymətləndirmək mümkün deyil.

Təbii ki, əsrin təsvirində elmi biliyin, demək olar ki, bütün sahələrində böyük zirvələrə çatmış elmi ön plana çıxarmaq lazımdır. Kosmosu və elementar hissəcikləri, biosferi və genləri, bütövlükdə bəşəriyyəti və onun çoxsaylı mədəniyyətlərini öyrənərək, XX əsrin elmi hər yerdə bütün elmi bilikləri inqilabiləşdirmiş yeni kəşflər etdi. Onlarla yeni elmlər (kibernetika, ekologiya, gen mühəndisliyi, sinergetika və bir çox başqa elmlər) yaradılmışdır ki, onların da əhəmiyyəti hələ indi-indi açılmaqdadır. Müasir dövrün reallığı yalnız elmi biliyin inkışafı ilə əsasən də təbiətin və ya insan varlığının sirləri ilə deyil, hərbi-texniki işləmələrlə ayrılmaz şəkildə bağlıdır, buna görə də bu gün hərb sahəsində əldə edilən biliklər bir çox ölkələrin silah ehtiyatlarını artırmağa imkan yaratdı. Alman filosofu Qans Freyner yazır: "Bu gün insan kütlə maşın və bununla bağlı olan hər bir şey tərəfindən özgələşmişdir". Başqa sözlə, demək mümkünsə, insan kütlənin XX əsrdə silahlanma yarışı və müxtəlif növ hərbi blokların yaradılması kəskin qarşıdurmaya səbəb oldu. Zəmanəmizin ən mühüm və prioritet problemləri irəli sürmüşdür ki, onları da fəlsəfənin əbədi məsələsinin - həyatın mənası və insanın təyinatı məsələsinin yeni həlli ilə ayrılmaz şəkildə bağlı olan bəşəriyyətin sağ qalması problemi ilə birləşdirmək olar. Müasir insan öz seçimində azaddır, lakin o, həm də planetin gələcəyi və bütün bəşəriyyətin taleyinə görə məsuliyyətin tam ölçüsünü dərk etməlidir. Postindustrial nəzəriyyəçilərin (D.Bell, A.Etzfoni) qeyd etdiyi kimi, bu gün şəxsiyyətin qeyri-məhdud azadlığa can atmasında məhdudiyyətlərin olmaması ilə əlaqədar sosial strukturun parçalanması təhlükəsi mövcuddur [2 ].

“Manipulyativ intellekt” deyilən düşüncə tərzi formalaşaraq müasir dövrün əsas reallığına çevrilmişdir. Manipulyativ intellekt insanın məqsədləri üçün ətraf aləmi manipulyasiya etmək üçün düşüncədən istifadə etmək qabiliyyətidir. Zəkadan məhrum edilmiş manipulyativ intellekt təhlükəlidir, çünki o, insanları onlar üçün zəka nöqteyi-nəzərdən dağıdıcı ola biləcək şəkildə hərəkət etməyə məcbur edir..Böhran insan həyatının bütün sahələrinə təsir edir. Mədəniyyət texnologiyanın inkişafı ilə daha da genişlənərək yeni məzmun kəsb etdi. Lakin texnologiyanın mədəniyyətdə qələbəsi, bəşəriyyətin texniki dövrə daxil olması mədəniyyəti məhv olunmaq təhlükəsi qarşısında qoyur. Maşınlaşmanın meydana çıxmağı ilə insan əməyi maşınlarla əvəz olunmaga başladı. Əlbəttə ki, bu müsbət hal olsada maşın eyni zamanda öz qanunlarını da diqtə etməklə insanı yox etməyə calışır. Əməyin rasionallaşdırılmasının nəticəsi olaraq insan təkmil maşına çevrilir. Berdyayevin fikrincə, texnologiya ruha yiyələnmək, onu rasionallaşdırmaq və insanı avtomata çevirmək məqsədini güdür. Texnikanın insana verdiyi dəhşətli güc hissi müasir insanı dağıdıcı varlığa çeviribdir.

Qeyd edək ki, 20-ci əsrin bütün fəlsəfi cərəyanları bu və ya digər şəkildə insan -texnika probleminə toxunmağı vacib bilirdi. Onların təklif etdiyi yeni mövzu modelləri subyektin böhran vəziyyətindən və

insan itkisindən cıxmaq istəyindən irəli gəlirdi. Müasir insanın yaşadığı mühit əsasən texnologiyanın hökmranlığı ilə müəyyən olunur. Məhz buna görə də XX əsrin mədəniyyət fəlsəfəsinin yaratdıgı insan obrazı müasir mədəniyyətin ən mühüm xarakteristikasından biri olmaqla texnoloji inkişafdan irəli gələn bir sıra problemləri ehtiva edir. Bir sıra müəlliflər elmi-texniki tərəqqinin sırf müsbət qiymətləndirilməsinə yenidən baxmışlar.

XX əsrin ikinci yarısında insan informasiya əsrinə kecid almaqla yanaşı, qlobal iqtisadi və sosial-mədəni dəyişikliklərin qaçılmaz təsiri ilə üzləşdi. Təbii ki, əsrin təsvirində elmi biliyin, demək olar ki, bütün sahələrində böyük zirvələrə çatmış elmi ön plana çıxarmaq lazımdır. Kosmosu və elementar hissəcikləri, biosferi və genləri, bütövlükdə bəşəriyyəti və onun çoxsaylı mədəniyyətlərini öyrənərək, XX əsrin elmi hər yerdə inqilabi yeni kəşflər etdilər. Texnoloji determinizmin və texnokratiyanın tənqidçiləri haqlı olaraq texnologiyanın insanlara təsirinin qeyri müəyyənliyinə işarə edərək müasir texniki sivilizasiyanın, texnologiyanın rasional planlaşdırmanın humanist məqsəd və dəyərlərdən uzaqlaşmağa şərait yaratdığını bildirirlər.

Elm və texnologiyanın humanist çərçivədən uzaqlaşması ilə insanın intellektual qabiliyyətləri, yaradıcılıq və dərketmə qüvvəsi tükənir. İnsanın həyata dünyaya olan münasibəti öz bəşəri xarakterini itirir. Bir çox filosoflar müasir mədəniyyətin tənəzzülə doğru getdiyini sübut etməyə çalışırlar. Texniki tənqidçilər müasir insanın bəlalarını əsrin kütləviləşməsində, texniki tərəqqidə axtarırlar. Amerikan filosofu Barret insanın yaratmağa qabil bir varlıq olduğunu, lakin nəzarət etməyə qabil olmadıgı qənaətinə gəlir. Ekzistensialist filosoflar iddia edir ki ,cəmiyyətdə heçlik rolunu oynayan kütlə hakimliyə can atır. O, ruhilikdən, fərdilikdən uzaq bir varlıga çevrilir.

Deyilənlərdən belə nəticə çıxarmaq olar ki, insana verilmiş əqlin hansı formada istifadə olunması maraq doğuran məsələdir. Lakin təəssüflər olsun ki, , mədəniyyətin tərkib hissəsi olan elm cəmiyyətin dünyagörüşünün zənginləşməsi yolunda müsbət nəticələr vermədi. Elmin inkişaf dinamikasını izləyərkən insan mövcudluğunun mənzərəsini analiz etməklə biz elmi konseptual sistemlərdə boşluqların olması nəticəsinə gəlirik. Qloballaşma dövründə sosial-siyasi problemlərin kəskin xarakter daşıması ilə əlaqədar insanın kamilləşməsinin nə dərəcədə önəm daşımasına heç bir şübhə yoxdur.

Texnika, maşınlar aləmi insanı sürət formulasına tabe edərək onun hərəkət sürətini dağıdıcı və xaotik etməyə qadirdir. Filosofların fikrincə, azadlıq determinə olunmaqla mükəmməl reallıq yaradır. Lakin istər zəkanın, istər tərəqinin istərsə də, azadlığın limiti artıq məlum deyildir. Konfutsinin qızıl mərkəz anlayışının mənası itirilmiş, azadlığın və elmi fəaliyyətin ağlasığmaz oyunlarına meydan açılmışdır. Zəka və dərkedilməmiş azadlıq qorxusu insan mövcudluğunu ciddi şəkildə narahat etməyə başlayır. Texnika "mən" anlayışını "biz" anlayışı ilə əvəz edir. Maraqlı məsələlərdən biri bundan ibarətdir ki, texniki aparatın nəticəsi olaraq sərhədlərin bir-birinə qovuşması, mədəniyyətlərin ram edilməsi özəl, fərqli təkcə nə varsa, hamısını aradan qaldırmağa müyəssər olur. Fərdiliyin itirilməsi standart düşüncələr və meyarlar yaradır. Filosoflar, sosioloqlar, psixoloqlar bu problemə etinasız qalmayaraq dövrün gətirdiyi xaosun səbəbini araşdırmağa və təhlil etməyə çalışırlar. Məsələn, Xose Orteqa və Qasset müasir cəmiyyətin kütlə psixologiyasına hakim olmasını qabardaraq kütlənin içərisində şəxsiyyətin məhv olması və fərdiliyinin itirilməsi təhlükəsi ilə qarşılaşdıgını sübut edirdi. O, belə yazır: "Kütlə xüsusi dəyərdən məhrum olan çoxluqdur" (3).

Beləliklə, gördüyümüz kimi, insan və texnoloji tərəqqi probleminin mahiyyəti tarixən filosofların dıqqətini çəkmişdi. Ekzistensialistlər əmindirlər ki, mədəniyyət və elm özlərindən daha qorxulu bir gerçəkliyi texnikanı yaradır. İnsan və dünya arasında sistemin pozulması məhz texnika sayəsində baş verir. Texniki özgələşmə baş verir ki, bu da özünü sosial nəticələrin faciəli şəkil almasına səbəb olur. Texnikada bir anarxist qüvvə olduğunu iddia edərək bildirirdilər ki, müasir insanın ruhu texniki ruha yiyələnməklə, özü və bəşəriyyət ücün təklükə yaratmağa qadirdir. Məhz buna görə də nəzəri fikrin istiqamətini bu problemə yönəltməklə, onu fəlsəfənin ən ciddi məsələsi kimi öyrənməyi tövsiyə edirdilər. Texniki dünyagörüşün cəmiyyətin bir cox sahələrinə təsiri danılmazdır. Texnikanın sosial, siyasi, iqtisadi, mənəvi sahələrə göstərdiyi təsiretmə mexanizminin sayəsində cəmiyyətin bu və digər strukturlarında köklü dəyişikliklər baş verməkdədir. Sözsüz ki, bu dəyişilikılər heç də müsbət naliyyətlərin əldə olunması ilə nəticələnmir. Texnoloji şüur yeni baxış və qiymətləndirmə bacarığı tələb edir. Müasir cəmiyyətə xas olan dağıdıcılıq, acgözlük, hakimiyyət hərisliyi, dünyaya sahib olma hissi texnoloji şüurun əsas mənbəyinə çevrilməkdədir. Texnika "mütləq silahı" - atom silahını yaratmaq və hətta tətbiq etməklə bütün varlığı öz əsaslarından

məhv etməyə qadir olduğunu gəstərir; bu silah bütün varlıgın sonuna catmaq üçün real şans yaradır (4). Bir sözlə, sivilizasiyanın barbarlığa çevrilə bilməsi təhlükəsini özündə daşıyır. Alimlər hesab edirlər ki, texnika müasir dövrün əsas mahiyyətini təşkil edir. İnsan ondan ayrıla bilməz, cünki insanın fəaliyyəti texnika sayəsində tərəqqiyə nail olmağa yönəlir. Lakin, təəssüflər olsun ki, insanın tərəqqi ücün atdıgı addımlar onu və bəşəriyyəti inkişafa apara biləcək ugurlara deyil, bəşəriyyətin bədbəxtliyinə yol açır. Texnika insandan təbii olanı alır, əvəzində isə insana süni bir dünya bəxş edir. Xaydegger bununla bağlı yazır: “Texnika insanı daha cox torpaqdan ayırır və onu öz rişələrindən məhrum edir” (5). Ona görə də filosof texnikada insan mənəvi aləmi üçün təhlükə olduğunu iddia edirdi. Özgələşmə faktının mövcudlugunu mütəfəkkir məhz texnika ilə baglayırdı.

Texnoloji şüurun nöqsanlarını tədqiq edən ekzistensialist filosoflar hesab edirlər ki, texnika insan varlığını üzə çıxarmağa qadirdir. Belə ki, texnikanın mahiyyəti acıldıqca, insanın gizlin qalan varlıgı üzə cıxır. İnsanın varlığında olan gizlin məqsədlərin, niyyətlərin texnika vasitəsilə gerçəkləşməsinə şərait yaradır. Müasir təbiətşünaslığın ən fundamental və qabaqcıl sahələrindən biri olan fizika ilk baxışda bəşəriyyətın pozitiv inkişafının təşkilatçılarından biri kimi tanınır. Lakin bir çox fiziki düsturlarla tanış olduqdan sonra məlum olur ki, o, nəinki ümumbəşəri mənafelərə xidmət edirmış, həm də insanlığın, bəşəriyyətin gələcək inkişafını məhv edə bilər. Buna misal olaraq fizika elminin nəticəsi olan atom bombasının, hidrogen bombasının, nüvə raketlərinin və s .yaradılmasını göstərə bilərik. Əgər insanlar üçüncü dünya müharibəsinə başlanğıc versələr bəşəriyyətin məhv olmağı labüddür. Ona görə Xaydeqqer texnikanı deyil, insan dünyagörüşünü nəzərə almağı vacib bilirdi.

Biz M.Haydeggerin tezisini xarırlatmaq istərdik: dünyanın tamamilə texnikləşdirilmiş xarakter alması qorxulu deyil, qorxulu olan insanın dünyada bu dəyişikliyə hazır olmaması, “şeylərdən uzaqlaşma” münasibətində olmağı bacarmamasıdır”. İnsanlar isə, bir qayda olaraq, əşyalara sahib olmağa can atır, bu prosesdə özünü itirir, insan hisslərini və münasibətləri əşyalarla əvəz edir. Artıq bir çox təbiət elmlərinin ən son elmi nailiyyətlərinin nəticəsi olan elmi kəşflərin insani prinsiplərlə toqquşması hamıya məlumdur .

Bununla əlaqədar olaraq texnikanın və texnologiyanın əldə etdiyi nailiyyətlərin elmi biliklərin inkişaf etdirilməsinə təsiri müstəsnadır. 19-cu və 20-ci əsrlərdə qərb cəmiyyətində baş verən təkamül texnogen sivilizasiyalarda fundamental ziddiyyətlərin yaranmasına gətirib çıxarır. Bu dövrdə maddi zənginliklər içərisində yaşayan insanların texniki sistemlərə tabe olaraq sadəcə onun funksiyasına çevrilməsi ilə cəmiyyətin texnogen sivilizasiyasının tələbləri əsasında yaşayan və özlərinin azadlıq fəaliyyəti ilə fərqlənən insanlar arasında bir konflikt müşahidə olunmaqda idi. **Mədəniyyət, elm və texnika insanda yaradıcı enerjini məhv edir, onu yeni mədəni sərvətlər yaratmaq arzusundan məhrum edir. Müasir insanı daha yeni mədəni sərvət yaratmaq eşqi deyil, ancaq əşyalara sahib olmaq hissi maraqlandırır.**

Dövrün əsas tələbi olan elm ilə yaşamaq və cəmiyyəti idarə etmək, sözün həqiqi mənasında mötəbər anlam daşımadı. **Yaspers elmi idrakın prinsipinin tələblərini narahatçılıqla nəzərə alaraq belə yazırdı; “Elm insan mövcudluğunu, onun individuallığını itirir”** (6).

**Lakin maşın eyni zamanda öz qanunlarını da diqtə etməklə insanı yox etməyə çalışır. Təəssüflə qeyd etməliyik ki, təbiət qanunlarının sirlərini öyrənməyi idrakın əsas məqsədi hesab edən insan üçün müsbət nəticələrin əldə olunması deyil, təbiət üzərində hökmranlıq daha vacib meyara çevrilirdi. Bir sıra müəlliflər elmi-texniki tərəqqinin sırf müsbət qiymətləndirilməsinə yenidən baxmışlar. XX əsrin ikinci yarısında insan informasiya əsrinə keçid almaqla yanaşı, qlobal iqtisadi və sosial mədəni dəyişikliklərin qaçılmaz təsiri ilə üzləşdi. İnsan proleminə müasir yanaşmanın əsas tendensiyası bütöv inteqrasiya olunmuş insan konsepsiyasının axtarışıdır. A.Blokun təbirincə desək, XX əsr “dəmir dövr”üdür. Bu gün insan məkanı və zamanı fəth etmişdir. Bütün bunlar, sözsüz ki, bizim tərəfimizdən insan idrakının böyük fəthi kimi olduqca layiqincə qiymətləndirilir. Eyni zamada bu fəthin əks tərəfini də görməmək mümkün deyil. Üçüncü Dünya müharibəsi təhlükəsi bu gün kənara çəkılsə də hələlik onun tamamilə aradan qaldırılmağını hesab etməyə əsas yoxdur. XX əsrdə mahiyyət etibarilə totalitar ideologiyalar kifayət qədər uzun müddət siyasətin mənəvi əsasları kimi formalaşmış və fəaliyyət göstərmişdir. Buna planetimizin müxtəlif bölgələrində coxsaylı lokal müharibələr və münaqişələr, qanlı və amansız vətəndaş müharibələrini əlavə etmək olar. Qeyd etmək lazımdır ki, iqtisadi baxımdan kifayət qədər inkişaf etmış ölkələrdə həyat səviyyəsinin yüksək inkişaf etməsinə**

**baxmayaraq, mənəvi, ruhi sferada rifahın heç də ürəkaçan olmadığını görürük. Bunlara fakt olaraq narkomaniya, intiharlar, terror faktları, ailələrin dağılması misal ola bilər. Sözsüz ki, bu reallıqların mövcudluğu analoqu olmayan yeni təhlükələri yaradır. Müasir dövr bir tərəfdən, elmi-texniki tərəqqinin yüksək inkişafı, digər tərəfdən, mənəvi dəyərlərin itirilməsi ilə üz-üzədir. Bir çox filosoflar yaranmış vəziyyətin səbəblərini bu amillərlə bağlayırlar: kütlələr, bürokratik idarəetmə aparatı, texnika. Müasir dövrdə texnologiyanın sürətli inkişafı qərb sivilizasiyasının ümumi xarakterini müəyyən edən xüsusi amil olmuşdur. Texnologiya insanları texnoloji prosesin məntiqinə tabe edərək insanı onun bir vintinə cevirir. Texnika sayəsində məsafələr qısalaraq uzaq ölkələrin sakinlərini birləşdirmək imkanına malik olur. Lakin texnologiya eyni zamanda standart düşüncələrə də yol açır.**

XX əsrin fəlsəfəsi haqlı olaraq hesab edir ki, elm dünyanı dərk etmək üçün vacib, lakin yeganə yol hesab edilə bilməz. Bəşəriyyətə təkcə bilik deyil, həm də sosial rahatlıq şəxsi təhlükəsizlik və əxlaqi, mənəvi inkişaf vacibdir. Beləliklə, qloballaşma, elmi tərəqqinin nailiyyətləri bəşəriyyət ücün həll olunması vacib olan problemlər yaratmaqla insanı necə yaşamalı sualı ilə qarşı-qarşıya qoymuşdur. İ.Kant dünyada elm və sənət üçün insandan vacib bir predmet yoxdur deməklə, insan probleminin nə dərəcədə vacib olduğunu bildirirdi. Sözsüz ki, insan həyatının mənalandırılması, bəşəri varlığın xilası üçün fəlsəfə xüsusi bir dircəliş paradiqması verir. Fəlsəfə yeni ruhi qüvvə, yeni intellektual enerji mənbəyi rolunu oynayır. Qeyd edək ki, bəşəriyyətin total nihilizm mərhələsinə daxil olmasının aradan qaldırılması yeni ünsiyyət modelini tələb edir. Hesab edirik ki, insan və dünya arasında ünsiyyətin sağlamlaşdırılması yalnız fəlsəfəyə apelyasiya şəraitində mümkündür. Filosof T.Markuze "biz insana cevrildikmi?" deməklə müasir elmi-tərəqqi şəraitində insan mükəmməlliyinin itirilməsinə doğru gedildiyinə işarə edirdi. Bəşəriyyətin dirçəlişi insanın mənəvi aləminin yüksəlişi və humanist ideyalara sahib olması ilə bağlıdır. Gördüyümüz kimi, elm gerçəkliyi humanistcəsinə qavramaq mənasından hələ xeyli uzaqdır. Məhz buna görə də insanın və onun şüurunun dəyişdirilməsi günümüzdə diqqət yetirilən problemdir. Müasir dünyamızda mövcud bəlaların səbəbini aradan qaldırmaq üçün insanın özünüdərk hissinə yiyələnməsi olduqca vacibdir.

**Acar sözlər:** *elm, texnika, insan, özgələşmə, müasir dövr, cəmiyyət.*

## ƏDƏBİYYAT SİYAHISI


1. *И.И.Антонович. Современная философская антропология. Минск, 1970 с. 151.*
2. *Словарь антропологического перехода С.А Смирнов. Философские науки М 2005 .97-119*
3. *Хосе. Ортегга и Гассет. Восстание масс.1989 3-4 с,120,122.*
4. *Fərman İsmayılov. Secilmiş əsərləri, 5 cilddə 1 c. səh. 415.*
5. *Философия М.Хайдеггера и современность.М,1991, 417.*
6. *Типсина А.Н. Философия религии. К.Ясперса 1982, стр. 31.*



## SUMMARY

The dynamics of development of the modern era has brought with it a new way of thinking and a new pace of development. Scientists, who have great faith in the achievements of scientific and technological progress, are disappointed with the irrational and anihumanistic facts created by the vast possibilities of the intellect. Science, one of the forms of social consciousness, and its achievements have radically changed social life. Scientific knowledge leaves the future development of mankind in isolation. Scientific rationalization considers it important to eliminate the fundamental problems between man and society.



## РЕЗЮМЕ

Динамика развития современной эпохи принесла с собой новый образ мышления и новый темп развития. Ученые, глубоко верящие в достижения научно-технического прогресса, разочарованы иррациональными и антигуманными фактами, порожденными огромными возможностями интеллекта. Наука, одна из форм общественного сознания, и ее достижения коренным образом изменили общественную жизнь. Научное знание оставляет будущее развитие человечества в изоляции. Научная рационализация считает важным устранение фундаментальных проблем между человеком и обществом.

# MÜNDƏRİCAT

## SİYASİ ELMLƏR

VÜSALƏ ŞƏRİFOVA: QLOBALLAŞMA VƏ MƏDƏNİ İNTEQRASİYA ŞƏRAİTİNDƏ AZƏRBAYCANIN MİLLİ MƏDƏNİ İRSİNİN MÜHAFİZƏSİ. QEYRİ-MADDİ MƏDƏNİ İRSİN QORUNMASI PROBLEMLƏRİ.......... 5

ТАДЖИРА АБДУЛЛАЕВА: ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ВЫБОРОВ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ.......... 13

ГЮЛЬНАЗ ГАСАНОВА: ИНФОРМАЦИЯ В СОВРЕМЕННОМ МИРЕ: СУЩНОСТЬ, ЗНАЧЕНИЕ, ИСПОЛЬЗОВАНИЕ, ВЛИЯНИЕ.......... 19

НАРГИЗ МАМЕД-ЗАДЕ: ТЕРРИТОРИАЛЬНАЯ ЦЕЛОСТНОСТЬ АЗЕРБАЙДЖАНА В КОНТЕКСТЕ ОБРАЗОВАНИЯ СИСТЕМЫ МЕЖДУНАРОДНОЙ БЕЗОПАСНОСТИ.......... 24

AYNUR ALLAHVERDİYEVA: MÜASİR DÖVRDƏ AZƏRBAYCAN RESPUBLİKASI VƏ ALMANİYA FEDERATİV RESPUBLİKASI ARASINDA ENERJİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞIN ÜMUMİ XARAKTERİSTİKASI.......... 31

RASİM RZAXANOV: MİQRASİYAYA DAİR BEYNƏLXALQ HÜQUQ NORMALARININ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ.......... 35

LAMİYƏ AXUNDOVA: ENERJİ TƏHLÜKƏSİZLİYİ BEYNƏLXALQ TƏHLÜKƏSİZLİYİN TƏRKİB HİSSƏSİ KİMİ.......... 41

AYTƏN QURBANOVA: MÜNAQİŞƏLƏRƏ DAİR RASİONALİST (İNGİLİS MƏKTƏBİ) YANAŞMA.......... 46

## TARİX

SEVDA ŞƏRİFOVA: ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ SSRİ-NİN SÜQUTU ƏRƏFƏSİNDƏ AZƏRBAYCANIN NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TARİXİ PROSESLƏR.......... 51

ARZU XƏLİLZADƏ: AZƏRBAYCANDA KOSMİK SƏNAYENİN YARANMASI VƏ İNKİŞAFI.......... 56

SEVDA İSMAYILOVA: AZƏRBAYCAN SSR-DƏ SOVET HAKİMİYYƏTİNİN DİN SAHƏSİNDƏ APARDIĞI SİYASƏT VƏ ONUN MAHİYYƏTİ (1920-1930-CU İLLƏR).......... 61

SEVİNC QULUZADƏ: NAXÇIVAN XANLIĞININ TARİXİ COĞRAFİYASI.......... 65

AYGÜN İSMAYILOVA: KEÇMİŞ YUQOSLAVİYA ƏRAZİSİNDƏ ETNİK MÜNAQİŞƏLƏR.......... 70

## İQTİSADİYYAT

FAMİL RÜSTƏMOV: MÜASİR İQTİSADİ ŞƏRAİTDƏ AQRAR SAHƏDƏ RƏQƏMSALLAŞMANIN ƏSAS XÜSUSİYYƏTLƏRİ.................... 74

VÜQAR İBRAHİMLİ: AZƏRBAYCANDA YENİ İQTİSADİ RAYONLAŞMA VƏ REGİONAL İQTİSADİ POTENSİALIN FORMALAŞMASI REALLIQLARI.................... 84

САМИРА ГУСЕЙНОВА: АНАЛИЗ СОВРЕМЕННОГО СОСТОЯНИЯ АЛЬТЕРНАТИВНОЙ И ВОЗОБНОВЛЯЕМОЙ ЭНЕРГЕТИКИ В КАРАБАХСКОМ РЕГИОНЕ.................... 90

ƏLİ HƏSƏNOV: AZƏRBAYCANDA FOND BAZARININ PROBLEMLƏRİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ.................... 94

SABIRKHAN GULIYEV: “PERSPECTIVE DIRECTIONS OF INVESTMENT POLICY IN THE KARABAKH AND EAST ZANGEZUR ECONOMIC REGION”.................... 98

AĞAMURAD ABDULLAYEV: İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ QEYRİ-NEFT SEKTORUNUN FORMALAŞMASI İSTİQAMƏTİNDƏ GÖRÜLƏN SOSİAL-İQTİSADİ TƏDBİRLƏR.................... 103

AYİŞƏ QASIMOVA: SOSİAL İQTİSADİ İNKİŞAFIN İNFRASTRUKTURUNUN YENİDƏN QURULMASI.................... 108

BƏNDALI QƏNBƏROV: İNSAN RESURSLARININ İDARƏEDİLMƏSİNİN XARAKTERİSTİKALARI VƏ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİNƏ DAİR DÖVLƏT DƏSTƏYİNİN ƏHƏMİYYƏTİ.................... 112

CAVİD ABDULLAZADƏ: KORONAVİRUS (COVID-19) PANDEMİYASI ŞƏRAİTİNDƏ ÖLKƏNİN SOSİAL MÜDAFİƏ TƏDBİRLƏRİ.................... 116

ELÇİN NAĞIZADƏ: ÇEVİK (AGİLE) İDARƏETMƏNİN TƏTBİQ MEXANİZMLƏRİ VƏ METODOLOJİ ASPEKTLƏR.................... 121

ƏLİ HƏSƏNOV: KORONAVİRUS PANDEMİYASININ QİDA SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İSTEHSAL-SATIŞ FƏALİYYƏTİNƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ.................... 125

ƏLİ ŞİXƏLİYEV: AĞDAM RAYONUNUN SOSİAL-İQTİSADİ İNKİŞAF AMİLLƏRİNİN TƏHLİLİ 129

ƏLİHÜSEYN İBRAHİMOV: İŞĞALDAN AZAD EDİLMİŞ RAYONLARDA PEŞƏ TƏHSİLİNİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ.................... 134

NURİYYƏ ƏLİZADƏ: TƏŞKİLATLARDA MATERİAL AKTİVLƏRİNİN UÇOTU VƏ TƏHLİLİ METODLARININ QİYMƏTLƏNDİRİLMƏSİ.................... 139

ELLADA ƏLİYEVA: BANK MƏHSULLARI BAZARININ MARKETİNQİNİN İDARƏ EDİLMƏSİNİN NƏZƏRİ ƏSASLARI........................................................................................ 144

ERVİN QURBANLI: COVID-19 BÖHRANININ MALİYYƏ BAZARLARINA TƏSİRİ..................... 148

FƏRİD AĞAZADƏ: İŞĞALDAN AZAD EDİLMİŞ RAYONLARDA İQTİSADİYYATIN BƏRPASINA İNVESTİSİYA QOYULUŞUNUN TƏMİN EDİLMƏSİ İSTİQAMƏTLƏRİ.................. 152

KƏNAN SƏMƏDOV: XİDMƏT SFERASI MÜƏSSİSƏLƏRİNDƏ MÜHASİBAT UÇOTU SİSTEMLƏRİNİN XÜSUSİYYƏTİ VƏ TƏTBİQİ MƏSƏLƏLƏRİ....................................... 157

ƏSLİ XATUN MANAFLI: İŞĞALDAN AZAD OLUNMUŞ REGİONLARIN İNKİŞAFI ÜÇÜN TƏKLİF EDİLƏN LAYİHƏLƏR.............................................................................. 162

MƏHƏMMƏD MUXTAROV: 2020: DÜNYA BÖHRANI VƏ MALİYYƏ SABİTLİYİ....................... 167

MURAD MUSTAFAYEV: QARABAĞ İQTİSADİYYATININ BƏRPASI VƏ İNKİŞAFI PROSESİNDƏ YENİ İQTİSADİ RAYONLARIN YARADILMASININ ƏHƏMİYYƏTİ VƏ GƏLƏCƏKDƏ GƏTİRƏCƏYİ İQTİSADİ SƏMƏRƏNİN QİYMƏTLƏNDİRİLMƏSİ....................... 171

NƏRİMAN NƏRİMANOV: İQTİSADİ İNKİŞAFIN YENİ MƏRHƏLƏLƏRİNDƏ STRATEJİ İDARƏETMƏNİN MODELLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ......................................... 175

NİCAT MAHMUDZADƏ: İQTİSADİYYATIN DÖVLƏT BÖLMƏSİNİN İNKİŞAFININ TƏKAMÜLÜ: DAXİLİ VƏ XARİCİ TƏCRÜBƏ.......................................................... 179

NİGAR MƏMMƏDOVA: MİLLİ İQTİSADİYYATIN ŞAXƏLƏNDİRİLMƏSİNDƏ İXRACIN DİVERSİFİKASİYASININ ROLU........................................................................................ 184

ORXAN PƏNAH: LOGİSTİK İNFORMASİYA SİSTEMLƏRİNİN METODOLOGİYASI VƏ TƏDARÜK ZƏNCİRİNİN İDARƏ EDİLMƏSİ............................................................................... 188

RUSLAN DADAŞZADƏ: MALİYYƏ-VERGİ NƏZARƏTİNİN ZƏRURİLİYİ VƏ DÖVLƏT İDARƏETMƏSİNDƏ ROLU.......................................................................................... 192

SƏBİNƏ NƏZƏR: AZƏRBAYCANDA İNVESTİSİYA MÜHİTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ MƏRHƏLƏLƏRİ......................................................................................... 196

SƏRİYYƏ YUSİFOVA: AZƏRBAYCANDA YERLİ ÖZÜNÜİDARƏETMƏDƏ MÜASİR YANAŞMALAR VƏ KONSEPSİYALAR................................................................................ 200

SEYMUR ŞƏFİZADƏ: AZƏRBAYCANDA SOSİAL-İQTİSADİ İNKİŞAFIN TƏMİN EDİLMƏSNDƏ DÖVLƏT PROQRAMLARININ ROLU........................................................ 205

İLKİN ŞİRİNZADƏ: KORONAVİRUS PANDEMİYASI ŞƏRAİTİNDƏ DÖVLƏT MALİYYƏ NƏZARƏTİNİN VƏZİYYƏTİ........ 210

SÜLEYMAN SÜLEYMANOV: GÖMRÜK NƏZARƏTİNİN TƏŞKİLİNİN AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAFINA TƏSİRİ........ 215

ÜLKƏR PİRİYEVA: TİKİNTİ-SƏNAYE POTENSİALININ İNKİŞAFI VƏ ONUN GÜCLƏNDİRİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI........ 219

XƏDİCƏ KƏRİMLİ: THE IMPACT OF THE CORONAVIRUS PANDEMIC (COVID-19) CRISIS TO DEVELOPMENT ECONOMY OF AZERBAIJAN........ 224

## FƏLSƏFƏ VƏ SOSİOLOGİYA

MÜSLÜM NƏZƏROV: MƏDƏNİYYƏT FƏLSƏFƏSİ KONTEKSTİNDƏ TƏHSİLİN MƏDƏNİ UYĞUNLUĞU........ 229

SEVİNC HUSEYNOVA: MÜASİR ELMİ-TEXNİKİ TƏRƏQQİ DÖVRÜNDƏ İNSANIN ÖZGƏLƏŞMƏSİ FAKTORU........ 234

**Təsisçi:**
**“Kaspi MY” MMC**

**Korrektor:**
**Leyla Binyatova**

**Dizayner:**
**İman Hüseynov**

**Redaksiyanın ünvanı:**
**Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzi**
**Tel.: (+994 12) 537 16 05**
**Faks: (+994 12) 537 16 05**
**E-poçt: strategiya.az@mail.ru**

**Tiraj: 300**
**Sifariş №97**

**“PrintMe” nəşriyyatının**
**mətbəəsində çap olunub**

**Founder:**
**"Kaspi PD" MMC**

**Corrector:**
**Leyla Binyatova**

**Designer:**
**Iman Huseynov**

**Address of the editorial office:**
**Matbuat ave. 23M. International Press Centre**

**Tel: (+994 12) 537 16 05**
**Fax: (+994 12) 537 16 05**
**E-mail: strategiya.az@mail.ru**

**Number of copies printed: 300**
**Order № 97**

**Published by**
**"PrintMe" publishing house**